ZİYƏDDİN MƏHƏRRƏMOV

İRƏVAN ƏDƏBİ MÜHİTİ

(1800-1920-ci illər. Monoqrafiya)

BAKI – 2018

Bu kitabı dünyasını vaxtsız dəyişmiş valideyinlərimə ithaf edirəm

Elmi redaktou: **Allahverdi HACIYEV filologiya üzrə fəlsəfə doktoru, dossent, respublikanın əməkdar müəllimi**

Rəyçilər: **Teymur ƏHMƏDOV filologiya üzrə elmlər doktoru, professor**

Akif BAYRAMOV filalogiya elmləri doktoru, professor, respublikanın əməkdar müəllimi.

Ziyəddin Məhərrəmov. İrəvan ədəbi mühitiş. (Monoqrafiya) Bakı, 2018. ADPU-nəşriyyat. 296 səh.

Monoqrafiyada ilk dəfə olaraq İrəvan ədəbi mühiti geniş miqyasda əhatə olunmuşdur. Burada İrəvan ədəbi mühitində Azərbaycan xalq ədəbiyyatı və aşıq yaradıcılığı, milli mətbuatın yaranması və ideya istiqamətləri, peşəkar dram teatrının formalaşması və fəailiyyəti, Azərbaycan klassik ədəbi irsi erməni ədəbi qaynaqlarında, XIX əsrin axırı, XX əsrin əvvəllərində İrəvan ədəbi mühitini şərtləndirən tarixi şərait və ictimai–siyasi, mədəni amillər öz real əksini tapmışdır. Monoqrafiya ali məktəb tələbələri, magistrlar, müəllimlər və geniş elm ictimaiyyəti üçün nəzərdə tutulmuşdur.

MÜNDƏRİCAT

GİRİŞ.....4
IFƏSİL: XIX ƏSRİN AXIRLARI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN ƏDƏBİ MUHİTİNİ ŞƏRTLƏNDİRƏN TARİXİ ŞƏRAİT VƏ İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ AMİLLƏ.....14
1. Maarifcilik, ədəbi-ictimai fikrin yeni mərhələsi kimi.....28
2. İrəvanda məktəbdarlıq məsələləri.....43
3. "İrəvanilər" və İrəvan şairləri.....56
4. İrəvanda kitab nəşri.....87
II FƏSİL: İRƏVANDA MİLLİ MƏTBUATIN YARANMASI VƏ İDEYA İSTİQAMƏTLƏRİ.....108
1. Azərbaycan mətbuatının İrəvan ədəbi-mədəni mühitinə və ictimai fikrinə təsiri.....117
2. "Lək-lək" və "Bürhani-həqiqət" jurnallarının yaranması və ictimai-mədəni mübarizəsi.....128
3. İctimai-siyasi, ədəbi və mədəni mühitin ədəbi nəşrlərdə əks.....146
III FƏSİL: İRƏVAN MƏDƏNİ HƏYATINDA DİRCƏLİŞ: TEATR TRUPPALARININ VƏ PEŞƏKAR DRAM TEATRININ FƏALİYYƏTİ.....157
1. İrəvanda teatr truppaları və peşəkar dram teatrının yaranması.....157
2. İrəvanda XX əsrin əvvəllərində teatr tamaşaları.....172
IV FƏSİL: AZƏRBAYCAN KLASSİK ƏDƏBİ İRSİ ERMƏNİ ƏDƏBİ QAYNAQLARINDA.....180
1. Azərbaycan klassik ədəbi irsi erməni nəşrlərində.....180
2.Azərbaycan-erməni ədəbi əlaqələri.....189
V FƏSİL: AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI VƏ AŞIQ YARADICILIĞI.....210
1. Ədəbi mühitin folklor örtüyü və Göyçə mahalında formalaşan sənətkarlar.....214
2. Aşıq Ələsgər və onun yaradıcılıq ənənələrini davam etdirən "Ələsgər ocağı" sənətkarları.....224
NƏTİCƏ.....278

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.....285

GİRİŞ

Ədəbi mühit cəmiyyət həyatının mənəvi dünyasının məcmusunu təşkil edir. Bu mənəvi dünyanın özünüifadəsi bədii və publisistik əsərlər, mədəni-kütləvi tədbirlər, ədəbi yığıncaqlar, məclislər, dərnəklər və başqa incəsənət məsələlərini ifadə edən vasitələrlə həyata kecirilir. Maarifçilik və məktəbdarlıq işləri, kitab nəşri, teatr truppalarının yaradılması sahəsindəki fəaliyyət də, əsasən ədəbi mühitlə bağlıdır. Ədəbi mühit konkret məkan çərcivəsində xalqın milli-mədəni təfəkkür, düşüncə və dünyabaxışının ictimai-ədəbi ifadəsini özündə əks etdirən, daimi inkişafda olan canlı orqanizm, eyni zamanda xalqın ümummilli həyatının tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri, akademik Pamiz Mehdiyevin geniş rezonans doğurmuş "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı məqaləsi tədqiqata cəlb edilən məsələnin araşdırılması istiqamətində də tədqiqatcı qarşısında muhim vəzifələr qoymuşdur. Bu cəhətdən ədəbiyyatşunaslıq ədəbi-ictimai fikir durumumuzun hərtərəfli oyrənilməsinə diqqətlə yanaşmağı onəmli saymış, "yuksək dovlətcilik, vətənpərvərlik və milli-intellektual təəssubkeşlik baxımından bu sahədə olan əsas problemləri gostərmişdir" (134, 168).

Ədəbiyyatımızın tarixi, bir qayda olaraq, cərəyanlar, ədəbi məktəb və cəmiyyətlər, yaradıcı şəxsiyyətlər, ədəbi janrlar, metodlar, ədəbi əlaqələr və b. istiqamətlər üzrə araşdırılır. Tanınmış yaradıcı şəxsiyyətlərə həsr olunan elmi əsərlərdə söz ustalarının formalaşdığı konkret məkan və ədəbi iqlim barədə qiymətli fikirlər soylənilir. Lakin bu fikir və mülahizələr konkret sənətkarlara həsr olunduğundan tədqiqatçılar bütövlükdə ədəbi mühitin işıqlandırılmasını qarşısına məqsəd qoymur. Çünki, bu geniş mövzunun bir tədqiqat işində tam və incəliklərinə qədər öyrənilməsi mümkünsüzdür. Doğrudur, ədəbi

mühitin regional tədqiqinə həsr olunan araşdırmalar ilk baxışda daha əhatəli görünür, lakin zaman və məkan məhdudiyyəti onlarda da bütün sənət adamlarının fəaliyyətlərini hərtərəfli işıqlandırmağa imkan vermir. Söylədiyimiz elmi-ədəbi fakt İrəvan ədəbi mühiti ilə bağlı apardığımız tədqiqat işində də hiss olunur. Bununla yanaşı, maksimum konstruktiv və orijinal nəticələr əldə etməkdən ötrü problem konkret zaman və məkan daxilində ictimai-siyasi və sosial qayğılarla vəhdətdə nəzərdən keçirilir (39).

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatının ayrılmaz hissələrindən biri olmaqla, ictimai-siyasi və bədii fikir tarixində özünəməxsusluğu ilə seçilir. Müxtəlif dövrlərdə yaşamış qələm sahibi olan soydaşlarımızın yazıb-yaratdığı və bu günümüzədək gəlib çıxan ədəbi-bədii irsi: zəngin folklor nümunələrini özündə ehtiva edən ağız ədəbiyyatı, ozan-aşıq sənəti, yazılı klassik ədəbiyyat və digər daşüstü abidələr buraya daxildir.

Öz inkişafını və formalaşmasını min illər ərzində təmin edən Azərbaycan ədəbiyyatı xalqımızın elmi-bədii təfəkküründən əvəzsiz nümunələri ədəbi-bədii tutumu ilə bu gün də təkrarsızdır. Əlbəttə, bu dünya ədəbi-bədii fikir tarixinin sistemli qanunauyğunluğu, varisliyə əsaslanan davamlı ənənənin ümdə xüsusiyyətləri baxımından diqqəti cəlb edir. Elmi-texniki tərəqqinin, sivilizasiyanın geniş vüsət aldığı bir dövrdə yaşamağımıza baxmayaraq, ümumbəşəri dəyərlərdən bəhrələnmək yenə də antik dövrdən bu günədək fikir dühalarının yaratdığı mənəvi irsə daha qayğı ilə müraciət etməyi zərurətə çevirir.

İndiki zamanda Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına, daha da inkişaf etdirilməsinə tələbkarlıqla yanaşıldığı bir şəraitdə xalqımızın öz milli-mədəni irsinə, tarixi keçmişinə son dərəcə həssaslıq göstərməyi tələb edir. Bu nöqteyi-nəzərdən dünya xalqlarının təcrübəsindən istifadə etməyi , qloballaşma dövrünün səciyyəvi proseslərinə istinad etməklə

milli-mənəvi irsə sayğı ilə yanaşmaq Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi sayılan, tarixi ənənələrlə müasir yenilikləri özündə birləşdirən İrəvan xanlığı ərazisinin tarixi, ictimai-siyasi, mədəni və ədəbi mühitinin sistemli şəkildə araşdırılması elmi yanaşmadan da öncə milli-mənəvi ehtiyacdan, dədə-baba yaşayış məskənimiz, yurdumuz olan Qərbi Azərbaycan ərazisinin ermənilər tərəfindən mərhələ-mərhələ işğal edilməsi məsələlərinin mahiyyətini tarixi, ədəbi-bədii, ictimai-siyasi faktlar əsasında səciyyəsini vermək olduqca zəruridir.

İrəvan ədəbi mühiti ümumi Azərbaycan mədəniyyətinin mühüm və ən çox da ermənilərin heç bir əsası olmadan qədim Oğuz yurdunun əzəli və əbədi dədə-baba torpaqlarını, İrəvan xanlığının tarixi ərazilərindəki yaşayış məskənlərinin adlarının ermənileşdirməklə, guya bu torpaqların "həqiqi" sahibi olduqları barədə dünya ictimaiyyətində yanlış təsəvvür yaratdıqları indiki şəraitdə bu ədəbi mühitin tədqiq olunması böyük əhəmiyyət kəsb edən sahələrdən biridir.

Xalqımızın dünya mədəniyyəti xəzinəsində adları fəxrlə çəkilən çoxsaylı yazıçı, şair, publisist, alim və saz-söz sənətkarının həyatı, fəaliyyəti, ictimai-siyasi mübarizəsi, mədəniyyəti və yaradıcılıq inkişafı ədəbi mühit timsalında formalaşmışdır.

XIX əsrin birinci qərinəsinin mürəkkəb hadisələri şimallı-cənublu Azərbaycanın və Azərbaycan xalqının taleyində ağır məşəqqətlər, qırğınlar, talanlar, işğallar və köçürmələrlə xarekterizə olunması, Qafqazın, həmçinin ikiyə bölünən Azərbaycanın rus çarizmi tərəfindən işğalı və İrandan, Türkiyənin müxtəlif ərazilərindən köçürülən ermənilərin (Bax: 10; 205) Araz çayı sahillərində məskunlaşdırılması həyata keçirildiyi bir şəraitdə çarizmin yeritdiyi bu siyasətin nələrlə nəticələnəcəyini qabaqcadan qiymətləndirən ziyalıların öncül dəstəsinin nümayəndələri yetişməkdə idi.

Rusiyanın Zaqafqaziyada yeritdiyi siyasət Azərbaycan

xalqının mənəvi sarsıntıları ilə yanaşı, onun mədəni həyatında bir sıra diqqətəlayiq yeniliklərin yaranmasına da səbəb olmuşdu. Azərbaycanda realist ədəbiyyatın inkişafı, yeni tipli məktəblərin, gimnaziya, seminariya və teatrların açılması mədəni yeniliklərdəndir.

XIX əsrdə Zaqafqaziyada rus inqilabçı-demokratları ilə əlaqəsi olan yeni fikirli ziyalıların bütöv bir dəstəsi yetişmişdi. Ədəbi-ictimai fikrimiz Mirzə Fətəli Axundzadə realist ədəbi ənənələrinin davamı ilə, "Molla Nəsrəddin" ədəbi məktəbi ilə səciyyəvidir. Həmin dövrün xarakterik xüsusiyyəti "ədəbiyyatımızda yeni düşüncə tərzinin, milli realist - maarifçilik məfkurəsinin, eləcə də publisistikanın, mətbuatın milli taleyin, gerçəkliyin həqiqətləri kimi əks olunması" (132) idi. XX əsrin əvvəllərində müstəqil ideya-estetik konsepsiya formalaşdırmağa müvəffəq olan "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının adları ilə bağlı satirik və romantik ədəbiyyat məktəbləri milli mədəniyyət tariximizə bir sıra parlaq nümunələr bəxş etmək yolunda əvəzsiz rol oynamaqda idi (191, 4).

XX əsrin əvvəllərində müstəqil ideya-estetik konsepsiya formalaşdırmağa müvəffəq olan "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının adları ilə bağlı satirik və romantik ədəbiyyat məktəbləri milli mədəniyyət tariximizə bir sıra parlaq nümunələr bəxş etdi.

Dövrünün məfkürəvi aynası olan "Molla Nəsrəddin"lə "Füyuzat", Cəlil Məmmədquluzadə ilə Əli bəy Huseynzadə sovetlər dövründə qarşı-qarşıya qoyulur, bu iki mütəfəkkir əks ideya təbliğatçıları kimi təqdim və tənqin edilirdi. Əslində isə bu böyük sənətkarlar bir-birinin yaradıcılığı və şəxsiyyətini yüksək dəyərləndirirdi. Belə ki, C. Məmmədquluzadə Ə. Huseynzadəni "yazıçılıqda çox məharətli" bir şəxs, hətta "möhtərəm yazıçı" adlandırırdı. Əli bəy Huseynzadə isə öz növbəsində həm Mirzə Cəlil yaradıcılığının bütövlükdə, həm də onun nəşr etdiyi "Molla Nəsrəddin" jurnalının fəaliyyətinin o dövrün

sosial-iqtisadi, ədəbi-mədəni həyatında mövcud olan hər cür geriliyə, cəhalətə, fanatizmə qarşı mübarizədəki rolunu yüksək qiymətləndirir, tənqidin, rişxəndin, yumorun islahedici rolunu təsdiq edirdi. O, "Molla Nəsrəddin" və "Dəbistan" adlı məqaləsində yazırdı: "Molla Nəsrəddin"in izahlı məqalələri, lətifələri, həcvləri nigarişxanələrindən (rəsmi incəsənət əsərləri) geri qalmır, böyük bir hünər və istedad ilə yazıldığı aşkardır... Hər halda "Molla Nəsrəddin"in müdiri və "Molla Nəsrəddin"in müridi Cəlil Məmmədquluzadə cənablarını müvəffəqiyyətləri üçün təbrik və qəzetinin qiraətini bütün oxucularımıza tövsiyə edirəm" (14, 258). Bu misallardan aydın olur ki, hər iki muhərririn, hər iki jurnalın məramı xalqın mədəni yüksəlişi, intibahı, istiqlaliyyəti olmuşdur.

Əli bəy Hüseynzadənin redaktoru olduğu "Füyuzat" jurnalı və digər mətbuat orqanları, qəzet və jurnallar ictimai və fəlsəfi fikrin, habelə milli romantik bədii ədəbiyyatın yayılması sahəsində öz sözünü deməyə müvəffəq olsa da, dövrün ictimai-siyasi ziddiyyətlərini əks etdirən məsələlərin füyuzatcılar tərəfindən Peterburq, İstanbul, İrəvan, Kəlküttə, Tiflis və s. şəhərlərdə nəşr olunan ədəbi-bədii və ictimai yazıların araşdırılması ciddi elmi maraq doğururdu. Milli ictimai fikir tariximizdə təkanverici xidmətləri ilə seçilən, məşhur maarifçi-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə "Kaspi" mətbəəsində nəşr edilən "Füyuzat"ın 1906-1907-ci illər ərzində 32 nömrəsi işıq üzü görmüşdü. Jurnalın mahiyyəti barədə titulunda yazılırdı: "Ədəbi, fənni, siyasi, ictimai, müsəvvir, həftəlik türkcə məcmuəyi-islamiyyədir". Burada mövzu müxtəlifliyi, elmi-fənni yazılar, ədəbi-bədii və ictimai-siyasi məqalələrlə yanaşı, dünya ədəbiyyatından tərcumələrə, maarif, səhiyyə, tarix, coğrafiya, sosiologiya, psixologiya, fizika, arxeologiya, şərqşunaslıq, diplomatiya, ədəbiyyat nəzəriyyəsi, tənqid tarixi, dilçilik, musiqi, rəssamlıq və s. xüsusi əhəmiyyət verilirdi.

Cəmiyyətdə, qonşu ölkələrin ictimai-siyasi həyatında, ədəbi hərəkatımızda baş verən hadisələr, dramaturgiyanın üstünlüyü ələ alması milli məfkurəmizə və bədii-estetik təfəkkürumüzə yeni ovqat gətirmişdir. Ümumi Azərbaycan və Tiflis ədəbi mühitindəki günü-gündən artan yenilik meyilləri, demək olar ki, İrəvan və Naxçıvan ədəbi mühitlərində də açıq şəkildə özünü gostərməkdə idi. "Tiflis ədəbi mühiti öz əhəmiyyəti və zənginliyi ilə Azərbaycan ədəbiyyatşunaslarının diqqətini həmişə cəlb etmişdir. Onlar Tiflisdəki Azərbaycan ədəbi mühiti ilə bağlı çoxlu tədqiqat əsərləri yazmışlar (96, 157). "Tiflis ədəbi mühiti" ilə bağlı adları çəkilən elmi-tədqiqat əsərlərində İrəvan ədəbi mühiti ilə əlaqəsi olan məsələlərin qeyd olunmasına, qələm sahiblərinin yaradıcılığının ədəbi istiqamətlərinə yeri gəldikcə münasibətlərini bildirmişlər.

Azərbaycanın Abbasqulu ağa Bakıxanov Qüdsi, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, M.F.Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə xan Ləli, Sultanməcid Qənizadə, Xan qızı Natəvan, Firudin bəy Köçərli, Məhəmməd ağa Şahtaxtlı, Eynəli bəy Sultanov, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Huseyn Cavid, Salman Mümtaz, Abdulla Sur, Əli Nəzmi, Məmməd Səid Ordubadi və bu kimi bir çox yaradıcı qələm sahibləri, ictimai xadimlər yorulmadan xalqın iqtisadi, mədəni cəhətdən tərəqqisinə çalışırdılar.

İrəvan ədəbi mühiti ümumi Azərbaycan ədəbi mühitinin aparıcı qollarından biri olmaqla bu və ya digər ədəbi simaların yaradıcılığı timsalında, həmcinin Göyçə aşıq mühitinin müxtəlif dövrlərinin "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları", "XX əsr Göyçə aşıq mühiti (1920 - 1950-ci illər)", "Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları", "İrəvanda Azərbaycan ədəbi mühiti (1920 - 1950-ci illər)" və digər mövzularda elmi monoqrafiyalar yazılmış, namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Bütöv Azərbaycanı əhatə edən ayrı-

ayrı regionların tədqiqindən əldə olunan nəticələrin ümumiləşdirilməsi və önəmli cəhətlərin nəzərə alınması şərti ilə dövrün ictimai-bədii və mədəni inkişaf səviyyəsi haqda qənaətləndirici fikirlər söylənilmişdir.

XIX əsrin ilk onilliklərindən başlamış XX əsrin iyirminci illərinədək olan müddətdə ictimai-bədii təfəkkürün xarakterik xüsusiyyətlərini özündə kifayət qədər əks etdirən regionlardan biri İrəvan ictimai-siyasi, mədəni və ədəbi mühitidir. İrəvanın quberniya mərkəzi olması səbəbindən ədəbi mühitin burada formalaşması və bu yeni mühitin milli özünüdərk prosesini istiqlal mübarizəsi səviyyəsinə qaldırmaqda xüsusi rol oynamışdır. Bu keyfiyyət ədəbi-bədii tariximizin araşdırıcılarının da diqqətini cəlb emişdir. Maarifçilik fəaliyyəti bilavasitə İrəvanla bağlı olan Firudin bəy Köçərli 1926-cı ildə çap olunan iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda İrəvanda ədəbi mühit barədə kifayət qədər məlumat vermişdir (109, 219). Dövrün ictimai-siyasi hadisələri, ermənilərin xalqımızın başına açdığı amansız vəhşiliklər barədə tarixi faktlara söykənən həqiqətlər bir çox araşdırmada öz əksini tapmışdır. Adları qeyd olunan dissertasiyalarda əhatə edilən dövrün ictimai-siyasi hadisələri, ermənilərin xalqımızın başına açdığı amansız vəhşiliklər barədə tarixi faktlara söykənən həqiqətlər araşdırmalarda öz əksini tapmış və bu tədqiqatda da yeri gəldikcə diqqətə çatdırılır.

İrəvan ədəbi mühitindən söhbət açanda təbii, ekoloji, iqtisadi, demoqrafik, mədəni, mənəvi, siyasi, elmi, ədəbi atmosfer başa düşülür, ədəbi mühit bütövlükdə bu atmosferin tərkib hissəsi olmaqla, cəmiyyət həyatının mənəvi dünyasının məcmusudur (39, 9). Bu mənəvi dünyanın qorunub saxlanması, gələcək nəsillərə çatdırılması bədii və publisistik əsərlər, ədəbi yığıncaqlar, məclislər, dərnəklər və daha önəmli vasitələrlə həyata keçir. Məktəbdarlıq və maarifçilik sahəsində həyata keçirilən işlər də ədəbi mühitə bilavasitə aiddir. Ədəbi mühit

müəyyən konkret zaman və məkan çərçivəsində xalqın milli-mədəni təfəkkür, düşüncə və dünyabaxışının ictimai-bədii ifadəsini özündə əks etdirir.

Monoqrafiyada XIX-XX əsrlərin əvvəllərində İrəvan ədəbi mühiti, predmetini isə bu mühiti formalaşdıran və inkişaf etdirən qələm sahiblərinin həyat və yaradıcılıqlarının araşdırılıb ümumiləşdirilir. Bu dövr çərçivəsində tarixi və milli zəmində baş vermiş hadisələri ehtiva edən bədii əsərlərdən Monoqrafiyada ümumilikdə aşağıda qeyd edilən məsələlər əhatə olunmuşdur.

–İrəvan mühitində maarifçilik ideyalarının meydana gəlməsi və onun inkişafını şərtləndirən tarixi, ədəbi-mədəni aspektləri müqayisəli təhlil etmək, İrəvan xanlığı ərazisində maarifçiliyin demokratik dəyərlərinin ümumi Azərbaycan maarifçiliyi ilə birgə inkişafını əsas vəzifə kimi nəzərdə saxlamaq;

–Azərbaycanda maarifçilik ideyalarının İrəvan mühitinə təsir mərhələlərinə diqqət yetirmək;

–İrəvan xanlığının qədim və əzəli türk–oğuz ellərinə məxsus olduğunu dünya tarixçilərinin, alimlərinin və səyyahlarının əsərlərində verilən faktlar əsasında təsdiqlənməsi;

–1800-1920-ci illər arasında baş vermiş ictimai-siyasi hadisələrin törətdiyi fəsadları, ermənilərin Azərbaycan elminə, incəsənətinə, mədəniyyətinə, tarixi memarlıq abidələrinə vurduğu amansız zərbələri təkzibolunmaz faktlar əsasında qaynaqlardan araşdırmaya cəlb etmək, milli münasibətlərin kəskinləşməsində əsas səbəbləri üzə çıxarmaq, mühitin üzləşdiyi problemlərin yaratdığı sosial-iqtisadi və mənəvi çətinlikləri xarakterizə etmək;

– İrəvan xanlığının tarixi özünəməxsusluğunun ədəbi mühit kontekstində görkəmli sənət adamlarının həyat və yaradıcılığı timsalında araşdırılması;

–Məktəbdarlıq, kitab nəşri, maarifçilik, rəssamlıq, teatr

truppalarının yaradılması, mətbuatın inkişaf etdirilməsi sahəsində vaxtı ilə həyata keçirilən, keçən əsrlərin Qafqazla bağlı mətbu orqanlarında öz əksini tapan, lakin dövrün ictimai-siyasi qadağaları baxımından araşdırılmayan, yalnız və yalnız arxiv sənədlərində yatıb qalan maraqlı məlumatların üzə çıxarılması;

–İctimai-siyasi və ədəbi tarixə nəzər yetirməklə İrəvan ədəbi mühitində yazıb-yaradan şair və yazıçıların fərdi yaradıcılıq keyfiyyətlərinin üzə çıxarılması və şərhi.

Dövrün ictimai-siyasi hadisələrinin bilavasitə iştirakçısı olmuş, İrəvan xanlığında dünyaya göz açmış, lakin zamanın siyasi olaylarından başqa ölkələrdə yaşamaqla öz vətənini nisbələrində yaşadan məşhur "İrəvanilər"in, aşıqların, el şairlərinin, elm, maarif, teatr sahəsində çalışan demokratik ruhlu ziyalıların elmi-ədəbi fəaliyyəti İrəvan ədəbi mühitini formalaşdıran tarixi şərait və mədəni-siyasi amillər, maarifçilik və məktəbdarlıq, kitab nəşri, milli mətbuatın yaranması və onun ideya istiqamətləri, Azərbaycan klassik ədəbi irsi erməni ədəbi qaynaqlarında, Azərbaycan erməni ədəbi əlaqələrinin öyrənilməsi də ilk dəfə bu tədqiqat işində geniş həllini tapmışdır.

Azərbaycanın böyük dövlətlərin geosiyasi maraqları üzündən salınmış olduğu mövcud durumdan xilas olması üçün ədəbi-bədii mübarizədə əllərindən gələni əsirgəməyən mütəfəkkirlərin, Tiflisdə və İrəvanda fəaliyyət gostərən "Molla Nəsrəddinçilər"in, o cümlədən ilk yazılı mətbuat abidəsi kimi, İrəvanda işıq üzü görən "Lək-lək", "Bürhani-həqiqət" jurnalları ətrafında toplaşanların yaradıcılıqları, tərcümeyi - halları, RSDF (b) P Bakı Komitəsinin orqanı "Sosial-demokrat" (1917-ci il aprel-avqust aylarındakı nömrələri), Tiflis və Qafqaz Ölkə Komitəsinin orqanı "Banvori kriv" (1917-ci il iyulun 29-dan 1918-ci il fevralın 9-dək çıxan 98 nömrəsi), "Hümmət", "Yoldaş", İrəvanda çıxan ilk marksist qəzet "Nor kyank", İrəvan Azərbaycan ziyalılarının Milli Şurası tərəfindən nəşr edilən

“Cavanlar şurası” (1920) və Azərbaycan mətbuatının demokratik xarakter daşıyan qəzet və jurnallarında çıxan mövzu ilə ilgili bir çox məqalələrə də ilk dəfə geniş şəkildə burada müraciət olunur. Bəzi müəlliflər digər; Qarabağ, Tiflis, Borçalı, Şamaxı, Naxçıvan və s. mühitlərini araşdırarkən İrəvan ədəbi mühiti də nəzər diqqətinə çəkilib (Bax: 111, 112, 211, 213).

İrəvan ədəbi mühitinin öyrənilməsində İ.Abbaslı, C.Allahverdiyev, Ə.Axundov, İ.Ələsgərov, M.Seyidovun tədqiqatları da ayrıca qeyd edilməlidir. Bundan başqa ayrı-ayrı namizədlik dissertasiyalarının tədqiqat obyektini də məhz İrəvan ədəbi mühiti təşkil etmişdir (Bax: 2, 5, 7, 67, 176, 177 və s.).

Qeyd edək ki, İrəvan ədəbi mühitindən bəhs edənlər; Ə.Vəkil “Azərbaycan–erməni teatr əlaqələri”, M. Seyidov “Azərbaycan-Erməni ədəbi əlaqələri” və “Sayat-Nova”, K. Tarverdiyeva “Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında”, H. Həşimli “Əli Məhzun və “Ədəbiyyata dair əsəri”, İ. Abbasov “Azərbaycan folkloru XIX əsr erməni mənbələrində”, İ.Məmmədov “İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən ufuqləri” və “İrəvan dəftəri.Teatr tariximizdən səhifələr”, B. Avılov “Göyçə və Göyçəlilər”, Ə. Zeynalov “İrəvan ziyalıları”, S. Rizayev “Yerevanlı Ə. Yunis Nuri”, S. Rzayev “Ermənistanda Azərbaycan teatrı” İ.Rəhimli “Azərbaycan Teatr Tarixi” və “İrəvan Dövlət Azərbaycan Dram Teatrı”, Q. Namazov “Aşıqlar”, Z. Məhərrəmov “XX əsr Göyçə aşıq mühiti”, E. Mehrəliyev “İrəvanilər”, H. İsmayılov “Göyçə aşıqları və el şairləri” və “Oğuz yurdun övladları”, Ə. Ələkbərlinin “Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları”, “Qərbi Azərbaycan”, “Qərbi Azərbaycan abidələri” . “Vedibasar mahalı” və s. kitablarında bu və ya digər dərəcədə araşdırmaya cəlb etmişlər (Bax: 2, 14, 63, 64, 65, 66,90, 97, 98, 128, 129, 139, 142, 153, 165, 166, 167, 168, 169, 176, 177, 178, 190, 195 və s.).

I FƏSİL
XIX əsrin axırları və XX əsrin əvvəllərində (1800-1920-ci illər) İrəvan ədəbi mühitini formalaşdıran tarixi şərait və mədəni-siyasi amillər

Hər hansı ölkənin tarixən kimin Vətəni olmasını sübut edən bir sıra dəlillər vardır. Bu amilləri çoxları həmin ərazilərdə gedən tarixi proseslərin kimin həyatında getməsi ilə, bəziləri həmin ərazilərdə yayılan coğrafi adların saxlanması ilə sübut edirlər. Bunların hər ikisi mühim əhəmiyyətə malik olan faktorlar kimi diqqəti cəlb edir. Daha doğrusu, o amillər ki, dəyişkəndir və dəyişdirilə biləndir, onlardan əldə edilən nəticələri əks tərəf bəzən qəbul etməyə bilər. Çünki hər hansı qəsbkar zəbt etdiyi ərazidə yer adlarını tez surətdə dəyişdirib, o yerləri "özününkü" edə bilər. Və ya özünün intellektual və texniki vasitələrindən istifadə edərək onları dəyişdirib, köhnə tarixlə nəşr edib buraxmaqla, son dövrlərin coğrafi adlarının əsassız olduğunu "sübut etməyə" cəhd göstərirlər. Beləliklə, indiki yer adlarının dəyişdirilməsinin mümkünlüyü nəzərdə tutulan məqsədi poza bilər. Ona görə də bu və ya digər ərazinin kimin olmasını sübut etmək üçün dəyişdirilməsi mümkün olmayan elə tarixi faktlardan istifadə etmək lazımdır ki, onu dəyişdirmək və özününkuləşdirmək mümkun olmasın. Belə bir fakt həmin yerdən çıxmış alimlər və dövlət xadimləridir ki, onlar vətənlərini özlərinə soyad (nisbə, məkanı təxəllüs) kimi qəbul etmələridir. Bu qədim Azərbaycan torpağı İrəvandır. İrəvanda tarixən yaşamış oğuz türklərinin soyadlarını əbədiləşdirən övladları haqqında xeyli məlumatlar vardır. Bu barədə onlarla kitablar, kitabça və məqalələr yazılmışdır. Yüksək sosial yetişkənliyi olan şüurlu, əqidəli insanlar doğulduqları vətəninin adını özünun adında, soyadında yaşadır. Bu cəhətdən vətəndə yaşayanlar özlərinin doğulduğu, bəzən də yaşayıb-yaratdığı yaşayış məntəqəsini və ya ölkəni özünə nisbə (məkanı

təxəllüs) götürürlər.

İrəvan xanlığı ərazisində yaşayıb-yaratmış "İrəvani" nisbəlilər elə böyük alimlər olmuşlar ki, İrəvani nisbəsi deyil, onun öz dövrü üçün mühim olan başqa bir şəhərdən (və ya əyalətdən) çıxan şəxs özünə həmin yeri nisbə götürmüşdür. Bu adamlar da öz vətənlərinin əzəli Azərbaycan torpaqları olmasını sübut edən bir fakt kimi özlərinə nisbə, "təxəllüs" seçmişlər [122, 188]. İrəvan şairlərindən Aşüfftə İrəvani, Aşub İrəvani, Ceşmə İrəvani, Hiccət İrəvani, Dəlil İrəvani, Fəxri İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani və bu kimi şairlərin İrəvanın vəsfinə dair gözəl şeirlər yazmış, tarixin yaddaşına bədii nümunələr kimi nəqş etmişlər. İrəvan xanlığı ərazisində müxtəlif vaxtlarda fasilələrlə dağıdıcı müharibələr baş versə də, elm və mədəniyyət davam etmiş, bu xanlığın ərazisində tarixin yaddaşına çevrilmiş saysız-hesabsz maddi-mədəniyyət, memarlıq və incəsənət abidələri: məscidlər, türbələr, epiqraf abidələr, qoç heykəlləri, təsviri və dekorativ tətbiqi sənət nümunələri olmuş və bu nümunələr İrəvandakı Əlyazmalar İnstitutunda - Matenadaranda saxlanılan yüzlərlə əlyazma İrəvan xanlığının mövcud olduğu dövrə aiddir. Maddi-mədəniyyət abidələri, habelə incəsənət, maarif və ədəbi mühit haqqında, folklor örtüyü , aşıq sənəti və s. haqqında kifayət qədər məlumat əldə etmək imkanı yaradır [106, 76]. Burada təhsil sistemi barədə ən dolğun məlumatı İ.Şopenin "Erməni vilayətinin Rusiyaya birləşməsi dövrunun tarixi yaddaşı"nda [106] verilmişdir. İrəvanda yüzlərlə memarlıq və incəsənət abidəsinin, xalq-dekorativ sənət nümunələrinin olması İrəvan ədəbi mühitini şərtləndirən tarixi amillərdir. XIX əsrin axırları və XX yüzilliyin əvvəlləri bütövlükdə Azərbaycan ədəbi-bədii fikri, elmi-nəzəri düşüncəsi, maarif və mədəniyyəti tarixində çox əlamətdar, çox əhəmiyyətli bir mərhələyə, milli oyanışa geniş imkanlar açdı. İndiki Ermənistanın paytaxtı İrəvan şəhərində də azərbaycanlılar yeni dövrun bəxş etdiyi bu

imkanlardan, açdığı bu qapıdan mümkun qədər faydalanmağa nail oldular. Azərbaycan içtimai fikir tarixinin ümumi axarından ayrılmadan XIX əsrin sonuna yaxın burada kitab nəşrinə başlandı, XX yüzilliyin əvvəllərində ana dilimizdə məcmuələr işıq üzü gördü. Beləliklə, maarif və mədəniyyət, mətbuat burada ictimai fikir xəzinəmizdən rişələnərək ümumi Azərbaycan ənənələri zəmnində boy atırdı. Danılmaz bir gerçəklik də budur ki, qonşu xalqın mədəniyyəti və mətbuatı ilə ülfətdə olmaq, yerli şəraitdən doğan tələb və təkliflər, çətinliklər də bu inkişafa, bu irəliləyişə müəyyən düzəlişlər etməyə bilməzdi. Burada xalqın maariflənməsi yolunu məşəl kimi işıqlandıran yetgin xadimlər hələ yetişməmişdi Əsirlər boyu əldən-ələ keçən ölkədə mədəniyyətin tərəqqisinə qayğı göstərilmədiyindən içtimai fikrin inkişaf prosesi xeyli ləngimişdir. Hakim quruluş cəhaləti, nadanlığı daha çox qoruyurdu. Mətbuat ləvazimatı çatışmırdi, mütəxəssis yoxluğundan bu işlərin təşkilinə heç kəs girişmirdi. Müsəlman ailələrinə də nüfüz edən xurafat mətbuata, maarifə doğru gedən yolları bağlamışdı [128, 9]. Bakıda, Tiflisdə olduğu kimi, İrəvanda da ictimai-ədəbi mühitin nümayəndələri xalqın düçar olduğu acnacaqli halı, mənəvi-əxlaqi geriləmələri görür, xalqın savadlanması üçün yollar axtarırdılar. İrəvan gimnaziyasının müəllimi Məhəmməd Vəli Qəmərlinski müdrik sözləri xalqdan toplayaraq "Atalar sözü" kitabını 1899-cu ildə, İrəvada, Edison mətbəəsində nəşr etdirmişdir.

İrəvanda yetişmiş şairlər, maarifpərvər ziyalılar; Məşədi İsmsyıl Hacı Kazımzadə "Bəzmi", Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov "Mütəlle", Hacı Seyid Əmirzadə, Hacı Seyid Əmirzadə "Sabir", Mirzə Əlixan Şəmsül-hükəma "Ləli" Mirbabayevlər, Qazıyevlər, Məmmədzadələr, Bağırbəyovlar Erevanskilər, Topcubaşovlar və bu kimi mövqe sahibi olan görkəmli ziyalılar maarif və mədəniyyətin ən çox inkişaf etmiş mərkəzlərində müçtəhidlər yetişdirmişlər. Yaradıcı

ziyalıların ictimai-mədəni həyatın, xalq həyatının təsvirinə həsr olunan əsər-ləri, İrəvanda məktəb məsələlərinə, kitab nəşrinə böyük diqqət yetirmələri ədəbi mü-hit haqqında tarixi şəraitin olduğundan, siyasi amillərin mövcudluğundan xəbər verir.

İrəvan şəhəri hələ Qaraqoyunluların və Ağqoyunluların hökmranlığı dövründən Çuxur Səd vilayətinin inzibati mərkəzi olmuşdur. "İrəvan xanlığının tarixinə qısa bir nəzər saldığımızda görürük ki, bu xanlıq İran və Osmanlı dövlətləri arasında döyüş meydanına çevrilən, gah şahlığın, gah da sultanlığın bayrağını başı üstünə qaldırmaqla İrəvan xanlığı, düz dord yüz il həm öz statusunu, həm də burada yaşayan insanların da əmin-amanlığını qoruyub saxlamışdır. Xanlığın əsas əhalisi Azərbaycan türkləri idi və bu torpaqlar da tarixən onlara məxsus olmuşdu. Türklərdən başqa burada ermənilər, kürdlər, aysorilər, farslar, ərəblər və digər azsaylı millətlərin də nümayəndələri gün-güzəran keçirmişlər. İrəvan xanlığı yaradılan zamandan (1410) Pir Huseyn Əmir Sədi xandan başlamış, ta Huseynqulu xana və qardaşı Həsən xana qədər (1828) xanlıq taxtında əyləşən 49 nəfər xanın hamısı Azərbaycan türkləri olmuşdur ki, bu da bir daha İrəvan xanlığının ərazisinin əsl sahiblərinin Azərbaycan türklərinin olduğunun sübutudur. Azərbaycanın sosial-iqtisadi tarixi ilə bağlı olan sənədlərin Türkiyə kimi böyük dövlətlərin arxivlərində saxlandığını nəzərə alan akademik Ziya Bunyadov İstanbuldakı Başbakanlıq Arxivində saxlanılan iki "mufəssəl dəftərin" - 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" və "Naxçıvan sancağının müfəssəl dəftəri"nin mikrofilmlərini əldə etmişdir. 1984 –cü ildə başlanan bu nəcib işin bəhrəsi olaraq, Şirindil Alışanlının naşirliyi ilə (Bakı, Sabah, 1997) 336 səhifəlik "Naxçıvan sancağının müfəssəl dəftəri" kitabı tərcümə və nəşr edilərək ictimaiyyətə təqdim edilmişdir. Naxçıvan sancağının 14 nahiyədən və 315 yaşayış məntəqəsindən ibarət olduğu, bu nahiyələrdə vəqflərin illik gəliri, xərclərin həcmi və gəlirlərə

görə nisbətlər faizlə göstərilmişdir (Tarixi ədəbiyyatda Naxçıvanın Osmanlı imperiyasının tərkibinə daxil olması 1724-cü il kimi qəbul olunub). Adı keçən kitabda "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən nümunələrə də yer verilmişdir. Müxtəlif zamanlarda köçürmələr, hakimiyyət, ərazilərin dəyişdirilərək başqa inzibatı vahidlərə aid edilməsini nəzərə alsaq, bu prosesin İrəvan xanlığında da getdiyini demək mümkündür.

Həmin dövrlərdə İrəvan xanlığında bir sultanlıq və on beş mahal olmuşdur. Bu mahallarda irili-xırdalı 2300 yaşayış məntəqəsinin 1500-dən çoxunda büsbütün Azərbaycan türkləri yaşayırdı. Burada da vəqflərin illik gəliri, xərclərin həcmi və gəlirlərə görə nisbətlər faizlə göstərilmişdir. "Müfəssəl dəftər"də akademik S.S.Cikityanın türk mənşəli erməni soyadları haqqında tarixi aspektdə işlənilməyən məqaləsi (155, 21) də öz əksini tapmışdı. 1828-ci ildə xanlıqda 310 erməni məskəni vardı ki, bu da xanlıqda yaşayan Azərbaycan türklərinin cəmi 25 faizini təşkil edirdi. Bir yanı Naxçıvan, Qarabağ, Gəncə xanlıqlarına, Qazax və Şəmşəddin sultanlıqlarına, o biri yanı İran və Osmanlı dövlətlərinə söykənən, başı Çıldır, ayağı Ağrı dağına qədər uzanan İrəvan xanlığı ta XVIII əsrin əvvəllərinə qədər coğrafi, tarixi və etnik müxtəlifliyi baxımından belə idi. XIX əsrin əvvəllərində isə, İrəvan xanlığının üstünu Şimaldan gələn qara buludlar almağa başlamışdı. Əslində, bu durumun ilkin nəticələri I Pyotrun Xəzər dənizinin qərb sahillərini işğal etdiyi və isti dənizlərə yol açmaq üçün Qafqazı fəth etmək çağırışları günlərindən görünməyə başlanmış erməni yepiskopu İsrail Qrinin xahişi ilə o, işğal etdiyi Bakıya və Dərbəndə xeyli erməni köçürülməsi ilə yanaşı ermənilərin, Rusiya hökuməti tərəfindən himayə edilməsinə də xüsusi fərman verilmişdir. I Pyotrun vəsiyyətlərinə dönmədən əməl edən, İstanbula sahib çıxmaq və "İsti dənizlərə" - Hind okeanına yol açmaq ehtirası ilə alışıb-yanan Rusiya XIX əsrin ilk illərində Gürcüstanı,

sonra isə Gəncə, Qarabağ, Şəki, Şirvan, Lənkəran xanlıqlarını istila edərək Azərbaycanın böyük bir hissəsinə yiyələndi, Naxçıvan, İrəvan xanlıqlarını da ələ keçirmək üçün fürsət gözləyirdi. Bu fursət, Rusiyanın əlinə düz 14 il sonra – İran şahzadəsi Abbas Mirzənin ruslar tərəfindən ilhaq edilən Azərbaycan torpaqlarını geri qaytarması həvəsindən sonra düşdü. 50 minlik ordu ilə əks hüçuma keçən ruslar İrəvan, Naxçıvan, Ərdəbil, Xoy ərazilərini də işğal edib, Təbrizə qədəm basanda İran şahı Rusiya ilə sülhə gəlməyə məcbur oldu. Bu zaman rusların işğal etdiyi ərazilərdən, xüsusən də İrəvan və Naxçıvan xanlıqlarından 240 min əhali, özü də rus istibdadına boyun əyməyən və rus təbəəliyini özlərinə təhqir sayan varlı təbəqə İrana və Türkiyəyə köç elədi. İrəvanın bir neçə mahalı, xüsusən də Sərdarabad, Qərin, Zəngibasar, Şərur mahalları büsbütün boşaldı. Boşalmış ərazilərdə dərhal İrandan və Türkiyədən qaçan kürdlər və ermənilər məskunlaşdılar. Nəhayət, Azərbaycanın Araz çayının şimalında və Xəzər dənizi sahillərində olan torpaqlarının Rusiya tərəfindən işğalını "de fakto" və "de yure" təsdiq edən "Turmkənçay" müqaviləsi imzalandı.

Müqavilədə öz əksini tapan bir neçə şərtlə yanaşı, hər iki dövlət – İran və Rusiya dövlətləri, İrandan və Türkiyədən Rusiyaya, Azərbaycandan isə İran və Türkiyəyə köçən müsəlmanarın yerləşdirilməsini öz üzərinə götürdü. Həmin müqaviləyə əsasən, çox az bir vaxtda İrandan 40 minə qədər, Türkiyədən isə 80 mindən çox erməni İrəvan quberniyasına və Gəncə quberniyasının dağlıq ərazilərinə köçürüldü. Bundan sonra çar Rusiyasının 1828-ci ildə 21 mart tarixli fərman ilə İrəvan quberniyası ərazisində erməni mahalı yaradıldı.

...Həmin vur-haydan, köçhaköçdən, Vedibasar mahalı az da olsa, o zaman yan keçmişdir. Bunun da əsl səbəbkarı o zamanlar böyük hörmət və nufüz sahibi Mahmud ağa və onun oğlu Şərəf bəy olmuşdur. Mahmud ağa başqa bəylərə və

xanzadələrə qoşularaq İrana köç etməmiş, əksinə, Göyçəli Vəli ağadan nümunə götürərək oğlu Şərəf bəyi özünə layiq sovqatlarla İrəvana – Qədim Azərbaycan şəhərini özünə qərargah edən və adını tarix səhifəsinə "Paskevic-İrəvanski" kimi yazdıran rus generalının hüzuruna göndərmişdir. Şərəf bəy generala layiqli hədiyyələr verdikdən sonra, rus təbəəliyini qəbul edərək, bəylik xanədanlığının mal-mülkünü qorumuş, azərbaycanlılar yaşayan kəndlərin də İrana köç etməsinin qarşısını almışdır. Bu nəslin şəcərə rişələrindən məşhur "Hacılar nəsli" törəmiş və onlardan ömrü mübarizələrdə və doğma xalqına sədaqətlə xidmətdə keçən Eyyub ağa və onun oğlu Maqsud Hacıyev olmuşdur" [125,16].

İrəvan xanlığı ərazisinə səfər etmiş fransız səyyahları Jan Batist Taverniyen (1655), Jan Şarden (1665) və digər Avropa səyyahları öz yol qeydlərində İrəvan qalasından, burada yaşayan [60-273] əhalinin milli mənsubiyyətindən söhbət açmışdır [194, 6]. Səyyahlardan biri şəhər qalasında 800 evin olmasını və orada yalnız müsəlmanların yaşadığını yazmışdır. Lakin XVII əsrin 70-ci illərində zəlzələ nəticəsində yerləyeksan olmuş İrəvan Təbrizdən gələn Azərbaycan vəziri Mirzə İbrahimin rəhbərliyi ilə yenidən tikildi. Şəhər dircəldi, əhali bərpa olunmuş evlərə qayıtmağa başladı" [185, 101]. XVIII əsrin ortalarında İrəvan xanlığının yaradıldığı, əsasının Mir Mehdi xan tərəfindən qoyulduğu, ərazisinin Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşdiyi və naiblər tərəfindən idarə olunan on beş mahalı əhatə etdiyi, İrəvan şəhərinin bu xanlığın mərkəzi olduğunu və aborigen əhalisinin hamısını türklərin təşkil etdiyini tarixi fakt kimi göstərilmişdir.

XVIII əsrin sonlarında Huseynəli xan və onun oğlu Məhəmməd xan dövründə memar Mirzə Cəfərin sarayda apardığı yeni tikinti işləri aparmış, onu daha baxımlı etmək üçün memarlığın mövcud imkanlarından baçarıqla istifadə etmişdi.

...XVIII əsrdə üzaqgörən siyasətçi Quba xanı Fətəli xanın Azərbaycanı vahid dövlət kimi birləşdirmək uğrunda inadkar mübarizəsi baş tutmadı. Bu xalqın xanlıqları arasında Avropanın, xüsusilə Rusiyanın soyuq külәkləri cövlan edirdi. Özünu imperiya elan etmiş Rusiyada bu dövlətin siyasi strategiyasını əks etdirən I Pyotrun "Vəsiyyət-namə"si yazılmış, beyinləri şiəlik təriqəti ilə zəhərlənmiş fars feodalları Azərbaycanın varlığı ilə hec cür hesablaşmaq istəmir. Nəticədə formal bir müharibədən sonra XIX əsrin əvvəllərində Azərbaycan ikiyə bölündü, həm coğrafi, həm də dövlət müstəqilliyini itirdi. Milli dövlət yaranana qədər müstəqilliyimiz, milli varlığımız laylaların, bayatıların umidinə qaldı, muğamın ürəkparçalayan hüçrələrində daldalandı, həsrətlə, gizli-gizli Araza göz yaşı axıtdı [185, 100]. Hələ 1896-cı ildə Dərbəndi ələ keçirən Rus qoşunları bir neçə istiqamətdə Zaqafqaziyada hərəkəta başlayaraq, ilk növbədə, Gürcüstanı Rusiyanın tabeliyinə qəbul etdi. Təəssüf ki, Quba xanı Fətəli xanın xanlıqların vahid dövlət kimi birləşdirmək barədəki üzaqgörən, inadkar mübarizəsi o dövrdə kifayət qədər gücü olan Azərbaycan xanlıqları "mənəmlik" iddiasından yurdu yağıya qurban etdi. Xanlardan yalnız ikisi – Gəncə xanı Cavad xan və İrəvan xanı Huseynqulu xan axıra qədər ruslara qarşı müqavimət göstərib, mərdliklə vuruşdular.

Gəncə yaxınlığında "Kurəkçay" müqaviləsinin (1805) imzalanması, bu müqaviləyə görə Qarabağ xanlığının Rusiyanın tabeliyinə keçirilməsi, Naxçıvan xanlığının tərkibində olan Meğri nahiyəsi istisna olmaqla Zəngəzurun böyük bir hissəsinin Rusiyanın tabeliyinə verilməsi, 1806-cı ildən etibarən Rusiya-İran müharibəsinin yenidən qızışması, rus generalı P. Kotlyarevskinin qoşunlarının İran şahzadəsi Abbas Mirzəni məğlub etməsi, Şəki, Şirvan və Talış xanlıqlarını tutması, 1813-cü ilin yanvarında Lənkəran qalasının süqut etməsi, nəhayət, Qarabağın Gülüstan kəndində Rusiya və İran

arasında ikinci sülh müqaviləsinin “Gülüstan” sülh müqaviləsinin (1813-cü il 12oktyabr) bağlanması ilə Azərbaycanın iki imperiya arasında bölüşdürülməsinin əsası qoyuldu… Ruslar tərəfindən həlledici hüçumlar İran qoşunlarını geriyə çəkilməyə məcbur etdi. Ən qanlı hücumlar isə İrəvan xanlığı ərazisində gedirdi. İrəvan sərdarı Məmmədqulu xan və onun qardaşı Həsən xan qəhrəmanlıqla müqavimət göstərirdilər. General Paskeviçin komandanlıq etdiyi çar ordusu hissələrinin 1827-ci il martın 13-də Eçmiədzinə daxil olması, həmin ilin iyunun 7-də Naxçıvanı tutması, iyulun 7-də Abbasabad qalasının süqut etməsi, İrəvan sərdarı Hüseynqulu xanın müqavimət göstərməsinə baxmayaraq, 1827-ci il sentyabrın 20-də Sərdarabad qalası, oktyabrın 1-də isə İrəvan qalası [114, 387] xaç yürüşünün [33] sonuncu qurbanı oldu. Bu vəziyyət haqqında S.N.Qlinka “Azərbaycanda məskunlaşan ermənilərin Rusiya hüdudlarına köçürülməsi barədə” əsərinin əvvəlində geniş şərh verərək yazmışdır: “Paskeviçin gələcəyi görmə qabiliyyəti yenə də özünü göstərdi. Lazerevin Təbrizin komendantı təyin olunması xəbəri yayılan kimi dərhal Azərbaycan vilayətinin bütün xanlıqlarından ermənilər Təbrizə tələsdilər. Onlar Lazerevə deyirdilər: “Siz bizim qohumumuzsunuz. Bizim əvəzimizə mərhəmətli və böyük ümumrusiya imperatorundan xahiş edin. Deyin: “Biz özümüz Nikolayın hörmətli himayəsi altına keçirik. Biz onun çiçəklənən dövlətinin himayəsində yaşamağa və ölməyə şadıq” [114].

Bütün dövrlərdə tarixi sənədlərdə Azərbaycanla iqtisadi və mənəvi əlaqələri ilə sıx bağlı olan İrəvan azərbaycanlıların əzəli yaşayış məskəni kimi qeyd edilmişdir. İrəvanı həmişə azərbaycanlılar idarə etmiş, şəhərin qoçuları da azərbaycanlılar olmuşdur. Rusların köməkliyi və dəstəyi ilə İrəvan Yerevan olandan sonra ermənilər əl-qol açmış, özlərini şəhərin sahibi kimi aparmağa başlamışlar. Son deportasiyaya-dək Ermənistan adlanan ərazinin əksər bölgələrində tarixən daimi yaşayan

azərbaycanlılardan əlavə, İrəvan xanlığındakı müxtəlif yaşayış məskənlərində doğulan, boya-başa çatanların çoxu Azərbaycanın əksər rayonlarında, habelə Sovetlər ittifaqının bir sıra şəhərlərində məcburi zərurət üzündən məskunlaşmışlar. İrəvan ədəbi mühiti adı altında gedən söhbət həm də bu respublikanın ayrı-ayrı ərazilərində yaşamış və İrəvan mənşəli şəxsiyyətlərin ədəbi-bədii fəaliyyətini də nəzərdə tutur.

İrəvan xanlığının adı çəkiləndə Gərnibasar, Göyçə, Dərəçiçək, Dərələyəz, Ağbaba mahalları – saz-söz sənətinin aparıcı ocaqları, "ana sazımızın beşiyi, bədii sözümüzün çağlayan çeşməsi yada duşur" [132, 3] [57, 3]. Adı çəkilən bu ərazilər indi ermənileşdirilmişdir. Bu, yaşayış məskənləri, yer, çay, dağ adları, məscid, məhəllə və bağ adları coğrafiyaçıların, siyasətçilərin yaddaşlarında Qarabağ məsələsinin həllinə yönəldilən aktual söhbətlərdə, bir də bu adların, yerlərin həsrətini çəkən ixtiyar qocaların söhbətində yaşayır.

Erməni tarixçisi M.Vartanyan 1914-cü ildə Cenevrədə çap olunan "Erməni hərəkatının tarixi" monoqrafiyasında qeyd edir ki, "Türkiyə ermənilərinə rus ermənilərinə görə erməni mədəniyyəti, dili, tarixi və ədəbiyyatı baxımından çox güclü və sərbəst idi. XIX əsrin əvvəllərində ermənilik bir millət olaraq hələ Avropada bilinmirdi. ... Milliyyətsiz, sərsəri kimi tanıyırdılar." Ermənilər haqqında çoxsaylı müəlliflərin danılmaz tarixi faktlara əsaslanan fikirlərinə istinad etsək, onların Azərbaycan torpağına əsasən, Qars ərazisindən 1797-ci ildə köç etdiyi aydınlaşır. 1813-cü ildən sonra rus sərkərdələri tərəfindən İranda Rusiyanın səfiri olan A. S. Qriboyedovun köməyi ilə ermənilər İranın Loristan vilayətindən Azərbaycanın geniş ərazisinə - Zəngəzura, Qarabağa, Vedibasara, Dərələyəzə, Zəngibasara, Göyçə mahalına köçürülmüş və nəticədə milli tərkib dəyişilmişdir [92, 12]. Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi ilə əlaqədar həyata keçirilən, siyasətdə müstəsna rol oynayan Rusiyanın İrandakı səfiri

Aleksandr Qriboyedov yazırdı: “Ermənilərin böyük qismini müsəlman mülkədarlarının torpaqlarında yerləşdirdik. Bu torpaqların sahibi olan müsəlmanların əksəriyyəti yaylaqlarda olduqlarına görə, gəlmələrlə onlar arasında hadisələr az baş verirdi, onlar (ermənilər) öz narahatlıqlarını bildirən müsəlmanarı da sıxışdırırdılar. Biz müsəlmanlara çox təsir etməyə calışırdıq ki, indiki vəziyyətlə barışsınlar. Hətta biz onlara bildirirdik ki, ermənilər bu ərazidə çox qalmayacaqlar. Amma onlar təlaş içində deyirdilər ki, ermənilər bu torpaqları həmişəlik ələ keçirəcəklər” [205, 387]. Çarın siyasətini unutmayan A. Qriboyedov müsəlmanarın narahatçılığını da yaxşı başa düşürdü. Rus qoşunlarının 1827-ci ilin 1 oktyabrında İrəvanı çətinliklə zəbt etdikdən sonra bədnam Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığı Rusiyaya birləşdiriləndə azlıq təşkil edən ermənilər də azərbaycanlılarla dinc əməkdaşlıq şəraitində yaşamışlar. Azərbaycan torpaqlarına, azərbaycanlıların daha sıx yaşadıqları ərazilərə ermənilərin kütləvi şəkildə köçürülməsi hər şeyi təsdiq edir. 1826-1828-ci illərdə müharibədən keçən iki il ərzində İran və Türkiyə ermənileri Yelizavetpol (Gəncə) və İrəvanın ən yaxşı torpaqlarında, Göyçə gölünün sahillərində, Vedibasar mahalında və sair yerlərdə sistemli köçürülərək məskunlaşdırılması həyata keçirilmişdir [173-64]. Köçürülmə və nəzərdə tutulmayan xərclər üçün onlara 14.000 çervon qızıl və 400 rubl gümüş verilmişdir. Lazarev (milliyətcə ermənidir) Rusiyaya 40.000 nəfər yeni təbəə köçürmüşdür [205, 92]. Paskeviçin vaxtında ermənileri dəvət etmək üçün polkovnik Lazarev İrana göndərilmişdir. Ərzurumdan olan Karapet adlı bir keşiş özü ilə 70.000 erməni gətirmişdir... Müsəlman dövlətlərindən Rusiyaya ermənilərin köçürülməsi fasiləsiz olaraq davam etdirilmişdir [206, 87]. İrəvan xanlığının süqutundan sonra yerli kübar azərbaycanlı ailələrinin bir hissəsi doğma yerlərini tərk etmiş, həmin dövrdə İrəvanda doğma yurd-yuvasını tərk edən ailələri nəzərə

almasaq, azərbaycanlılar 1807 ailə, ermənilər isə 567 ailə olmuşdur, burada 4 xan, 41 bəy - azərbaycanlı ailəsi, 50 axund və molla, 8 məlik erməni ailəsi, 13 keşiş yaşamışdır.

İrəvan xanlığını azərbaycanlı xanların təkbaşına idarə etdiyini tarixi fakt olaraq erməni alimləri özləri də etiraf etmişlər. İrəvan xanlığı Azərbaycanın on səkkiz xanlığından biri kimi 438 il yaşamışdır (sonradan "oğru" ermənilər bu tarixi faktın izini itirmək məqsədilə şəhəri Yerevan adlandırmışlar). Ermənistan Respublikasının ensiklopediyasında (III c, s, 571) verilən məlumatda göstərilir ki, İrəvanı 438 il azərbaycanlı xanlar idarə etmişlər. Erməni tarixçisi Hovanes Şahxatunyan tam dəqiq xronologiya tərtib etmiş və orada göstərmişdir ki, azərbaycanlı hakimlər 1390-cı ildən başlayaraq 1828-ci ilə qədər İrəvan bölgəsində hökmran [53, 571] olmuşlar. Şahxatunyan araşdırmalarında bu hakimlərin adlarını və hakimiyyətdə olduqları illəri ardıcıllıqla əks etdirmişdir. Bu siyahıda 49 nəfər xanın adını qeyd etmiş, əvvəlinci xan Əmir Səd (1390-1410), sonuncular isə (1806-1827) Huseyn xan və Həsən xan qardaşları olmuşdur. Təəssüf ki, "...1827-ci ildən etibarən rus generallarının başçılıq etdiyi qoşunlar həlledici döyüşdə qalib gəldiyindən çar hökuməti İrəvan xanlığını ləğv etmişdi. Xaricdə yaşayan ermənilərin mərhələ-mərhələ İrəvan xanlığı ərazisinə köçürülmələrinə başlanmışdır. Qana və özgə torpaqlarına susamış vandal ermənilər Azərbaycana qarşı mənfur siyasətlərini iyriminci yüzillik boyu [96, 115], indinin özündə də davam etdirməkdədirlər [163].

Türkiyə və İranın Rusiya ilə dəfələrlə olan müharibələri zamanı Rusiyanın bu iki müsəlman ölkələrlə həmsərhəd olan ərazilərini ələ keçirib özü üçün müdafiə bazası yaratdı. 1812-ci ildə Rusiya-Türkiyə müharibəsi zamanı ermənilər Türkiyənin məğlub olması, Krımın zəbt edilməsi işində Rusiya hökumətinə və onun qoşun hissələrinə hər cəhətdən ən yaxından kömək etmişlər. Ermənilərin sədaqətlə xidmət edəcək millət olduğuna

əminliyi yəqin edən Rusiya dövləti 1804-1813, 1826 -1828-ci illərdə İranla apardığı müharibələrdə qələbə əldə etdi və Qafqazda böyük torpaqlar ələ kecirdi. Fürsəti əldən verməyən Rusiya İrəvan və Naxçıvan xanlıqları torpaqlarından qovulmuş azərbaycanlıların torpaqlarında İrandan (40 min) və Türkiyədən (90 min) gətirdiyi ermənіləri yerləşdirmişdir [189, 93].

Ermənistanda rəhbər vəzifələrdə işləmiş, erməni psixologiyasına, erməni məkrinə və şərinə yaxından bələd olan görkəmli siyasi və ictimai xadim Talıb Musayev "Ermənilər və faciələrimiz" kitabında oxuçu və tədqiqatçı üçün maraq doğuran faktları təfərrüatı ilə qələmə almışdır. Gözümüzun qabağında dünyaya indiki Ermənistanın və Qarabağın guya onların ulu babalarının yurdu olduğunu əsassız olaraq bəyan edirlər. Qəbul olunmuş şərtlərə əməl edən ağsaqqallar köçürülüb -gətirilən ermənіləri Araz çayından aralıda yerləşən Xorvirab kilsəsi ətrafında yox, Araz cayından 20-25 km aralı olan Vedi rayonunun ən az məhsuldar, nisbətən su qıtlığı çəkən daşlı-qumlu bir dağın dibində - Dəvəli, Reyhanlı və İlan dağın döşündəki Zincirli kəndlərində, Cəhənnəm dərənin başında Çanaxçı, Qaşqa, Keşişverən kəndlərində yerləşdirilmişdir. Arazdan daha çox aralıda yerləşən 8 azərbaycanlı kəndinə Qəmərli rayonunda ermənilər məskunlaşdırılmışdı [146, 18]. İrəvan ətrafında olduğu kimi, Göyçə gölü ətrafı da əhalinin gəlmələrlə ən çox yerləşdiyi zonalardan biri olmuşdur. 1919-cu ilə kimi bu ərazidə 110-a qədər kənd olmuş, bir çoxu ermənilərin mənfur siyasətinin nəticəsi olaraq ölü kəndlərə çevrilmişdir. Göyçə gölünün ətrafında yerləşdirilən ermənilər Qamışlı (Basarkeçər), Qırxbulaq, Aşağı Zağalı, Gödəkbulaq, Alçalı, Kolanı qırılan, Alqırıq, Avdalağalı, Zolaxaç, Qaranlıq, Yuxarı Qaranlıq, Gözəldərə, Tab, Güzəcik, Dəliqardaş, Yeni düz, Başkənd, Kəvər, Ördəkli və başqa kəndləri gölün cənubunda məskunlaşdırılmışdır. Azərbaycanlılar yaşayan 60-dan çox kəndin əhalisinin böyük hissəsi 1918 - 1919-cu illərdə ermənilər tərə-

findən qırılmışdır. Xanlığın başqa ərazilərini təfsilatı ilə qeyd etməsək də, təkcə Göyçə mahalı ərazisində Bığlı, Çamırlı, Aşağı Alçalı, Yanıq, Atdaşı, Qızıl Xaraba, Ağzıbir, Ağqala, Ocaqçı və digər kəndlərin azərbaycanlı əhalisini ermənilər, demək olar, məhv etmişdilər [156, 21]. Soyqırıma məruz qalan azərbaycanlılar əsrlərlə qoruyub-saxladığı maddi-mənəvi, dini dəyərlərini, ədəbi-bədii mühitini, adət-ənənəsini, çoxsaylı yaradıcı adamlarını itirmişdir" [96].

Azərbaycanın tarixi torpaqlarında gözü olan Rusiya və İran Azərbaycan ərazisini döyüş meydanına çevirərək, qonşu xalqları birləşməyə qoymamaq üçün etnik birliklərə parçalamaq işini çox ustalıqla təşkil etmiş, xalqın müxtəlif təbəqələrini bir-birindən ayrı salıb vuruşdurmaq, Azərbaycanın müxtəlif ərazilərində bütövlükdə götürdukdə törədilən qırğınlar, qətliamlar, deportasiyalar, köçürmələr, türk mənşəli əhalinin yurd - yuvalarından didərgin salınması I Pyotr, Qanlı Nikolay, Qansız Stalin, özünu Bakı komissarı kimi tanıdan S. Şaumyan və Daşnak Mikoyan tərəfindən plan - proqramları cızılan, qərarları verilən, yerinə yetirilməsinə bilavasitə təşkilatçılıq edilən, ardıcıl və sistemli şəkildə yeridilən mənfur siyasətinin, bu siyasətin M. Qorbaçov hakimiyyəti dövründə çox məharətlə həyata keçirilən son nəticələri danılmaz faktdır.

Zaqafqaziya Seyminin dağılmasından sonra Qədim Azərbaycan şəhəri İrəvanın siyasi mərkəz kimi ermənilərə verilməsi haqqında Azərbaycan Milli Şurasının Tiflisdə keçirilən 29 may 1918-ci il tarixli iclasının qərarı (protocol №3) ilə İrəvan şəhəri bu sənədə əsasən "bir siyasi mərkəz" olaraq ermənilərə güzəşt edilmiş, o dövrdə rusların rəhbərliyi ilə Cənubi Qafqazda yaradılan ilk erməni dövlətinin –paytaxtına çevrilmişdir. Bu hadisənin baş verdiyi günlərdə də ermənilər Azərbaycanın bir çox ərazilərində - Göyçədə, Şamaxıda, Qubada, Lənkəranda və digər yaşayış məntəqələrində müsəlmanların soyqırımını qəddarcasına həyata keçirmişlər... Yeridilən bu siyasətin acı

nəticələri mətbuat səhifələrində öz əksini tapsa da, İrəvan ədəbi mühitində fəaliyyət göstərən qələm sahibləri pərən-pərən düşdüyündən, təqiblərə, işgəncələrə, köçürmələrə məruz qaldığından, həmçinin yazıb-yaradanların ordu sıralarında hərbi xidmətə səfərbər edilməsi ədəbi mühit səviyyəsində köklu əsərlərin yaranması mümkun olmamışdır. Yazılı və şifahi ədəbiyyatın yaradıcıları canını erməni qırğınından qurtaranlar dövlət səviyyəsində həyata keçirilən deportasiyalar nəticəsində Azərbaycanın müxtəlif ərazilərindəki şəhər və kəndlərində ədəbi mühitlərdə yalnız saz –söz şairi kimi yaradıcılıqlarını davam etdirmişlər. Bütün bunlar, sadalanan faktlar İrəvan ədəbi mühitinin formalaşmasına təsir göstərən tarixi şərait və mədəni-siyasi amillərdir. XIX əsr və XX əsrin əvvəllərində (1900-1920) baş verən ictimai-siyasi hadisələrin ümumi mənzərəsi ədəbi mühitin formalaşmasına əsas imkan yaratmışdır.

1. Maarifçilik ədəbi-ictimai fikrin yeni mərhələsi kimi

XIX əsrin əvvəllərində Rusiyada maarifçiliyin inkişaf etməsi Qafqaz xalqlarının elmə, maarifə, incəsənətə olan meylini artırırdı. Tiflis mühitində təhsil alan, dünyəvi elmlərin mahiyyətini hərtərəfli dərk edən çoxsaylı Azərbaycan ziyalılarının böyük bir dəstəsi yetişməkdə idi. Yetişən bu ziyalılar Azərbaycan ədəbiyyatşünaslığında “inkişaf yoluna aydınlıq gətirmək ədəbiyyatşünaslığın bir elm kimi ... dünya ədəbi prosesindən təcrid edilmiş halda deyil, bədii yaradıcılığın təbiətini açmaq, Azərbaycan cəmiyyətində insanların ideya-estetik tərbiyəsində onun rolunu meydana çıxarmaq, bədii təfəkkürün tarixi, müxtəlif bədii metodlarını tədqiq etmək sahəsində təcrübəni ümumiləşdirir, insanların sənət haqqında təsəvvürlərini zənginləşdirir, estetik kateqoriyalar və onlar haqqında biliyin tarixi təkamülünü ”əks etdirir” [124, 5]. Bu xüsusiyyət İrəvan ədəbi mühiti üçün də xarakterikdir.

XIX əsrin iyirminci illərində məşhur fransız səyyahı və etnoqrafı İvan İvanoviç Şopen (1798-1870) Rusiyaya gəlmiş, Qafqaz canişinliyində işləmişdir. General İ. F. Paskeviçin göstərişi ilə 1829-1832-ci illərdə Qafqazın, o cümlədən, İrəvan və Naxçıvan xanlıqlarının tarixi və coğrafiyasının tədqiqi ilə məşğul olmağa maraq göstərmişdir. Əsərlərində Qafqaz xalqlarının, həmcinin azərbaycanlıların tarixi, dili və etnik tərkibi, folkloru, ədəbiyyatı, incəsənəti, iqtisadiyyatı və sair barədə geniş məlumatı olmuşdur. Lakin Şopen etiraf etdiyi həqiqətlərlə yanaşı, bəzən təhriflərə də yol vermiş, 1840-cı ildə rus dilində nəşr etdirdiyi "Koroğlu" dastanının bəzi epizodlarında [40-559] yanlışlıqlar etmişdir. İ.İ.Şopenin hesablamalarına görə XIX əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailə, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. 1829-cu ilin məlumatına görə təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi (azərbaycanlılar 1807 ailə, 2379 nəfər). Rus İmperiyasında birinci dəfə keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə Qərbi Azərbaycanda - İrəvan quberniyasında 313178 nəfər azərbaycanlı yaşamışdır. Vaxtı ilə əhalisi azərbaycanlılardan ibarət olan Qərbi Azərbaycan əyalətlərindən Zəngibasar, Vedibasar, Zəngəzur, Göyçə, Ağbaba, Dərəçiçək, Sisyan, Qafan, Qəmərli, Qaraqoyunlu, Qırxbulaq, Şərur, Sürməli, Seyidli, Sərdarabad, Abaran, Gərnibasar və s. kəndlərində bir nəfər belə azərbaycanlı qalmasa da, tarixin yaddaşında həmin vilayətlərdə anadan olmuş, orta təhsilini o yerdə almış, uşaqlığını və gəncliyini o diyarda keçirmiş, keçmiş İttifaqın və Avropanın bir sıra ölkələrində ali təhsil alan gənclərin böyük bir dəstəsi ümumazərbaycan mədəniyyətinin tərəqqisində unudulmaz xidmətlər göstərmişlər. XX əsrdə Azərbaycanda yaşayan ermənilərin

məktəb tarixini tədqiqata cəlb etdikləri halda, Ermənistan ərazisində yaşayan azərbaycanlıların məktəb təhsili tarixinin tədqiqinə demək olar ki, tam biganəlik göstərmişlər. Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların maarif və mədəniyyətinin, o cümlədən, məktəb tarixinin tədqiq edilməməsinin səbəbi ermənilərin azərbaycanlıları yad hesab etməsi, ömür boyu azərbaycanlıların yaşayış yerlərinin, kənd və şəhərlərinin adlarını dəyişdirməklə o yerləri ermənileşdirmək, "türksüz Ermənistan" yaratmaq siyasəti yeritmələri idi. Arxiv sənədləri göstərir ki, XIX əsrdə Qafqazda azərbaycanlılar, xüsusən Qərbi Azərbaycanda daha sıx yaşamış, zəngin maddi və mənəvi sərvətləri, folklor ədəbiyyatı, aşıq sənəti, kütləvi məktəb şəbəkəsi, incəsənət, memarlıq abidələrinin orijinallığı [66] ilə fərqlənmişlər. Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar ədəbi dilimizi, dinimizi, adət-ənənələrimizi qoruyub saxlamaqda, zənginləşdirməkdə, digər millətlərlə kəbinə girməməkdə də bir nümunə olmuşlar. Qərbi Azərbaycan mühitində yaşayıb-yaradan ziyalılardan söhbət açarkən onu da qeyd etmək lazımdır ki, o yerlərdə yaşayan xalqın ümumi mədəni səviyyəsi, elm və mədəniyyəti, xalq maarifi və məktəb təhsilinin ümumi mənzərəsinə ötəri olsa da nəzər salmaq yerinə düşər.

Şimali və Cənubi Azərbaycan kimi, Qərbi Azərbaycanda da xalq maarifi və məktəb təhsili özünəməxsus inkişaf yolu keçmişdir. XIX əsrin 80-cı illərinə aid məlumatlara görə Dağıstan vilayəti ilə birlikdə cəmi Zaqafqaziyada 1557 ruhani məktəbi fəaliyyət göstərir ki, burada da 18604 şagird oxuyurdu. Şagirdlərin çox hissəsi İrəvan və Gəncə quberniyaları ilə yanaşı [73] Dağıstanın payına düşürdü.

Azərbaycanda məktəbdarlıq və maarifçiliyin inkişafı onun Qərb hissəsində özünü göstərməkdə idi. Burada xalqın savadlanması üçün ölkənin bir sıra yaşayış məntəqələrində məktəblərin açılması, həmin məktəblərdə milli dillərlə yanaşı, rus dilinin öyrənilməsi diqqətdən yayınmırdı. Tiflis, Qori və

Rusiyanın başqa iri şəhərlərində təhsil alanlar vətənə qayıtdıqdan sonra müxtəlif kənd və qəsəbələrdə məktəb açılması üçün ciddi səy göstərirdilər. Belə təhsil almış gənclərdən biri də 1828-ci ildə Uluxanlı kəndində anadan olmuş Mirzə Ələkbər Elxanovdur. Mirzə Ələkbərin Uluxanlı məktəbinin açılmasında həddsiz rolu olduğunu, kasıbların balalarına köməkliyini, "Əkinçi" qəzetinin nömrələrini və bir çox kitabları camaat arasında oxuduğunu yaşlı adamlar həmişə xoş xatirələrlə yad edərmişlər [184, 3].

Zaqafqaziyada birinci İrəvan gimnaziyasında 30 ilə qədər Azərbaycan dili müəllimi olmuş Mirzə Ələkbər Elxanov böyük rus pedaqoqu K. D. Uşinskinin ideyalarının-xəlqilik ideyası, "Vətən dili" və "Uşaq aləmi" dərsliklərinin Zaqafqaziyada ardıcıllarından biri idi. Mirzə Ələkbər Elxanov şəhərdəki Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdır. Onun səs üsulu ilə tərtib etdiyi "Vətən dili" dərsliyinin XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilməsi böyük hadisə idi. Əsrin sonlarına doğru (XIX) İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdi. "Rus-Azərbaycan" qız məktəbləri əhalinin böyük rəğbətini qazanmışdı. Məktəbin müdiri Haşım bəy Nərimanbəyov, İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadənin və b. bu sahədəki xidmətləri unudulmazdır. "Üsuli - cədid" məktəblərinin açılmasına Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsun Nəvvab, Lənkəranda İsmayıl Qasir, İrəvanda M.K.Əsgərzadə ənənəvi fənlərlə yanaşı, tarix, rus dili, coğrafiya və təbiət dərslərinin tədrisinə üstünlük verərək "Rus-tatar məktəbi" adı ilə dördillik məktəblər şəbəkəsinin artırılmasını üstünlük verirdilər [10, 15]. İrəvanda yeni üsullu ana dili məktəbinin banisi olan Məşədi

Molla İsmayıl Hacı Kazımovun qabaqcıl təcrübəsi Cənubi Azərbaycanda da yayılmışdır. XIX əsrin sonlarında təbrizli maarifçilər Mirzə Həsən Rüşdiyyə, Axund Mirzə Əli, Mirzə Kazım Əsgərzadə təlimin yeni üsullarını öyrənmək üçün İrəvana gələrək, qabaqcıl təcrübəni öyrənmiş və vətənlərinə qayıdaraq orada da yeni tipli məktəblər açmış, yazdıqları dərsliklərin adını "Vətən dili" qoymuşlar. Azərbaycan dilinin tədrisinin mükəmməl proqramı da İrəvan Müəllimlər Seminariyasının müəllimi Firudin bəy Köçərlinin müəllifliyi ilə İrəvan gimnaziyasında meydana gəlmişdir [62].

Qərbi Azərbaycanda kitab nəşri, yerli müəlliflər tərəfindən qələmə alınan ədəbi-bədii əsərlər, başqa dillərdən edilən tərcümə əsərləri, ana dilində nəşr edilən dövri mətbuat: bütün bunlar Qərbi Azərbaycanlıların qədim və zəngin mədəniyyətindən, başına gətirilən bəlalara görə acı taleyindən xəbər verir ("Azərbaycan" qəzeti, 23 aprel 1998).

1828 - 1840-cı illərdə Ermənistan vilayətinin mərkəzi, sonra qəza şəhəri, 1849-cu ildən isə quberniya mərkəzi olan İrəvanın ictimai-siyasi və mədəni həyatında yeni mərhələ başlamışdır. Həmin mərhələ dövrünün mütərəqqi fikirli adamları tərəfindən tarixdə rus şovinizminin əsarəti mərhələsi kimi səciyyələndirilir. Bu mərhələdə dini fanatizm, feodal dünyagörüşü əhalinin mənəvi aləmində öz təsirini saxlamaqda idi. Lakin Azərbaycanın inkişafı ilə üzvu surətdə bağlı olan İrəvan əhalisi arasında da zülmətdə nur olan ziyalıların yetişməsi, xalqın cəhalət və dini fanatizm girdabından xilas edilməsi üçün maarifin, mədəniyyətin yayılması olduqca vacib idi. Dövrün bu tələbi ziyalıların üzərinə böyük və məsuliyyətli vəzifələr qoyurdu. "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" kitabının müəllifi Mehman Süleymanovun ümumiləşdirdiyi məlumatlardan, "Kavkazskiy kalendar"ın buraxılışlarının İrəvan quberniyasına həsr olunan bölmələrində 1886 (s, 54), 1889, 1894, 1898 (s, 1-100), 1899 (s, 173-182), 1900 (s, 1-

119), 1901 (s, 183-200), 1903, 1907, 1908 və digər illəri əks etdirən 12, 20, 24, 25, 27 s. buraxılışlarının müvafiq səhifələrində [208] ədəbi-bədii, içtimai-siyasi vəziyyətə, Duma seckilərində azərbaycanlıların təmsil olunmasına, İrəvan Müəllimlər Seminariyasının fənn müəllimlərinin fəaliyyətinə, Göyçə gölünün təbiətinə, quberniyanın yaşayış məskənlərində maarifcilik və təhsil məsələlərinə yer ayrılmışdır. Həmcinin ictimai-siyasi, mədəni, etnik durumu əks etdirmək sahəsində işlərin təşkilini diqqət mərkəzində saxlayan SMOMPK məcmuəsində dərc edilən yazıların İrəvan mühitini əks etdirməsi sahəsində pozitiv işlərlə yanaşı, neqativ məzmunlu ədəbi-bədii yazıların dərc olunmasında ermənipərəst qələm sahibləri tərəfindən təşəbbüslər edilirdi. 1882-ci ildəki ikinci buraxılışın 109 -142-ci səhifələrində İrəvan gimnaziyasının müəllimi S.Zelinskinin topladığı materiallar, Azərbaycan atalar sözləri verilmiş, 1884-cü ildəki dördüncü buraxılışın 34-39-cu səhifələrində Yerevan Müəllimlər Seminariyasının müəllimi K.Şulkina "Yaşlı adamın söyləmələrindən" qələmə aldığı faktları təhrif etməklə qeyri-obyektiv mövqedən ictimaiyyəti məlumatlandırmışdır. Maarif və mədəniyyətin yayılmasında hər cür məşəqqətlərə sinə gərən Mirzə Qədim İrəvani, İsa Sultan, Əbülfət və Məhəmməd Şahtaxtınskilər, Fazil İrəvani, Firudin bəy Köçərli, Əliqulu xan İrəvanski, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Mirzə Qəmərlinski, Haşım bəy Vəzirov, Mirzə Ələkbər Mirzəzadə, Cabbar Əsgərzadə, Mir Məhəmməd Fətullayev, Abbas Ağa Fərəcov kimi çoxsaylı ziyalılar üstlərinə düşən missiyanı şərəflə doğruldurdular.

Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin (1869-1932) həyat və fəaliyyətinin müəyyən dövrü də İrəvan ədəbi mühiti ilə əlaqədardır. Cəlil Məmmədquluzadə Qori Müəllimlər Seminariyasının müdiri Korovayevin Dövlət dəftərxanasının əvəzcisi D.Tiryuşinin imzası ilə 511/150 şəhadətnamə almış və Uluxanlıya

göndərilmişdir.” Çünki İrəvan quberniyasında məktəb açılması haqqında qərar verilmiş və bu məktəblərdən biri də Uluxanlıda açılmış birinci dərəcəli Uluxanlı ikisinifli məktəbi idi. Məktəb məscidlərin geniş fəaliyyət göstərdiyi bu feodal - patiriarxal kənddə Allahverdi Hacı Huseyn oğlunun evində, kiçik və qaranlıq bir daxmada yerləşirdi və müdiri Muxin idi. Uluxanlıda işləyən C.Məmmədquluzadə böyük zəhmət bahasına, məktəbə şagird cəlb etmiş, avam xalqı qəflət yuxusundan oyatmaq üçün elm və ürfan ziyasının ilk toxumlarını səpmişdi. Uluxanlı məktəbinə 1887-ci il avqust ayının 1-də 937 nömrəli əmrlə gəlmiş C.Məmmədquluzadənin “Azərbaycan əlifbası “A” ilə başlayır” - cavabından əsəbiləşən İrəvan quberniyasının xalq məktəbləri müfəttişi Y.D.Pasxalovla sözləşməsi üzündən 1887-ci ildə o, Uluxanlı məktəbindən Baş -Noraşen Zemski məktəbinə dəyişdirilmişdir. Buradan gedərkən “arabacı Cəfər kişinin “Soruşmaq ayıb olmasın, başına dönüm, bizim Uluxanlı xoşuna gəlmədimi ki, buradan gedirsən?”- sualına C.Məmmədquluzadə belə cavab vermişdi: - Yox, Ulxanlı camaatı əliaçıq və səxavətlidir, Cəfər dayı, Uluxanlı Ağrı dağı vadisinin bərəkətli yeridir. Məni buradan uzaqlaşdıran Tiflis məktəblər müdirinin göstərişidir, digər tərəfdən, kəndin mollaları da mənim burada dərs deməyimi istəmirlər, onlarla da bir-iki dəfə sözləşmişik [179]. Y.D.Pasxalov 1888-ci ilin yanvarında yenidən C.Məmmədquluzadənin Uluxanlı məktəbinə qaytarılması barədə sərəncam verdirsə də, Y.D.Pasxalovla görüşmək istəməyən Cəlil Məmmədquluzadə “İrəvandan Yelizavetpol şəhərinə, direktor D. Orlova 1888-ci il yanvarın 1-də saat doqquzda on sözdən ibarət gondərdiyi 593 nömrəli teleqramda yazırdı: “Acizanə xahiş edirəm ki, məni Uluxanlıya qaytarmayıb, Baş - Noraşendə saxlayasınız.” Cəlil Məmmədquluzadədən bir az əvvəl saat 9-da Baş Noraşen məktəbinin nəzarətçisi Sadıq Xəlilov Dimitri Orlova 582 nömrəli teleqram vurmuş və xahiş etmişdir ki, C.Məmmədquluyevi başqa yerə

dəyişdirməsinlər. Teleqram Dimitri Orlova çatdıqda o, dərkənarında "Məmmədquluyevi Baş Noraşendə saxlayıram" – sözlərini yazıb müfəttiş Y.Pasxalova vermişdir" [192]. Beləliklə, 1887-1889-cu illərdə Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmuş C.Məmmədquluzadə 1887-ci ilin sentyabr-oktyabr aylarında İrəvan quberniyasının Uluxanlı kənd ibtidai məktəbində müəllimlik etmişdir. Baş Noraşen məktəbinin müdiri Əliməmməd Xəlilovun köməyi ilə 13 oktyabr 1887-ci il tarixdən bu təhsil ocağına dəyişdirilmişdir. O, bədii yaradıcılıqla burada məşğul olmuşdur [87]. Sənədlər göstərir ki, Mirzə Cəlil Uluxanlıda iki ay işləməsinə baxmayaraq, 1898-ci ildə yenidən İrəvana qayıtmış, polis idarəsində dəftərxana xidmətçisi və tərcüməçi vəzifəsində çalışmış, 1901-1903-cü illərdə İrəvanda yaşamışdır [129, 62].

Cəlil Məmmədquluzadə 1903-cü ilin dekabrından etibarən Qafqazın əsas inzibati və mədəni mərkəzi sayılan Tiflis şəhərində yaşayıb, işləmiş, tanınmış publisist və ictimai xadim Məmmədağa Şahtaxtılının (1846-1931) Tiflisdə nəşr etdirdiyi "Şərqi-Rus" qəzetində əməkdaşlıq etməklə mətbuat dünyasına cəlb edilmişdir. Bu zaman o, mühim qəzetçilik məktəbi keçmiş, dövrün görkəmli ədəbi qüvvələri ilə tanış olmuş, bir çox hekayələri, məqalələri və tərcümələri bu qəzetdə dərc edilmişdir. "Şərqi-Rus" qəzeti bağlandıqdan sonra isə o, publisist Ömər Faiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə Məhəmmədağa Şahtaxtılıya məxsus olan mətbəəni almış, burada çalışmışdır. 1905-ci ildə "Qeyrət" adlandırılan həmin mətbəədə "Poct qutusu" hekayəsi kitab halında çapdan çıxmışdır. Lakin Cəlil Məmmədquluzadənin şah əsəri Ömər Faiq Nemanzadə ilə birlikdə çıxardığı "Molla Nəsrəddin" jurnalıdır. Jurnal Qafqaz xalqlarının, geniş mənada, müsəlman Şərqinin, xüsusən, Azərbaycanın milli oyanışı və dirçəlişində mühim rol oynamışdır [86, 10].

Bu dövrdə Qafqazda mətbuatın formalaşması isti-

qamətində mütərəqqi ideyalı, maarifçilik - məktəbdarlıq sahəsində yorulmadan çalışan ziyalıların böyük bir dəstəsi Tiflisdə cəmləşmişdi və fəaliyyətləri ilə kifayət qədər tanınırdılar. Diqqəti özünə cəlb edən maarifpərvər qələm və söz sahiblərindən bir çoxunu, o cümlədən Firudin bəy Köçərlinin və İrəvan ədəbi mühitində təzə-təzə ədəbi-bədii fəaliyyəti ilə tanınan Haşım bəy Vəzirovun Qafqazda nəşr olunan qəzet və jurnallarda dərc olunan məqalələrindən də yaxşı tanıyırdılar. İrəvan ədəbi mühitində təzə-təzə ədəbi-bədii fəaliyyəti ilə tanınan yazıçı Haşım bəy Vəzirov (1868-1916) İrəvan Müəllimlər Seminariyasını bitirmişdi. 1906-cı ilədək İrəvan, Bərdə, Şəki və Şuşada müəllimlik etmiş Vəzirov bütün şüurlu həyatını vətən övladlarının şüurunun oyanmasına, mədəni səviyyəsinin yüksəlməsinə sərf etmiş, çoxcəhətli fəaliyyəti ilə xalqının tərəqqisinə çalışan Haşım bəy Vəzirov Azərbaycan xalqının ictimai fikir tarixində özünəməxsus yer tutur. Onun XIX əsrin sonu, XX əsrin əvvəllərində bütövlükdə Azərbaycanın, xüsusən, Qərbi Azərbaycanın, mədəni həyatında, ictimai-siyasi, bədii-estetik fikir tarixində görkəmli pedaqoq, jurnalist, nasir və yazıçı - dramaturq kimi fəaliyyəti ilə müasirlərindən daha çox fərqlənmişdir. Firudin bəy Köçərlinin Haşım bəy Vəzirovun formalaşmasında əvəzsiz rol oynamışdır. O, burada ana dili, fars və ərəb dilini dərindən öyrənmiş, həmçinin İslam din tarixi və ehkamlarını böyük maraqla mənimsəmişdir. İrəvan Müəllimlərlər Seminariyasını bitirərək müəllimlik hüququ almış Haşım bəy Vəzirov İrəvan quberniyasının Böyük Vedi və digər kəndlərində, Cavanşir qəzasının Alpout, Şəki qəzasının Göynük, Cavanşir qəzasının Bərdə kəndlərində müəllim və məktəb müdiri işləmişdir. Onun maarifçilik fəaliyyətinin müəyyən dövrü doğma şəhəri Şuşa ilə bağlıdır. Şuşa ziyalıları rus - Azərbaycan tipli məktəblərin açılmasına hədsiz maraq göstərərək məscid nəzdində bu işin təşkilinə nail olmuş, nəticə olaraq, Haşım bəy Vəzirovun müdirliyi ilə 1898-

cı il oktyabrın 6-da Şuşada ikisinifli rus-tatar məktəbi açılmış, şəhər müsəlman cəmiyyətinin xahişi ilə məktəbin müəllimlərinə dövlət qulluqçusu və çarın tacqoyması münasibətilə məktəbə "Şuşa Nikolayevsk rus-tatar məktəbi" adı verilmişdir [47]. Zaqafqaziyanın hər yerində, o cümlədən Şuşada, İrəvanda və digər yerlərdə qız məktəblərinin yaranmasına təşəbbus göstərilirdi. XX əsrin əvvəllərində, hələ ötən əsrdən meydana çıxan dövlət məktəbləri, gimnaziyalar, real məktəblər öz fəaliyyətini davam etdirirdı. Artıq bütöv Azərbaycanın bir çox güşələrində bu tipli Rus-Azərbaycan məktəblərində iki il ərzində tədris olunan dilləri şagirdlər öyrənə bilirdilər. Azərbaycanın Rusiyaya zorla birləşdirilməsindən meydana gələn rus dilinə ehtiyac amili valideynlərin öz uşaqlarını dünyəvi, yəni dövlət məktəblərində oxutmağa can atması ilə nəticələndi.

Əslən Şuşadan olan lakin fəaliyyəti İrəvanla bağlı olanlardan biri də Haşım bəy Nərimanbəyovdur. O, uzun müddət İrəvan şəhərində fəaliyyət göstərən rus-tatar məktəbində, oğlan və qız gimnaziyalarında müəllimlik etmiş, ailəliklə İrəvanda məskunlaşmışdır. Haşım bəy Nərimanbəyov 1896-cı il oktyabrın 21-də açılan İrəvan rus-tatar məktəbi əhalinin maddi və mənəvi yardımı ilə idarə olunurdu. Məktəbdə nəzərdə tutulan 70 şagird əvəzinə 110 şagird qəbul edilir ki, bu şagirdlərdən yalnız bir nəfəri qız idi. O da Haşım bəy Nərimanbəyovun öz qızı idi. Məktəbin müdiri təyin edilən, bütün qüvvə və baçarığını maarif işlərinə sərf edən Haşım bəy Nərmanbəyova 1900-cu ildə məktəbi yoxlayan komissiya tərəfindən təşəkkür edilmişdi. Həqiqətən də, İrəvan rus-tatar məktəbi və onun ilk müdiri olmuş Haşım bəy İrəvan şəhərinin müsəlman əhalisi arasında istər rus dilində, istərsə də ana dilində savadın yayılmasında vacib işlər görmüş, məhz onun təşəbbüsü ilə 1899-cu ildə bu məktəbin nəzdində yaşlı müsəlmanlar üçün axşam kursları açılmışdır. Bu kurslarda rus dili, hesabdan dörd əməliyyat, ana dili və şəriət dərsləri keçirilirdi.

Rus dili və hesabı Haşım bəy Nərimanbəyovun özü, ana dilini isə Mirzə Məmmədvəli Qəmərlinski tədris edirdi. İrəvanın mədəni, ictimai-siyasi həyatının övladlarının formalaşmasında böyük rol oynayacağını qabaqcadan görən bu mütərəqqi dünyagorüşlü müəllimin oğlu, Nəriman bəy Nərimanbəyov gimnaziyada, digər uşaqları isə buradakı məktəblərdə təhsillərini davam etdirməklə məşğul idilər. İrəvan ədəbi mühitinin formalaşmasında öz səyini əsirgəməyənlərdən biri də Nəriman bəy Nərimanbəyov (1889-1938) olmuşdur.

1908-ci ildə gimnaziya təhsilini uğurla başa vuran Nəriman bəy Nərimanbəyov Moskva universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş, iki il burada oxuduqdan sonra ixtisasını dəyişmək fikrinə düşmüş və 1910-cu ildə Xarkov universitetinin hüquq fakultəsində təhsilini davam etdirmişdir. Xarkov mühiti onun ictimai-siyasi cəhətdən formalaşmasında mühim rol oynamış, tələbə dərnəklərində fəallıq göstərmişdır. 1917-ci ilin yayından coşqun ictimai-siyasi fəaliyyətə qoşulan Nəriman bəy Nərimanbəyov əvvəlcə İrəvan Müsəlman Milli Şurasına daxil olur və çox çəkmədən milli komitələrin Tiflisdə keçirilən qurultayına göndərilir, qayıdandan dərhal sonra Müəssisələr Məclisində seckilər üzrə quberniya təlimatçısı secilir, eyni zamanda, bitərəflər blokunun fəhlə-əsgər deputatları Soveti quberniya icraiyyə komitəsinin və Dumada şəhər qlasnısının üzvu olur, Duma sədrinin müavini vəzifəsinə yüksəlir, müxtəlif yığıncaqlarda müsəlman milli şurasının və bitərəflərin nümayəndəsi kimi iştirak etməyə başlayır. 1917-ci ilin payızında ailəsi ilə İrəvandan Şuşaya köçən Nəriman bəy bir müddət buradan qaldıqdan sonra siyasi hadisələrin qaynar nöqtəsinə çevrilmiş Tiflisə yollanır və Zaqafqaziya universitetinə daxil olur. 1918-ci il fevralın 23-də Zaqafqaziya Seymi adlandırılan Zaqafqaziya Parlamenti təşkil ediləndə Nəriman bəy Nərimanbəyov müsavat partiyası sıralarına daxil olduğundan Zaqafqaziya Seyminə üzv seçilir və

öz xalqının mənafeyi naminə var quvvə ilə çalışmağa başlayır. Bir neçə aydan sonra seym buraxılır, Nəriman bəy Tiflisdə qalır və Mərkəzi Müsəlman Milli Şurasına daxil olur, may ayının 28-dən etibarən Tiflisdəki diplomatik nümayəndəlikdə məsləhətçi vəzifəsində işləyir.

Azərbaycan Demokratik Respublikasının yaranması, beynəlxalq aləmdə baş verən dəyişiklərin bu respublikanın dünya dövlətləri tərəfindən tanınmasına kəskin maneçilik edilməsi, ingilis qoşunlarının baş komandanı Tomsonun Azərbaycan hökumətini tanımaması və bu regionu Rusiyanın tərkib hissəsi hesab etməsi barədəki bəyanatı Nəriman bəy Nərimanbəyova mənfi təsir bağışlayır, 1918-ci ilin 7 dekabrında Bakıda parlamentin açılışı zamanı maliyyə nəzarətçisi vəzifəsinə təyin olunur, maliyyə-büdcə və aqrar komissiyalarına üzv seçilir. Nəriman bəy Nərimanbəyov daha sonra Azərbaycan Demokratik Respublikasının dövlət nəzarət naziri vəzifəsini tutur. N. Nərimanbəyov Tiflisdə, Bakıda müxtəlif vəzifələrdə çalışsa da, müsavat partiyasının "Mustəqil Azərbaycan uğrunda!" şüarı ilə gizli fəaliyyətinin iştirakçılarından biri olduğuna görə 1923-cü il iyunun 20-də digər müsavatçılarla birlikdə həbs olunur [115, 207].

XIX əsrin sonları və XX əsrin əvvəllərində İrəvanda ictimai-siyasi, mədəni və ədəbi mühitdə barmaqla göstərilən məşhur ziyalılardan biri də Mirzə Abbas Məhəmmədzadə (1846-1919) olub. Mirzə Abbas Məhəmmədzadəni başqa ziyalılardan fərqləndirən ən üstün cəhəti zamanının ensiklopedik biliyə malik fars dili mütəxəssisi olması idi. Bu səbəbdən, İrəvanda təhsil alanlar onu Mirzə Abbas Məhəmmədzadə kimi deyil, "Fars Abbas" kimi tanıyırdılar. Mirzə Abbasın pansionda və gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim kimi şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şeirlər yazması daha məşhur etmişdir. O, nəsil-nəcabətliklə İrəvan-

lıdır. İrəvan İranın Qafqazda ən çox gediş-gəliş etdiyi, iqtisadi-siyasi və mədəni əlaqə saxladığı şəhərlərdən biri idi. Mirzə Abbasın atası Məhəmməd tiçarət işləri ilə əlaqədar olaraq İsfahana getmiş və orada ailə qurmuşdur. Əslən İrəvanlı olan Məhəmməd oğlu Abbas 10-11 yaşı olarkən ailəsi ilə birlikdə doğma şəhəri İrəvana qayıtmışdır. Mədrəsədə təhsil aldığı dövrdə ciddi mütaliə ilə məşğul olmuşdur. Dini biliklərə dərindən yiyələnən, fars dilini mükəmməl bilən Mirzə Abbas İrəvanda fəaliyyət göstərən dini məktəblərdə fars dilini tədris etmişdir. Əsrin sonlarında açılan yeni tipli pansion və məktəblərdə, 1881-ci ildə İrəvan gimnaziyasında və Müəllimlər seminariyasında ərəb və fars dilləri ilə yanaşı, rus dilini də lazımınca öyrənmişdir. Görkəmli ədəbiyyatşünas Əziz Şərif müəllimi Mirzə Abbas Məhəmmədzadə haqqında yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə xüsusi fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş. Cabbar bəy Məmmədzadənin atası Molla Abbas İrəvanda yaşayırdı. Fars dili mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı. İrəvanda Molla Abbasın bir il müddətində mənə verdiyi dərslər, əzbərlətdiyi şeirlər bu gün də yadımdadır... Belə vətən ovladlarını qəflətdən ayıltmaq ideyasına hər vasitə ilə calışanlardan biri də Məmmədqulubəy Kəngərli idi. "Məhəmmədqulu bəy Kəngərlininin tərcümeyi-halını (Əxirən həyatına facianə bir surətdə xətimə çəkilən sabiq topçu ofiseri Məmmədqulu bəy Kəngərli) əks etdirən nekroloqda [85, 15] yazılır: "Bu il (1905-ci il) avqust ayının 29-da Batum şəhərində məşhur Məmmədqulu bəy Kəngərlinin erməni komitəsi tərəfindən göndərilən ermənilər tərəfindən şəhid edildiyini duyub qəlbən ağlamayan qafqazlı bir müsəlman yoxdur. Cənabi-həqq mərhumə rəhmət qardaşı-bacısı yerində olan ümum müsəlmanlara mətanəti-qəlbi-lazimə mərhəmət ehsan etsin... [85, 2].

Güründüyü kimi, cətin və milli ayrı-seçkilik zəminində

yaşamalarına və təzyiqlərə baxmayaraq, XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvanda da maarif və məktəbdarlıq işləri inkişaf edirdi və bu inkişafın nəticəsi olaraq əslən İrəvanlı olan çoxsaylı gənc Avropanın, Rusiyanın məşhur universitetlərində təhsil alırdı. Dünya şohrətli alim Mustafa Topçubaşov, akademiklər - Heydər Huseynov, Əhməd Rəcəbli, tanınmış dilçi Miryusif Mirbabayev, görkəmli dövlət xadimlərindən Əziz Əliyev, M.Məmmədov, H.Seyidov, M.Seyidov, bəstəkar S.Rüstəmov və saymaqla qurtarmayan görkəmli şəxsiyyətlər məhz İrəvan gimnaziyasının məzunu olmuşlar. İrəvan ədəbi mühitinə dair çoxsaylı elmi məqalələrin müəllifi olan Əsgər Zeynalovun 1999-cu ildə çapdan çıxmış "İrəvan ziyalıları" monoqrafiyasında bu məşhurların haqqında daha ətraflı məlumat əldə edə bilərlər.

Təəssüf ki, XX əsrin əvvəli kimi, sonu da xalqımız üçün faciələrlə yadda qaldı. Belə ki, Sovet imperiyasının, erməni lobbisinin müzdlu nökəri M. S. Qorbaçovun köməyinə arxalanan erməni millətçiləri "türksüz Ermənistan" siyasətini 1988-ci ildə həyata keçirdilər. Əvvəllər ermənləşdirdikləri ərazilərlə kifayətlənməyərək, Dağlıq Qarabağ problemini ortaya atmaqla, Sovet qoşunlarının bilavasitə iştirakı ilə Azərbaycanın daha 20 faiz ərazisini işğal etdilər [198, 5-7], [51, 273].

Faciələrlə dolu bu məşəqqətli illərdə, həmcinin 1948-1953-cü illərdə azərbaycanlıların başına gətirilən müsibətlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il tarixli Fərmanının xatırladılması olduqca zəruridir. Fərmanda göstərildiyi kimi, "son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlu şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur.

Bu qərarlar əsasında göstərilən illərdə yüz əlli mindən çox azərbaycanlı qədim ata-baba yurdlarından zorakılıqla və kütləvi surətdə sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar - totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan ağır köçürmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrün Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində az rol oynamamışdır. Bu məqsədlə elmi araşdırmaların aparılması, həmin deportasiyanın hərtərəfli tədqiq edilməsi, xalqımıza qarşı dövlət səviyyəsində həyata keçirilən bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması üçün böyük tərkibdə Dövlət Komissiyası yaradılmışdır. Təəssuf ki, Oğuzların yaşayış məskəni olan Qərbi Azərbaycan, İrəvan xanlığı və ətraf mahallar sonralar Erməni vilayəti adlandırılmış, 1921-ci ildə isə bolşevik siyasəti nəticəsində yaradılmış Ermənistan Sovet Sosialist Respublikasının tabeliyinə verilmişdir.

Hələ XIX əsrin 30-cu illərindən başlayaraq, XX əsrin 50-ci illərinə qədər yerli əhali olan azərbaycanlılar didərgin salınmış, onların əzəli torpaqlarına isə Yaxın və Orta Şərq olkələrindən köçürülən ermənilər yerləşdirilmişdir (Bax: Cədvəl - №1) Azərbaycanlılar Türkiyədən gəlmiş bu "yazıq", didərgin ermənilərə "qaxdağan", İrandan gələnlərə isə "Persoy" deyirdilər. Əsasən sənətkarlıqla məşğul olan bu "qaxdağan" və "Persoy"lar sonralar erməni millətcilərinin və xarici havadarlarının yaxından köməyi ilə yerli azərbaycanlıların özlərini Türkiyəyə, İrana, Azərbaycana, Şimali Qafqaza və Orta Asiyaya sıxışdırıb, didərgin etdilər...

Sonralar Ermənistan adlanan Qərbi Azərbaycanda

yaşayan azərbaycanlıların sayı, maarifi, məktəbi, mədəni abidələri haqqında məlumat, nəinki yerli, hətta mərkəzi nəşrlərdə də qəsdən unuduldu. Məsələn, 1980-ci illərdə Moskvada "Sovetskaya ensiklopediya" nəşriyyatında çap edilmiş iri həcmli "Sovetskiy ensiklopediceskiy slovar"da, 1993-cü ildə yenə də Moskvada "Bolşaya Rossiyskaya ensiklopediya" nəşriyyatında çap edilmiş "Rossiyskaya Pedaqoqiceskaya Rossiyskaya Ensiklopediya"da (I cild) Ermənistan ərazisində 1922-1923-cu tədris ilində yalnız 36 azərbaycanlı məktəbinin 1500 şagirdinin olması qeyd olunsa da, sonrakı illərə aid hec bir məlumat verilməmişdir.

2. İrəvanda məktəbdarlıq məsələləri

Xalqın, millətin formalaşmasında ərazi, dil, mənəviyyat birliyinin mühim amil olması əsas şərtlərdəndir. Tarixən Azərbaycanda məskunlaşmış türklər yüksək mədəniyyətə malik olduqlarından onların "yerli" mədəniyyəti mənimsəmələrinə o qədər də bir ehtiyac duyulmamışdır. Azərbaycan türkcülüyünün islamı qəbul etməsi ilə eramızdan əvvəlki minilliklərdə Azərbaycan mədəniyyətinə müəyyən mənada strateji münasibət ifadə edilmişdir. Məzmun etibarı ilə Azərbaycan-Türk müsəlman mədəniyyəti olsa da, müxtəlif dövrlərdə dünya mədəniyyətinin təsirlərinə məruz qalmışdır [53-42]. Türk - Azərbaycan mədəniyyətinin təşəkkülü bu ölkədə yaşayan azərbaycanlıların mədəniyyət aktıdır. "Avesta"dan başlamış, "Dədə-Qorqud"dan bu yana şifahi xalq ədəbiyyatımızın parlaq nümunələri, Molla Nəsrəddin lətifələri və bu kimi folklor örnəklərimizin yaranması ilə bir şəraitdə formalaşan Azərbaycan mədəniyyətinin təbii-tarixi konteksti türk və regional olaraq Şərq mühiti ilə bağlı bir mədəniyyətdir. Dünya mədəniyyəti səviyyəsinə qalxması da türk mühiti ilə, həmçinin özünun folklor mədəniyyətinin öyrənilib yaradıcılıq təcrü-

bəsinə daha səmərəli şəkildə cəlb edilməsi ilə bağlıdır. Bu mədəniyyət şifahi və yazılı ədəbiyyatımızın, incəsənətimizin bütün sahələrində mədəniyyətin dircəlməsinə yaratdığı şəraitdən və təsirdən asılı olmuşdur. Bu təsirlər Azərbaycan mədəniyyətini bütövlükdə cilalamış, onu dünya mədəniyyətinin tərkib hissəsinə çevirmişdir. İstər Qərbi və Şərqi, istərsə də, Şimali və Cənubi Azərbaycanda mədəniyyətin türk müsəlman ideologiyası əsasında təkamülü və onun demokratikləşməsi, milli əsaslar üzərində formalaşması diqqəti çəkir. Bu səciyyəvilik isə, Azərbaycanda elmin, təhsilin, məktəbdarlığın, maarifçiliyin, kitab nəşrinin, incəsənətin digər sahələrinin inkişafı ilə daha çox bağlıdır. XXI əsrdə də işlərin bu istiqamətdə davam etdirilməsi dövlətçiliyimizin və idarəçiliyimizin əsas prioritet istiqamətlərindəndir.

XIX əsr Azərbaycanda elmi-ictimai fikrin inkişafında yeni mərhələ təşkil etdiyi kimi, pedaqoji fikrin, xalq maarifi və məktəb təhsilinin inkişafı tarixində də ayrıca mərhələ təşkil edir. XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanın Rusiya tərkibinə daxil edilməsi məsələsi dövlət tərəfindən yeni tipli məktəblərin təşkilinə zərurəti artırırdı. Bu İrəvan quberniyasında da belə idi.

Belə ki, İrəvan quberniyasına daxil olan yaşayış məskənlərindən Naxçıvanda üc sinifli, Ordubadda, İrəvanda, Qəmərlidə (Əştərək) iki sinifli, Uluxanlıda iki sinifli, Baş Noraşendə 2 sinifli, Gözəldərədə, Güllücədə, Yelenovkada, Yengicədə, Aralıq Başkənddə, Böyük Vedidə, Məzrədə, İmanşalıda, Qarxunda, Qulubənddə fəaliyyət göstərən məktəblər və həmin məktəblərdə çalışan məsul adamlar, ayrı-ayrı fənn müəllimlərləri haqqında “Kafkazskiy kalendar”ın 1889-cu il buraxılışının 80, 81, 82-ci səhifələrində müfəssəl məlumat verilmişdir. "Kafkazskiy kalendar”ın 1890-cı il buraxılışının 163-169-cu səhifəsində isə İrəvan quberniyasındakı orta təhsil ocaqlarına dair məlumatlarla yanaşı, quberniyada yeni açılan

təhsil müəssisələrinin yaranması tarixləri, onlarda çalışan fənn müəllimlərinin, məktəb müdirlərinin kimliyi və burada oxuyan şagirdlərin say tərkibi barədə daha əhatəli məlumatlara yer ayrılmışdır. Məlumatlarda orta təhsil ocaqlarından 1881-ci ildə 216 şagird üçün yaradılmış İrəvan Kişi Gimnaziyasında işləyən fənn müəllimlərindən və burada tatar dili (Azərbaycan dili) və hazırlıq sinfində hüsnxətt müəllimi işləyən, gimnaziyanın nəzdində fəaliyyət göstərən pansionda gecə tərbiyəçisinin köməkçisi Firudin bəy Köçərlinin fəaliyyəti barədə məlumat verilmişdir. 1881-ci ildə yaradılan və 69 şagirdi olan İrəvan Müəllimlər Seminariyasında Axund Məmmədbağır Kazımzadənin tatar dili (Azərbaycan dili) müəllimi işlədiyi göstərilmişdir. Həmcinin 1884-cü ildə 91 şagirdlik İrəvan Qız Progimnaziyasında (4 və 6 sinifli natamam gimnaziya) Xeyriyyə Cəmiyyətinin Şurasının və Pedaqoji Şuranın yaradıldığı göstərilmiş, gimnaziyanın direktoru Vladimir İosifovic Brajnikov, gecə dayəsi Varvara Ağayeva, şuranın sədri, kişi gimnaziyasının direktoru, üzvləri isə natamam gimnaziyanın rəisi və fənn müəllimləri olmuşdur. Pansionda progimnaziyaya 8 yaşından 12 yaşınadək olan şagirdlər xeyriyyə vəsaiti hesabına, yuxarı yaşlılar isə öz vəsaitləri hesabına məktəbə qəbul edilirmiş. Progimnaziyada təhsil alan pansioner qızlar cəmi 150 manat təhsil haqqı ödəyirdilər. İlk əvvəl qəbul üçün 36 manat, ilin sonunda isə sinifdən-sinfə keçəndə bir qayda olaraq 30 manat vəsait daxil edilirmiş. Yelizavetapol və İrəvan quberniyasının Qars vilayəti xalq məktəbinin direktorluğu və xalq məktəbləri üzrə müfəttişlər Yekim Dmitiryeviş Pasxalov, Dimitri Daniloviç Orlov Yelzavetpol quberniyasının xalq məktəbi direktorunun tabeliyində birgə işləmişlər.

İrəvan quberniyasında fəaliyyət göstərən şəhər məktəbləri ilə yanaşı, ibtidai məktəblər də fəaliyyət göstərmişdir. Ordubadda (1854, 41 şagird) müəllimi Məmməd Axundov, İrəvanda (1882, 64 ş.) Ələsgər Hacı Məmmədəli oğlu, normal

məktəblərdən Uluxanlı (1881, 83 ş. 2 sinifli) Hacı Rəhim ağa Qayıbov, Hacı Kərim Rzaquliyev, Məmməd bəy Şəfibəyov, Hacı Əli Huseyn oğlu, Aşağı Göyləsər (1877,1 sinifli, 83 şagird), Rusiya xalq maarif nazirliyinin kənd məktəblərindən Baş Noraşen Şərur-Dədələyəz nahiyəsində 1885-ci ildə 52 şagird oxuyan (Məmməd bəy Qazıyev, Fəzləli Fərəculla bəy oğlu) məktəb, Naxçıvanın Cəhri kəndində (1885, 67 oğlan, 7 qız, Molla Əli Eynalı oğlu), Nehrəm kəndində (1885, 26 ş.) Cəlil Məmmədquliyev, Molla Məmmədqulu Abdulhəsən oğlu, Sadıx Xəlilov, Naxçıvanın Şahtaxtı kəndində (1888, 31 oğlan), İrəvan quberniyasına daxil olan yaşayış məskənlərindən Naxçıvanda üc sinifli, Ordubadda, İrəvanda, Qəmərlidə iki sinifli, Uluxanlıda iki sinifli, Baş Noraşendə 1885-ci ildə 52 şagird oxuyan 2 sinifli, Gözəldərədə, Güllücədə, Yelenovkada, Yengicədə, Aralıq Başkənddə, Böyük Vedidə, Məzrədə, İmanşahlıda, Qarxunda, Qulubənddə fəaliyyət göstərən məktəblər və onlarda çalışan ayrı-ayrı fənn müəllimləri haqqında "Kafqazskiy kalendar"ın ayrı-ayrı buraxılışlarında, xüsusən də 1889-cu il buraxılışının 80, 81, 82-ci səhifələrində müfəssəl məlumat vardır.

İrəvan quberniyasında fəaliyyət göstərən şəhər məktəbləri ilə yanaşı ibtidai məktəblər də vardı. Ordubadda (1854, 41 şagird) müəllimi Məmməd Axundov, İrəvanda (1882, 64) Ələsgər Hacıməmmədəli oğlu, normal məktəblərdən Uluxanlı (1881, 83 ş. 2 sinifli) Hacı Rəhimağa Qaibov, Hacı Kərim Rzaquliyev, Məmməd bəy Şəfibəyov, Hacı Əli Huseyn oğlu, Aşağı Göyləsər (1877, 1 sinifli, 83 şagird), Rusiya xalq maarif nazirliyinin kənd məktəblərindən Baş Noraşen-Şərur-Dərələyəz nahiyəsində 1885-ci ildə 52 şagird oxuyan (müəllimlər Məmməd bəy Qazıyev, Fəzləli Fərəculla bəy oğlu) məktəb, Naxçıvanın Cəhri kəndində (1885, 67 oğlan, 7 qız, Molla Əli Eynalı oğlu), Nehrəm kəndində (1885, 26 ş.) Cəlil Məmmədquliyev, Molla Məmmədqulu Abdulhəsən oğlu, Sadıx

Xəlilov, Naxçıvanda Şahtaxtı kənd məktəbində (1888, 31 oğlan), Abbas Kərbəlayi Oruç Əli oğlu, İsgəndər bəy Əlibəyov, Hacı Molla Əli Axund Molla Ələsgər oğlu, Əbdulqasım Sultanov, Əbulfət Ağa Şahtaxtinski, İctimai təmayüllü məktəblər Yengicə kəndində (2 s), Şərur-Dərələyəz nahiyəsində 1882-ci ildə 20 şagird oxuyan, Ələkbər Süleymanov, Zeynalabdin Qurbanbəyov, Abdulla Kəngərlinski, Sürməli nahiyəsinin Aralıq Başkənddəki (1884, 1 sinifli - 6 şagird) oxuyan məktəbdə müəllimlər Məmməd Zamanbəyov, Halay bəy Əliağa oğlu, Abbas Həzrətqulu oğlu, Böyük Vedidə (1883, 30 ş) Kərim bəy İsmayılov, Molla Məmməd Hacıyev, Balasultan Şadlinski, İmanşalıda (1883, 40 ş) Molla Əli Axundov, Naxçıvan qəzasının Qulubənd kəndində (1882, 40 ş), Yeni Bayazid qəzasının Məzrə kəndində (1884, 39 şagird) Qurban Əhməd oğlunun müəllim işləmələri haqqında [198], həmcinin fərdi fəaliyyət göstərən ruhani məktəbləri haqqında yetərli məlumatlar əks olunmuşdur.

XIX əsrin ikinci yarısınadək bütün Qafqazda Azərbaycan dilində dünyəvi fənnləri tədris edən məktəblərin və müəllimlərin az olması səbəbindən belə məktəblərin açılması və dərs demək üçün pedaqoji kadrların hazırlanması olduqca vacib məsələlərdən idi. Rus maarifçilik hərəkatının təsiri ilə Qafqaz xalqlarının azadlıq, milli dirçəliş, milli mədəniyyətlərinin yüksəlməsi uğrunda mübarizəsində yeni mərhələnin əsasının qoyulduğu artıq hiss olunurdu. Burada qəza məktəblərinin açılması, yeni üsullu dərsliklərin hazırlanması, təhsilin rus dilində və hər millətin öz ana dilində aparılmasına yaradılan imkan zamanın tələbi kimi diqqəti cəlb edirdi. Hələ 1827-ci ildə Tiflis hərbi qubernatoru Sipyağ bu barədə məsələ qaldıraraq [179, 17], müxtəlif illərdə bir-birinin ardınca, biri digərini tamamlayan "Zaqafqaziya məktəblərinin nizamnamələri" qəbul və təsdiq olunmuşdu. Hətta bu məsələ ilə əlaqədar layihənin hazırlanmasına dair 1845-ci ildə knyaz M.S.Voron-

sovun də təklifi olmuşdur. Aparılan işlər nəticəsində 1830-cu illərdən başlayaraq, Qafqazın bir sıra qəzalarında, İrəvan, Bakı, Tiflis, Naxçıvan və digər yerlərində rus dilində təhsil verən məktəblər açıldı. Naxçıvanda 1837-ci ildə Ehsan xanın evində açılan qəza məktəbini xanın hərbçi oğlanları İsmayıl və Kəlbəli xan evlərini pulsuz olaraq uzun müddətə və hər il də gümüş pulla iki yüz manat məktəbə ianə vermişlər. Bu barədə Ermənistan Mərkəzi Dövlət Tarix Arxivində (fond 1 siyahı 1, iş 826, vərəq 1) saxlanan sənəddə qeyd edilmişdir.

Tiflis qəza məktəbində işləyərkən M.F.Axundovla dostluq edən, "Azərbaycan dilini öyrətmək üçün Mirzə Şəfi Vazehdən dərs alan" Xacatur Abovyan 1843-cu ildə İrəvan qəza məktəbinin müfəttişi təyin olunmuşdu. O, Zaqafqaziya maarif orqanlarına yazaraq ana dilinin azərbaycanlı uşaqları üçün daha vacib olduğunu bildirirdi. Yerli dillərin (türk və erməni) birinci sinifdə kecirillən fənnlər sırasına tamamilə daxil edilməməsini, həftədə bir dəfə rus dilində dua oxumağın öyrədilməsinin türk uşaqlarına gərəksiz olduğunu vurğulamışdı. İlk ibtidai məktəblər XIX əsrin ortalarında meydana gəlmiş və bu məktəblər ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edilmişdir. Həmin Nizamnaməyə görə Qafqaz Tədris Dairəsi [62] Tiflis, Kutaisi, Stavropol və Qara dəniz sahilindən ibarət dörd direksiyaya bölünmüşdü ki, Azərbaycandakı məktəblərin əksəriyyəti Tiflis məktəblər direksiyasına, Naxçıvan qəza məktəbi ilə Ordubad ibtidai məktəbi isə İrəvan quberniyası ilə birlikdə Kutaisi məktəblər direksiyasına tabe edilmişdir. 1854-cü il noyabrın 24-də Ordubad şəhərində bir sinifdən ibarət ibtidai məktəb açılmışdı.

İrəvan qəzasında oxuyan azərbaycanlı uşaqların sayı 1850-ci ildə cəmi 15 nəfər, 1863-cü ildə isə 24 nəfər olmuşdur. "Kavkazskiy kalendar"ın 1886-cı il buraxılışının 233-cü səhifəsində Tiflis xeyriyyə cəmiyyətinin məktəblərdə ilk vaxtlar hər şagirdə 10 manat vəsait verilməsi barədə qeyd vardır. 1864-

1867-ci illərdə 1,155 şagirdi əhatə edən məktəbin ümumi sayı 65-ə çatdırıldığı və həmin kalendarın 85-87-ci səhifələrində Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində Tatar (Xalq Məktəbi yaradıldığı və İrəvanda Qəmbərovun, Axund Məhəmmədbağır Kazımzadənin tatar (Azərbaycan) dili müəllimləri olduğu göstərilir. İrəvan - Yelizavetpol quberniyasının Naxçıvanda fəaliyyətə başlayan 3 sinifli xalq məktəbinə Mixail Semyonovic Zeqrenidze müfəttiş, Masinskiy, Yefrem Petrovic Qorqladze müəllimlər, Saleh bəy Zöhrabbəyov köməkçi müəllim, Mirzə Əli Xəlilov və başqaları olmaqla cəmi 8 nəfər həmin məktəbdə işləmişdir.

1881-ci ildə açılmış, 216 şagirdi olan İrəvan Oğlanlar Gimnaziyasının direktoru Vladimir İosifovic Brajnikov, Aleksey Barsov məktəbin müfəttişi, Qriqori Qəmbərov ilahiyyat müəllimi, Firudin Əhmədağa oğlu Köçərli gecə tərbiyəçisi idi ("Kavkazskiy kalendar", 1890, s. 163). 1881-ci ildə açılmış İrəvan Müəllimlər Seminariyasının isə 69 şagirdi olmuş, direktoru Stepan Suşevskiy, Q. Qəmbərov, Məmmədbağır Qazızadə, Mixail Klopov hüquq, Azərbaycan dili, rus dili və ədəbiyyatı və başqa fənnlərdən dərs demişlər. İrəvanda 1882-ci ildə daha bir Müəllimlərlər Seminariyası açılmış, 64 şagirdi olmuşdur.

İrəvan qız gimnaziyası 1884-cu ildə açılmış, direktoru Vladimir İosifovic Brajnikov, müəllimi isə Varvara Ağayeva olmuş, burada 91 şagird təhsil almışdır. İrəvan quberniyasının Yelizavetapol nahiyəsinin Aleksandropol (Gümru) şəhərində 3 sinifli məktəb 1876-cı ildə yaradılmış, burada 155 şagird təhsil almışdır. Molla Hacı Mirzə Əli oğlu məktəbdə ilahiyyat müəllimi olmuşdur. Naxçıvan şəhərində 3 sinifli, 79 şagirdi olan məktəb 1879-cu ildən, Novo (Yeni) Bayazitdə 2 sinifli, 66 şagirdi olan məktəb 1880-ci ildən, Ordubadda 41 şagirdi olan ibtidai məktəb 1854-cu ildən (müəllim Mir Yəhya Səməndərov), İrəvan Müəllimlərlər Seminariyasında müəllim Məmməd Axundov, İrəvan şəhər (məktəbinin 1880, 54 şagird)

müəllimi Ələsgər Hacıməmməd oğlu, normal məktəblərdən Əştərəkdəki, Eçmiadzindəki və digər erməni məktəbləri istisna olmaqla, Uluxanlıda 1881-ci ildə açılan 2 sinifli 83 şagirdi olan məktəb (müəllimlərlər: Hacı Rəhim Ağa Qayıbov, Hacı Kərim Rzaquluyev, Məmməd bəy Şəfibəyov, Hacı Əli Huseyn oğlu), Qəmərlidə 58 oğlan və 2 qız oxuyan məktəb, Aşağı Qoyləsər (1877, 1 sinifli və 83 şagirdi olan bu məktəbin müəllimləri P.Eyvazovun (SMOMPK) "Qafqaz Əraziləri və Xalqlarının Təsvirinə Dair" Toplunun 1884-cü ildəki 4-cü buraxılışın birinci şöbəsinin 284 - 326-cı səhifələrində "Qoylasar kəndi və aysorilər haqqında bəzi məlumatlar" məqaləsində maraqlı mülahizələr soyləyir. Yazıda kəndin etimologiyası ilə bağlı məlumat verilir. Şah Abbas İrəvanı zəbt edənə qədər bu ərazidə hec bir kəndin olmadığına görə əmr edir ki, burada kənd salınsın, yəni kəndin əsası qoyulsun (qoyla+sar). "Qala - asar" hasarlı şəhər və s. "Qala + asar" həqiqətə daha yaxın olduğu söylənilir. Rus-İran müharibəsi dövründə (1827) burada tatarlar (azərbaycanlılar) yaşayıblar. Müharibədən sonra buraya yüz aysor ailəsi köçüb və həmişəlik burada qalıblar. Bir müddət Naxçıvanda, üç il Şuşada yaşadıqdan sonra Yerevan qəzasına köçür (40-cı illərdə) və orada məskunlaşırlar. Provoslav dinini qəbul edirlər. Məqalənin sonrakı səhifələrində Qoylasar kəndinin abidələri, torpaq sahələri, əkinçilik, onların həyat tərzi, ev şəraiti, geyimləri, dili (öz aralarında qədim yəhudi dilinə bənzər dildə, başqa millətlərlə Azərbaycan dilində danışırdılar), aysorların 22 hərfdən ibarət əlifbası, atalar sözləri (Başqasının torpağı cənnətdir, lakin vətən torpağından yaxşı deyil; Özü sərçədir, amma qaz yumurtası yumurtlayır; Canavar özü hürmür, lakin iti hurməyə məcbur edir və s.) toy, yas və başqa mərasim qaydaları və s. haqqında məlumatlar və sonda isə aysor dilində mətnlər verilir [175]. İrəvan quberniyasının İrəvan qəzasında Qoylasar kəndi barədə 1728-ci ilə aid mənbədə Quyulu Hasar, 1988-ci ilə kimi Artaşat rayonunda Güləsər

adlandırıldığı gostərilir. Kənd XIX əsrin I yarısında Aşağı Qoylasar yarandıqdan sonra Yuxarı Qoylasar adlanmışdır. Budaqov B.Ə., Qeybullayev Q.Ə. "Ermənistanda Azərbaycan mənşəli terminlərin izahlı luğəti", s. 281-də "70-ci illərdə buraya xaricdən gələn ermənilər yerləşdirilmişdir 1886-ci ildə kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət olmasından" bəhs edilir.

Rusiya Xalq Maarif Nazirliyinin zemski - kənd məktəblərindən Şərur-Dərələyəz nahiyəsinin Baş Noraşendəki 1885-ci ildə yaradılan, 52 şagirdi olan 2 sinifli məktəbdə (müəllimlər Məmməd bəy Qazıyev, Fərzəli Fərəcullabəy oğlu), Naxçıvanın Cəhri kəndində (1885, 67 oğlan, 7 qız: 74 şagird) Molla Əli Eynalı oğlu, Nehrəm kəndində (1885, 26 şagird) müəllimlərlər Cəlil Məmmədquliyev, Molla Məmmədqulu Əbdulhəsən oğlu, Sadıq Xəlilov, Abbas Kərbəlayi Orüçəli oğlu, Naxçıvan şəhərində 1886-cı ildə 1 sinifli məktəbdə 73 oğlan, 35 qız oxuyan məktəb, Ulya Noraşen kəndində 1 sinifli 46 oğlan oxuyan məktəb, Şahtaxtı kəndində 1888-ci ildə 31 oğlan-şagirdlik məktəbdə müəllimlərlər- İsgəndər bəy Əlibəyov, Axund Hacı Molla Əli Axund Molla Ələsgər oğlu, Əbdulqasım Sultanov, Əbulfət Ağa Şahtaxtınski, Yengicədə, 1852-ci ildə açılmış 2 sinifli, 20 şagird oxuyan məktəbdə Ələkbər Suleymanov, Zeynalabdin Qurbanbəyov, Abdulla Kəngərlinski, ictimai məktəblərdən Böyük Vedidə 1883-cü ildə, 30 şagird üçün açılan məktəbdə müəllimlər Kərim bəy İsmayılov, Molla Məmməd Molla oğlu Hacıyev, Balasultan Şadlinski, İmanşalıda (1883, 40 şagird) Molla Əli Axundov müəllim işləmişlər. Gullüçə kəndində 1885-ci ildə açılan 64 şagird oxuyan məktəbdə, Göyçə mahalının ərazisində yerləşən Yelenovkada, Məzrə kəndində (1884, 39 şagird, müəllim Molla Qurban Əhməd oğlu), Gözəldərədə və Qarxunda (müəllimlər Ələsgər Qazıyev, Molla Səməd Heydər bəy oğlu) və başqa yaşayış yerlərində məktəblər əsasən 1885-ci ildən başlayaraq

fəaliyyət göstərməyə başlamışdır. Rus məktəblərində təhsil alanların da əksəriyyəti imtiyazlı ailələrin (həmin məktəbin uşaqları idi, yoxsulların uşaqları isə geniş yayılmış molla-xanalarda, məscid hüçrələrində dini təhsil alır, ərəb-fars dillərini öyrənirdilər. Yavaş-yavaş Azərbaycanda elmin əsaslarını ana dilində tədris edən məktəblər yaradılırdı. Belə məktəblərdən Şuşada (1874), Uluxanlıda (1880) və İrəvan şəhərində (1882, rus-tatar məktəbi) açılmışdı. 1875-ci ildə "Mışak" qəzeti "...Azərbaycanlıların həyat, məişət və ümumiyyətlə, etnoqrafiyasından, sakinlərin Asiya qaydasında yaşamasından" müqayisələr verərək (1875, 13 fevral, № 6) azərbaycanlıların əsas təhsil ocaqlarının məscid olduğunu qeyd edirdi. "Türklərin təhsili haqqında bir neçə söz" (1888, 13 dekabr, № 142) sərlövhəli yazıda deyilirdi: "Qonşumuz türklər (azərbaycanlılar) öz təhsilləri sahəsində geri qalmışlar.. Onların dərsliklərini Quran və ona bənzər kitablar təşkil edir… Quranda yazılanların heç birinin mənasını onlara izah etmədən əzbər tələb edirlər". "…Türk camaatı təhsil cəhətdən nəinki kəndlərdə, bəlkə İrəvana oxşar şəhərlərdə də acınacaqlı vəziyyətdədir. Belə şəhərlərdə türk xalqının yalnız varlı təbəqəsi uşaqlarını dövlət məktəblərinə verə bilirlər. Orta və yoxsul təbəqə bunu edə bilmir, üzun müddət də edə bilməyəcək. Bunlara türklərin öz xüsusi məktəbləri kömək edə bilərlər. Amma bunun üçün türklərin özlərinin azlıq təşkil edən və hələlik zəif olan ziyalılarının təşəbbüsü lazımdır" [169].

Həqiqətən də, XX əsrin əvvəllərində İrəvan quberniyasında yaşayan azərbaycanlı əhalinin geniş təbəqəsi təhsil almaqdan məhrum idi. Müstəmləkəçilik siyasəti yeridən çar hökuməti yerli mürtəce siniflərin köməyi ilə Azərbaycan xalqını cəhalət və nadanlıq içərisində saxlayırdı. İrəvan quberniyasında azərbaycanlılar üçün birinci məktəb 1880-ci ildə Uluxanlı kəndində açılmışdı. Məktəbdə cəmi 22 şagird oxuyurdu. 1904-cü ildə cəmi 4 ibtidai məktəb açılmışdı. Bu

məktəblərdə isə rus məmurlarının, yerli bəy, xan, tacir və mülkədarların uşaqları oxuyurdular. Sonrakı illərdə İrəvan quberniyasında azərbaycanlı məktəbləri çox zəif inkişaf etmişdi. 1914 - 1915-ci illərədək İbadulla bəy, Mirzə Cabbar, Mirzə Rza, Mirzə Qafar, Mirzə Əli və başqaları tərəfindən 500-dək şagirdi əhatə edən cəmi 30 ibtidai məktəb açılmışdı. Həmin məktəblərlə yanaşı, hec proqramı və tədris planı olmayan məscid məktəbləri – mollaxanalar da vardı. Bu məktəblərdə azərbaycanlı uşaqlara dini dərslər keçirilirdi.

Qızların təhsil məsələsi isə daha pis idi, daha fəlakətli idi. Qara qüvvələr azərbaycanlı qızlarla elm və maarif arasında, məktəb və ictimai həyat arasında uçulmaz sədlər çəkməyə can atırdılar. Bu sədlər çar hökumətinin qoyduğu məhdudiyyətlərdən, köhnə adət və mövhumatdan, cəhalətpərəst valideynlərin cürük görüşlərindən ibarət idi. Azərbaycanlı qızlar arasında təhsil işi tamamilə yarıtmaz idi.

Əsrin sonlarına doğru İrəvan quberniyasının bütün qəsəbə və kəndlərində məktəblər fəaliyyətə (1876-1898) başlamışdır. Azərbaycanda məscidlər nəzdində Rus-Azərbaycan məktəbləri açmaq ideyasının irəli sürülməsi əhali tərəfindən rəğbətlə qarşılanmış, Şuşada, İrəvanda və digər yerlərdə qız məktəbləri yaranmağa başlamışdı. Kərim Soltani kimi maarifpərvər şəxslərin işıqlı niyyətləri nəticəsində quberniyada və İrəvanda azərbaycanlı qızlar üçün də yeni təhsil ocaqları yaradılmışdı. Hacı Həsən Palanı deyilən küçədə açılmış rus-müsəlman qız məktəbi yeni mərhələyə qədəm qoymuş, ikisinifli qız məktəbinə çevrilmişdi. Burada bir çox fənlər öyrədilirdi. Məktəbin müdiri Antonina Valerianovna Kalinina, rus dili müəllimləri Yevgeniya Georgiyevna Pxadze, şəriət və ana dili müəllimləri Məmmədvəli Qəmərlinski bütün səy və biliklərini pedaqoji prosesin nümunəvi qurulmasına yonəltmişdilər. Bu məktəblərdən birinə "Şuşa Nikolayevsk rus-tatar məktəbi" adı [47] verilmişdir. 1875-ci ildən 1900-cu ilədək Müqəddəs Nina Qız

Məktəbində təhsil alan 270 şagirddən isə, cəmi 4 nəfəri azərbaycanlı qız olmuşdu. Bunlardan ikisi natarius İsmayıl bəyin, ikisi isə Ələşrəf bəyin qızları idi [178].

Bülbul Kazımova, Fatma Əlizadə, Kubra ilə Tacxanım Bağırbəyova bacıları, Kövsər İsmayılova, Leyla Fərəcova, Firuzə Qazıyeva, Nuşu Əlixanova, Rübabə İbrahimova, Münəvvər Əlixanova, Gülruh Qədimbəyova və başqaları İrəvan torpağında Azərbaycan maarifinin, mədəniyyətinin ilk qaranquşları idi. Bu məktəbi bitirən qızlardan Bülbül xanım Mehdi Kazımov soyadlı gənc bir oğlanla ailə qurur və ərinin işlədiyi məktəbdə - İrəvan məktəbləri direktorluğunun inspektoru, görkəmli maarifçi, yazıçı Rəşid bəy Əfəndiyevin təqdimatı əsasında müəllimlik fəaliyyətinə başlayır... 1919-cu ildə isə, daşnak hökumətinin terrorçuluq fəaliyyəti yenidən artdığından Azərbaycan məktəbləri bağlanmışdır. Kazımovlar ailəsi də öz yurdlarından didərgin düşüb Gəncəyə pənah gətirmişlər. Burada Cavad bəy Cuvarlının təşkil etdiyi pedaqoji kursda üç ay təhsil alıb biliklərini təkmilləşdirdikdən sonra tale onları Gədəbəyə çəkib aparmışdır. Mehdi Kazımov oğlan məktəbinin müdiri olmuş, Bülbül xanım (1917-1920) isə burada qız məktəbi təşkil etmişdir. Ömrünü bu müqəddəs işə həsr etmiş Bülbül xanım Dəllərdə (1921), Naxçıvanda (1922), İrəvanda (1923-1944) Bakıda fəaliyyət göstərən Əli Bayramov adına Mərkəzi Qadınlar klubu tipində azərbaycanlı qadınlarının mədəniyyət mərkəzlərini təşkil edir, savad kursları, uşaq bağçaları yaradır, müdir olaraq təhsil görmüş qadınları ictimai işlərə cəlb edir, adı çəkilən mədəniyyət ocaqlarının işini istiqamətləndirirdi. Xüsusilə, İrəvandakı klub uzun müddət yüzlərlə azərbaycanlı qadınının mədəni həyata atılmasında, təhsil almasında böyük rol oynamış, onların azadlığı və hüquqlarının qorunmasında məqsədli fəaliyyət göstərmişdir.

Böyük Vətən müharibəsindən sonrakı illərdə Ermənistanda baş qaldıran millətçilik hərəkatı azərbaycanlılarla bağlı

olan mədəni-maarif ocaqlarının, bir çox təhsil müəssisələrinin bağlanmasına, minlərlə günahsız azərbaycanlı ailəsinin dədə-baba yurdlarından məcburi köçürülməsinə səbəb olmuşdur. Bir vaxtlar İrəvan, Naxçıvan və Maku xanlıqlarının yadigarları olan soyadların, nəsillərin, köklərin aparıcı şəxsiyyətləri ailəliklə pərən-pərən düşərək, müxtəlif yad ərazilərdə yaşamaqla, tədricən tarixin izlərinin silinməsini qəlblərində ağır bir yük kimi daşımışlar.

İrəvan quberniyasında təhsil görmüş əsilzadələr kimi tanınan Abbasqulu xan İrəvanski, Şükür xan, Abdulla xan, Pənah xan Makinskilər, İsmayıl bəy Qazıyev, Mirzə Cabbar Qazıyev, Hacı bəy Bağırbəyov, Əsəd bəy, Balasultan Şadlınski və saymaqla bitməyən qollu-budaqlı nəsillərin taleyinə ictimai haqsızlığın yazdığı amansız hökmlər: əsassız sıxışdırmalar, təqiblər, işgəncələr, qərəzli qətllər, sürgünlər, həbslər, bütün bu kimi amansızlıqlar dünya sussa da, tarixin susmayan səhifələrindən baş qaldırır.

Erməni millətçiləri, xaricdəki havadarlarına güvənərək Ermənistanda yaşayan azərbaycanlıları illər uzunu əziyyət etmiş, dəfələrlə dədə-baba yurdlarında qan gölündə boğmuşlar. Nəticədə, qədim İrəvan xanlığının torpaqları daşnakların əlinə keçmiş, Azərbaycan türklərinə aid olan mədəniyyət ocaqları, məktəblər bağlanmış, abidələr dağıdılmış, bir sözlə, xalqımızın əsrlər boyu yaratdığı maddi mədəniyyəti-mizə ciddi ziyan vurmuşlar. Çoxsaylı ailələrin taleyinə qürbətdə yaşamaq, başqa ölkələrdə vətən həsrəti ilə əbədiyyətə qovuşmaq yazılmışdır. İrəvanda yaşayan əsilzadələrdən İsmayıl bəy Qazıyev də bunlardan biri olmuşdur.

İsmayıl bəy Qazıyev Tiflisdə gimnaziya təhsili almış, bir çox mühim dövlət qulluqlarında işlədikdən sonra, 1904-cu ildə İrəvan qubernatorunun müavini təyin olunmuşdur. O, XIX əsrin 70-ci illərində quberniyanın Qadın Xeyriyyə Cəmiyyətində fəal təşkilatçılardan biri kimi həyat yoldaşı Dürrətül xanımla birgə

məqsədyönlü iş aparmışlar. Lakin İrəvanda yaşanan qanlı hadisələr bu nəsillərin; Qazıyevlər və Bağırbəyovlar Türkiyənin Qars, Ərdəhan obalarına pənah aparmasına səbəb olmuşlar. Onlar burada da vəziyyət ağır olduğundan yenidən Tiflisə, sonra Gəncəyə qaçmış, sonunda da Bakıda qərar tutmuşlar... Azərbaycanın ziyalı ailələri İrəvan müsibətlərinin ağır dəhşətlərini görmüş, canlı şahidləri kimi ömürlərinin sonunadək bu dəhşətləri unuda bilməmişlər. Daşnaklar İrəvanda Qədimbəyovlar ailəsinin üç cavan oğlunu qanına qəltan etmişlər. Azğınlaşmış quldurların balaca uşaqları süngüdən keçirdiklərini, qır qazanına atdıqlarını gözləri ilə görmüş Qədimbəyovların qalan üzvləri şəhəri tərk etmişlər. 17 yaşlı Gülruh bu dəhşətlərin ağrılarını ömrü boyu yaşaya-yaşaya elmi-pedaqoji sahədə təşkilatçı qadınların öncüllərindən biri olmuşdur.

3. "İrəvanilər" və İrəvan şairləri haqqında

Dissertasiyada İrəvan ədəbi mühitinin formalaşmasında əvəzedilməz xidmətləri olan "İrəvanilər" və İrəvan şairləri haqqında Məhəmmədəli Tərbiyətin "Danişməndani – Azərbaycan" əsərindən ümumiləşdirilən bir çox yaradıcı şəxslər barədə geniş oxuçu kütləsinə məlumat verməyi məqsədəuyğun sayırıq. İrəvan əyanları ailəsindən olan Hacı Molla Məhəmməd İrəvani (1763-1817) böyük din xadimi olmuşdur. İslam dininin məşhur bilicisi kimi tanınmış Hacı Molla Məhəmməd İrəvani əvvəlcə İrəvanda, sonra Nəcəfdə dini təhsil almış, sonra vətənə qayıtmış çox keçmədən İrəvanda Şeyxulislam vəzifəsinə qədər yüksəlmişdir.

İrəvani nisbəli digər bir məşhur da Daniş Mirzə Rzaxan İrəvanidir ki, o, ləqəbi Ərfəüddövlə olan, Daniş Hacı Huseyn İrəvaninin oğludur. Daniş Mirzə Rzaxan İrəvani 1853-cü ildə Təbrizdə anadan olmuş, orada təhsilini başa vuraraq dövlət işlərində çalışmışdır. Diplomat kimi İran Dövlətinin Tiflisdə,

Peterburqda, İstanbulda konsulu və səfiri olmuşdur. Mirzə Rzaxan Daniş 1899-cu ildə Lahə konfransında İran Dövlətini təmsil etmişdir. O, dünyada ümumi sülhün bərpa edilməsi, insan ömrünün uzadılması və fars əlifbasının izahı haqqında nəzm və nəsrlə kiçik və böyük əsərlər yazmışdır. O, "Müntəxəbati - Daniş" kitabının muəllifidir. Əsər 1888-ci ildə çap edilmişdi. Mirzə Rzaxan Danişin geniş tərcümeyi-halını yazmış Fətullaxan Şeybani onu yüksək qiymətləndirmişdir. Tehranda çıxan "Şərəf" qəzetində onun portreti verilmiş və fəaliyyəti işıqlandırılmışdır.

Nisbəsindən də göründüyü kimi, Mirzə Rzaxanın atası Daniş Hacı Hüseyn İrəvani XIX əsrin ortalarında İrəvanda doğulmuşdur. Ərfəüddovlə təxəllüsü ilə şeirlər yazmışdır. Gənc yaşlarından Təbrizə oxumağa getmiş Daniş Hacı Huseyn İrəvani həmişəlik orada yaşamışdır.

1813-cü ildə İrəvan mahalında anadan olan **İrəvani Mirzə İsmayıl Aşub** (1813-1881) XIII əsrin İrəvan şairlərindən olub. Təhsilini davam etdirmək üçün 1834-cü ildə Nəcəfə getmişdir. Orada bədii yaradıcılıqla məşğul olmuş **İrəvani Aşub Fətəli** şaha mədhiyyələr yazmışdır. O, günbəz binasının tarixi və Huseyn xan (Fətəli şahın kürəkəni və İrəvan hakimi), onun qardaşı Həsən xan tərəfindən tikilmiş Müslümün oğlanlarının məzarının üstündə aşağıdakı xronoqrammanı deyib:

Asiman saraylı xaqanın dövlətçiliyi dövründə,
Cəsarətli şəhriyarın dünyada olduğu günlərdə,
Aşubun qələmi onun tarixini yazdı...
(Huseyn və Həsən səadətin əsası oldu)

İrəvani Aşub 1876-cı ildə vətəninə qayıtmış, 1881-ci ildə 63 yaşında vəfat etmişdir. Ümumiyyətlə, İrəvandan xeyli sayda şair çıxmış və onlar şeirlərini əsasən, Azərbaycan və fars dilində yazmışlar. Onların arasında ərəb dilində yazanlar da var (Əvvəlki səhifələrdə həmin şairlərin bir neçəsinin adı və şeirlərindən nümunələrlə tanış olmuşuq). Bu **şairlər Aşuftə**

İrəvani, Bidil İrəvani, Çeşmə İrəvani, Höccət İrəvani, Hərif İrəvani, Dəlil İrəvani, Şakir İrəvani, Fəxri İrəvani, Qabil İrəvani, Qüdsi İrəvani, Nazim İrəvani və başqalarıdır. Bunlardan üçü Çeşmə, İrəvani təxəllüslü Rzaqulu xan, Qabil İrəvani təxəllüslü Huseynəli xan, Şəhab İrəvani təxəllüslü Həsən xan Məhəmməd xan Qaçar İrəvaninin oğlanlarından idi. **Çeşmə və Qabil İrəvani** Fətəli şahın oğlu Mahmud Mirzənin yaxın qohumları arasında idilər. Şəhab İrəvani isə Fətəli şahın digər oğlu Rukn - ül dövlə adlanan Molla Zaman Əlinağı Mirzənin nəslindən idi.

XIX əsr şairlərindən olub, Bidil təxəllüsu ilə şeirlər yazmış Bidil İrəvaninin, əsl adı Paşaxan olub. İrəvanın əsl zadəganlarındandır. Onun məhəbbət mövzusunda yazdığı aşağıdakı misralarda şair sevgilisinin əhdinə vəfalı olmasını arzulayır, onu behiştin bəzəyi adlandırır:

Qəmzəndə və bütün hüsnündə çox fitnə var,
Kaş ki, əhdində davamlı olaydın.
Oturdun və oturmağınla behişti bəzədin,
Qalxdın qiyaməti əyan etdin və qiyamət yaratdın.
Əgər sənin billur əlindən bir cam içsəm,
Nəhayətsiz məst olub, məhşər gününədək özümə gələ bilmərəm.

Rzaqulu İrəvani isə Fətəli şahın oğlu Mahmud Mirzənin əmirlərindən olan Məhəmməd xan Qaçar İrəvaninin oğlu idi. İllərlə Nəhavənddə onun xidmətçilərinin başında olmuş, ahəngdar və xəlqi təbə, xoş rəftara malik olub, hörmət və izzətlə yaşayan Çeşmə İrəvani aşağıdakı nümunədə sevgilisini dilbər adlandırır, qəmini, kədərini qəlbindən çıxarmasını istəyir. Sətri tərcüməsi aşağıdakı kimidir:

Əgər bu dilbər mənə mehribandırsa,
Asimanın mehriban olmaması da kədərli deyil.
Qəlbimdən çıx, ey qəm, çünki bu gecə
Cananın vəsl məsələsi var ortalıqda.

Fətəli şah Qaçar dövrünün şairlərindən biri də Dəlil İrəvanidir. Şahı mədh edən bir qəsidəsində və onun bir yerində İrəvan hakimi Huseyn xanın bünövrəsini qoyduğu İrəvan məscidinin binasının tikilməsi tarixinə işarə edən **Dəlil İrəvani** yazır:

İndi İrəvanda da onlardan yadigar qalıb,
Bu mina üzlü məscidin binası.
Dəlil onun tarixindən ilham alıb yazıb yaratdı,
Onlar xeyirxahlığından bir məscid binası uçaldı.

Dəlil İrəvani Fətəli şahın mədhinə həsr etdiyi həmin qəsidədə İrəvan şəhərindəki məscidin təmir edilməsi tarixini də göstərmişdir (Öz işan məscidi nikust bərpa: hicri qəməri 1238).

"Bina tarixini Dəlil rəqəmə saldı,
Ondan tarixə bir məscid binası qaldı."

Şakir təxəllüsü ilə şeirlər yazan Şeyx Musa İrəvani daha çox "Kor" ləqəbi ilə məşhur olub. XIV əsrin söz sahiblərindən olan şair Şakir İrəvani xoş avazlı vaiz, şirin dilli natiq və bir qədər çopur adam olub. Hər iki gözdən məhrum olan Şakir İrəvani güclü hafizəyə malik olub. Çillə plovu və badımcanı sevən şair deyilənə görə öz-özünə aşağıdakı beyti zümzümə edərmiş:

Canım kimi sevdiyim yeməklər
Çillə, cüçə və badımcandır.

Məhəmməd xan Qaçar İrəvaninin oğlu Həsən xan cavanlıqda yaxşı rəftarı ilə seçilib və fənləri kamil öyrənib. **Məhəmməd Mirzə Şəhab İrəvan**i haqqında yazır ki, cavanlıqda Əli Nağı Mirzənin yaxın ətrafına düşüb və indi də (qəməri 1240) həmin şəxsin yanında layiqli izzət və hörmət sahibidir. Onların səyi nəticəsində qəzəl yaradıcılığında xeyli qabağa gedib. Mahmud Mirzəni mədh eləyən şeirində deyir:

"Zülfün üzündə oddan çıxan tüstüyə bənzər,
Ey hökmdar, sənin tüstündən göz yaşarır."

İrəvani nisbəsi ilə yazanlardan biri də **Qabil İrəvanidir**

ki, o, Məhəmməd xan Qaçarın oğlu, **Çeşmə və Şəhab İrəvanilərin** qardaşı olan Huseynəli Mahmud Mİrzənin müasirlərindən və yaxınlarındandır. Onun məhəbbət mövzusunda yazdığı bir şeirində sevgilisinin gözəlliyindən, hörüklərinin rayihəsindən divanə olduğunu dilə gətirərək yazır:

Sənin zülmlərindən çox gileyim var,
Bizim gileyimiz çox, sizin hövsələniz.
O uzun hörüklərdən təkcə mən həyəcanlı deyiləm,
Bu hörüklərin mənim kimi divanə etdiyi insanlar çoxdur.

Abbasqulu xan Cavanşirin oğlunun yaveri olan Əli Əkbər xanın oğlu Əli xan İrana İrəvandan köçmüş, Nəsrəddin şahın yaxınlarından ola bilmişdi. Bir müddət xarici işlər naziri, bir müddət isə ədliyyə naziri olmuşdu. Əli Əkbər xan Təbrizdə məskunlaşmış, sonra Herata göndərilmişdir. Heratdan qayıtdıqdan sonra Tehrana gəlmiş, burada vəfat etmişdi. Əli xan Tehranda doğulmuş, fars dili üzrə təhsil aldıqdan sonra orduda işə girərək, dövlət xidməti ilə məşğul olmuşdu. Polkovnik rütbəsinə yüksəldikdən sonra bir müddət rus səfirliyinin mühafizəsinə başçılıq etmişdi. Sonra qoşun hissələri dağıdıldığına görə, kazak idarəsinə daxil olmuş, orada bir müddət hərbi fənlərin təlimi ilə məşğul olmuş, tədricən sultanlıq rütbəsinə yüksəlmişdi. Dəfələrlə Ərdəbil və Qaracadağa ezam olunaraq orada öz vəzifəsini yerinə yetirmişdi. Bundan sonra ingilis səfirliyinin mühafizəsinə rəhbərliyə cəlb edilmiş və altı il həmin vəzifədə çalışmışdı. Daha sonra qoşun komandanlığının baş müşavirlər idarəsində xidmətini davam etdirmişdir. Nazim İrəvani yaradıcılıqla da məşğul olmuş, qəzəllər yazmışdır. Şeirlərindən birində sevgilisini güllə müqayisə edən şair yazır:

Hə münasibətlə sənin ətrini gülə veriblər,
Məgər onlar sənin gözəl üzünü görməyiblər.
Gülə de ki, nə üzünün rəngi ilə fəxr eləyirsən,
Bir külək əsər sənin üzünün suyunu aparar.

Əgər qiyamət günü Hazim torpaqdan qalxsa,
Birinci səni axtarmaq fikrinə düşər.

(Tərcümeyi-hallar və ixtisarla verilmiş İrəvan şeir nümunələri Əziz Dövlətabadinin "Qafqazda fars şeiri" kitabından götürülüb).

Aşüftə ("vurğun") təxəllüsu ilə şeirlər yazan Kəlbəhuseynbəy (?-?) də İrəvan əyanları ailəsindəndir. O, İrəvanın şeyxülislamı olmuş, Fazil İrəvani kimi tanınan Hacı Molla Məhəmməd İrəvaninin qardaşı oğlu idi. Aşüftə Tehranda Zillisultan Əlişahla dostluq etmişdir. Onun poeziya nəzəriyyəsi sahəsində müsahibə və müşahidələri diqqəti cəlb etmişdir. Aşüftə öz dövründə rəftarı, cəlbedici və məlahətli söhbəti, habelə, gözəl görkəmi və daxili saflığı ilə tanınmışdır. Aşüftə Kəlbəhuseyn bəyin dərin məzmunlu, ürəyə yatan şeirləri hələ özünün sağlığında dillər əzbəri olmuşdur. Aşüftənin şeirlərindən aşağıdakı nümunələrə diqqət yetirək:

Qılıncın altındayam, istərəm bir baxasan,
Qorxuram qiyamətdə məndən utanasan.
İncitmə məni, öldür, əgər layiq deyiləm qəfəsinə,
Ölərəm mən, düşərsən tordakı quşlar tənəsinə!
Yalvarıram mən dilbərə, öpüş verib al canı,
Dedi Məcnun olmusan, buna zaminin hanı?

Deyilənlərə görə, cavanlığında Tehrana gələrək Zilli-Sultanəlişahın mehribanlığı və kəraməti altında ömür sürmüş **Aşüftənin** gözəl və lətafətli nitqinə müasirləri həsəd çəkirmiş. Onun haqqında ən geniş məlumat "Təzkireyi-Dilguşə" toplusunda cəmlənmişdir (Dəlil İrəvani və digər İrəvanilər barədə məlumatlar M.Tərbiyətin 1987-ci ildə nəşr edilən "Danışməndani-Azərbaycan": Azərbaycanın görkəmli elm və sənət adamları" toplusunun 35, 77, 110, 189, 345-ci səhifələrində verilmişdir).

Tarixi Azərbaycan torpağı olan İrəvan şəhəri eyni zamanda bir çox müsəlman alimlərinin vətəni olmuşdur ki,

bunlardan biri də **Fazil İrəvanidir**. “Fazil İrəvani” kimi tanınan Molla Məhəmməd ibn Məhəmməd Bağır 1782-ci ildə qədim İrəvan şəhərində anadan olmuşdur. Fazil İrəvani burada ilk ibtidai dini təhsilini aldıqdan sonra biliklərini təkmilləşdirmək üçün İraqa - Kərbəla şəhərinə gedərək burada təhsilini davam etdirir. 4 il ərzində onun əsas müəllimləri “Zavabitül-üsul” kitabının muəllifi Seyid İbrahim Musəvi Qəzvini (təxminən 1846-cı ildə vəfat edib) olmuşdur. Fazil İrəvani bu müddət ərzində müsəlman hüququnun incəliklərini və üsullarını mənimsəmişdir. Sonradan F. İrəvani cəfəri təriqətinin elmi paytaxtı hesab edilən Nəcəf şəhərinə köçmüş, burada böyük müctəhidlərin dərslərinə qatılmışdır. Şeyx Həsən Kaşiful-Gita (1846-ci ildə vəfat edib), ”Cəvahirül-kəlam” kitabının müəllifi Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfi (1850-ci ildə vəfat edib) və müctəhidlərin şeyxi Murtuza Ənsari (1799-1864) kimi elm nəhəngləri Fazil İrəvaninin biliklərini lazımi istiqamətə yönəltmiş, onun qabiliyyətli müçtəhid olmasına nail olmuşlar. Tarixçilərin yazdığına görə, Fazil İrəvani təhsilinin son mərhələsində yalnız Şeyx Ənsarinin dərslərində iştirak edirmiş. Uzunmüddətli təhsil və araşdırmadan sonra o, öz müəllimlərləri Şeyx Murtuza Ənsari və Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfinin razılığı ilə özünü hərtərəfli müctəhid kimi göstərə bilmiş, Nəcəf şəhərindəki elmi mərkəzdə dərs verməklə, müxtəlif elmi mövzularda mühazirələr oxumuşdur. XIX əsrdə yaşayan, ensiklopedik biliyə, bəlağətli nitq qabiliyyətinə malik olan Fazil İrəvaninin Müsəlman hüququndan verdiyi dərslər məzmun və əhatəsinə görə çox yüksək qiymətləndirilmişdir.

Fazil İrəvani həm də Qafqazın ilk Şeyxülislamlarından biridir. İlk təhsilini molla məktəbində almış, 20 yaşında Qahirənin “Əl-Əzhər” universitetində ali dini təhsil almaq üçün göndərilmişdir. Təbrizin şeyxulislamı Hacı Mirzə Mahmudun (1892-ci ildə vəfat etmişdi) onun yetişməsində xüsusi rol

oynamışdır. Təhsilini başa vurduqdan sonra təxminən 25 il Qahirənin din xadimləri ilə çiyin-çiyinə çalışan bu görkəmli ilahiyyatçı İrana qayıtmış, Təbriz və İsfahan şəhərlərinin məscidlərində şeyxlik etmişdir. Fazil İrəvani gənc nəslə islam dininin incəliklərini öyrətməklə yanaşı, yaradıcılıqla da ciddi məşğul olmuşdur. Onun qədim Şərq tarixinə, dini fəlsəfəyə, müsəlman dünyasının milli adət-ənənələrinə aid yazdığı qiymətli məqalələri təkcə İranda deyil, digər Yaxın Şərq ölkələrində də müəllifinə böyük nüfuz qazandırmışdır. Doğma yurdunu özünə əbədi məbədgah sayan, daim öz əzizlərinin xiffətini çəkən Fazil İrəvani bir neçə ildən sonra öz ana yurduna qayıtmış və İrəvandakı Göy məscidin şeyxi vəzifəsində çalışmışdır [54]. Dini elmlərə, Şərq tarixinə və fəlsəfəsinə mükəmməl bələd olan Fazil İrəvani 1843-cü ildə müctəhid rütbəsi kimi yüksək elmi dərəcəyə layiq görülüb, Qafqaz Müsəlmanarı Şiə Ruhani İdarəsi sədrinin müavini vəzifəsinə irəli çəkilir. 1846-cı ildə isə Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin sədri və şeyxülislamı seçilir. Qafqaz regionunda yeni dini məktəb və mədrəsələrin yaradılması, gənc nəslin bütün dinlərə hörmət və ehtiram tərbiyə edilməsi, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq Qafqazda yaşayan bütün millətləri vahid bir ailənin üzvləri kimi yaşayıb-yaratmağa, dostluq və qardaşlığa dəvət etmək sahəsindəki uğurlu fəaliyyəti və xeyirxah əməllər çarçısı kimi tanınması Rusiya və İran dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Axund Fazil İrəvani bir sıra qiymətli ədəbi, tarixi və dini əsərlərin də muəllifidir. Həmin əsərlərin bəziləri müxtəlif dillərə tərcümə olunaraq İrəvanda, Təbrizdə, Sankt-Peterburqda, Berlində, Parisdə nəşr edilmişdir. Görkəmli alimin "Kitabi-Təharət" ("Paklıq kitabı") əsəri 1883-cü ildə Təbrizdə çap olunub. Kitab Molla Əhməd Küzəkunanın tapşırığı ilə tacir Həsən Məhəmməd Mehdi Küzəkunanı tərəfindən fars dilində çap edilmişdir (20, 17.)

Tədqiqatçıların fikrincə, onun əlyazma şəklində "Tarixi-İrəvan" adlı əsəri də olmuşdur. Təəssüf ki, həmin əlyazma tapılmamış, erməni şovinistləri tərəfindən məhv edilmiş, ya da başqa ad altında Ermənistanın arxivlərində saxlanılmışdır. Fazil İrəvani gənc yaşlarında "Qızılgül və bülbül" adlı bir povest də yazıb, əlyazması şəklində saxlanılıb. 1812-ci ildə Sankt-Peterburqda eyni adda iki kitab çap olunub. Erməni dilində kitabın adı "Qızılgül və bülbül haqqında əxlaqi roman", rus dilində nəşr olunan kitab isə "Qızılgül və bulbul haqqında alleqorik povest" adlanır. Torpaqlarımız, milli-mənəvi dəyərlərimiz kimi, oğurluğa adətkərdə olmuş ermənilər Fazil İrəvaninin əsərinə də göz dikmişlər. "Qızılgül və bülbül"ün müəllifi guya saray müşaviri, İrəvanlı Xocens Markar Geqamyandır. 1826-cı ildə "Qızılgül və bülbül" Parisdə Azərbaycan dilində çap olunub. Çox keçmədən Vayya de Floribal adlı bir şəxs bu dəfə kitabı fransız dilinə çevirib və 1832-1833-cü illərdə iki dəfə çap etdirib. Bir qədər sonra isə Józef Fon Hammer əsəri alman dilinə çevirib. "Qızılgül və bülbül" 1892-ci ildə alman dilində çap olunaraq, İrəvanlı Xocens Markar Geqamyanın "orijinal əsəri" kimi erməni, rus, fransız, alman oxuçularına təqdim edilib. Fransız tədqiqatçısı Vayya de Floribal 1892-ci ildə bu məsələyə aydınlıq gətirərək bildirir ki, "Qızılgül və bülbül" türk müəllifi Fazil İrəvaninin əsəridir. Xocens Markar sadəcə olaraq onu erməni və rus dillərinə tərcümə edəndən sonra "öz əsəri" kimi çap etdirmiş, dünya oxuçularını çaşdırmışdır. Kitabın əsl müəllifi bəlli olduqdan sonra belə, ermənilər utanmadan "Qızılgül və bülbül"ü 1950-ci ildə yenə də erməni [106, 203] müəllifinin əsəri kimi Freznada (ABŞ) çap etdirmişlər." Beləliklə, Geqamyan plagiatlıq edərək əsəri öz adına çıxıb. Sonradan ermənilərin özləri tərəfindən etiraf edilib ki, "Qızılgül və bülbül" povesti X.M.Geqamyanın yox, Fazil İrəvaninindir [136]. Əsəri xaricdə yaşayan ermənilərin ləhcəsinə çevirib hissə-hissə "Anahit" jurnalında

çap etdirən erməni Arşad Çobanyan da "Qızılgül və bülbül" "povestinin Fazil İrəvaniyə məxsus olduğunu bildirib.

Beləliklə, Markar Geqamyan ifşa olunub. Fazil İrəvaninin "Qızılgül və bülbül" əsərinin orijinalı Matenadaranda – M.Maştos adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır. İrəvanda yerləşən bu institutun Şərq ədəbiyyatı şöbəsində 28 vərəqlik Azərbaycan dilində olan 222 nömrəli əlyazmanın da üzü Fazil İrəvani tərəfindən köçürülüb. Həmin məcmuədə Azərbaycan şairlərinin şeirləri və deyişmələri toplanıb.

1871-ci ildə Lənkəranda müəllim işləyən şair Mirzə İsmayıl Qasir (1805-1900) və məhkəmə katibi və Sadıq bəy Mehmandarov ağır ehtiyac içində yaşayan əhaliyə şəhərin Forştat hissəsində məskunlaşmış rusların və almanların əkdikləri kartofdan yemələrini məsləhət gördüklərinə görə ruhanilər onların hər ikisinin Lənkərandan qovulması barədə qərar çıxarırlar. Başqa əcnəbi millətlərin becərdiyi kartofu murdar adlandıran savadsız ruhanilər şair Qasiri və hüquqşunas Sadıq bəyi kafir adlandırır və kartofdan istifadəni camaata qadağan edirlər. Mirzə İsmayıl Qasir və Sadıq bəy bu barədə məktubla Qafqaz şeyxülislamı Fazil İrəvaniyə müraciət edirlər. O, qərarı ləğv etməklə, hər iki ziyalının müdafiə edir.

Şeyxulislam 1872-ci ilin dekabrında tutduğu vəzifədən istefa verir və İrəvan şəhərinə köçur. İrəvanda olan məşhur "Şeyxulislam məhəlləsi" erməni-Azərbaycan münaqişəsi başlayanadək o böyük şəxsiyyətin – Fazil İrəvaninin adını daşıyıb.

Axund Fazil İrəvaninin ən böyük xidmətlərindən biri də onun çoxlu tələbə yetişdirməsidir. O dövrdə Təbrizin şeyxulislamı, tanınmış alim Hacı Mirzə Məhəmməd (M.Tərbiyyət, s. 95), həmcinin bütün Qafqazda və İranda məşhur olan alim və tarixçi Mühəqqiq İrəvani də Fazil İrəvaninin yetirmələrindəndir.

İrəvani Fazil çətin hadisələrin ətraflı izah edilməsi sahəsində daha çox tanınırdı. Təbriz şəhərinin dörd yüz səksən

il ərzində ardıcıl şeyxülislamı olan nəslin axırıncı şeyxülislamının təhsil alması belə Fazil İrəvaniyə həvalə edilmişdir. Onun həyatı, yaradıcılığı barədə hələ sağlığında yazan biblioqraflar Fazil İrəvaninin ağıllı, bilikli, elmləri bilən adam kimi istinad mənbəyi olduğunu qeyd etmişlər. Onun intellektual, rəvayətlər, hekayətlər və povestlər yazan, elmi biliklər üzrə peşəkar və məlumatlı, görkəmli alim olduğunu heç kim inkar etməmiş, müasirləri; Şeyx Məhəmmədhəsən Mamaqani (1822-1905) onun yüksək insani keyfiyyətlərini səciyyələndirərək yazmışdır: "Nə qədər ki, Ayətullah Fazil İrəvani sağdır, mənə fitva vermək üçün yaxınlaşmayın, onun qarşısında öz fikrimizi demək bizə yaraşmaz." F. İrəvani ömrü boyu islam maarifçiliyinin yayılmasına çalışmış, son pulunu qəpiyinədək təhsil alan tələbələrə xərcləməyi özünə böyük şərəf saymışdır [54]. Görkəmli ədib, alim və ictimai xadim Fazil İrəvani 1888-ci ilin noyabrında Nəcəf şəhərində vəfat etmiş, orada da dəfn olunmuşdur. Təəssüf doğuran odur ki, indiyədək Azərbaycan tarixindən və ədəbiyyatından bəhs edən kitablarda bu görkəmli şəxsiyyətin adına yalnız epizodik hal kimi rast gəlinir [193].

İrəvani nisbəsi ilə tanınan, məntiq və fəlsəfə, habelə ilahiyyat və ürfan sahəsində dərin biliyə malik alimlərdən biri də Əbdülqasim ibn Mirzə Məhəmməddir (1747 - İrəvan). O, Əbdülqasim Abbas Mirzə Naibüssəltənə zamanında məşhur həkimlərdən biri olmuş Həkim Mirzə Məhəmməd İrəvaninin oğludur. İrəvani Əbdülqasim 1821-ci ildə Təbrizdə 74 yaşında vəfat etmiş və Seyid Həmzə qəbiristanlığında dəfn edilmişdir. İlahiyyat və ürfan elmləri sahəsindəki şöhrəti Əbdülqasim İrəvaniyə imkan vermişdi ki, "Şəhri-kəbir" əsərinin müəllifi olan Ağa Seyidzadədən müctəhidlik icazənaməsi alsın.

İrəvani Molla Məhəmməd də XIX əsrdə yaşamış ilahiyyat alimlərindəndir. O, 1824-cu ildə İrəvanda doğulmuş, ilk təhsilini burada almış, təhsilini davam etdirmək üçün Təbrizə getmiş, orada yaşamışdır. Çox qısa vaxtda məşhur

ilahiyyat alimi kimi tanınmışdır. Əhməd Küzəngunani kimi adlı-sanlı alimin müəllimləri olmuş, ona alim dərəcəsi almağa rəy vermişdir. İrəvanda doğulub, böyümüş, sonrakı həyatı Təbrizlə bağlı olanlardan bir də İrəvani Hacı Ağa Mirzədir.

1804-cü ildə, İrəvan əyanları ailəsində anadan olmuş İrəvani Hacı Ağa Mirzə bir müddət doğulduğu şəhərdə yaşayıb işlədikdən sonra Təbrizə getmişdir. **Oğlu Ləli Mirzə Əlixan İrəvanin**in təhsili məqsədilə Təbrizdə qalmış, 1875-ci ildə vəfat etmişdir. Azərbaycanın elm və mədəniyyət xadimlərindən olan İrəvani-Təbrizi Mollabaşı Hacı Mirzə Əbdülkərim (1809-1877) isə, əruz elmi, qafiyə və fars dilinin qrammatikası barəsində əsərlər yazmışdır. Lakin son əsəri əlyazması şəklindədir ("Danişməndani Azərbaycan").

XIX əsrdə yaşamış şair Müznib Fətəli İbn Hacı Həsən isə İrəvani və Təbrizi nisbələrini birlikdə istifadə etmişdir. Daha çox İrəvani adı ilə məşhur olmuşdur. Müznib Fətəli İbn Hacı Həsən İrəvani 1833-cü ildə məşhur şair və münşilərin şeirlərindən, nəsr əsərlərindən, eləcə də öz şeirlərindən ibarət bir məcmuə tərtib etmişdir. Həmin toplunun əlyazması Məhəmmədəli Tərbiyətdə qalmışdır. M.Tərbiyət yazır ki, mən Fətəli Təbrizinin (İrəvaninin) min beytdən ibarət divanını da görmüşəm ("Danişməndani Azərbaycan", 230). Aşağıda verilən beyt onun əsərindəndir:

"Fələk etmişdir bostanda ürəyi qanlı laləni,
Odur ki, ürək qanı ilə o doldurmuş piyaləni."

Maraqlı bənzətmələr yaratmış, şair sevgilisinin həsrətindən ürəyinin yaralı olduğunu təsirli bir dillə ifadə etməyə çalışmışdır.

Ümumiyyətlə, İrəvanda doğulan və İrəvani nisbəsi ilə yazıb-yaradan şairlər çoxdur. Firudin bəy Köçərli bu haqda İrəvan şairlərindən yazdığı qeydlərində 1827-ci ilin sentyabr ayının sonunda İrəvan şəhərinin Paskevic tərəfindən Rus dövlətinə tabe olunmasına xalqın məcbur edilməsi barədə verdiyi

açıqlamada bildirir ki, "Şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, fazil və şüəra olub, Axund **Molla Məhəmməd İrəvani** kimi böyük alim və müçtəhidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır. Elm və mərifət əshalı varsa da, onların ədədi (sayı) avama nisbət çox azdır, yoxluq mənziləsindədir.

"Bəzmi" təxəllüsu ilə yazan **Məşhədi İsmayıl Hacı Kazımzadə (1846-1888)** də İrəvan şairlərindəndir. İrəvanın varlı və zəngin tacirlərindən və istedadlı şəxslərindən olan Məşhədi İsmayıl Hacı Kazımzadə "Bəzmi" İrəvan şəhərində anadan olub. Həddi-buluğa çatanadək ev tərbiyəsi alıb, sonradan XIX əsr Azərbaycan şairi, jurnalisti və maarif xadimi Mirzə Məhəmməd Tağı Naxçıvanskinin (1854-1904) məktəbində təhsil almağa başlayıb. Öz fitri istedadı sayəsində az vaxtda fars və türk dillərini dərindən mənimsəyib.

Məşhədi İsmayıl "Bəzmi" ömrünün çoxunu tiçarətlə məşğul olub, bu dövrdə istedadlı və şirindilli olduğuna görə müasirləri olan zadəgan tay-tuşları arasında tanınan şairlər sırasında əziz və hörmətli şəxslərdən olub. Ömrünün sonuna iyirmi il qalmış tiçarət işləri yaxşı getmədiyindən ondan əl çəkib, məktəb açaraq müəllimliklə məşğul olub, eyni zamanda, İrəvan şəhər məktəbində elmi-ilahi və türki - lisani müəllimi işləyib. Məşhədi İsmayıl "Bəzmi" haqqında F.Köçərli yazır: "1885-ci ildə mən İrəvan gimnaziyasına Azərbaycan dili müəllimi təyin olunan vaxtlarda Mirzə İsmayılla tanış olub, onun tədris üsulları ilə tanışlıq üçün məktəbinə gedib, onun uşaqların təlimi ilə hədsiz şövqlə məşğul olduğunu görüb, onunla yaxınlaşmağa və dostluq əlaqəsində olmağa səy göstərərdim. Cifayda əcəl fürsət vermədi, o cənabın dostluğundan bizi mərhum eylədi və ona əcəl şərbətini içirtdi." Firudin bəy qeyd edir ki, **Məşhədi İsmayıl "Bəzmi"** məktəblərimizdə dədə-babadan işlənən köhnə qayda üzrə dərs verməyin qüsurunu anlayıb yeni üsul ilə təlim vermək üçün özü təzə bir əlifba tərtib etmişdi. Amma

mərhumun bu işi nə qədər əhəmiyyətli və xeyirli idisə də, köhnə qaydanı sevən və işıqdan bixəbər olan avamlara o, xoş gəlmədi. Mərhumun təzə əlifbası avam və qərazkarların dilində gülünc və istehza üçün bir alət oldu. Ancaq Məşhədi İsmayıl "Bəzmi" bu istehza və kinayələrə əsla əhəmiyyət vermədi, öz işində dayanıqlı və möhkəm durdu. Məşhədi İsmayılın fars və türk dilində yazdığı əsərləri toplansa, bir böyük kitab olardı. Dağınıq olduğuna görə, qələmindən çıxan əsərlərini bir yerə cəm edən olmamışdır. Əsərlərinin çoxu qəzəl, rubai, qəsidə və müxəmməs növündə yazılmışdır.

Qeyd edək ki, Məşhədi İsmayıl "Bəzmi" bəzən "Əndəlib" (bülbül) təxəllüsu ilə də şeir deyərmiş. Onun əldə olan bir çox şeirləri həcv və zarafat məzmunlu olduğundan F.Köçərlinin Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun tərtib etdiyi, "Elm" nəşriyyatı tərəfindən 1987-ci ildə nəşr edilən Azərbaycan ədəbiyyatı kitabına daxil edilməmişdir. İsmayıl "Bəzmi"nin Azərbaycan ədəbiyyatı toplusunda "Var", "Usanmasın", "Hər kimsənin ki, sən kimi bir nazlı yarı var, Dünyada eyşu-işrəti, xoş rüzgarı var", "Qanım tökən qaşındı, gözün gördü danmasın", "O tari - türrəni, ey nazənin, yavaş darə, Ki, bağlıdır necə yüz min könül o bir tarə", "Salıb o gül üzünün şovqu gör nə halə məni, O qaşların ələmi döndərib hilalə məni" - mətləsi ilə başlayan qəzəlləri və dörd bəndlik müxəmməsi verilmişdir.

F.Köçərlinin yazılarında adı keçənlərdən biri də **Mirzə Kazim Qazi (Fateh) Əskərzadə Axund Əhmədov "Müttələ"dir** (xəbərdar) (1832-1892). O yazır ki, əldə olan məlumatlara görə, Mirzə Kazım daimi olaraq İrəvanda yaşayıb və orada da vəfat etsə də, əslən İrəvana gəlmədir. Onun vətəni Təbriz mahalının Sərab şəhəri yaxınlığındakı Bərağuş qəsəbəsidir. **Mirzə Kazım** 1832-ci ildə anadan olub, təhsilini Təbrizdə aldıqdan sonra cavan vaxtlarında İrəvana gəlib, əvvəlcə İran dövlətinin rus konsulluğunda katib-tərtibçi işlərinə

baxmışdır. Amma sonralar bu işdən çıxmış, təlim-tərbiyə işlərinə meyli olduğuna görə, xüsusi məktəb açaraq müəllimlik etmiş, məktəb işlərini qayda-qanun üzrə aparmaqla ibtidai təhsil alanlara şifahi üsulla təlim vermişdir. Mirzə Kazımın məktəbi bütün İrəvan sakinlərinin rəğbətini qazanmış və həqiqətən bu cənab öz sənət məşğuliyyətində bir qüsura yol vermədən cani-dildən uşaqların təliminə cəlb olunmuşdur.

F.Köçərli Mirzə Kazım cənabları ilə yaxın tanış olduğunu və tez-tez onunla görüşdüyünü, təlim və tədris məsələlərindən bəhs edən söhbət etdiyini göstərməklə yanaşı, onun təlim-tərbiyə məsələlərindən başqa bir fikri olmadığını qeyd edir.

Mirzə Kazım təlim üsulunda daha çox bilik və məharət kəsb etmək üçün gimnaziyanın müdiri cənab Brajnikovun icazəsi ilə hazırlıq sinfinin tayı-bərabəri olmayan qabiliyyətli və qabaqcıl müəllimləri Cistyakovun dərslərinə qulaq asarmış. Mirzə Kazım ilə bərabər həmin vaxtlarda İrəvanda məktəb açanlardan biri də Axund Mirzə Əli də olmuşdu. Tanınmış, qeyrətli və çalışqan bir müəllim olan **Axund Mirzə Əli** də yeni dərs üsulu ilə tanış olmaq üçün mütəvəffa Cistyakovun gah evinə və gah da (klasına) sinfinə tez-tez gəlib, lazım olan məlumatı ondan əxz edərdi. Cistyakov isə, hər iki müəllimlərə artıq mehribançılıq və iltifat göstərməklə, əlindən gələn köməyi əsirgəməzmiş və özü məktəbdarların məktəblərini ziyarət edib, nəzərə çarpan qüsurların islahına daha çox kömək göstərərdi.

İrəvanda məktəb açan və mərifət sahiblərindən biri hesab olunan cənab Mirzə Abbas Məmmədovun yazdığına görə mərhum Mirzə Kazımın beş cild kitabı qalıbdır ki, onlardan dördünü mərhum çocuqların təlimi üçün tərtib etmişdir. Amma onlardan hec biri bu hala kimi çap olunmayıbdır: 1. ”Elmi hesab”, 2. ”Sərfu-nəhvi-farsi”, 3. ”Elmi-bəlağət” (natiqliq məharəti elmi), 4. “Vacibati-şəriyyət” (allahın gostərişlərinə əsasən yazılmış qanunlar, islam qanunları). 5. ”Teatr hekayəsi”.

Mirzə Kazımın əsərləri fars və türk dillərində yazdığını, hec birini əldə edib görmədiyini söyləyən müəllif həmin kitabların nə dərəcədə təhsilə layiqli və ya tənqid olması haqqında söz acmağa aciz olduğunu vurğulayır. Lakin onu təsdiqləyir ki, Mirzə Kazım həddindən artıq qabil və gözüaçıq adam idi. Öz zəmanəsində məktəblərdə təlim üçün istifadə olunan kitab və risalələrin (kitabça, məktub, namə, məcmuə) qüsurlarını görüb, onların hər cəhətdən namünasib və hətta zərərli olmaqlarını kamalınca anlayırdı. Ona görə söz yoxdur ki, onun "Vacibati-şəriyyət" əsəri, habelə başqa kitabları o zaman məktəblərdə dərslik kimi işlədilən şəriət kitabı "Camei-Abbası" kitabından gərək artıq və üstün olsun.

M.Kazımın farsca yazdığı şeirlərindən ibarət üçüncu kitabı "Elmi-bəlağət"in sərlövhəsində qələmə xitabən yazılır:

Ey, qələm, ey mənə gecə-gündüz dost olan,
Başını qaldır, bir an dodaqlarını arala,
Hədsiz-hesabsız zəhmətlərdən sonra
Kitabın ikinci hissəsi qurtardı.
Üçüncü hissədən bir nəğmə başla,
Pərdədə olan sirləri bir-bir aç.
Mənim barmaqlarımın hükmundən boyun qaçırma,
Naməhrəm yanında bəzi sözlər danışma.
Bəzən elə olur ki, tuğyan edirsən,
Hər gizli sirri açırsan.
Sənə hər nə deyirəmsə, boğazında saxla,
Ürəyin sirrini ağzından qaçırma.
Mənim fikrimin əksinə çıxırsan,
Mənim qədəmimin əksinə qədəm qoyursan.
Mənsur ağzından çox sirlər qaçırdığına görə,
Onu boğazından dara çəkdilər.
Ömrünü eşqə sərf edib əsla dönmədi –
Ki, bu söz çoxlarını xar elədi.
Ürəyini mənə ver, hec kəsə vermə,

Sənanın günahı onun məhəbbətidir, vəssəlam!
Eşq və eşqbazlıq sözünü danışma,
Yanar oddan salamatlıq gözləmə.
Eşq nəhayətsiz işlər görür,
"Dinlə neydən çün hekayət eyləyir" [109].

(Sonuncu misra Cəlaləddin Ruminin "Məsnəvi"sindən iqtibas olunmuşdur).

Göründüyü kimi, şair şeiri qələmə müraciətlə yazmış, qələmin həm gecə, həm də gündüz onun dostu olduğunu, bütün şeirlərin açarı olduğunu, gah tuğyan edib bütün sirləri açdığını, gah da onu tutan barmaqların hökmündən boyun qaçırdığını söyləyir. Qələmə müraciətlə: ömrünü eşqə sərf edib əqidəsindən dönməyən Mənsur tək günahı sevmək olan Sənanın sözlərini ancaq ona sözlə açmasını məsləhət görür.

Mirzə Kazımın nümunə göstərilən əsərlərindən başqa o, türk dilində ibtidai sinif şagirdlərinə təlim vermək üçün nəsr və nəzmlə bir kitabça da tərtib etmiş, mündəricatında xırda-para hekayə, nağıl və düzgülər vermişdir. Düzgülərin çoxunu M. Kazım İrəvani özü yazmışdır. Bu düzgülər uşaqların ağızda söylədiyi "Üşüdüm, ha üşüdüm, dağdan alma daşıdım" vəzni və bəhrində tərtib olunmuş, mənən bir-biri ilə əlaqəsi olmayan sözlərə bənzəyir. O, bu düzgüləri ona görə yazmışdır ki, uşaqları oxumağa həvəsləndirsin. Çünki uşaqların belə yüngül vəznlə yazılan şeirlərə meyli və həvəsi daha çox olur.

Keçmişdə Əhməd bəy Cavanşirin öz övladını oxuyub-yazmağa həvəsləndirmək üçün bu vəzndə hekayələr tərtib etməklə istəyinə nail olduğunu nəzərə alan Mirzə Kazım da bu üsuldan istifadə etmiş, özünün düzgülərində kiçik oğluna gülməli sözlərlə yanaşı, ədəb-ərkana dair nəsihətlər soyləyir:

Ay afərin, gül oğlum,
Gül oğlum, bülbül oğlum,
Dərsin oxu rəvanla,
Sonra danış, gül, oğlum!

Gedirdim harda gördüm,
Guya divarda gördüm,
Evdə siçan çox idi,
Pişik evdə yox idi.
Sişan çıxdı divara,
Əynində xaki xara.
Birdən pişiyi gördü,
Döndü, baxdı, qurudu.
Sişanlar at çapırdı,
Pişik durub baxırdı...

Mirzə Kazım təlim-tərbiyə zamanı əlifbada olan nöqsanları, onların yaratdığı çətinlikləri aradan qaldırmaq üçün təhsil sahəsində çalışan adam kimi xüsusi əlifbanı tərtib etmiş və bu barədə məqalə yazaraq C.Ünsizadənin redaktorluğu və naşirliyi ilə 1883-1891-cu illərdə Tiflisdə çıxan aylıq jurnal (1883-1884, №1-11), sonra isə həftəlik qəzet (1884-1891) olan "Kəşkül"də çap etdirmək üçün F.Köçərliyə versə də, təəssüf ki, nəşr olunmamışdır. Həmin məqalənin məzmunu F. Köçərlinin 2-ci cild Azərbaycan ədəbiyyatı kitabının, 210-cu səhifəsində öz əksini tapmışdır.

Mirzə Kazım M.F.Axundov kimi əlifbamızın dəyişdirilməsi məsələsinə daha çox önəm verən yaradıcı ziyalılardan olmuşdur. Təzəməsləк adamlardan olduğunu məişətimizin köhnələn cəhətlərinin aradan qaldırılmasını məqsədə uyğun saymışdı. O, 1892-ci ildə İrəvanda vəba xəstəliyindən vəfat etmişdir.

Qeyd edək ki, İrəvanda doğulanların müəyyən məqsədlə Təbrizə getdikləri kimi, Təbriz və digər yerlərdən də İrəvana gəlib yaşayanlar da çox idi. Məsələn, **Haci Seyid Rza Əmirzadə "Sabir" (1846-1906) əslən** Xoy şəhərindən olsa da məşhur sazişə görə 27 yaşında İrəvan şəhərinə gəlmiş, bir müddət sonra burada ailə quraraq, İrəvanı özü üçün ikinci vətən seçmişdir.

Hacı Seyid Rza çox rəvan təbə malik olsa da, ondan istifadə etməyə layiqli bir yol tapmamışdı. Daha çox qəsidə, mədh və həcvləri ifadəli oxuyarmış. Əhali arasında məşhur qəzəl, qəsidə və qitələri ilə zərif, xoşxasiyyət bir şair kimi tanınarmış. Onun İrəvana gəldiyi vaxtlarda Bakıda Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti nəşrə başlamışdır. Hacı Seyid Rza İrəvandan "Əkinçi"yə müxbirlik etmiş və burada daha çox nəsrlə yazılan məktubları, nəzmlə yazılmış bir məktubu dərc edilmişdir. Həmin məktub dərc ediləndən sonra Şamaxıda məktəb tikiləndə avam camaat arasında söz-söhbətə, narazılığa səbəb olmuşdur. Bu hadisədən sonra Şamaxı sakini Hacı Seyid Əzim Məliküşşuəra öz oğlu Mir Cəfəri elmli, təhsilli etmək üçün məktəbə qoymuşdur. Amma camaat mərhum Seyid Əzimin bu işindən incimiş, onun əleyhinə nalayiq hərəkətlərə yol vermişlər. Seyid Əzim buna uyğun olaraq Mir Cəfərə xitabən aşağıdakı nəsihəti demişdir:

Cəfər, ey qonçeyi-gülüstanım,
Ey mənim bülbüli-xoşəlhanım...

Hacı Seyid Rzanın "Əkinçi" qəzetində , 1877-ci ildə 20-ci sayında dərc olunan məktubu o vaxtlar camaatın əhvalını göstərən bir sənət nümunəsi kimi diqqət çəkir:

Mərhəba, ey Həsən bəyi-aqil,
Elmi –hikmətdə qabili kamil,
Bafəhm olmağında söz yoxdur,
Oldu məlum: qeyrətin çoxdur.
Əhli-Qafqazı etmisən xoşnud,
Sən özün səd, əhl-naməsud.
Sənə hər kimsə tutsa bir irad,
Gurbatində bumayıb irşad...
...İrəvandan yazıldı bu namə.
Xəlqdən mən də gəlmişəm dadə
Yəni Seyyid Rza Əmirzadə.

Bu sətirlərdə Hacı Seyidin Həsən bəyə necə dəyər verdiyi,

onun ağıl, elm və hikmətdə kamil bir şəxsiyyət olduğu, bütün Qafqazda hörməti, qeyrəti ilə tanındığını ifadə edilmişdir. Hacı Seyid Rzanın şeirlərindən bir necə müxəmməs, müstəzad, tərkib-bənd və tərci-bəndi hüquq məsələləri üzrə dini hökm çıxaran yüksək vəzifəli ruhaninin (müfti-Əfəndi) "Məcmuə"sində öz əksini tapmışdır. Onun məhəbbət mövzusunda yazdığı şeirləri diqqəti daha çox cəlb edir. Sevgilisinə müraciətlə yazılan şeirdə sevdiyindən ayrı düşmüş Aşiqin vüsal arzusu təsvir olunur. Təbiətin gözəlliyindən söhbət açan şair belə bir xoş gündə sevgilisinin onunla görüşməsini arzulayır:

Dilbəra, gəl, gəl ki, əyyam-baharın vaxtıdır,
Daməni-səhrada seyri-laləzarın vaxtıdır,
Mövsumi-gülgəştu cami-zərnigarın vaxtıdır,
Sən kimi fərxundə zati-gülüzarın vaxtıdır,
Lütf ilə can almağa ceşmi-xumarın vaxtıdır,
Görməyə ruxsarını bu dilfikarın vaxtıdır... [108].

Hacı Seyid Rzanın klassik şeirin bu və ya digər növlərinə aid bir sıra şeirləri, kəlamları vardır. Təxminən altmış il ömür sürmüş, 1906-cı ildə İrəvan şəhərində vəfat etmiş Hacı Seyid Rzanın dostlarından Mirzə Abbas Zari aşağıdakı qitəni onun məzar daşının üstünə həkk etmək üçün yazmışdır:

Dövrün əsilzadələrinin fəxri Seyid Rza Sabir idi.
(Onun vüçudu) bəlağət elmini əhatə edən, ağıl
və kamalın toplanan yeri idi.
Dünyadan birbaşa cənnət bağına köçdü,
Şeiri ariflərə çox xoş gəldiyindən
Onun vəfalı tarixi " şairi-şirin məqal" oldu.

Təbrizdə anadan olan **Mirzə Əlixan Şəmsül-Hükəma "Ləli"nin (1845-Təbriz-1905-Tiflis)** də ata və anası əslən İrəvanlıdır. Atası Hacı Ağa Mirzə İrəvanidir. Mirzə Əlixan İrəvani ("Ləli") Təbrizdə təhsil alıb, orada mədrəsələrdə ərəb və fars dillərində dərin biliklərə yiyələnib. Dərman maddələri, ədviyyat və müxtəlif bitki yağları satılan əttar dükanı açıb,

satılan dərmanların reseptini yazıb. Məşhur təbiblərin yanında olub, təbabət elminə dair məlumatlar əldə edib. Təbabət elmini mükəmməl öyrənmək üçün Tehrana gedib, təhsilini başa vurandan sonra Təbrizə qayıdıb. Misirə, İstanbula və Avropanın bəzi şəhərlərinə ezam olunub, təcrübəsini artırıb. İran təbiblərindən məşhuru olub. Ləli İrəvani Nəsrəddin şahın oğlu, İran şahı Müzəffərəddin şahın (1896-1906) xüsusi həkimi olmuş və Şəmsülhükəma ("Həkimlər günəşi") ləqəbi almışdır. Sənədlərində və möhründə imzası "Ləli həkim" olmuşdur. Ömrünü və güzəranını təbabətlə keçirmişdir. Nüfüzlu adamlardan sayılan Ləli İravani şair kimi də tanınıb**.** Onun fars və Azərbaycan dillərində çox gözəl qəsidələri, qəzəlləri, dubeytləri və görkəmli şəxslərin ölümünə həsr olunan hüznlü nəğmələrdən ibarət şeirlər divanı Təbrizdə iki dəfə nəşr olunub. Lakin onun bir çox şeirləri hələ də çap olunmamışdır. Aşağıdakı qəzəli məhəbbət mövzusundadır:

Qaşların kamanilə sən ox vurdun qəlbimə,
Sinəmdən keçib batdı yaralı qəlbimə.
Halaldır badə içmək adama yar yanında,
Dolu qədəh əlində, dodağı dodağında.
Məst olmuşduq ikimiz, həm dilbər, həm də ki, mən
O, badə içməyindən, mən nərgiz gözlərindən
Mən tövbə sındırmışdım, günah alım özümə,
Badə içdik, tövbə də sındı öz-özünə.
Boyun saldım zəncirə, baş verdim qılıncına,
Qara zulflər düşəndə qaşlarının küncünə.
Sənin fərağında mən əl çəkdim varlığımdan,
Ölüm mənə yaxşıdır sənin ayrılığından.
Əhsən o ləl dodağınla əfsunladın Ləlini,
Bir kəlmə söyləməklə qıfılladın dilini [139, 9].
[Şeir "Təqvimi - Tərbiyət"dən götürülmüşdür].

Göründüyü kimi, qəzəldə sevgilisinin vüsalına qovuşan aşiqin fərəh hissləri təsvir olunur. Ləlinin təbiət hadisələrinin

təsvirinə, Tiflisdə havaların tez-tez dəyişməsi barədə yazdığı şeirləri də vardır. Aşağıdakı şeir parcasında şair havaların gah isti, gah yağmurlu keçməsini, əhalinin əziyyət çəkməsini, yağışdan sonra küçələrin bərbad vəziyyətdə olduğunu, bir sözlə, əhalinin sıxıntı keçirdiyini poetik misralarla təsvir etmişdir.

Bir deyən yoxdur, ey xudavənda,
Bu bədən qurğuşundu, ya misdi?
Kürəxanə deyil bizim mənzil,
Nəyə lazım bu qədər isti?
Bizim bu ev Məkkə, mən ərəb deyiləm,
Ərəbistan deyil bu, Tiflisdi.
Bu hava xətti-istifadə gərək,
Sakinani – şimalə çox pisdi.
Bunu göndər ki, özgə bəndələrin
Cümləsi acu uru müflisdi.
Cüçülər doldurub kitab arasın,
Biri molla, biri müddərisdi.
Birəvü, mığmığavü kor milcək
Cəm olub, bir qəribə məclisdi.
Şəhəri qızdırıb, çölü soyudub,
Bilmirəm bu necə mühəndisdi ?!

Ləli şeirində yağışların yaratdığı çətinliklər də təsvir edilir:

Bu yağış dayanarmı dəmir, daş, görüm,
Qalaydı xeyrin, ilahi, qapıda kaş görüm!

Yağış gərək çölə yağsın, nə şəhər, bazarə,
Nə xeyri var sənə üstü başımı yaş görüm?

Bir aydı üst-başım zığdı, başmağım palçıq,
Özün mələklər ilə bircə gün sulaş görüm.

Nə vaxt yağıbdı yağış, küçələrdə it boğulub,
Nə vaxt yağıbdı dolu, sındırıbdı baş görüm.

Bahalıq ildə acından ölənləri görün,
Tapa bilir onların qırxı bir lavaş görüm? [109, 219]

İrəvandan olmuş, lakin Təbriz şəhərində yaşayanlardan biri də **Fəzləli Təbrizi İrəvanidir** (1860-1909). Fəzləli Təbrizi İrəvaninin atası əslən İrəvandan olmuş, lakin Təbriz şəhərində yaşamış Hacı Mirzə Əbdülkərim İbn Əbülqasim İbn Mirzə Məhəmməddir. Fəzləli Təbrizinin "Hədaiqul-Arifindir" ("Ariflərin bağları"). Bu əsərdə Mirzə Fəzləli "Kafi", "Mənla yəhzərül-Fəqih", "Təhzib", "İstibsar", "Vafi", "Bihar" və "Vəsayil" adlı əsərlərdə olan xəbərləri, hadisələri, onların şərhlərini toplamış və kitabın axırında qeyd edilən əsərlərin müqəddimələrini, eləcə də təriqətlər haqqında kitabları yazmışdır. Bu kitab bir neçə cilddədir. Lakin Quran ayələri haqqında olan bəzi cildləri nöqsanlıdır. Bundan əlavə, Fəzləli "Səfinə" və "Kəşkül" əsərinə oxşayan "Riyazül-əzhar" (üç cilddə) və "Səfərnameyi-Avropa" əsərini yazmışdır. Onun divanında fars və ərəb dillərindəki şeirlərindən əlavə Seyid İsmayıl Humeyrinin qəsidəsinin şərhi də vardı. Aşağıdakı bənd onun "Novruziyyə" tərcibəndindəndir:

Gəldi Cəmşidi Fərvərdin, novruzi-Cəlalı yenə,
Qoçakmış dünya bəsləyir cavanlıq xəyali yenə.
Təzvirdən uzaq, bir olur dostlarla amalı yenə,
Bu şən məclisin var qüssə dağıdan əhvali yenə.
Sazı cal, udu yandır sən, odlandır manqalı yenə.

Fəxri Mirzə Abbas (1755-1822) İrəvan şəhərində doğulmuş, dövlət işlərində çalışmış, idarəçilik sistemində təcrübəsi ilə məşhur olmuşdur. İran şahı onu yanına dəvət etmişdir. İrəvani Mirzə Müslüm orada əvvəlcə geniş fəaliyyətə başlasa da, sonra münasibət dəyişdiyinə görə geri, İrəvana qayıtmışdır. Fəxri Mirzə Abbasın (Hacı Mirzə Ağasının)

atasıdır.

Fəxri Mirzə Abbas 1776-cı ildə İrəvan şəhərində doğulmuşdur. Atasından təhsil və həyat təcrübəsini əldə etdikdən sonra, təhsilini davam etdirmək üçün İsfahana getmiş. Təhsilini başa vurduqdan sonra tərbiyəci-müdərris kimi tanınmışdır. O, Ağa Məhəmməd Şah Qaçarın müəllimi olmuşdur. Onun etimadını qazanmış Hacı Mirzə Ağası A.M.Qaçarın 14 il şahlığı dövründə onun baş vəziri olmuşdur və hicri-qəməri 1265-ci ildə İraqda vəfat etmişdir. Diplomatik fəaliyyətlə yanaşı, Hacı Mirzə Ağası ərəb və fars dillərində şeirlər yazmışdır:

Qara saçların dağılıb səpiləndə yanaqlara,
Deyəsən buludlar örtür ay üzünü ara-sıra.
Soruşdum neyçün belə pərişan olmuşdur zülflərin,
Dedi: Həbəş sultanı qoşun çəkmişdir saçlara.

XVIII-XIX əsrlərdə yaşamış söz sahiblərindən Höccət Mirzə Məhəmməd İrəvani İrəvandandır. O, Fətəlixan Səbanın dediyi qəsidəyə cavab olaraq İrəvan sərkərdəsinin dilindən bir qəsidə qoşmuşdur. Həmin qəsidə aşağıdakı beytlə başlamışdır:

Ey Səba, sənin məhəlləndən bu diyara səba gəldi,
Onun ətrindən bizim torpağımız qeyrət müşki-ənbəri ilə doldu.
Səba, gətir səba nəsimini bu yerə,
Çevirdik bu torpağı gözəl müşkə, ənbərə! [139,8]

XVIII əsrdə yaşamış şairlərdən biri də Hərif İrəvanidir. Onun şeirlərindən Abbas Mirzə Naibüssəltənətin tərifinə yazdığı qəsidə daha çox məşhurdur. Aşağıdakı beyt həmin qəsidənin başlanğıcıdır:

Novruz gəldi və esfənd ayı keçdi,
Keçdi azər ayı və yenə gəldi azar ayı.
Əcəm novruzu gəldi, isfənd günləri getdi,
Azər ayı da ötdü, bahar günləri yetdi ("Nücümus-səma" məcmuəsi**).**

İrəvani Möhtac Hacı Əbülhüseyn XIX əsrdə yaşamış

şairdir. Onun yaradıcılığı dinin izahına və bu mənalı ayinlərin təsvirinə həsr olunmuşdur. "Qəsaid" və "Novhəcat" adlı əsərləri indi də qalır. Onlar Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları İnstitutundakı fondda saxlanılır (Fond nömrəsi B-2069). Köçürülmə tarixi hicri 1289 (miladi 1872-ci il, həcmi 125 vərəq, farscadır).

XIX əsrdə Qərbi Azərbaycanın İrəvan xanlığı ərazisində nəcçarlıq və rəssamlıq sənətinin nadir incilərinin yaradılması sahəsində də tanınmış sənətkarlar olmuşdur. Bir ailənin üzvləri – ata-oğul İrəvani **Məmmədhuseynin və İrəvani Mirzə Qədimin** qısa tərcümeyi-halları barədə məlumat da yerinə düşür.

İrəvani Məmmədhuseyn Qədim oğlu 1789-cu ildə İrəvan şəhərində doğulmuş, 1851-ci ildə vəfat etmişdir. Nəcçar (dülgər, xarrat) ailəsindəndir. O, atasından ağac üzərində işləmə sənətini öyrənmişdir. Sənətini getdikcə təkmilləşdirərək ağac üzərində oyma sahəsində böyük sənətkar olmuşdur. Onun yaratdığı ağac füqurları XIX əsrin əvvəllərində İrəvan sərdarlarının sarayını bəzəyirdi.

İrəvani Mirzə Qədim Məhəmmədhüseyn oğlu (1825-1875) İrəvan şəhərində dülgər ailəsində doğulmuşdur. Bu, o dövrlər idi ki, İrəvan xanlığı ömrünün son illərini yaşayırdı. İki ildən sonra İrəvan şəhərinin azərbaycanlıların əlindən çıxma dövrünün əsası qoyulacaqdı. İlk təhsilini doğma şəhərindəki "Üsuli-cədid" məktəbində almış M.Q.İrəvani sonra Tiflisdə progimnaziyanı bitirmişdir. Təhsilini başa vurub İrəvana qayıdanda onun 15 yaşı var imiş. Bir müddət poçtda teleqrafçı vəzifəsində işlədikdən sonra bədii oyma ustası olan atasından öyrəndiyi sənətini davam etdirmişdir. M.Q.İrəvaninin yaradıcılığının təkmilləşmə dövrü XIX əsrin 50-ci illərinə təsadüf edilir. Onun sənət əsərləri hazırda da R.Mustafayev adına İncəsənət Müzeyində qorunub saxlanılır.

Mirzə Qədim İrəvaninin əsərlərində təsvir olunan xalça, geyim və ev əşyalarının üzərində çəkilmiş zərif naxışlar,

mürəkkəb ornamentli şəbəkələr, gül, çiçək və quşların canlı, real əksi ("Çiçəklər və quşlar", Ermitaj, Sankt-Peterburq) bir çox məşhur müzey və qalareyalarda qorunub saxlanılır. Onun "Türk sultanı" və tarixi şəxsiyyətlərə həsr etdiyi portretləri, "İkinəfərlik səhnə" kimi əsərləri mövcuddur [188]. Rəssamın nəvəsi, Əməkdar incəsənət xadimi İsmət Axundovun fikrincə, "İrəvana müxtəlif vaxtlarda gəlmiş səyyahlar, incəsənət həvəskarları onun (İrəvaninin) rəsmlərini öz ölkələrinə aparmışlar." İ.Axundov Fransada olarkən Parisdə məşhur "Mütəfəkkir" heykəlinin müəllifi Rodenin ev müzeyində babasının bir əsərinin saxlandığını qeyd edir. ... Mirzə Qədim İrəvani Sərdar sarayını bəzəyən şəkilləri çəkərkən səhhəti korlanmış, 1875-ci ildə 50 yaşında vəfat etmişdir. M.Q.İrəvaninin nəticəsi Gülşən xanımın verdiyi məlumatlara görə Sankt-Perterburqdakı məşhur Ermitaj müzeyində iki otaq yalnız Mirzə Qədimə ayrılmışdır. Təxminən 1979-1982-ci illərdə burada onun əsərlərininin orijinalı və fotoşəkilləri nümayiş etdirilmişdir. Bu reallıqları əks etdirən tablolar tamaşaçıların dərin marağına səbəb olduğu üçün müzeylərin "rəy dəftərlərində" vəcdlə yazılmış təşəkkürlər vardır. M.Q.İrəvaninin bir tərəfdən klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrinə, digər tərəfdən Avropa realist boyakarlığına əsaslanan yaradıcılığı ilə Azərbaycan təsviri sənətinin inkişafında yeni mərhələ başlanmışdır [188].

XIX və XX əsrin 20-ci illərində İrəvan ədəbi və mədəni mühitində çoxsaylı yaradıcı qüvvələrin, tanınmış ziyalıların olduğu ədəbiyyat tariximizdən məlumdur. Belə ziyalılardan biri də satirik, ciddi məzmunlu lirik və publisistik əsərləri ilə bir çox mətbu orqanlarda "Yetim cüçə", "Əli Məhzun" və digər imzalarla yazan Əli Rəhimovdur. Əli Hacı Zeynalabdin oğlu Rəhimov (Əli Məhzun) ədəbiyyatşunaslıq sahəsindəki səmərəli fəaliyyətini, yaradıcılığı müəyyən qədər araşdırılsa da, istənilən qədər deyil. Bu məqsədlə diqqəti onun "Ədəbiyyata dair" və

“Bürhani-həqiqət” jurnalında nəşr edilən əsərlərinə yönəltməyi məqsədə uyğun sayırıq.

Şəfəq Nasirin bir tədqiqatçı olaraq, məqsədi vaxtilə qədim İrəvan quberniyasının ictimai-siyasi mənzərəsini, ədəbi mühitini, zəngin mədəniyyətini, soydaşlarımızın həyat və məişətini aydın əks etdirən bu mədəni-mətbu abidəni yaddaşımızda canlandırmaqdır.

Jurnalın müdiri Əli Məhzun xalqın ictimai həyatına, məişət və mədəniyyətinin inkişafına müəyyən mənada təsir edəcək bir jurnal nəşr etmək barədə xeyli vaxt düşünmüş, bu istiqamətdə şəhərin maarifpərvər ziyalıları ilə ətraflı müzakirələr aparmışdır. “Bürhani-həqiqət” jurnalının ilk səhifəsində əsas aparıcı əməkdaşları Ə.Məhzunun oxuçulara təqdim etdiyi şəxslər onun qələm yoldaşları ədibin əqidə, məslək dostları idi.

“Bürhani-həqiqət”in cəmi 9 sayı işıq üzü görən jurnalın bu saylarında xalqın milli varlığının və düşüncəsinin ədəbi-bədii, elmi-ictimai formada təsvir olunması öz səciyyəviliyinə görə xarakterikdir. Jurnalın qayəsini, cəmiyyət həyatına təsirini duymaqdan ötrü mövzuları ümumiləşdirmək, fərdi xüsusiyyətlərini aşkarlamaq öz zəruriliyini doğurmuşdur. Ə.Məhzunun o zaman cəmiyyətdə mövqeyi “Bürhani-həqiqət”i nəşr etməklə xalqın taleyində nə kimi əhəmiyyət kəsb etdiyini anlamaq mümkündur. Bu səbəbdən də, onun şəxsiyyətinə, yaradıcılığına və ictimai-ədəbi mövqeyinə qısaca nəzər yetirmək kifayətdir. Əli Hacı Zeynalabdinzadə Rəhimov (1886-1934) hələ yeniyetmə çağlarından ədəbiyyata maraq göstərmişdir. O, elmli, yüksək erudisiyaya malik bir ziyalı, istedadlı qələm sahibi idi. O, adı çəkilən jurnala qədər Qafqazın bir sıra mətbuat orqanlarında şeirləri, ictimai-siyasi mövzuda yazdığı məqalələri, felyetonları ilə çıxış edirdi. Həm də milli ruhda yazılmış roman və hekayələrin müəllifi idi. Cəhaləti, dini-xürafatı tənqid edən əsərlərindən biri olan “Şəriət xadimi” 1927-ci ildə Bakıda “Azgiz” nəşriyyatında nəşr olunmuşdur. “Molla Nəsrəddin”in

İrəvan müəllifləri jurnalla ən çox əməkdaşlıq edən müəlliflərdən idi. Türk dili (Azərbaycan) və ədəbiyyatını tədris edirdi. Müəllimlər sənəti ona xalqın qəflət yuxusundan ayılması, gözünün açılmasında, ictimai şüurunun formalaşmasında daha çox işlər görməsinə şərait yaratmışdı. O, İrəvanın tərəqqipərvər ziyalıları ilə qüvvələrini birləşdirərək xalqın cəhalət girdabından azad olması yolunda ideoloji mübarizə aparmış, şəhərin ictimai-siyasi həyatında yaxından iştirak etmişdi. Maarifpərvər ziyalı, qüdrətli qələm sahibi kimi ictimai-ədəbi fəaliyyətini dilimizin, mədəniyyətimizin, mənəvi-əxlaqi dəyərlərimizin qorunmasına və yeni ənənələrlə inkişafına həsr etmiş Əli Məhzun İrəvan quberniyasında baş verən ictimai-siyasi hadisələri, mədəni geriliyi, çar üsul-idarəsinin rəzilliyini, ermənilər tərəfindən evləri talan olan, yurdlarından qovularaq çöllərə səpələnən millətin acı həyatını ürək yanğısı ilə müşahidə etmiş, real faktlara söykənən publisistik yazılarında bunlara münasibət bildirmişdir. Hələlik ayda iki dəfə nəşr olunacağını bildirən müdir yazıların əhatə edəcəyi sahələri açıqlayır: "Qarelərinə (oxuçularına) baçardıqca elmi, ədəbi, fənni, tarixi, siyasi, iqtisadi və tibbi məlumat verərək ümumə nafe məsələlərdən bəhs edəcəkdir." Bu kiçik bildirişdə məcmuədə verilən yazıların əhəmiyyətli olacağına inam yaranır. "Bürhani-həqiqət"də iştirak edəcək müəlliflərin adları açıqlanır: müəllimlər Mirzə Cabbar Məmmədzadə, doktor Muğanlı (matematik), hesab elmi müəllimi Şeyxülislamov, riyaziyyat elmi müəllimi Vahid, nəbatat elmi müəllimi Rəhim "Naci", Türk dili müəllimləri "Təhvil" (Əli Məhzun Hacı Zeynalabdinzadə Rəhimovdur) və bir neçə darülfunun tələbələri. Fikir verin, jurnalın əsas yazarları, söz deməyə qadir olan adamlar müəllimlərlərdir. Ə.Məhzun ətrafına ziyalıları toplamaqla ilk növbədə jurnalı qəliz, anlaşıqsız ifadələrdən mümkün qədər təmizləməyi düşünmüşdür.

Ə.Məhzun ədəbi-jurnalistlik fəaliyyətinə əsasən şeirlə

başlamışdır. Jurnalda "Ədəbiyyat" səhifəsinin olması onun şeirə doğma münasibətindən, həm də şairlərin özlərini tanıtması, yetişməsi və ədəbi məhsullarını üzə çıxarılması üçün yaratdığı imkanın ifadəsi idi. Onun müəllif yazıları və "Bürhani-həqiqət" imzası ilə verilmiş məqalələrinin hər biri ayrılıqda geniş müzakirə mövzusudur. Onun mədəni-mənəvi abidələrimiz sırasında İrəvanın milli-mənəvi sərvəti sayılan "Göy məscid"ə sahib çıxmağa çalışan üzdəniraq ermənilərin niyyətini ifşa edən "İrəvan məscidi"i məqaləsində tarixi həqiqət, yazıçının milli təəssübkeşlik hissi sətirlərdə dil açır. Məqalədə oxuyuruq: "Həmin fövqdə basılmış məscid əksi İrəvanda əski binalardan ədd olunan "Məscidi-came" - "Goy məscid"in əksidir. Həmin məscid 1178 səneyi-hicridə bina olunmuşdur. İrəvan şəhəri hənüz İran hökumətinin təhti-idarəsində olduğu zaman 1756-cı səneyi-miladidə İrəvanda hakimlik edən Nəcəfqulu xan Qaçarın oğlu Hüseynəli xan tərəfindən həmin məscid bina olunmuşdur. Lihaza (buna görə) bina etdirən şəxsin adı ilə "Hüseynəli xan məscidi" dəxi təsniyə olunur (adlanır). Deməli, Rusiya hökuməti İrəvanı müsəxxəl (zəbt) etmədən 72 sənə müqəddəm həmin məscid bina olunubdur. Hal-hazırda yaşayıb durmaqdadır." Qeyd edək ki, müəllifin məscid haqqında məlumatı bununla tamamlanmır. Məqalə müəllifi "Təhvil" bundan sonra böyük narahatlıqla bir erməni müxbirinin həmin məscidlə bağlı cəfəng, uydurma fikirlərindən narahatlığını bildirir. İrəvanın azərbaycanlı ziyalısının narahatçılığı əbəs deyildi. Çünki həmin dövrdə Rusiyada böyüməkdə olan siyasi hadisələr, onun inqilab dalğaları Zaqafqaziyaya da gəlib çatmışdı. Ermənilər İrəvanda ixtişaşlar törədərək azərbaycanlıları öz evlərindən didərgin salmağa, onların yerini Türkiyədən gəlmiş ermənilərin zəbt etməsinə nail olmuşdular. Yurd yerlərimizdə yenicə məskunlaşmaqlarına baxmayaraq, kəndlərimizin, qəsəbələrimizin adlarını dəyişərək, ermənileşdirirdilər. Erməni müxbiri "Goy

məscid” haqqında “Təhvil”də yazırdı: “Solntse Rossii” jurnalının 279-cu nömrəsində həmin məcmuənin xüsusi musəvviri (rəssamı) “Ter-yan”ın Bədayei-sənayeyindən (İncəsənət abidəsi) hesab olunaraq həmin İrəvan məscidinin fövqdəki qərar ilə əksi basılaraq “Van məscidi” adlanmışdır. “Solntse Rossii” jurnalının həmin hərbi müxbir və müsəvviri “Ter-yan” qomşunun bişmiş toyuğu güldürəcək belə musəvvirliyi həmin məcmueyi-mətinənin nə qədər “doğruçu olduğuna”, qarelərinə “ter-yan”lardan alınmış “ən müvəssəq” (doğru) xəbərlər oxutdurduğuna və idinnən (söz verməsindən) alınmış həmin məscid kimi fotoqraf əksləri tamaşa etdirdiyinə şübhə buraxmayır.

Əcəba! “Ter-yan” qomşunun atkritkalar üzərində basılmış bütün Qafqaz və Rusiyada nəşr olunmuş şu İrəvan məscidi fotoqrafını “Van məscidi” - deyə “Solntse Rossiya”nın sutununda ənzari-ümumun (camaatın) tamaşasına qoyması ümumrusiya əhalisini, daha doğrusu Rusiya müsəlmanarını kor hesab etmək deyil də, bəs nədir? Zənnimcə, “Ter-yan” qomşu “Van”ı yuxusunda belə gorməmiş ki, İrəvanın əvvəlki hecasını bəl edərək (udaraq) Van yazmışdır.”

Şəfəq Nasirin 2012 –ci ildə 525-ci qəzetdə yazdığı kimi, “Ter-yanın həyasızlığı o dərəcəyə çatıbmış ki, Huseynəli xan məscidi”nin şəklini “Van məscidi” kimi təbliğ etməklə azərbaycanlıların mədəni-tarıxi abidəsini mənəvi unutqanlığa məhkum etməyə çalışırmış. Şübhəsiz, bu çirkin siyasətin arxasında elə o zamandan Daşnaksutyun partiyasının “Böyük Ermənistan” yaratmaq məqsədi dayanıbmış.

Ə.Məhzunun qələminə məxsus olan “Ədavəti unutmalı, iş görməli” məqaləsi də maraqlı yazılardandır. Müəllif oktyabr inqilabından sonra İrəvanda yaranan cəmiyyətlər və firqələrin xalq üçün faydalı işlər görmək əvəzinə təşkilatçıların bir-biri ilə apardıqları ədavəti, hərc-mərcliyi, ziddiyyəti pisləyir: “Qardaşlar, yoldaşlar! İş görmək, çalışmaq zamanıdır. İçinizdə qərəz və ədavət toxumu əkib, nifaq salanları arayıb bulunuz!

Bu xainləri firqələrinizdən, cəmiyyətlərinizdən ixrac ediniz! (Baykot ediniz!) Müttəfiq, yekrəy olaraq iş görünüz! Ədavəti unudunuz! İrəvan, 14 aprel 1917-ci il."

Ümumiyyətlə, jurnaln ayrı-ayrı nömrələrində "Ədəbiyyata dair" çoxsaylı başlıqlarla bədii, publisistik yazılar vardır. Ə.Məhzun cəmiyyət həyatında qadınların da iştirak etməsinə yol açır, onları öz qanadı altına alaraq inkişaf etmələrinə çalışırdı. Cavan olmasına baxmayaraq ("Bürhani-həqiqət"i nəşr edəndə 31 yaşı vardı) xalqın içində müəllimlər, şair, ədib kimi böyük nüfüza malik idi. Odur ki, qadın yazarlar həm əsərlərinin işıq üzünə çıxmasından fərəhlənir, həm də onunla ideya birliyi nümayiş etdirməyə cəsarətlənirdilər. Şöhrət xanım, Səri xanım, Nigar xanım, Əbdülhəqq Mehrinisə, Fatma - Müfidə və Rəmziyyə xanım kimi şairə qadınların adlarının, əsərlərindən nümunələrin jurnalın səhifələrində dərc olunması Ə.Məhzunun tərəqqi yolunda gördüyü işlərinin bəhrəsi idi. "Türk-islam xanımlarının əsarından bir nümunə" başlığı ilə qadınların yaradıcılığından təqdim olunan jurnalda maraqlı yazılardandır [152], [198, 369].

Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının inkişafında əvəzsiz xidmətləri olan görkəmli şəxsiyyətlərın arxivlərdən adlarının araşdırılaraq haqlarında soydaşlarımıza məlumat vermək Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğala məruz qaldığı indiki zamanda olduqca gərəklidir. Bu şəxsiyyətləri arayıb-axtarmaq, onlar haqqında məlumat toplamaq, ermənilərin əsassız olaraq Azərbaycanın Qərb bölgəsinin yaşayış məskənlərini özlərinə çıxdıqları bir vaxtda buradakı dədə-baba torpaqlarımızdan çoxsaylı görkəmli şəxsiyyətlərin yetişdiyini və yurdumuza çəkinmədən sahib çıxan ermənilərin məkrli siyasətinin haradan qaynaqlandığını dünyanın aparıcı dövlətlərinə təkzibolunmaz tarixi faktlarla sübut etmək bizim hər birimizin vətəndaşlıq borcudur. Cabbar Əsgərzadə də üzərinə düşən vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirənlər-

dən biridir.

Cabbar Məhəmmədzadə dövrünün mütərəqqi ziyalıları ilə həmfikir olmuş, fanatizmin, geriliyin kökünün cəhalətdə olduğunu anlamışdı. Bu cəhətdən "Bir şeytan naləsi", "Məhərrəm gəldi", "Nəzm", "A cahil" və onlarca başqa ictimai satiraları mühitin səciyyəvi cəhətlərini özündə əks etdirir. Balaca filyətun", "Mənimdir" kimi satiraları M.Ə.Sabirin "Bir məclisdə on iki kişinin söhbəti" əsərini xatırladır.

İrəvan ziyalılarının Bakıda yaşayan tanınmış yazıçı, şair və maarifçilərlə ədəbi əlaqələri xüsusi əhəmiyyət kəsb edirdi. Cabbar Məhəmmədzadənin məslək dostu olan Abdulla Şaiqlə məktublaşması və Mirzə Cabbarın qırxa yaxın məktubunun onun arxivində əziz bir yadigar olaraq qorunub saxlanılması faktı qarşılıqlı ədəbi əlaqələrin çoxcəhətliliyindən xəbər verir [169].

Ümumiyyətlə, İrəvan ədəbi mühitinin görkəmli şəxsiyyətləri barədə yetərincə məlumat toplamaq, onlar barədə ətraflı bəhs etmək o qədər də asan deyil. Cünki, üzdəniraq qonşularımızın bizimlə apardığı ədavət üzündən qədim oğuz yurdu olan İrəvanda mürgüləyən arxiv sənədlərinə (əgər qalıbsa), tarixi-ədəbi qaynaqlara hələ ki, əlimiz yetmir. Bu səbəbdən, İrəvanlı ziyalılarımızın həyatı, ictimai-ədəbi mühitidəki yerindən bəhs olunması hansı səviyyədə olmasından asılı olmayaraq əhəmiyyətlidir. Bu gün əsirlikdə qalan Qərbi Azərbaycanımızın tarixinə dair bir cümlədən ibarət məlumatın üzə çıxarılması, o yerlərdə yaşam tarixini təsdiqləyən hüquqi bir sənəd kimi diqqəti cəlb edən qiymətli bir məxəzdir.

4.İrəvanda kitab nəşri.

XIX əsrin sonu və XX əsrin əvvəlləri bütövlükdə Azərbaycan ədəbi-bədii fikrinin, həmçinin maarif və mədəniyyəti tarixində milli oyanışın canlanması ilə müşahidə olunmaqda

idi. İrəvan şəhərindəki azərbaycanlıların yaranan bu imkanlardan faydalanmalarına real şərait yaranırdı. Günümüzə qədər gəlib çatan yazılı nümunələr kifayət qədər olmasa da, qonşu dövlətlərin arxivlərində və kitabxanalarında saxlanılan əsərlər də bunu subut edir. İrəvan xanlığının rusların işğalından sonra buradakı ədəbi mühiti özündə əks etdirən qiymətli əlyazmaların əksəriyyəti erməni vandalları tərəfindən məhv edilmişdir. Əsasən məscidlərdə və mədrəsələrdə saxlanılan əlyazmalar yandırılmış, bir qismi isə indiyədək Azərbaycan tədqiqatçılarının üzünə bağlı şəraitdə saxlanılmışdır [106, 202].

İrəvan quberniyasında XIX əsrin 80-ci illərində kitab nəşri işinə başlanmışdır. Azərbaycan dilində kitab çapı alman İohan Qutenberq tərəfindən çap maşını ixtira ediləndən təxminən dörd əsr sonra İrəvan müsəlmanları da bu işə başlamışlar. Bu iş ilk növbədə, "İrəvani" nisbəli yerli muəlliflərin İrəvan quberniyasından kənarda kitablarının çapı ilə həyata keçirilmişdi. Çap edilən kitablar iki qismə bölünürdü. Bu kitablar ərəb əlifbası ilə işləyən mətbəə, ana dilində şrift olmadığından müəlliflər öz əsərlərini başqa yerlərdə ərəb-fars dillərində də çap etdirməyə çalışırdılar.

İrəvanda Azərbaycan dilində kitab çapına XIX əsrin 80-ci illərindən başlamış və əsasən üç istiqamətdə genişləndirilmişdi: 1.Yerli müəlliflərin İrəvandan kənarda çap olunan kitabları; 2.Başqa dillərdən tərcümə olunan kitablar; 3.Ermənistanda Azərbaycan dilində kitab çapı. "Atalar sözü" (52 s) 1899-cu ildə İrəvanda çap olunan ilk kitablardandır. Kitabın birinci nəşri, müəllifi və naşiri İrəvan məktəbinin müəllimi Məhəmməd Vəli Qəmərli, naşir və sahibləri Edilson və Xəliiova aiddir. 1900-cu ildə . Vasaq Mədətov (Nəzmi)nin "Gözə görünməyən şal" (24 s) vodevili (bir hissə) İrəvanda Edilson mətbəəsində, yenə həmin ildə (1900) və həmin mətbəədə Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" (44 s) komediyası - Naşiri Xəlilov, 1911-ci ildə İrəvan seminariyasının

şəriət müəllimi Qazızadə Axund Əbülhəsənin "Dürüsi-şəriə" kitabının (İrəvan, Kultura mətbəəsi. 37x2 s) I, II (65 s), III (4612 s) və IV (33+2 s) hissələri, çocuqlara məxsus "Qızıl yarpaq, yaxud Zəkalı Ənvər" şeirlər kitabı (Naşir Əkbər Huseynov, İrəvan, Kultura mətbəəsi. 16 s), İrəvan darülmüəllimlərinin Türk dili müəllimləri Cabbar Məmmədzadənin Azərbaycan türklərinin rusca oxumaq, yazmaq və danışmaq öyrənməsi üçün hazırladığı "Xudamız" adlı dərslik (I hissə, İrəvan, Luys mətbəəsi, 122), "Türk-Azərbaycan dilinin xudamız kitabı" - ikinci çapı, müəllif və naşiri Cabbar Məmmədzadə (İrəvan, Kultura mətbəəsi, Azərbaycan və rus dillərində. 144 s), Məhəmmədəli Hacı Məmmədzadə İrəvaninin "Millətpərəstlikmi? Sərxoşluqmu? adlı iki pərdəli melodraması (İrəvan, Kultura mətbəəsi, 20 s), 1915 –ci ildə Əsgərzadə Mirzə Cabbarın (Aciz) "Çocuqlara bayramçalıq" (Naşiri Yusif Huseynov. İrəvan Luys Mətbəəsi, 15 s), bir il sonra, 1916-ci ildə müəllif və bəstəkarı Mirməhəmməd Mirfətullayev olan "Kefcil və keflilər" operettası (operetta üç şəkildə, dörd pərdə, İrəvan, "Luys" mətbəəsi, 62 s) kitabları nəşr edilib. Eyni zamanda, 1892-ci ildə mütərcimi Firidun bəy Köçərli olan "Topcu və balıq" (M.S.Puşkindən tərcümə. İrəvan, Güləmiryan mətbəəsi, 12 s), mütərcimi İ.M.Əkbərov, naşiri Məhəmməd Axundov olan "Aşıq Qərib" (türk nağılı, M.Y. Lermantovdan tərcümə, İrəvan, Kultura mətbəəsi, 18 s) adlı tərcümə kitabları da nəşr olunmuşdu. Bununla yanaşı, İrəvandan kənarda çap olunan kitablar; Firudin Köçərlinin tərcümə etdiyi "Təlimati-Sokrat" (Bağçasaray, "Tərcüman" basmaxanası. 80 s. 1895-ci il, rus dilində), Firudin Köçərli tərəfindən rus şairləri Lermontov və Koltsovdan türkcəyə tərcümə edilən "Üç xurma ağacı və ya kişi niyə yatıbsan?" (Şuşa, Məsihi ruhaniyyəsinin vəqf basmaxanası, 1912, 13 s), Molyerin "Zorən təbib" komediyası (Üç məclis, dörd pərdədə. Azərbaycan dilinə təğyir, təbdil edəni müsəlman artisti Əhməd bəy Məlikov Qəmər-

linski. Bakı, Oruçov qardaşlarının elektrik mətbəəsi. 80 s) və yerli müəlliflərin kənarda çap olunmuş Fazil İravaninin "Kitabut-təharət" (xəttat: Məhəmməd ibn Əli Məhəmməd Təbrizi. 1301 (1883), 186 s, Fars dilində, daş basması), qeyd edək ki, kitab Molla Əhməd Küzəkunaniniun tapşırığı ilə tacir Hacı Məhəmməd Mehdi Küzəkunani tərəfindən çap edilmişdir, Müəllifi Molla Huseyn İrəvaninin Təbrizdə Məşədi Əhməd ağanın fərmayişi ilə çap olunan "Müseyibnamə" (Daş basması, şəkilli. 1884. 201 s), Mirzə Ağa Əli Həkimi-İrəvani Əlmütəxəllüs və Ləli-Təbriznin "Divan"ı (nöhvə və qəzəllər. Azərbaycan və fars dillərində. Daş basması. 1898. 239 s), "Divani-Ləli" (Mərsiyə, mədh, qəsidə və s.) Müəllifi Mirzə Ağa Əli Həkimi-İrəvani, naşiri Hacı Rəfi tacir-Xorasançı, Təbriz, daş basması, Azərbaycan və fars dillərində, 259 s), 1907 – ci ildə nəşr edilən "Ana dili" kitabı (İkinci kitab. müəllifi: İrəvan məktəb müəllimlərləri Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qaziyevlər, Məhəmmədov, Şəfibəyov, Sultanöv, Mirzə Ələkbər Mirzəzadə. 76+2), yenə həmin ildə (1907) "Ana dili" (Üçüncu kitab. müəllifi: İrəvan məktəb müəllimlərləri Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qaziyevlər, Məhəmmədov, Şəfibəyov, Sultanov, Mirzə Ələkbər Mirzəzadə. Tiflis, 89 s, şəkilli), Ləli Mirzə Ağa Əli Həkim İrəvaninin "Dər mədhi və mənqəbəsti movla həzrəti Əliyyubani Əbutalib əleyhissəlam" (Daş basması, Azərbaycan və fars dillərində. 269 s), "Ana dili" (Birinci kitab, müəllifləri: İrəvan məktəb müəllimlərləri Rəfizadə Mirzə Şərif Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qaziyevlər, Məhəmmədov, Şəfibəyov, Sultanov, Mirzə Ələkbər Mirzəzadə. Tiflis, Qeyrət mətbəəsi, şəkilli, 1911. 47 s), Məhəmmədzadə Abbas Əlşəhir bə farsi fi İravaninin "Bədərəqətul-ətfal fi üsuli-tədrisül-farsiyyə" (birinci kitab, Bakı, Oruçov qardaşlarının elektrik mətbəəsi, şəkilli. 115 s), Mirzəzadə ağa Həsənin "Məlik Məhəmməd və Yəmən padşahının nağılı"

(naşiri Ə.Ələkbərov İrəvani. Bakı, 1913, 32 s), Həsənzadə Mirzə Huseyn İrəvaninin "Tamam əlifba" (Birinci kitab. Tiflis, Kultura mətbəəsi, 1913. 38 s), Əhməd bəy Məlikov Qəmərlinskinin "Bəhluli-danəndə və yaxud kişinin sözü bir olar" (komediya, iki pərdədə, Bakı, İsa bəy Aşurbəylinin "Kasoi" mətbəəsi, 32 s) [26, 87, 159] əsərləri işıq üzu görmüşdür.

Hələ 1913-cü ilin əvvəllərində kütlələri intibaha çağırmaq və kitab nəşri barədə İrəvanda tanınmış ziyalılardan olan Məhəmməd ağa Axundov Abdulla Şaiqə ürək yanğısı ilə yazırdı: "İrəvanda Azərbaycan dilində kitab nəşr edə biləcək Güləmiryan, Edilson, Kultura və Luys mətbəələri mövcuddur. Bu mətbəələrdə kitab nəşri kimi xeyirxah bir işi 1914-cü ilə, bir qismini də 1917-ci ilədək davam etdirmişdir. Azərbaycan dilində 1917-1920-ci illərdə yalnız iki mətbəədə məcmuə və vərəqlər nəşr olunmuşdur. Burada qubernatorun mətbəəsi, digəri "Bürhani-həqiqət" məcmuəsinin mətbəəsi var idi. İnqilabdan əvvəl təqribən bir qərinəyə yaxın müddətdə burada Azərbaycan dilində kitab çapının incəliklərini bilən, mədəni irsimizin zənginləşməsində, tərbiyəvi əhəmiyyətinə görə misilsiz olan bədii əsərlərin, tərcümə ədəbiyyatının, dərsliklərin, lüğətlərin, şeirlərin nəşrinə əhəmiyyət verən tanınmış üç nəşriyyat (M.Axundov, Ə.Huseynov, İ.Xəlilov) işçisi var idi. İrəvan ədəbi mühitində yazıb-yaradanların əsərləri haqqında bibloqrafik məlumatlar Bakıda və İrəvanda nəşr olunan "Azərbaycan kitabı"nın (1963, 1982) birinci və ikinci cildlərinin və "Sovet Ermənistanında Azərbaycan kitabı (1925-1985)" bibloqrafiyasında isə İrəvanda nəşr olunmuş Azərbaycan dilində kitabların ümumi sayı, adı, aid olduğu nazirliklərin, baş idarələrin, təşkilat, idarə və müəssisələrin, yaradıcılıq birliklərinin, ayrı-ayrı görkəmli dövlət və partiya rəhbərlərinin, yazıçı, şair və ədəbiyyat xadimlərinin əsərləri, "Ədəbi Ermənistan" məcmuələrində verilən elmi-bədii əsərlərin, qərarların, qanunların normativ aktların, təlimatların, müxtəlif sahələri

əhatə edən proqramların, tövsiyələrin sayı barədə cəmi 464 adda nəşriyyat [178] materialının adı göstərilmişdir. Burada tərtibçi ilk növbədə, yerli müəlliflərin İrəvandan kənarda kitablarının çap olunması barədə müfəssəl məlumatla oxuçuları tanış edir. İnqilabdan əvvəlki dövrün "Azərbaycan kitabı"nın (1963) birinci cildində əsasən öz əksini tapan müəlliflərin və onların kitabları barədə məlumatların bəziləri barədə yığcam məlumatla yanaşı, geniş şərhlər də verilmişdir ki, bunların arasında mədəni irsimizin zənginləşməsində müəyyən rol oynayan, öz dövründə təhsil gücü və böyük tərbiyəvi əhəmiyyəti olan bədii əsərlər, tərcümə ədəbiyyatı, dərsliklər, lüğətlər, şeirlər, pyeslər az deyildir. Bu kitablar ötən əsrin bədii dünyasının müasirləşmiş, günümüzədək gəlib çatmış səsidir. Eyni zamanda, ədəbi, bədii və mədəni tariximizin bir qisminin bədii-poetik, ictimai-siyasi üslublarda deyilmiş, şərh edilmiş və ifadə olunmuş mənzərəsinin təzahürüdür. Azərbaycanın elm və təhsil mərkəzlərindən olan İrəvanda kitab nəşri mədəniyyətinin vüsəti, onun yayım mövzusu ilə bağlı İsrafil Məmmədovun 1985-ci ildə İrəvanda çap olunmuş "Sovet Ermənistanında Azərbaycan kitabı" biblioqrafik vəsaiti sözu gedən ədəbi mühitin araşdırılması üçün çox önəmli faktlarla doludur. İrəvanın ictimai fikir tarixi, ədəbi-mədəni mühiti təhlilə əsaslı cəlb edilmişdir [128]. Kitab nəşri barədə söhbət gedərkən İrəvanda bu işin həyata keçirilməsi sahəsində azərbaycanlı müəlliflərin rastlaşdığı maneələr çox olub. Başqa dillərdən tərcümə olunan əsərlərin və yerli müəlliflərin əsərləri barədə qismən də olsa məlumat verilib.

İrəvanın xanlıq dövrünün bir sıra əlyazmaları XX əsrin repressyalarla xarakterizə olunan 30-40-ci illərinədək İrəvandakı Göy məscidin kitabxanasında saxlanılırdı. Azərbaycan tədqiqatçısı İsa Əzimbəyov 1929-cu ildə dərc etdirdiyi "Tiflis, İrəvan və Naxçıvan SSR-in müsəlman kitabələri" məqaləsində yazır ki, o, "İrəvandakı Göy məsciddə olarkən Hacı Mirzə

Huseynlə (1868-1938) tanış olmuşdur. Mirzə Huseyn ağa onu olduqca zəngin kitabxana ilə tanış etmişdir" [106, 202]. Təəssüf ki, mükəmməl təhsil almış Hacı Mirzə Hüseyn bir çox azərbaycanlı ziyalı kimi repressiyaya məruz qalmış, Kaluqa şəhərinə sürgün edilmiş, zəngin kitabxanası və əlyazmaları ermənilər tərəfindən qarət edilmişdir [106, 202]. Qeyd etmək lazımdır ki, cəmiyyətdə gedən ictimai-siyasi proseslər zamanın tələblərinə uyğun olaraq məsələləri istər-istəməz önə çəkirdi. Ədəbiyyatda, mədəniyyətdə, incəsənətin bütün sahələrində, o cümlədən, kitab nəşrində qarşıda mühim addımlar atmasına zərurət yaranırdı. Qeyd edək ki, Azərbaycan ictimai fikir tarixinin ümumi axarından ayrılmadan kitab nəşrinin başlanması son dərəcə mühim hadisəyə çevrildi, ana dilində məcmuələr işıq üzü gördü. İnkar olunmaz bir cəhət də budur ki, qonşu xalqın mədəniyyəti və mətbuatı ilə əlaqədə olmaq, yerli şəraitdən doğan tələb və təkliflər, habelə şətinliklər də bu inkişafa, bu irəliləyişə müəyyən düzəlişlər etməyə bilməzdi. Yerli cətinliklər uçbatından da Qərbi Azərbaycanda Azərbaycan dilində ilk dövrü mətbuat nümunəsi - "Azdarar"dan 120 il, ilk azəri qəzeti "Tatar xəbərləri"ndən 82 il, maarifci ideyalar təbliğatcısı "Əkinçi" (1875-1877), Tiflisdə çıxan "Ziya" (1879), "Ziyayi Qafqaz" (1880-1884), "Kəşkul"dən (1880-1891) xeyli sonra işıq üzü görə bilmişdir [128, 9]. Bunlar da xalqın maariflənməsini təmin edən yetkin xadimlərin yetişməsinə imkan verməmiş, əsrlər boyu əldən-ələ keçən İrəvan quberniyasında mədəniyyət və maarifin tərəqqisinə qayğısızlığın nəticəsi kimi ictimai fikrin ləngiməsinə səbəb olmuşdur. Nadanlığın və cəhalətin qəsdən daha çox mühafizə olunduğu bir quruluşda nəşriyyat, çap işinin təşkilinə diqqət yox dərəcəsində idi. Daha doğrusu, mütəxəssis qıtlığı var idi. Ərəb əlifbasının yaratdığı cətinliklər üzündən şriftlər və digər çap ləvazimatları istehsalına başlamağa hec kəs girişmirdi. Mətbuatın, maarifin inkişafında müsbət rol oynayacaq vasitələrin

qarşısına bir sədd çəkilmişdi. Bütün bu çətinliklərə baxmayaraq İrəvanda fəaliyyət göstərən Azərbaycan məktəblərində, xüsusən də İrəvan məktəblərində dərs deyən müəllimlərlərin dərslik hazırlaması, həmin dərsliklərin Tiflisdə və başqa şəhərlərdə çap etdirilməsi işinə başlanılmışdır ki, bu, İrəvanda yeni məktəblərin açılması, burada yazıb-yaradanların Bakıda, Tiflisdə dərslik və bədii əsərlərin nəşri, teatr həvəskarlarının tamaşaları, mətbuatın, milli mədəniyyətin və maarifin dirçəlməsindən xəbər verirdi.

XIX əsrin sonlarından Qərbi Azərbaycan ədəbi mühitində folklor örnəklərinin nəşrinə də təşəbbüs edilmişdir. Həmin dövrdən etibarən ötən əsrin iyirminci illərinə kimi milli folklor mətnlərinin çapı ilə yanaşı, poetik söz sənətindən tərcümə nümunələri də işıq üzü görmüşdür. Məmmədvəli Qəmərlinin tərtibi ilə işıq üzü görmüş "Atalar sözü" kitabının nəşrindən (1899) yüz on ildən artıq bir vaxt kecsə də, qədim Azərbaycan torpağı, Türk-Oğüz yurdu İrəvanın adı ilə bağlı olan bu kitabın transliterasiya ilə 2003-cü ildə "Səda nəşriyyatı"nda yenidən çap edilmişdir. Onun yeni nəşri barədə "Respublika" qəzeti geniş məlumat vermişdir [163]. Azərbaycan folklorşunaşlığı tarixində müstəqil janr kimi ilk orijinal "Atalar sözü" kitabının çap işi İrəvanın, xüsusən də Qəmərlinskilər nəslinin tanınmış simalarından Məmmədvəli Qəmərlinin adı ilə bağlı olduğunu vurğulamışdır. Buraya daxil edilən 750-yə yaxın atalar sözu, məsəllərin linqvonetik və mövzu cəhətdən zənginliyini müəllif öz dövründə diqqət mərkəzində saxlaya bilmişdir. İrəvan bölgəsinin ləhcəsi, danışıq tərzi ilə bağlı olan hikmətli sözlərin regional səciyyə daşıdığını diqqətə çatdıra bilmişdir. Mətbuatımızın banisi Həsən bəy Zərdabinin ilk "Atalar sözü"nün nəşr olunmasının əks-səda doğurduğunu, bir ədəbi-mədəni hadisə olduğunu təqdir etmiş, hətta bu önəmli hadisəyə "Molla Nəsrəddin" jurnalında yer ayırdığı göstərilmişdir. Müəllifin faktlara əsaslanan ön sözündə qeyd edilir ki,

Azərbaycanın qədim elm-mədəniyyət mərkəzlərindən olan Bakı, Təbriz, Gəncə, İrəvan, Zəncan kimi şəhərlərdə, həmçinin azərbaycanlılardan ibarət diasporanın məskunlaşdığı İstanbul, Tiflis kimi paytaxtlarda onlarla folklor kitabları həyata vəsiqə almışlar. Bu folklor nümunələri əsasən, tədqiqatımızın bu fəslində yer almışdır. Naşiri Həsən bəy Zərdabi olan "Türk nəğmələri məcmuəsi" (Bakı, 1901, təkrar nəşr: 1909), "Seyfəlmülk və Mələkə xanım", "Sərgüzəşt və səfərnameyi şahzadə Seyfəlmülk Mirzə" (Təbriz, 1903, 1904), "Kitabi-Mehri Mah" (Təbriz, 1908) nağıl-dastanları, Əlabbas Müznibin hazırladığı "Şeyx Bəhlul lətifələri" (Bakı, 1910), Y.V.Çəmənzəminlinin adı ilə bağlı "Məlik Məmməd"in nağılı (Bakı, 1911), Kərimbəy İsmayılovun "Nağıllar məcmuəsi" (Bakı, 1911), "Kitabi-Mehri Mah" (Təbriz, 1911), "Aşıq Qərib" dastanı (Gəncə, 1912), F.Köçərlinin "Balalara hədiyyə" (Bakı, 1912), Ağa Həsən Mirzəzadənin "Məlik Məmməd və Yəmən padşahının nağılı" (Bakı, 1912), "Bəhram və Güləndam" (Təbriz, 1913), "Kərəm ilə Əsli" (Bakı, 1913), "Şahzadə Əbülfət və Rəna xanım" (Bakı, 1918), "Hekayeyi Şirin Fərhad ilə" (tarixsiz) dastanları, Mirzə Abbas Abbaszadənin "Arvad ağısı, bayatı, haxışta, sevgi, layla, qaynana-gəlin sözləri" (Bakı, 1914. təkrar nəşr: 1918), Ağasıbəy Gəraybəyovun "Gülməli nağıllar" (Bakı, 1915), "Mahnılar", "Milli nəğmələr" (Bakı, 1919) və s. kimi kitablar milli folklorumuzun mövzu və məzmun zənginliyindən xəbər verir. Bununla yanaşı, "Əmsali-loğman, yaxud qırx iki nağıl və hekayə" (ərəb dilindən tərcumə edən Cəlal Ünsizadə. Bakı, 1889), "Molla Nəsrəddin məzhəkəsi" (farscadan çevirən Ə.Müznib. Bakı, 1909. təkrar nəşr: 1911), "Əlibaba və qırx quldur" (rus dilindən çevirəni Məmmədsadıq Axundov. Bakı, 1910. təkrar nəşr: 1914), 1910-1912-ci illərdə Əlabbas Müznib tərəfindən fars dilindən tərcümə edilərək 37 hissədən – kitabdan ibarət "Əlifleyla" (Min bir gecə) nağılları folklor irsimizdə özünə əsaslı yer tapan nəşrlər olmuşlar. Mənəvi-

mədəni xəzinəmizin bu ilkin örnəklərinin əldə edilməsi istənilən səviyyədə olmasa da, onların kitab halında olan az bir hissəsi qorunub saxlanılmış, əksəriyyəti isə mikrofilm, fotosurət şəklində saxlanıldığından istifadə olunmaz hala gəlmişdir. Azərbaycanşünaslıq, xüsusilə folklorşünaslıq sahəsində aparılmış çoxillik araşdırmaların əksəriyyətində bu ədəbi-mədəni işə müraciət dolayı yolla həyata keçirilmişdir. İlkin qaynağa istinad edənlərin ədəbiyyat göstəriciləri isə sonrakı tədqiqat işlərində "özününküləşdirilmiş", araşdırmadan - araşdırmaya köçürülmüşdür. Poetik söz xəzinəmizin bu nadir incilərini yenidən nəşr edib elmi-ictimai fikrin istifadəsinə vermək folklorşünaslarımızın vacib məsələlərindəndir. Bu mənada, "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyası xüsusi əhəmiyyət kəsb edir.

XX əsrin əvvəllərində türk diyarı İrəvanda zəngin ədəbi mühit formalaşmışdı. Bu ədəbi-mədəni həyatın Cəlil Məmmədquluzadə, Firudin bəy Köçərli, Eynəli bəy Sultanov kimi nümayəndələri sonralar Azərbaycan elmi-bədii fikrinin tanınmış simalarına çevrilmiş, Mirzə Qədim İrəvani, Fazil İrəvani, Məhəmməd və Huseyn Şahtaxtinskilər, Əbülfət, İsa Sultan, Nəriman bəy Nərimanbəyov, Əli xan İrəvanski, Pənah xan Makinski, Abbas Məhəmmədzadə, Mirzə Cabbar Məmmədov və sadalamaqla böyük bir siyahı təşkil edən başqa soydaşlarımız İrəvan mədəniyyəti tarixində özünəməxsus iz qoyub getmişlər. Bu şəxsiyyətlər içərisində Qəmərlinskilərin, Qazıyevlərin, Bağırbəyovların, İrəvanskilərin, Muğanlinskilərin, Sultanzadələrin nəsil şəcərəsi önəmli rol oynamışdır. Bir sözlə, İrəvanda daima Azərbaycan ruhu, Azərbaycan mədəniyyətinin nəfəsi duyulmuş, buradakı Azərbaycan ziyalıları, maarifçiləri məktəblər açmış, qəzetlər buraxmış, xeyriyyə cəmiyyətləri yaratmaqla xalqın tərəqqisinə çalışmışdılar.

XX əsrin əvvəllərində Bakıda Hacı Zeynalabdin Tağıyevin acdığı ilk qız məktəbinin (1901) sorağı tezliklə

bütün Zaqafqaziyaya yayılmış, bu nəcib insanın təsiri ilə bir sıra yerlərdə qız məktəbləri açılmağa başlamışdı ki, bunlardan biri də 1902-ci ildə İrəvanda açılmış ilk rus-müsəlman qız məktəbi idi. Bu barədə "Kaspi" qəzeti, bir qədər sonra "Şərqi-Rus" qəzeti özünün 1903-cü il 14-cü sayında həmin məktəbin şəriət müəllimi Məmməd Vəli Qəmərlinskinin məlumatını dərc etmişdi. Məlumatda deyilir: "Bir neçə illərdən bəri şəhərimizdə iqamət edən Məmmədqulu bəy Kərim Soltan cənabları zükur məktəbi acıb hər il beş-on müsəlman uşağı gimnaziyaya verdikdən başqa bir xüsusi qız məktəbi dəxi təsis etmişdi ki, milyonlar ocağı Bakıdan başqa Qafqaz və Azərbaycanın hec yerində belə xeyirli və lazımlı işə əqdəm olunmayıbdır. Hansı ki, bu saətdə 18 nəfər müsəlman qız uşağı məktəbdə öz dilində oxuyub-yazmaq və ehkamı diniyəsini oyrənməkdən əlavə, rusca dəxi kəmali-intizam və tərəqqi ilə təhsil etməkdədirlər."

Təəssüf ki, İrəvanın ictimai-siyasi, tarixi və ədəbi-mədəni mühiti ilə bağlı qaynaqlarda Məmmədvəli Qəmərli barədə qorunmuş bilgilər dağınıq vəziyyətdədir. Bu olduqca ziddiyyətli mahiyyət daşıyır. Məmmədvəli Qəmərlinin atası Əli Qəmərli çar ordusunun generalı olmuşdur. Babasının yolunu davam etdirən Məmmədvəlinin oğlu Huseyn Qəmərli də türk ordusunun generalı rütbəsinə yüksəlmişdir. İkinci oğlu Əli Qori Müəllimlərlər Seminariyasını, digər oğlanları Paşa, Adil, Mahmud isə gimnaziya bitirib müəllim işləmişlər [64, 469]. Qəmərlinskilər İrəvan xanlığının mahallarından olan və İrəvan şəhərinə yaxın ərazidə yerləşən Qəmərli (Gərnibasar) mahalının adını özlərinə soyad kimi qəbul etmişlər. Azərbaycan folklorşünaslığı tarixində müstəqil janr kimi ilk orijinal "Atalar sözü" kitabının çap işi də məhz özlərinə nisbə götürmüş Qəmərlinskilər nəslinin tanınmış simalarından olan Məmmədvəli Qəmərlinin adı ilə bağlanmışdır. Sözu gedən "Atalar sözu" kitabının titul səhifəsindən bəlli olur ki, toplu İrəvan məktəbinin türk dili müəllimi Məmmədvəli Qəmərlinin əsəri-

dir. 1899-cu ildə İrəvanın “Edelson” mətbəəsində çap olunan əsər 1907, 1908 və 1911-ci illərdə dəfələrlə dərc edilib. Məmmədvəli Qəmərlinin adı “Ana dili” kitablarının müəllifləri sırasında da vardır. 1926-cı ildən nəşrə başlayan “Zəngi” qəzetinin 12 və 19 yanvar, 1926-cı il tarixli 5 və 6-cı saylarında “o vaxtın adamı” imzalı bir müəllifin “Ermənistan türklərinin mədəniyyəti barəsində” məqaləsindən məlum olur ki, Məmmədvəli Qəmərli həm də 1900-cu ildə dərc edilmiş “Vətən dili” kitabının müəllifi olmuşdur. Məqalədə çar üsul-idarəsi dövründə Azərbaycan türkcəsinin (dilinin) təqiblərə məruz qalmasından, yerli sakinlərin acınacaqlı durumundan, Məmmədvəli Qəmərlinin vəziyyətinin ağırlığından, o cümlədən maarif sahəsində çalışan ziyalıların müxtəlif təzyiqlərlə üzləşmələrindən söz açılmışdır [192].

1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirib, 1900-cu il martın 13-də İrəvan quberniya məclisində imtahan verərək müəllim adı almış Mirzə Məmmədvəli Qəmərli 1901-1911-ci illərdə İrəvan rus-tatar seminariyasında müəllim işləmişdir [130, 639]. Məmmədvəli Qəmərlinin gimnaziya, seminariya müəllimi kimi maarifçilik fəaliyyətini əks etdirən sənədlərdən və İrəvan ədəbi-mədəni mühiti ilə bilavasitə bağlı xatiratlardan birini də uzun illər “Azərnəşrdə” işləmiş, görkəmli pedaqoq-alim Əli Fərəcov tələbəlik illərində mənə danışmışdı. Hətta atası Abbas Ağa Kərbəlayi Əli oğlu Fərəcovun Xalq Maarif Nazirliyinin A.S.Puşkin adına İrəvan Rus-Tatar Məktəbini 1899-1903-cü illərdə və anası Kövsər xanım İsmayılovanın rus-tatar qızlar gimnaziyasını 1906-1911-ci illərdə əla qiymətlərlə bitirdiklərini, atasının Almaniyanın Leypsiq şəhərində ali təhsil aldığını, maarifçilik fəaliyyəti ilə məşğul olmasını, ölməz şairimiz M. Ə. Sabirin əsərlərinin çap etdirilməsi ilə əlaqədar ianə toplaması barədə söylədiyi fikirlərə dair əyani sənədlər göstərdiyini unutmamışdım. Bu barədə Əli müəllimin oğlu Rauf Fərəcova bildirdim, ondan evlərindəki

sənədləri nəzərdən keçirməyi, İrəvan və onun ədəbi mühiti ilə bağlı olan materialların olub - olmaması ilə maraqlanmağını rica etdim. Onun axtarıb-tapdığı və mənə gətirdiyi qovluğun içərisindəki materiallar arasında uzun illərdən bəri, daha doğrusu, bir əsirdən artıq qorunub saxlanılan sənədlər: Abbas Kərbalayi Əli oğlu Fərəcova Zaqafqaziya Şeyxülislamı, Ruhani İdarəsinin Sədri M. A. Axundzadənin imzası və gerbli möhür ilə təsdiq olunaraq 31 dekabr 1898-ci il tarixdə Tiflis şəhərində verilmiş 2570 №li şəhadətnamə, 1903-cü ilin iyun ayının 1-də A.S.Puşkin adına İrəvan rus-tatar şəhər məktəbini bitirməsinə dair 204 №-li attestat, 22 yanvar 1930-cu ildə Sovet işində aparıcı rəhbərlərdən Mirqasımovun imzası ilə Abbas Fərəcovun həyat və fəaliyyətini səciyyələndirən 7 №-li əmr vardı. Həmçinin, İrəvan rus-tatar məktəbini bitirməsi barədə 1911-ci ilin 1 iyununda Kövsər Məhəmməd qızı İsmayılovaya verilmiş 8 №-li şəhadətnamə və əski əlifba ilə "Maarif və mədəniyyət" məcmuəsinin (№ 24, 1926), "Şərq qadını" (№ 5(31), 1926) jurnalının nəşr olunan sayları və Azərbaycan Sovet Yazıçıları İttifaqı nəşriyyatının 1936-cı ildə buraxdığı "Sabir güzgüsü" - şəkilli albom vardı. Bu materiallar içərisində diqqəti cəlb edən faktlardan biri - qovluqda ölməz ədibimiz Huseyn Cavidin "Afət" əsərinə görə "Maarif və mədəniyyət" məcmuəsinin qorunub saxlanılması faktıdır. Cünki kütləvi cəza tədbirləri dövründə [71, 531] həbs olunan, Sibirə sürgün edilən Huseyn Cavidin əsərlərini qoruyub saxlamağın nə qədər çətin olduğunu başa duşmək olar... Abbas Fərəcova Puşkin adına İrəvan rus-tatar məktəbini bitirmiş Mirqasımovun rəsmi vəzifə daşıyan adam kimi 22 yanvar 1930-cu il tarixdə verdiyi rəydə oxuyuruq: "...Abbas Fərəcovu uşaqlıq və məktəb illərindən tanıyıram, inqilabdan əvvəl, 1910-1912-ci illərdə maarifciliyin güclü tərəfdarlarından biri olmuş, xüsusən də türk maarifcliyinin yorulmaz təbliğatcısı kimi özünü İrəvan əhalisi arasında tanıtmışdır. Fanatizmin hökm sürdüyü bir zamanda Rus-Tatar

qadın məktəbinin açılmasının ilk təşəbbüsçülərindən biri kimi qoca atasının fanatikliyinə baxmayaraq, bacılarının həmin məktəbdə oxumalarına müvəffəq olmuşdur. Mirzə Ələkbər Sabirin vəfatı zamanı onun əsərlərinin nəşr üçün ianə toplanmasında mənimlə (Mirqasımovla) birgə calışmışdır. Türk əhalisi arasında maarifcilik işi aparmış, onları teatrlara, tamaşalara baxmağa cəlb etmişdir. ...Pedaqoji şuraya rəhbərlik etdiyim dövrdə də, ondan sonrakı son 5 ildə valideynlər tərəfindən İrəvan türklərinin komissiyasının tərkibində olmuşdur."

2006-cı ildə Bakı, "Günəş" nəşriyyatında çap olunan "Xatirələrdə yaşayan Əli müəllim" xatirələr toplusundakı "Böyük alim, gözəl insan" adlı məqalədə İrəvan ədəbi-mədəni mühitində sayılıb-secilən insanlardan söhbət açılır, maraqlı epizodlar söyləyir: "Mükəmməl dini təhsilli, geniş dünyagörüşlü, son dərəcə humanist keyfiyyətlərə malik olan Abbas Fərəcov sözun əsil mənasında dövrünün müdrik ziyalılarından biri idi. Deyilənlərə görə, o vaxtlar işi dara düşən, müəyyən çətinliklərlə üzləşən şəhər və əyalət adamlarının çoxu Abbas kişiyə pənah gətirərlərmiş.

Sənədlərin içərisindəki Məmmədvəli Qəmərlinin böyük oğlu Huseynəli Qəmərlinin adı ilə bağlı şəhadətnamə də maraqlıdır. Şəhadətnaməyə görə, 1901-ci ilin sentiyabr ayında 9 yaşında ikən Huseynəli Qəmərli iki sinifli İrəvan rus-tatar məktəbini bitirib. Şəhadətnaməni məktəbin tatar dili müəllimi Məmmədvəli Qəmərli imzalayıb. İrəvan ziyalılarının maarifcilik fəaliyyətini dolğun şəkildə nümayiş etdirən sənədlərdən biri də Qəmərlinskilər ailəsi tərəfindən təqdim olunan Mahmud Qəmərlinin atası Məmmədvəli Qəmərli haqqında xatirələridir. 1916-cı ildə İrəvanda qələmə alınmış "Atamın xatirələrindən" adlı yazıda deyilir: "Mən Sabirlə (Mirzə Ələkbər Sabir Tahirzadə) 1906-cı ildə "Müəllimlərlər Qurultayı"nda tanış ola bildim. Bizi doktor Nəriman Nərimanov tanış etdi və Sabirə belə dedi: "Mirzə, Məmmədvəli də İrəvan çuxurunun görkəmli

maarifpərvərlərindəndir.” İrəvanda bir qrup müəllimlər heyəti vardır ki, onlar kasıb balalarının təhsili üçün fədakarcasına və yorulmadan çalışırlar. Onların səyi və tələşı ilə hətta İrəvanda qızlar məktəbi də açılmışdır.” Rəhmətlik Sabirin sevincdən gözləri yaşardı və mənə xüsusi meyil, rəğbət bəsləyərək uzun-uzadı dərdləşdik. Mən Sabiri İrəvana qonaq dəvət etdim. Lakin biz ikimiz də bir dərddə və bir vəziyyətdə idik. Bizim İrəvan xərcimizi N. Nərimanov ödədi. Qurultaydan sonra biz İrəvana getdik. Rəhmətlik Mirzə Ələkbər Sabir Həşim bəy Nərimanbəyov, Həmid bəy Şahtaxtinski, Sultanov, Qazıyevlər və başqaları ilə tanış olarkən dedi: “Mirzə, Sizin bu müəllimlərlər, məktəblər, dərs üsulunuz, xüsusən müsəlman qız məktəbi məni valeh etdi. Yaxın gələcəkdə bizim millətin də on sıralarda olacağına əmin olmaq olar.”

Məmmədvəli Qəmərli İrəvan ədəbi-mədəni mühitinin tanınmış nümayəndəsi kimi ömrü boyu müəllim işləmiş, İrəvan məktəb müəllimlərlərindən Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qazıyevlər, Məhəmmədov, Şəfibəyov, Sultanov və Mirzə Ələkbər Mirzəzadənin müəllifliyi ilə “Ana dili” (I kitab 47 s, II kitab 79 s və III kitab 89 s. Tiflis, Qeyrət mətbəəsi, 1907, 1908), Türku-Azərbaycan dilində təriqi-sövti (səsli üsulla) üzrə təlim olunan əlifbaya müçtəmil (toplanmış) və Azərbaycan və ərəb dillərində dərslərə yeni başlayanlar üçün təzə qaydada tərtib tapmış sərməşqlərə (səhifənin əvvəlində nümunələr) mübtəni 169 səhifəlik bir kitabça, Türkü-Azərbaycan dilində öyrədici inşa və imla yazılarla, qiraətlə məşğul olanlar üçün 68 səhifəlik kitabça, ibtidai siniflərdə üsuli-cədid üzrə Türkü-Azərbaycan dilində təlim alanlara Firudin bəy Köçərli tərəfindən yeni hekayələr artırılaraq, şəkillərlə birgə 60 səhifəlik və 68 səhifəlik kitabçalar aparıcı müəllif Zaqafqaziya seminariyasının müsəlman hissəsinin inspektoru A.O.Çernyayevski olmaqla, S.A.Vəlibəyovla birgə “Vətən dili” dərslik kitabları tədris üçün hazırlanmış, həmin

kitablar Tiflisdəki “Kəşkül” mətbəəsində 1888, 1901 və 1908-ci illərdə çapdan buraxılmışdır [26, 87].

“Əli Rəsulov xatirələrdə” [85, 78] toplusunun müəllifi Nahid Hacızadənin tərtibçi-müəllifliyi ilə 2008-ci ildə “Nurlan” nəşriyyatında çapdan buraxılmış “Dağlar unutmur” xatirələr toplusunda 100 illik yubileyi YUNESKO tərəfindən geniş qeyd edilən görkəmli sənətkarlardan Mir Cəlal Paşayevin haqqında söylədiyi maraqlı faktlar, alimlərin, qələm sahiblərinin böyük ədib, əsil xalq müəllimləri haqqında minnətdarlıq duyğularının ifadəsi öz əksini tapmışdır. Burada böyük ədib, əsil xalq müəllimləri Mir Cəlal Paşayevlə birlikdə Mirzə Fətəli Axundov adına Gəncə Türk Pedaqoji Texnikumunda oxumuş və təyinatla Gədəbəy rayonunda işləməyə göndərilmiş Mahmud Qəmərli barədə maraqlı məlumatı onun oğlu Faiq Qəmərlinin xatirələrindən oxuyuruq: “Atam Mahmud Qəmərli 1906-cı ildə nəcabətli bir ailədə - Məmmədvəli Qəmərlinskinin ailəsində dünyaya göz açıb. Onun atası, mənim ulu babam çar ordusunun generalı olub. Mirzə Məmmədvəli bir necə vətənpərvər ziyalı ilə birlikdə İrəvanda ilk qızlar məktəbi açmışdır. Bu, 1901-ci ildə Zeynalabdin Tağıyevin Bakıda açdığı Qızlar Seminariyasından sonra bütün Qafqazda ilk qızlar məktəbi sayılırdı.

Babasının müəllimliklə yanaşı, həm də bir necə gərəkli kitabların, o cümlədən “Atalar sözu” (1889), “Vətən dili” (1900), “İrəvan quberniyası haqqında xatirələr”, eləcə də birinci, ikinci, üçüncu siniflər üçün “Ana dili” dərsliklərinin müəllifi olduğunu qeyd edir. Onun bu sahədə xidmətlərindən yeri gəldikcə geniş söz açılır. O, 1916-cı ildə erməni daşnakları vəhşiliklər, qırğınlar törədəndə böyük çətinlik bahasına ailəsi ilə birlikdə Gəncə şəhərinə köçmüşdür” [48, 87]. Faiq Qəmərli atası Mahmud Qəmərlinin gələcəyin böyük ədibi Mir Cəlalla tanışlığını, Gəncə Türk Pedaqoji Texnikumunda təhsil aldığını (1927-1928-ci illərdə), gəncliklərini Gədəbəydə bir yerdə

müəllimlikdə keçirdiyindən, kirayənəşin qaldıqlarından maraqla söhbət açır.

Şeirlərini "Razi" təxəllüsi ilə yazan Mirzə Abbas Məhəmmədzadənin "Güldəstə" adlı kitabı Bakıda 1912-ci ildə Oruçov qardaşlarının mətbəəsində nəşr edimişdir. "Güldəstə" kitabında Sədi, Cami kimi görkəmli klassiklərin tərbiyəvi əhəmiyyət daşıyan nəsihətamiz şeirlərindən istifadə etməklə, özünün maarifçilik ideyalarını da təbliğ etmişdir. "Məktəbin tərifi", "Məktəbə rəğbət" və s. Onun "Bədrağatül-Ətfal" (Balalara hədiyyə) kitabı Bakı və Tiflisdə, eyni zamanda, İrəvanda "Budaqov" mətbəəsində (1913), rus dilini mükəmməl bilən bir mütəxəssis kimi tərtib etdiyi «Самаучител персидского языка для русских» dərsliyi Bakıda Oruçov qardaşlarının mətbəəsində (1913) çap olunmuş [26, 158], [29-87], uzun müddət ondan məktəblərdə istifadə olunmuşdur.

Mirzə Abbas Məhəmmədzadə 1918-ci ildə İrəvanda vəziyyətin kəskinləşdiyi bir vaxtda Təbrizə gedib, 1919-cu ildə burada vəfat edib. Onun 1882-ci ildə İrəvanda anadan olmuş İrəvan Müəllimlərlər Seminariyasnı 1902-ci ildə bitirən, dörd il Nehrəmdə, Qəmərlidə, İmanşalı kəndində müəllim işləyən, sonralar Müəllimlər seminariyasında Azərbaycan dili müəllimi kimi şöhrət qazanmış oğlu Cabbar Məhəmmədzadə isə daşnakların hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq İrəvan gimnaziyası və Müəllimlərlər seminariyası bağlandığından Naxçıvana getmiş, burada müəllimlik etmiş, rus, türk və Azərbaycan dillərindən dərs demişdir. Naxçıvanda iki illik fəaliyyəti dövründə tərtib etdiyi üç kitabı - «Самаучител тюркского языка для русских», «Самаучител русского языка для тюрок», «Самаучител русского языка для персов» - nəşr etdirir. 1920-ci ildə Bakıya gəlib, burada Bakı Dövlət Universitetində, Az.Pİ-də, Kooperativ İnstitutunda pedaqoji fəaliyyətə başlayır, 1920-ci illərdə tək və müştərək Azərbaycan və rus dillərində ibtidai və orta məktəblər üçün iyirmiyədək

dərsliyin tərtibçi-müəllifi olub. Azərbaycan Kooperativ İnstitutunda kafedra müdiri, dosent vəzifəsinə seçilir, dissertasiya müdafiə edərək (1932) pedaqoji elmlər doktoru elmi dərəcəsi adını alır.

Soyqırım və deportasiya siyasətini ardıcıl olaraq həyata keçirən erməni millətçiləri 1905-ci ili, 1918-1920-ci illəri, 1948-ci ili, 1953-cü ili azərbaycanlıların taleyində ən faciəli, ağrılı illərə çevirmişlər. Sözsüz ki, bu illər ədəbi mühitin inkişafında da özünün təqdir olunmayan mənfilikləri ilə xarekterizə edilir. Erməni millətçiləri tərəfindən törədilən hadisələr İrəvanda ədəbi mühitin dağılması, Azərbaycanın müxtəlif ərazilərində məskunlaşan yaradıcı sənət adamlarının mühitdən üzaqlaşması ilə nəticələnmişdir.

İnqilabın qələbəsindən sonra İrəvanda da sosialist realizmini əsas yaradıcılıq metodu kimi yazarlar qarşısında qoymuşdur. Ədəbi mühitin sosialist realizmi metoduna sadiq olması diqqət mərkəzində saxlanır, bundan yayınanların aqibətini repressiyalar gözləyirdi. İrəvanda Yazıçılar Cəmiyyətinin nəzdində yaranan (1927) Azərbaycan bölməsi də partiya qərarlarının yerinə yetirilməsi istiqamətində ilk addım kimi qiymətləndirilirdi. Bölməyə rəhbərlik Əsgər Əsgərzadəyə həvalə olunmuşdur. İrəvanda azərbaycanlıların elmə, maarifə, ədəbiyyata, incəsənətə olan marağı güclü olduğundan Ermənistan Kommunist (b) Partiyası və Ermənistan Yazıçılar cəmiyyəti Azərbaycan bölməsinin normal fəaliyyət göstərməsi üçün ilk növbədə, nə bina ayırmır, nə də lazımı şərait yaratmırdı. Azərbaycan yazıçılar bölməsi demək olar ki, "Zəngi" qəzetinin redaksiyasında, qadınlar klubunda, pedaqoji Texnikumun binasında səyyari fəaliyyət göstərirdi. Bu da gənc yaradıcı qüvvələrin yetişməsinə öz mənfi təsirini göstərirdi. Belə bir şəraitdə zəngin ədəbi mühitin formalaşdırılması da müşkül məsələ idi. Hələ 1920-ci ildən sonra yaşlı nəslə mənsub ziyalıların dağılması uçbatından gənc qələm sahiblərinin

cəmləşdirilməsinə böyük ehtiyac vardı. İrəvanda yaşayan gənc ədəbi simalardan Nəriman Fəxri, Telman Nəzərli, Abbas Tahir, Əsgər Əsgərzadə, Bəhlul Məmmədov, Həbib İsmayılov, Əbulfət İbrahim, Əbulfət Rəhimov, Ələşrəf Babayev, Sona Bağırova, Nurəli Qurbanov, Huseyn Nəcəfov və başqaları türk yazarlar bölməsinin ətrafında cəmləşmişdilər və yerlərdə ədəbi dərnəklərin təşkilinə, istedadlı gənclərin aşkar edilməsinə çalışırdılar. İrəvan yazarlar bölməsi "Qızıl Şəfəq" qəzeti redaksiyası ilə sıx təmasda işləyirdi. Azsaylı xalqlar şöbəsinin mudiri Bala Əfəndiyev respublika partiya rəhbərliyi qarşısında Azərbaycan Yazıçılar bölməsi "Ədəbiyyat cəbhəsi" adlı jurnal nəşr etməsi barədə məsələ qaldırmış, lakin icazə verilməmiş [5, 106], "1929-cu ildə İrəvanda Zaqafqaziya Proletar Yazıçılar Cəmiyyətinin Ermənistanda sovet hakimiyyəti qurulmasının ildönümü ərəfəsində üçüncu plenumunun keçirilməsi İrəvan azərbaycanlı şair və ədiblərinin yaradıcılığına bir stimul olmuş, bu hadisə İrəvan azərbaycanlı şair və ədiblərinin 1933-cü ilin fevral ayında bölmənin geniş tərkibdə toplantısının keçirilməsində" [5,107], yazıçıların yaradıcılıq imkanlarını genişləndirmək, "Qızıl Şəfəq" qəzetində ayda 7 dəfə ədəbiyyat səhifəsinin buraxılması məsələlərinin müzakirəsi rəğbətlə qarşılanmışdır [5, 108]. İrəvan ədəbi mühitinin formalaşmasında Azərbaycan Proletar Yazıçılar cəmiyyətinin rol və fəaliyyətini də qeyd etmək lazımdır. Müxtəlif illərdə Bakıdan incəsənət və ədəbiyyat xadimlərinin İrəvana tədbirlərdə iştirak etmək üçün ezam edilməsi, qarşılıqlı səfərlər, yazıçılarla görüşlərin keçirilməsi, mətbuat səhifələrində ədəbi müsahibələrin verilməsi bir növ ənənəyə çevrilmişdir.

İrəvan ədəbi mühitinə bir şair kimi öz töhfəsini vermiş, SSRİ Yazıçılar İttifaqının üzü, Ermənistan Yazıçılar İttifaqı türk (Azərbaycan) bölməsinin katibi **Əbülfət Rəhimov** o zaman dövrü mətbuatda zamanın qabaqcıl idealları ilə səsləşən uğurlu şeirləri ilə tez-tez çıxış etmişdir. Onun vaxtı ilə Göyçədə

çıxan “Qızıl Basarkeçər”, İrəvanda nəşr olunan “Qızıl şəfəq” qəzetləri səhifələrində, İrəvanda buraxılmış “Zərbə”, “Gənc səslər”, “Dəmir qanad” almanaxlarında bədii əsərləri dərc olunmuşdur. Əbulfət Rəhimovun 1985-ci ildə, “Yazıçı” nəşriyyatında ”Axan ulduzların işığı” adlı şeirlər kitabına ön sözü şair Məmməd Aslan yazmışdır. M.Aslan şair Əbülfət haqqında, onun münasibətdə olduğu insanlar haqqında fikirlərini söyləmişdir. Şair Əbülfət Rəhimovun ilk kitabı “Şeirlər” adlanır (Ə.Rəhimov - Yerevan, 1933. 14 s; 23 sm.30 q.500 nüs).

1931-ci ildə İrəvan türk proletar yazıçılarının şeir və hekayələri “Zərbə” məcmuəsi adı ilə İrəvanda Dövlət nəşriyyatı tərəfindən buraxılmışdır. Məcmuədə Rza Vəlibəyovun müqəddiməsi ilə başlayır. T. Abbasın, Ə. Bayramovun, Ə. Rəhimovun, S. Rəhimovanın, S. Bağırovanın, 8 Mart, kolxozcu qız, ölkəni, çar zamanı millətçilik, azadlıq, mövcud quruluşun özəlliklərini tərənnüm edən şeirləri, C.Kazımovanın “Pionerka Günəş”, Əsgər Əsgərzadənin “Namus qurbanı”, N. İsmayılovun “Muzdur Həmid”, N.Qurbanovun “Sosializm yolunda”, T. Nəzərlinin “Kolxozçu qızı Əminə”, M. Muradovun “Xalqa” hekayələri nəşr edilmiş, şair və nasirlərin yaradıcılığının bədii istiqamətləri barədə müfəssəl söhbət açılmışdır. 1934-cü ildə Ə. Əliyevin “Qoşma”, “Biz kimlərik”, “Komsomol Dilarə”, “Qadın”, “Zərbəçi qız”, “İki şəkil” və s. şeirləri, elə həmin il firqə nəşriyyatı “Gənc səslər” toplusunda mədəniyyət və ədəbiyyat məsələlərinə dair dövlət rəhbərlərinin fikirlərini əks etdirən məqalələr, gənclərlə müsahibə, N. Əfəndiyevin, A. Azərinin, H. Həsənovun və başqalarının məqalə, korespondensiya, zarisovka və digər janrlarda ədəbi-bədii yazılarını, İrəvan Dövlət Nəşriyyatı A. Tahirin “İlham mənbəyi” şeirlər kitabını nəşr etdirmişdir. 1935-ci ildə isə “Yüksəliş” məcmuəsində gənc müəliflərin bədii əsərləri, “On beş il” almanaxında Nəsib Əfəndiyevin, A. Azərinin, A.

Tahirin, Calal Sərdarovun hekayə və şeirləri, 1947-ci ildə Tahir Abbasın "Qələbə baharı" şeirlər toplusu çap edilmişdir. İrəvan ədəbi mühitinin bədii yaradıcılıqla məşğul olan gənc qüvvələrindən Q. Aslanov, İ. Hümmətov müxtəlif illərdə oxuçularını yaradıcılıqlarından nümunələrlə sevindirmişlər. Bu çətinliklərə baxmayaraq, 1957-ci ildə "Ədəbi Ermənistan" məcmuəsinin birinci kitabını (290 s), 1959-cu ildə ikinci kitabını (354 s), 1960-cı ildə üçüncu kitabını (293 s), 1962-ci ildə dördüncü kitabını (219 s), 1963-cü ildə beşinci kitabını (341 s), 1964-cü ildə altıncı kitabını (215 səhifə), 1965-ci ildə yeddinci kitabını (182 səhifə), 1967-ci ildə səkkizinci kitabını (159 səhifə) "Hayastan" nəşriyyatı çoxsaylı elm, sənət adamlarının, yazıçı və şairlərin əsərlərindən elmi –bədii yaradıcılığından nümunələr verməklə mühitin zənginliyini oxuçulara çatdırmışdır. Həmin illərdə İdris Zamanlının "Mənim məhəbbətim", Teymur Əhmədovun "Dostluq və səadət nəğmələri", Əli Vəkiloğlunun "Sona bulağı", Mehdi Həsənovun "Dağlar qoynunda", Qəşəm Aslanovun "Saymazovun salamı", Hidayətin "Məhəbbət qocalmır", "Bir az gözlə məni", "Bir teatrın üç aktyoru", "Zirvə cığırı", Məftun Dünyamalının " Çiçəklənən arzular", İsmayıl Davudovun "İki ana", Musa Bağırovun "Urəyimin səsi", "Ömrün mənası", V. İnqilabın, Ə. Suleymanovun "Pyesləri" , H. Həsənovun, İsmayıl İsmayılovun, Nusrətin "İllərdən sonra", "Samirə" (povest), Zeynal Paşayevin, Arif Poladlının "Baxışlar", S. Rzayevin və Ə. Yerevanlının, 1982 - 83-cü illərdə nəşr edilən "Almanax"da Vəli Əlioğlunun, Abbas Vəfadağlının, mühitdə yazıb-yaradan çoxsaylı şair və nasirlərin bədii-poetik yazıları ədəbi janrın bir çox növlərində nəşr edilmişdir [178] ki, bütün bunlar İrəvan ədəbi mühitinin Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi, ədəbiyyatın tarixən keçdiyi inkişaf zəminində təşəkkül tapması və zəngin ənənələri ilə digər mühitlərdən fərqlənməsinin bariz nümunəsidir.

II FƏSİL: İRƏVANDA MİLLİ MƏTBUATIN YARANMASI VƏ İDEYA İSTİQAMƏLƏRİ

XIX əsrin ikinci yarısından başlayaraq özünun qədim abidələri, yaşayış məskənləri, milli-mənəvi dəyərləri, mədəniyyət abidələri, görkəmli şəxşiyyətləri, maarifci ziyalıları, yaradıcı sənətkarları ilə tanınan qədim Azərbaycan şəhəri olan İrəvanda ədəbi-ziyalı mühiti formalaşmağa başlamışdır. Buradakı ziyalıların, müəllimlərin, yazıçı və şairlərin şəhərin özündə acılmış "Edison", "Kultura", "Luis" mətbəələrində tərcümə, nəsr, dram əsərləri nəşr olunurdu. Savadsızlığın aradan qaldırılması, elmin, təhsilin, mədəniyyətin inkişafına, ictimai fikrin formalaşdırılmasına olan ehtiyac milli mətbuatın yaranması zərurətini də yaratmışdı.

Zaqafqaziyanın inzibati-mədəni mərkəzi olan Tiflisdə ictimai-siyasi səciyyə daşıyan ədəbi-publisist materiallara daha çox yer ayıran, ilk nömrəsi 1828-ci ilin iyun ayının 4-də, rus dilində çıxan ilk qəzet "Tiflisskoye vedomosti" ("Tiflis əxbarı") olmuşdur. Qəzet 1829-cu ildə gürcü dilində, 1832-ci ildə isə Azərbaycan dilində nəşr olunmuşdur. Azərbaycan dilində buraxılan "Tiflis əxbarı"nın nömrələrinin əldə olunmasından "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" monoqrafiyasında [10, 8-9] söz açan tədqiqatçı alim Nazim Axundov "Tiflisdə tatar dilində qəzetin nəşr edilməsi haqqında" Gürcüstanın tarix arxivində saxlanılan 114-cü fondun 142-ci qovluğunda əhatəli məlumatın olduğunu göstərmişdir.

Zaqafqaziyada Azərbaycan dilində çap olunan ikinci qəzet "Qafqazın bu tərəfinin xəbərləri"dir. "Zaqafqazskiy vestnik" adlı qəzet 1838-ci ildən rus dilində, 1845-ci ildən gürcü və Azərbaycan dillərində Tiflisdə çıxmış və bir neçə il nəşri davam etdirilmişdir [81, 82, 3,12], [95, 82]. "Kəşkul" qəzeti ətrafına geniş oxuçu toplaya bilmədiyindən nəşri dayandırılmış, 1903-cü il, martın 30-da ilk nömrəsi işıq üzü görən "Şərqi-

Rus ” qəzetinin son nömrəsi 1905-ci il yanvarın 15-də cəmi 392 nömrəsi, 1905-ci ilin əvvəllərində, həm də Bakıda “Şərqi-Rus”un teleqramları” adlı axşam xəbərlərinin bir neçə nömrəsi çıxmışdı. Qəzetin naşiri və redaktoru Məhəmməd ağa Şahtaxtlı, son 45 nömrəsinin redaktoru Cəlil Məmmədquluzadə olmuşdur. Qəzetdə qadın azadlığı, dünyəvi elmlər, ana dili və sair haqqında mütərəqqi fikirlər təbliğ olunurdu. Qəzetdə məqalələri dərc olunan yazarlardan C. Məmmədquluzadə, M. Ə. Sabir, A. Səhhət, Ö. F. Nemanzadə, H. Cavid, M. S. Ordubadi, Ə. Qəmküsar, Ə. Nəzmi və başqalarının bədii, publisistik, satirik şeirləri oxuçu marağına səbəb olmuşdu [24, 511]. C. Məmmədquluzadənin İrəvan həyatından bəhs edən “Poct qutusu” hekayəsi “Şərqi-Rus” qəzetinin 1904-cü il nömrəsində dərc olunmuşdur. Azərbaycan dilində Tiflisdə həftədə üç dəfə nəşr olunan “Şərqi-Rus” qəzeti liberal-burjua istiqamətli ictimai-siyasi, iqtisadi, elmi, ədəbi qəzet kimi diqqət mərkəzində idi [37, 52-55]. “Şərqi-Rus” qəzeti səhifələrində əsərlərini nəşr etdirən qələm sahibləri “Molla Nəsrəddin” jurnalının səhifələrində maraqlı əsərləri ilə seçilir, “Mollanəsrəddincilər” kimi tanınırdılar.

İrəvan mühitində yetişən ziyalılar da “Əkinçi” (1875-1877), “Ziya” (1879-1880), “Ziyayi-Qafqaziyyə” (1880-1884), “Kəşkül” (1883-1891) və “Molla Nəsrəddin”də yazılar dərc elətdirir və onların yayılmasında yaxından iştirak edirdilər. Məsələn, İrəvan şairlərindən Mirzə Kazım Qazi Əsgərzadə “Müttələ” “Əkinçi” qəzetinin İrəvan müxbiri idi və Hacı Seyid Rza Əmirzadə “Sabirin” bu qəzetin səhifələrində məqalələri dərc olunmuşdu. Adları qeyd olunan nəşrlərin hamısının, istər Gürcüstanda, istərsə də Azərbaycanda nəşr olunan bu məşhur jurnalların, qəzet və mətbu orqanların İrəvan ədəbi – mədəni mühitinin inkişaf edib formalaşmasına, ictimai fikrin genişlənməsinə öz müsbət təsirini göstərmişdir. Belə ki, milli mətbuatımızın ilk qaranquşu, XIX əsr Azərbaycan ictimai-siyasi hə-

yatının aynası olan “Əkinçi”nin ilk nömrəsi çapdan çıxandan sonra onun ətrafında çalışan tərəqqipərvər ziyalıların sayı daha da artmağa başlamışdır. “Bütün Rusiyada olan müsəlmanları hərəkətə gətirən” qəzetin ətrafında M. F. Axundov, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Ələkbər bəy Sultanov, Məhəmməd ağa Əlizadə, Məhbus Dərbəndi, Ələkbər Heydəri kimi tanınmış ziyalılar toplaşaraq onun fəal muxbirlərinə çevrilmişdilər. Məhəmmədəli bəy Vəliyev də bunlardan biri idi.

XIX əsrin tanınmış Qarabağ şairlərindən olan Məhəmmədəli bəy Məşədi Əsədulla oğlu Vəliyev (182i, Şuşa) burada mükəmməl mədrəsə təhsili alıb, sonra isə şəhər qəza məktəbində oxumuşdu. Rus və fars dillərini mükəmməl bilirdi. Məhəmmədəli bəy Vəliyev eyni zamanda ”Rus dilindən Azərbaycan dilinə əsərlər çevirmişdir. Şer və qəzəl deməkdə də əvəzi yox idi” (Mir Möhsün Nəvvab).

Füzuli ədəbi məktəbinin davamçısı olan şair, əsasən, “Məxfi” təxəllüsü ilə həm Azərbaycan, həm də fars dillərində klassik üslubda gözəl şeirlər yazıb, yaratmışdı. Şuşada fəaliyyət göstərən “Məclisi-üns” və “Məclisi-fəramuşan” ədəbi məclislərinin üzvü olan şairin özündən sonra lirik və aşiqanə ruhlu şerlərindən ibarət “Divan”ı və “Əhvalati-Qarabağ” (1888) adlı tarixi əsəri qalıb. “Qəzəllər” adlı kitabı isə, 2001-ci ildə Şuşa nəşriyyatında çap olunub.

Gənc yaşlarından Şuşada, Tiflisdə, İrəvanda, Şamaxıda, Bakıda dövlət idarələrində işləyən Məmmədəli bəy populyar müşavir mülki çini alıb. Şamaxıda dövlət qulluğunda olarkən rus dilindən Azərbaycan dilinə, eyni zamanda Azərbaycan dilindən rus dilinə tərcümə etdiyi mükəmməl tərcumələrə görə çar hökuməti tərəfindən medalla təltif edilib. ”Əkinci” nəşrə başlayanda İrəvanda calışan Məhəmmədəli bəy Vəliyev qəzeti və onun redaktoru Həsən bəy Zərdabini ilk alqışlayanlardan olub. O, təbrik şeri yazıb, redaksiyaya gondərib. “Əkinci” qəzetində iki yazısı çıxmasına baxmayaraq, Məhəmmədəli bəy

Vəliyevin (1821-1892) adı milli mətbuatımızın tarixinə ilk jurnalistlərdən biri kimi yazılıb. Məhəmmədəli bəy Vəliyevin İrəvandan göndərdiyi "Əkinçi"də dərc olunan məktubları haqqında yazılır: "İrəvandan Şabanın 22-də Məhəmmədəli bəy Vəliyev yazır ki, bir neçə həftədir ki, İrəvan uyezdinin Dəvə qəriyəsində adamxor heyvan peyda olub, gecələr gəlib, evlərdən uşaqları aparıb yeyir, indiyəcən 13 nəfər uşaq yeyib və həmçinin Çəğin mahalının bir para kəndlərindən bir neçə uşaq dəxi aparıb. Ol heyvanı görənlər deyirlər ki, onun rəngi qırmızıya maildir və özü də itə oxşayır, amma bəziləri deyir rəngi qaradır və qurda şəbahəti çoxdur. Ol kəndlərin xalqı əlində tüfəng qarovul çəkirlər, amma onu görmək müyəssər olmur. Bu halda uyezdin naçalniki cənab Şağubatov bu barədə silist edir.

Dünyada heç bir heyvan yoxdur ki, insanın şüçayətindən və gözlərinin nurundan qorxmasın. Ona binaən olmaz ki, heyvan adamxor olsun. Doğrudur, ağ pələng, qurd və kaftar düşəndə bir uşaq aparırlar, amma onlar aclıqdan bu qələti bir edib, bir də dəxi etməzlər. Xülasə, bu xəbərin həqiqətini bilməkdən ötrü çox intizar varıq və umidvarıq ki, Məhəmmədəli bəy onun keyfiyyətini yazıb, bizə məlum eləsin"(6 oktyabr, 1875-ci il, № 6).

"İrəvandan xəbərlər"də Məhəmmədəli bəy Vəliyev yazır: "20, ya 30 il bundan əqdəm İran dövlətinin Qarapapaq tayfasından 1500 xanə Osmanlı dövlətinə tabe olan Şurəgül adlı yerə köçmüş imişlər. İndi İran dövlətinin tərəfindən məskun tayfanın zorla İrana köçürülməyi hökm olunub. Bu əmrdən ötru cənab Mirzə Haşım xan Şuragilə varid olub, ol tayfadan 500 ev İrana göndərilib və qalan 1000 evin iltimasına binaən onlara möhlət verilib ki, torpaq məhsulatlarını götürub sonra köçsünlər. Bu halda xəbər var ki, onlar da bu günlərdə köçəcəkdirlər ("Əkinçi", 18 noyabr, 1875 - ci il, № 9).

İrəvan ədəbi mühitində baş verən yeniliklər, catışmazlıqlar barədə qəzetin səhifələrində verilən məlumatların

digər bir muəllifi də qəzetin İrəvan muxbiri Mirzə Kazım Qazi Əsgərzadə idi. "Təzə xəbərlər" bölməsində yazılır: "Mişak" qəzeti həmişə yazır ki, Osmanlı dövlətinin zülmündən ermənilər qaçıb Rusiyaya köçür və bir səhifə yazıb ki, filan günü bir böyük dəstə erməni başaçıq, ayaqyalın Gümrü qalasına gəlib. İndi ermənilərin qeyri qəzetlərinə Gümrü qalasından qaçırlar ki, bu xəbərin heç əsli yoxdur və indiyəcən Gümrüyə bircə də erməni gəlməyib ("Əkinçi", 17 mart 1877- ci il, № 6).

Bir əsr yarım bundan əvvəl yazılmış məlumatdan da göründüyü kimi, yalan məlumat vermək, özlərini yazıq, əzilən bir millət kimi göstərmək bu mənfurların çoxdankı adətləridir. Ziyalılarımız hər zaman gərək yazılmış məktublarda, gərək məqalələrdə əks olunan bu məsələyə həssaslıq göstərmiş, fikir bildirmişlər. Maarifpərvər Mirabbas Mirbağırzadə də belə ziyalılarımızdan olub. Onun maarifçiik, kitab təbliği sahəsində müəyyən xidmətləri var ki, bunlar Naxçıvanın görkəmli maarif xadimlərindən olan Lətif Huseynzadənin verdiyi məlumatda öz əksini tapır: "1919-cu ildə Naxçıvana gəlmiş Mirabbas Mirbağırzadəni görəndə onun 35-40 yaşı olardı. Təxminən, 1880-1885-ci illər arasında doğulmuş olardı.1906-1907-ci illər mətbuatında Mirabbas Mirbağırzadənin adı "İrəvanın gənc ziyalıları" içərisində çəkilir. Bu da həmin tarixin doğruluğuna bir tutarqadır. Onun uşaqlığı və harada oxuması barədə dəqiq məlumat verilməsə də (güman ki, İrəvan gimnaziyasını bitirib), alverlə məşğul olan Mirzə Bağırzadə daha çox kitab tiçarətinə üstünlük vermiş, İrəvanda "ümumi kitabxana" adlandırdığı kitab mağazasını açmışdır. O, burada yalnız kitab və dəftərxana ləvazimatları yox, özünun nəşr etdirdiyi divar təqvimini də satdırarmış ki, "İrşad" qəzetində (5 yanvar, 1908. №3, s. 4) bu haqda yazılır: "Keçən 1907-ci sənə üçün M.Mirbağırzadənin məcmuəsi "Əslində "Qeyrət" mətbəəsi vasitəsi ilə nəşr olunan divar kalendarları, özümüzə məlum olan qüsurlarımız və özgələrə hər bir barədə möhtacatımız cəhətindən çox qüsurlu

olmuşdur. Lakin bu sənə - 1908-ci sənə üçün ürfanpərvərlərimiz vasitəsi ilə nəşr olunan divar kalendarları qiyas olunmalıdır".

M.Mirbağırov (xüsusi muxbirimizdən) İrəvandan. "Ümid" kitabxanası tərəfindən hər qisim xahişimiz olarsa İrəvanda "Ümid" kitabxanasına rüçu buyurmalıdırlar

"İrşad" qəzetinin 26 və 27 fevral 1908-ci il tarixli saylarında İrəvandan. izahlar. İrəvanda "Ümid" kitabxanası tərəfindən başlıqlı yazısında Mirabbas ağa kitab tiçarətinin nə qədər ağır olduğunu öz başına gələnlərlə açıqlayır... M.Mirbağırov Bakıdakı bir sıra mətbuat orqanlarının vəkili olmuş, abunə təşkil etmişdir" [63, 34].

Keçən əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalının təsiri ilə Azərbaycanda, Gürcüstanda, İrəvanda bir sıra satirik jurnallar - "Bəhlul" (1907), "Azərbaycan" (1906-1907), "Zənbur" (1909-1910), "Mirat" (1910), "Kəlniyyət" (1912-1913), "Tuti" (1914-1917), "Arı" (1910-1911), "Məzəli" (1914-1915), "Babayi - Əmir" (1915-1916), "Məşəl" (1919), "Lək - lək" (1914), "Bürhani - həqiqət" [34, 16-17] (1917) nəşr olunmağa başlamış, "Molla Nəsrəddin" ənənələrindən, yaradıcılıq metodlarından məqsədəuyğun şəkildə bəhrələnmiş, müəyyən işlər görməyi bacarmışdılar [10, 8]. Bunların sırasına XX əsrin ikinci onilliyində İrəvanda "Lək-lək" (1914, Azərbaycan dilində), "Bürhani - həqiqət", "Cavanlar şurası" (1917), "Kommunist" (1922), "Rəncbər" (1922), "Zəngi" (1924-1927), "Qızıl Şəfəq" (1927-1937), "Kommunist" (1937-1939), "Sovet Ermənistanı" (1939-1989) kimi qəzet və jurnalları əlavə etmək olar. Adı çəkilən qəzet və jurnallar İrəvan ədəbi-mədəni həyatında baş verən hadisələri öz səhifələrində işıqlandırmağa xidmət etmişlər (bu nəşrlərin fəailiyyəti barədə tədqiqatımızın növbəti fəsil və yarım fəsillərində lazım gəldikcə söhbət açılacaqdır). İrəvanlı ziyalılar bu jurnallarla yanaşı, digər mətbu orqanlarla da yaxından əlaqə saxlayır, yazılarla çıxış edirdilər.

Məsələn, Cabbar Əsgərzadə İrəvaninin (“Məhkəmə pişiyi”) bədii-publisist yazısı Haşım bəy Vəzirovun naşirliyi və redaktorluğu ilə, özünün “Səda” mətbəəsində nəşr olunan 8 səhifəlik jurnalında - “Məzəli”də işıq üzu görmüşdür “Molla Nəsrəddin”in yolunu davam etdirməyə səy göstərən jurnal mövcud qüsurları tənqid etsə də, “Molla Nəsrəddin”in inqilabi-demokratik səviyyəsinə yüksələ bilməmişdir (“Molla Nəsrəddin” jurnalının səhifələrində çıxış edən yazıçılar sırasında Cabbar Əsgərzadənin də adı vardır). Bu illərdə satrik jurnalların nəşrinin davam etməsinə ciddi əngəllər var idi. Bu səbəbdən 1918-ci ildə Tiflisdə nəşr olunmuş, “Tartan-partan” həftəlik satirik jurnalı yeganə nümunəsi çıxdıqdan sonra guya zərərli istiqamətinə görə qadağan edilmişdir (“Kəşkül”, “Tiflis əxbarı” nəşr edilmişdir. “Ziya” qəzetində mürtəce dini zehniyyətin təbliğinin ön plana çəkilməsi hər şeyə dini cəhətən qiymət verilməsi üstünlük təşkil edirdi.).

Ümumiyyətlə, demokratik fikirli Azərbaycan ziyalılarının yetişməsində Tiflis ədəbi mühitinin böyük rolu olmuşdur. Bu ziyalıların bədii yaradıcılıqla məşğul olmaları, ənənələrlə yanaşı, Tiflisdə dünya ədəbiyyatının bədii təcrübəsi ilə yaxınlaşmağa imkan yaratmış, ədəbi inkişafı düzgün istiqamətləndirməyə nail ola bilmişdilər. 1905-ci ilədək Azərbaycan dilində çıxan mətbuat orqanları Tiflisdə nəşr olunmuşdur. Tiflisdəki Azərbaycan ədəbi mühiti qarşılıqlı ədəbi əlaqələr zəminində inkişaf etməyə başlamış, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, onun şifahi xalq ədəbiyyatı nümunələrinə maraq artırdı. Onlar Azərbaycan və gürcü xalqlarının ziyalıları tərəfindən toplanır və həmin xalqların dillərinə köçürülən ağız ədəbiyyatı nümunələrinin variantları yaranırdı.

Azərbaycan mədəniyyəti Qafqazda rus, gürcü dillərində dərc olunan qəzet və jurnallarda, həmcinin dövri mətbuatında ictimai-siyasi həyatın bütün sahələrdə özünü büruzə verən məqamlarını bu və ya digər dərəcədə əks etdirirdi. Tarxi

salnaməyə çevrilmiş mühim məqamları diqqət mərkəzində saxlayan tanınmış tədqiqatçı alim Kövsər xanım Tanrıverdiyeva uzun illər arxivlərdə sərf etdiyi gərgin əməyi sayəsində 1985-ci ildə çapdan çıxan "Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında" adlı monoqrafiyasında tarixi faktlara güzgü salmışdır. Monoqrafiyada Azərbaycan ictimaiyyətinə tam təfərruatı ilə məlum olmayan bəzi məsələlər 105 adda (erməni dilində) işıq üzu görən dövri mətbuatda araşdırılmış, ədəbi əlaqələrin məzmun və yeritdiyi ideya istiqamətləri ümumiləşdirilmişdir. Ədəbi, siyasi, ictimai, sosial-demokrat, satirik və yumoristik məzmunu özündə ehtiva edən çoxsaylı mətbu orqanlardan "Ardzaqank" (Əks-səda), "Alik" (Dalğa), "Aşxadavor" (Zəhmətkeş), "Banvori dzayn" (Fəhlə səsi), "Bdak" (Axın, cay qolu), "Baykar" (Mübarizə), "Hor dar" (Yeni əsr), "Nor xosk" (Yeni söz), "Daraz" (Dəb, biçim), "Didak" (Durbin), "Mışak" (Əkinçi), "Yerqri dzayn" (Ölkənin səsi), "Hrazdan", "Ağpyur" (Bulaq), "Şoviğ" (Cığır), "Orer" (Günlər), "Lraber" (Xəbərlər), "Jamanaq", "Qağapar" (İdeya), "Tatron" (Teatr), "Tatron yev yerajşdutyun" (Teatr və musiqi), "Murc" (Çəkic) [63, 5, 6, 5, 114] və s. öz səhifələrində o dövrdəki ictimai-siyasi durumun diqqəti cəlb edən mühim hadisələrini işıqlandırırdılar. Bu dövri mətbuat orqanlarından 88-i Tiflisdə, 6-sı Bakıda, 5-i Yerevanda, 3-ü həm Tiflisdə, həm də Şuşada, 2-si Naxçıvanda, 1-i Gəncədə dərc olunmuşdur.

Ədəbi əlaqələrin tədqiqi sahəsində əzab-əziyyətlərə qatlaşan Kövsər xanım Tanrıverdiyeva ərsəyə gətirdiyi "Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında" (1985) monoqrafiyasında dövri mətbuatın Azərbaycan maarifinə, təhsil və məktəb problemlərinə maraq göstərdiyini, xeyriyyə cəmiyyətlərinin yoxluğundan bu sahədə Azərbaycan ictimai həyatının ətalətdə qalmasını, zaman keçdikcə ictimai fikir, maarif və mədəniyyətə meylin artmasını, demokratik istiqa-

mətli qəzet və jurnalların Zaqafqaziya xalqlarını maarif və mədəniyyətə, həmrəyliyə çağırmaqla onların mədəni yüksəlişinə müsbət təsirini göstərmişdir. Azərbaycanlıların mədəni dircəlişinə mane olan geriliyin və cəhalətin, dini fanatizmin ictimai köklərini aradan qaldırmaq üçün həyata keçirilən tədbirlərin səmərə verdiyindən yeri gəldikcə mətbu nümunələrə istinad etmişdir. Qeyd edək ki, Azərbaycan-erməni mətbuat əlaqələrinin tarixi "Əkinçi" və "Mışak" qəzetlərinin redaktorları H.Zərdabi ilə Arzruninin məktub mübadiləsi ilə başlanır. "Əkinçi" qəzetinin nəşrə hazırlığı xəbərinin "Mışak" tərəfindən rəğbətlə qarşılandığını Həsənbəy Zərdabinin Arzruniyə göndərdiyi cavab məktubda oxuyuruq: "Sizə "Əkinçi"yə olan rəğbətiniz üçün təkrar təşəkkur elan edirəm və sizi inandırıram ki, sizin uzaqgörənliyiniz sizi aldatmayacaq. "Əkinçi" "Mışak"a qardaşlıq əli uzadacaq və Sizin qəzetəniz kimi, o da bizim sevimli Qafqazın müsəlman əhalisi arasında maarif yaymağı özünə məqsəd qəbul edəcəkdir".

Azərbaycan-erməni ədəbi əlaqələrinin öyrənilməsində yeni hadisə olan bu araşdırma inqilabdan əvvəlki Azərbaycan ictimai həyatının bütöv bir mənzərəsini səciyyələndirir, ədəbi əlaqələrin tarixinin başlıca məqamlarını əks etdirir. "Mışak" qəzetində (1873, 29 noyabr) dərc edilmiş "Bakıdan məktub" sərlövhəli məqalədə böyük həqiqət əksini tapır: "Erməni müğənnisinin özünəməxsus yüksək xüsussiyyətləri yoxdur. Onun oxuduqlarının məzmunu çox zaman türk və ya fars mahnıları olur...". Göründüyü kimi, bu bir cümləlik məlumatda böyük həqiqət var. Bu məlumat mənfur ermənilərin hər zaman olduğu kimi, hazırki şəraitdə "Sarı gəlin" mahnımızı öz adlarına çıxması məsələsinə də işıq salır. Halbuki onların bu cəhdləri boş bir cəfəngiyyatdan başqa bir şey deyil. Daima zəngin musiqi və mətbəx mədəniyyətimizə əl və dil uzadan mənfur qonşularımız unudurlar ki, istər "Sarı gəlin" mahnısında, istərsə də mətbəximizdə xalqımızın ruhu yaşayır. Bu

səbəbdən, Azərbaycan ruhu ilə möhürlənən maddi mədəniyyət nümunələrimizə sahiblənmək o qədər də asan deyil.

1.Azərbaycan mətbuatının İrəvan ədəbi-mədəni mühitinə və ictimai fikrinə təsiri

"Molla Nəsrəddin"in fəaliyyət göstərdiyi müddətdə onun məqsəd və məramına, tutduğu yola sadiq olan mütərəqqi fikirli ziyalıların böyük bir dəstəsinin formalaşması, bu dəstənin, daha doğrusu, Qərbi Azərbaycanın İrəvan ədəbi mühitinin yetirmələri olan bir çox məşhur nümayəndələrinin imzaları öz zamanında oxucu kütləsinə tanış idi. Onların imzasını İrəvandakı "Molla Nəsrəddinçilər" adı ilə izləyir, məqalə və felyetonlarında təlqin olunan fikirlərinə olduqca böyük hörmət və həssaslıqla yanaşırdılar. İrəvandakı "Molla Nəsrəddin"çilər kim idi? - Bizə adları bəlli olan Məmmədəli Nasir Hacı Məmmədzadə, Əli Məhzun Rəhimov, Mirzə Məhəmməd Axundov, Cabbar Əsgərzadə, Məşədi Mehdi Sadıqzadə, Paşa Səfərov və bir də çoxlarının adı, soyadı və təxəllüsü dəqiqləşdirilməyə, tədqiqatçı araşdırmalarına zərurət duyulan tanımadıqlarımız.

İrəvan ədəbi mühitindəki "Molla Nəsrədinçilərin" görkəmli nümayəndələrindən biri kimi, Azərbaycan ədəbiyyatı tarixində xidmətləri olan Məmmədəli Nasir Hacı Məmmədzadənin nəvəsi yazıçı-publisist Şəfəq Nasir apardığı elmi-tədqiqatlarla bağlı "Azərbaycan" qəzetinin 29 mart 2006-cı il tarixli sayında [184] "İlk dəfə tədqiqatda" rubrikası ilə verilən "Molla Nəsrəddin"in yazarlarından" məqaləsi bizim çoxlarımıza aydın olmayan kölgəli məqamlara aydınlıq gətirdi. Cəlil Məmmədquluzadənin yaxından tanıdığı, yaradıcılıq münasibətində olduğu, nədən və necə yazmağı öyrətdiyi bu qələm sahiblərinin indiyədək lazımınca öyrənilməməsi, tədqiq olunmaması, sözün həqiqi mənasında bu bədii söz ustalarına qısqanclıqla yanaşılması ədəbiyyatımızda bir boşluq kimi

diqqəti cəlb edir.

“Molla Nəsrəddin” jurnalının İrəvan ədəbi mühitindəki geniş tədqiq olunmamış nümayəndələrindən biri Məmmədəli Nasir Hacı Məmmədzadədir. Nasir (1886-1934) İrəvan şəhərində anadan olmuşdur. Onun atası Hacı Məmməd ərəb və fars dillərini mükəmməl bilən dünyagörmuş insanlardan idi. O, qonşu məmləkətlərdə nəşr olunan qəzet və məcmuələrə abunəçi-müştəri olmağa maraq gostərmiş, əldə etdiyi nömrələri həvəslə mütaliə edərmiş. Atanın bu mütaliəsi oğlu Məmmədəlinin uşaqlıqdan diqqətindən yayınmadığı üçün fürsət düşəndə o da bir bucağa çəkilər, qəzet və jurnalları oxuyardı. İrəvan camaatının yaşam tərzini, ictimai vəziyyətini digər xalqlarla müqayisə edərdi. Gördüklərini, eşitdiklərini, müşahidələrini ümumiləşdirərək İrəvanda və Bakıda nəşr olunan “Zəngi” (sonralar “Sovet Ermənistanı”), “Rəncbər”, “İqbal”, “Sədayi - həqq” və bu kimi mətbu orqanlarda nəşr etdirərdi. Nəşr olunan yazılarında əsasən, avam, yazıq, savadsız, fanatizmin təsirinə qapılan, çıxış yolunu Allah – təalanın “dərgahında” axtaran, məzlum və hüquqsuz camaatı bu acınacaqlı hala düçar edən mühiti tənqid atəşinə tuturdu...

Xoş təsadüf nəticəsində Məmmədəli “Molla Nəsrəddin”in onların evlərinə ayaq açmasını, 13 yaşlarında olarkən bir payız günündə evlərinə bir kişinin gəlməsini, salam-kalamdan sonra atası Hacı Məmmədə müraciət edərək: – “Hacı, bir neçə ildir ki, Tiflisdə “Molla Nəsrəddin” adında məcmuə çıxmağa başlamışdır. Ancaq oxucusu azdır. Bu, məcmuənin bağlanmasına səbəb ola bilər. Biz ona hər cəhətdən kömək göstərməliyik. Gəlişimdən məqsədim sizi həmin məcmuəyə müştəri yazmaqdır.

– Xan, bilirsiniz ki, sizə nə qədər hörmətim var. Yolunuzda pul nədir ki, canımı belə əsirgəmərəm. Ancaq xahiş edirəm, məni o dinsiz məcmuəyə müştəri yazmayasız” – deyib, cibindən bir qızıl onluq çıxartdı və qonağın qabağına qoydu.

Qonaq bir söz demədən dəftərinə nə isə qeyd edərək gülə-gülə atamla xudahafizləşib getdi".

Məmmədəli müəllim bu əhvalatı bir vaxtlar ona poçtda məktub və qəzetlərlə bərabər şəkilli bir jurnalın verildiyini, xəlvətə çəkilib şəkillərə baxdığını, atasından yayınaraq həmişə "Molla Nəsrəddin" nömrələrini oxuduğunu, sonra da evin ələ keçməyən yerində gizlində saxladığını, İrəvandan bəhs edən yazıların altında verilən "Yetim cücə", "Məhkəmə pişiyi" imzalarının müəllifini tanımaq istəyini doğmalarına danışmışdır. Yeznəsi Əli Məhzuna adı gedən jurnal üçün tənqidi məqalə yazdığını söyləmiş, Əli Məhzun onu özü ilə Tiflisə aparmış, əvvəlcə dostu Əliqulu Qəmkusarla tanış etmiş, ertəsi gün jurnalın redaksiyasına gedərək Məmmədəlini Cəlil Məmmədquluzadəyə təqdim edərək "bu da bala "mollanəsrəddinçi"dir - deyib, oğlanın barəsində ədibə məlumat vermişdir... Bu görüşdən bir neçə həftə keçməmiş Məmmədəli Nasirin "Qarınqulu bəy" imzası ilə qiraətxanadan yazdığı məqaləsi "Molla Nəsrəddin"də dərc olunur. İrəvanda bu tənqidi yazıdan xəbər tutan mövhumatçılar onu yazanın dinə sataşdığına görə tapılıb oldürülməsinə fitva verirlər. Məmmədəli şəhərin əhalisi arasında dolaşan söz-söhbətin mahiyyətini dərk etmədiyi üçün rastlaşdığı adamlara "Qarınqulu bəy"in özü olduğunu bildirir. Qəflətən əlində xəncər olan bir cavan oğlanın hücumuna məruz qalır. O, atasından gizlin götürdüyü tapançadan qəfil atəş açmaqla oğlanı özündən uzaqlaşdırır. Səsə gələn polis nəfəri ağır yaralandığına baxmayaraq, Məmmədəlini icazəsiz silah gəzdirdiyinə görə cəzalandırır.

Bu hadisədən sonra Məmmədəli Nasirin "Molla Nəsrəddin"də nəşr olunan kiçik bir yazı üstündə ölüm hədəsi ilə təqib olunması, xəncərlə ağır yaralanması ictimai mühitdə böyük əks-sədaya səbəb olmuş, bu barədə "İqbal" qəzetinin 12 may 1914-cü il, 659 –cu sayında "Mətbuat bəlası" başlığı ilə xəbər dərc edilmişdir: "Bir neçə gün bundan əqdəm Nasir İrəvani yol

ilə gedərkən bir nəfər onun qabağını kəsib, “Molla Nəsrəddin” məcmuəsində yazılan bir fəqərədən (kiçik hekayə, qissə mənasında) dolayı onu təkdir edər. Vədə xəncərini çıxarıb onu vurmaq istər. Nasir kəndini müdafiə üçün tapançasını çıxarıb bir-iki güllə atar. Bəd əfkar qaçıb, Nasirin iki barmağını xəncər kəsər”. Həmin dövrdə İrəvanda “Nəşri-Maarif” cəmiyyətində çalışan M.Ə.Nasir inqilabi mübarizəyə qoşulur, gizli siyasi dərnəklərdə iştirak edir, həmçinin “Yeni təşəbbüs”, “Məşəl”, “İqbal”, “Zənbur”, “Məzəli”, “Sovqat”, “Açıq söz”, “Sədayi - həqq”, “Zəhmət sədası”, “Yoldaş”, “Azərbaycan füqərası” kimi mətbu orqanlarla da əməkdaşlıq edir. O, mətbuatdakı və inqilabi hərəkatdakı fəaliyyətini xatırlayaraq deyirdi: “... mənim gözümü “Molla Nəsrəddin” açdı, siyasi fikirlərimi itiləyən Huseynağa Şahtaxtinskinin “Müdafieyi - məzluman” təşkilatı oldu”.

“Molla Nəsrəddin”lə gözü acılan M. Ə. Nasir 1917-ci ildə M.Mirfətullayev və Ə.Tağızadə ilə birlikdə “Cavanlar şurası” adlı qəzet açmış, lakin çar üsul-idarəsinə, yerli bəylərin, xanların, eləcə də daşnakların mənafeyinə toxunduğu üçün qəzet bağlanmışdır. Görkəmli tədqiqatçı alim N.Axundov “Azərbaycanda dövrü mətbuat” adlı biblioqrafiyasında qeyd edir ki, “Cavanlar Şurası” həftəlik siyasi-ictimai, ədəbi qəzet olmaq etibarilə, İrəvan ziyalılarının milli şurasının təşəbbüsü ilə nəşrə başlamışdır. Qəzetin nəşri və redaktəsində Mir Fətullayev ilə Rza Tağıyev və M. Ə. Nasir daha çox əmək sərf edirdilər. Burada “Cavanlar Şurası”nın 1920-ci ildə nəşr edilməsi faktı mübahisəlidir. Belə ki, tədqiqatçı alim İsrafil Məmmədovun “qəzetin 1917- 1918-ci illərdə çıxdığını və bu illərdə M.Ə.Nasirin İrəvanda olmadığını, 1918-ci ildə Azərbaycana getdiyini, İrəvana Sovet hakimiyyəti qurulduqdan sonra gəldiyini qeyd edir. Bildirir ki, ”Cavanlar Şurası” haqqında “Yoldaş” qəzetinin 3-cü nömrəsində M.Ə.Nasirin imzası ilə “İrəvanda firqəçilik” adlı kiçik felyetonda məlumat

verilmişdir" [128, 188].

XX əsrin əvvəllərində sovet hakimiyyətinin qurulması sahəsində ölkədəki ictimai-siyasi problemləri ayırd edən M.Nasir maarifçilik ideyalarının təbliği, dini fanatizmin ifşası, qadın azadlığı, savadsızlığın və hüquqsüzluğun tənqidi məsələlərinə böyük əhəmiyyət verirdi. Bu problemlərin həlli üçün daha çox yeni ictimai, mənəvi-əxlaqi ideyaların inkişafına və yayılmasına üstünluk verir və əsərlərində maarifci-demokrat yazıçı kimi bunları xüsusilə vurğulayırdı. İrəvanda Azərbaycan dilində milli mətbuatın olmamasından M.Nasir yaradıcılığını haqsızlığa, geriliyə, dini-fanatizmə qarşı mübarizəyə, maarif və mədəniyyətin, mənəvi-əxlaqi düşüncənin inkişafına, ictimai şüurun oyanmasına yönəldirdi. İnqilabi fəaliyyətini ədəbi-publisistik fəaliyyəti ilə həmişə vəhdətdə təqdim etməyə səy göstərirdi. Bu keyfiyyətləri, onu Azərbaycan ictimai fikir tarixində cəsarətli, vətənpərvər yazıçı-publisist kimi səciyyələndirir. Onun "Sədayi-həqq", "İqbal", "Tuti", "Açıq söz", "Dirilik", "Sovqat", "Azərbaycan firqəsi", "Məşəl", "Zənbur", "Yoldaş", "Qırmızı Gəncə", "Yeni fikir", "Kommunist" kimi qəzet və jurnallarda dərc olunan tənqidi publisistik yazıları demokratik düşüncəsinin və bədii - ictimai təxəyyülünün məhsuludur [152, 112].

1920-ci ildən KP-nin Qafqaz bürosunun qərarı ilə Gəncədə "Qırmızı Gəncə", Gürcüstanda və İrəvanda "Kommunist" qəzetlərinin ilk redaktoru kimi fəaliyyət göstərmiş M.Ə.Nasir büronun təyinatı ilə Azqur, Borçalı, Qarayazıda rayon partiya komitələrinin katibi işləmiş, vaxtaşırı mətbuatda maraqlı məqalələrlə çıxış etmişdir. Həyatının Bakı dövründə "Kommunist" qəzetinin redaksiyasında (1926-1927) Cəlil Məmmədquluzadə ilə tez-tez görüşə [152] M.Ə.Nasir qəzet və jurnallarda dərc olunan məqalələrində zamanın diqtə etdiyi önəmli məsələlərin təbliğinə diqqət və həssaslıqla yanaşırdı. Bu qəbldən olan yazılarında xalqın həyatında hökm sürən ağrı-

acılara münasibətini bildirərək, onların aradan qaldırılması üçün yolları mətbu dillə oxuçulara bildirirdi. Bu cəhət onun "Xüsusi müxbirimizdən. İrəvandan", "Məktəb xeyriyyə barəsində", "İctimai hallarımız", "Qızlar məktəbi haqqında", "İrəvandan. İctimai hallarımız", "İdarəyə məktub", "İrəvandan xəbərlər", "Nə yazım", "İrəvandan. İttihad cəmiyyəti", "Duma seçkiləri", "İrəvanda seçkilər", "Gözlərimizi açaq", "İrəvanda firqəçilik, yaxud tarixi məlumat" - yazılarında açıq şəkildə mövcud problemlər və nöqsanlar, seçki sahəsində yol verilən pozuntular, xalqın avamlıq və nadanlığı tənqid olunurdu. M.Ə.Nasir ictimai-siyasi, ədəbi fəaliyyətdə "insanları vəhşi canavar və qurd kimi qan tökməkdən çəkindirməyə" çalışır, mədəni geriliyi tənqid etməklə qonşu millətlərin tərəqqi və inkişafından ibrət götürməyi tövsiyə edirdi. Onun 1917-1918-ci illərdə "Nəşri-maarif"dəki fəaliyyəti İrəvan ədəbi, ictimai-siyasi mühitinin səciyyəvi cəhətlərindən xəbər verir" [152, 24-25].

İrəvan ədəbi-mədəni mühitində özünəməxsus xidmətləri ilə tanınan, ancaq yaradıcılığı istənilən səviyyədə öyrənilməyən "Molla Nəsrəddin"çilərdən biri də, "Bürhani-həqiqət" jurnalının müdiri və mühərriri olan Əli Məhzundur (1876-1934). Həm satirik poeziya, həm mətbuat, həm tərcüməçilik, həm də ədəbiyyatşunaslıq sahəsində səmərəli fəaliyyət göstərmiş Əli Məhzunun dərin mənalı, oxuçunu düşünməyə vadar edən yazıları, bəzən başqa müəlliflərin əsərləri kimi qələmə verilən satirik şeirləri müxtəlif mətbu orqanlarda dərc olunmuşdur. Bu baxımdan, Molla Nəsrəddinçi Əli Məhzun Rəhimovun "İranlı olmasaydı" satirik şeirinin "Mollanəsrəddin" ədəbi məktəbinin istedadlı nümayəndələrindən olan Bayraməli Abbaszadənin 1948-ci ildə nəşr olunan "Seçilmiş əsərləri" və 1964-cü ildə çapdan buraxılan "Seçilmiş şeirləri" kitabına daxil edilməsi maraq doğurur.

"Molla Nəsrəddin" məcmuəsinin 1914-cü il aprelin 11-

də nəşr olunan 13-cü nömrəsindəki "İranlı olmasaydı" satirik şeirin sonunda müəllifin gizli imzasının "Yetim cücə" kimi göstərilməsi Bayraməli Abbaszadənin ədəbi irsini oxuçulara təqdim edən tədqiqatçı İ. Rzayevi çaşdırmışdır. Təkzibolunmaz faktdır ki, "Yetim cücə" Bayraməli Abbaszadənin deyil, Əli Məhzun Zeynalabdinzadə Rəhimovun gizli adı-imzası olmuşdur. Bu gizli imzanın həqiqətən də, "Bürhani - həqiqət" məcmuəsinin 1917-ci il aprelin 15-də çıxan 6-cı nömrəsində "Hərdənbir" başlığı ilə dərc olunan yazının Əli Məhzuna məxsus olduğu və həmin yazının "Yetim cücə" gizli ad-imzası ilə verilməsi bu məsələyə aydınlıq gətirir. "Molla Nəsrəddin" məcmuəsində "İrəvan səyahətim" adlı yazıda oxuyuruq: "...Çıxıb bazara Yetim cücəni... Məhkəmə pişiyini xəbər aldım, dedilər ki, onlar adam icinə çıxmağa ehtiyat edirlər..." Məlum faktdır ki, "Yetim cücə" Əli Məhzun Rəhimovun, "Məhkəmə pişiyi" isə Cabbar Əsgərzadənin imzalarıdır və hər ikisi də İrəvan mühitinin yetirmələridir. Bu danılmaz faktdır. "Molla Nəsrəddin" satirik şeir məktəbinin fəal yazarlarından olan Əli Məhzun Rəhimovun xidmətlərini müxtəlif vaxtlarda bir çox ədəbiyyatşunas alimlər xüsusi olaraq qeyd ediblər. Ədəbiyyatşunaslardan Mir Cəlal Paşayev, Firudin Huseynov, akademik İsa Həbibbəyli, AMEA müxbir üzvu Abbas Zamanov onun "Yetim cücə" imzası ilə yazdığını, dövrünün digər mətbu orqanları ilə yanaşı, "Molla Nəsrəddin" jurnalı səhifələrində satirik şeirləri ilə çıxış edən müəlliflər sırasında adını qeyd etmişlər. Əli Məhzun satiralarının mühim bir hissəsi İrəvanda çıxan "Lək-lək" və "Bürhani - həqiqət" jurnalları ilə bağlıdır. Əli Məhzun ədəbi-publisistik yaradıcılığını sovet dövründə də davam etdirmişdir [90, 5].

Ümumiyyətlə, dövrü nəzərə alaraq satirik yazı yazanların əksəriyyəti bir və bəzən bir neçə gizli imzadan istifadə etmişlər. Məsələn, Cabbar Əsgərzadə (Aciz İrəvani) "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət", "Məzəli", "Babayi-Əmir"

adlı satirik jurnallarda “Anaş qurbağa”, “Məhkəmə pişiyi”, “Noxtasız”, “Qurbağa”, “Hacı leylək” imzaları ilə çıxış etmişdir. Cabbar Əsgərzadə ədəbiyyat və mətbuat tariximizin formalaşmasında əvəzsiz xidmətləri olan şəxsiyyətlərdəndir. Azərbaycan mətbuatının İrəvanda ilki olan “Lək - lək”in mühərriri və naşiridir. Bu qələm sahibinin xalqın maarifləmməsi və azadlığı yolunda həyata keçirmək istədiyi işlər onu bir naşir, müxbir, mühərrir və şair kimi oxuçuların sevimlisi etmişdir.

1885-ci ildə İrəvanda anadan olmuş Cabbar Əsgərzadə ilk təhsilini mollaxanada almışdır. Atası Əsgər İrəvanda memarlıq və qənnadı işi ilə məşğul olmuş, oğlu Cabbar da gənc yaşlarında bu peşələrə yiyələnmişdi. Mənfur erməni daşnaklarının törətdiyi dəhşətli hadisələr zamanı valideynlərini itirmiş, 1918-ci ildə minlərlə soydaşı kimi Cabbar Əsgərzadə də İrəvanı tərk etmək məcburiyyətində qalmışdır. O, İrana, babası Rzanın yanına köcmüş, Təbrizdə Əbülqasım Füyuzatın yanında işləmiş, yeni açılan uşaq bağçasında çalışmış və uşaq evində gördüyü yaxşı işlərə görə Cabbar Bağçaban ləqəbi ilə şöhrətləndirilmişdir. Lal və kar uşaqlar üçün məktəb açmış Cabbar Bağçaban 1927-ci ildə Tehranda həbs edilmişdir. Bu zaman fars əyalətinin Maarif rəisi işləyən Əbülqasım Füyuzat xəbəri eşidib onu Şirazda yeni təşkil edilən uşaq evində işləməyə gətirmişdir.

Cabbar Əsgərzadənin yaradıcılığı üslub əlvanlığı ilə seçilir. Onun ədəbi-bədii yaradıcılığın müxtəlif üslublarında bədii yazılarının olması bunun bariz nümunəsidir. Şeirləri, “Çıxdı əldən”, “İrəvan həyatını əks etdirən”, “Balaca filyətun”, “Kişmiş və molla”, “Bir şeyxin naləsi”, “Şıllax”, “Məhərrəm gəldi”, “A cahil”, “Millət yallı mahnısı”, “Qırmızı yalan deyir”, “Ha yat, ha yat”, “Barışnaya uxajıvat”, “Bir loqma nan üstündə”, “Az qaldı”, “Molla və hörümçək”, “İrəvan dövlətliləri deyirlər”, “İllər xəstəsi”, “Tiryakilərə sər salaməti”, “Vəlvələ”,

“Qan eylər” satirik şeirləri, publisistik əsərləri, uşaqlar üçün “Qızıllı yarpaq, yaxud zəkalı Ənvər”, “Çocuqlara “bayram-calıq”, “Pərvanənin kitabı” mənzum hekayələri ideya-bədii cəhətdən maraq doğuran nümunələrdir. Bu əsərlər əsasən, “Molla Nəsrəddin” məcmuəsinin (1911), “Kəlniyyət”in (1912), “Lək-lək”in, “Məzəli” (1915), “Tuti”, “Babayi-əmr”in (1915) saylarında, Bakıda nəşr olunan gündəlik siyasi - ictimai “Açıq söz” qəzetində, İrəvan xəbərləri rubrikası ilə “Zənbur”, “Sov-qat” məcmuələrində nəşr olunmuşdur. Lirik, satirik və publisistik üslubdan istifadə etmiş Cabbar Əsgərzadə (Bağçaban) tez-tez “Sabiranə” üslubda yazmışdır. Onun əsərləri “Molla Nəsrəddin jurnalında”, “Kəlniyyət”, Məzəli” (1914-cu il №30), “Tuti”də (1915-ci ilin 4 və 15-ci nömrələrində) çap olunmuşdur. Cabbar Əsgərzadə M.Ə Sabirin tənqid hədəflərini yada salmaqla qələmə aldığı şeirlərindən birində yazır:

Çıxdı əldən, ah, əfsus, o gözəl dövranımız,
İşləyirdi xalqa hərdən hökumətimiz, fərmanımız.
İndi təsir etməz amma vəzimiz, ünvanımız.
Xalqa, vallah, neyləyim, od tutdu, yandı canımız [75, 81-91].

Cabbar (Bağçaban) Əsgərzadənin “Ədəbiyyat” şeiri də öz məzmununa görə satirik qələmlə yazılmışdır. Şeirdə maddi və mənəvi dəyərlərin insan həyatında qorunub-saxlanmasının ümdə cəhətlərindən söhbət açılmışdır:

Molla əmi! Bu başı batmış kişi,
Sinni keçib altmışa çatmış kişi.
Qeyrət, namusunu atmış kişi,
Başımı min əngələ qatmış kişi.
Saldı genə təzəcə bir əngələ,
Ta nə qədər mən eləyim hövsələ?

Lirik və satirik şeirlərdən başqa məktəblilər, kicik uşaq-lar üçün bir çox mənzum hekayələr də yazmış C. Əsgərzadənin insana gözəl keyfiyyətlər aşılayan, xüsusən də gənc nəslə

təmkinli olmaq, çalışqanlıq, nikbinlik, vətənpərvərlik kimi gözəl insani keyfiyyətlər təbliğ edən "Zəkalı Ənvər" , "Çocuqlara bayramcalıq", "Pərvanənin kitabı" və digər hekayələri də diqqəti cəlb edir. "Çocuqlara bayramcalıq" şerindən bir nümunəyə diqqət yetirək:

Var idi bir kəndli yazıq, çox düşkün,
Bayrama da qalmışdı bir-iki gün.
Cibində bir qəpik para yox idi…
Həsən, Hüseyn, həm Züleyxa bir yandan
Gəlib buna deyirdilər: - atacan,
Paltarımız cırılıb, başmağımız yırtılıb.
Hər şeyimiz qurtulub. Dur get bizə köynək al…

Qeyd edək ki, Cabbar Əsgərzadə 1933-1935-ci illərdə Tehranda açdığı "Karlar və lallar məktəbi"ndə işləyərkən fiziki cəhətdən qüsurlu olan uşaqlara kömək edən bir cihaz düzəltmiş [75],1943-cu ildə müəllimlər üçün məcmuə nəşr etdirmişdir. Onun "Məhkəmə pişiyi", "Müqəllid", "Noxtalı", "Molla haray" və başqa imzalarla yazdığı satiraları bu gün də öz aktuallığını saxlayır. İrəvan ədəbi mühitinin formalaşmasına və inkişaf etdirilməsinə əvəzsiz töhfələr vermiş bu unudulmaz sənətkar 1966-cı ildə İrəvandan uzaqda - Tehranda vəfat etmişdir.

İrəvan ədəbi mühitində milli mətbuatın yaranması və onun ideya istiqamətlərinin araşdırılmasını nəzərdə tutan ikinci fəslin əhatə etdiyi məsələləri yığcam olaraq aşağıdakı kimi ümumiləşdirmək olar: 1. XIX əsrin 20-ci illərindən Zaqafqaziyanın inzibati-mədəni mərkəzi sayılan Tiflisdə ictimai-siyasi səciyyə daşıyan ədəbi-publisist materiallara öz səhifələrində daha çox yer ayıran, 1828-ci ildən rus dilində, 1829-cu ildə gürcü dilində, 1932-ci ildə Azərbaycan dilində nəşr olunan "Tiflisskoye vedemosti ("Tiflis əxbarı") qəzeti milli mətbuatımızın yaranması sahəsində təşəbbüslərin mənbəyinə çevrilmişdir; 2. Azərbaycan dilində çap olunan ikinci qəzet

“Qafqazın bu tərəfinin xəbərləri” adlı “Zaqafqazskiy vestnik” qəzetinin 1838-ci ildən rus, 1845-ci ildən gürcü və Azərbaycan dillərində nəşrinin bir neçə il davam etməsi məsələlərinə diqqət yönəldilmişdir; 3. Azərbaycan dövrü mətbuatının bünövrəsi sayılan “Əkinçi” qəzetinin çapdan çıxması və ətrafında tərəqqipərvər ziyalıları birləşdirməsi, İrəvan şairlərindən Mirzə Kazım Qazi Əsgərzadənin bu qəzetin müxbiri olması, İrəvan ədəbi mühitinin ictimai-siyasi həyatının işıqlandırılmasında səmərəli xidmətlər göstərməsi, çoxsaylı adlı-sanlı ziyalıların bu qəzet ətrafında toplaşaraq onun fəal yazarlarına çevrilməsi, əsrin sonunda isə, “Şərqi-Rus” qəzetinin 1903, 1904, 1905-ci il nömrələrində Azərbaycan ziyalılarının, o cümlədən C. Məmmədquluzadənin İrəvan ədəbi mühitinin nəşr olunmuş yazıları inkişaf edib formalaşmasına əvəzsiz yaradıcılıq töhfələri vermişdir; 4.“Molla Nəsrəddin” ədəbi məktəbi və M. Ə. Sabir satiralarının İrəvan ictimai-ədəbi mühitində “Lək-lək”, “Bürhani - həqiqət” jurnallarının nəşri ilə böyük canlanmaya zəmin yaratmışdır; 6.Tiflisdəki ziyalıların ədəbi məktəb rolu oynaması, onların Azərbaycan ədəbiyyatının, xüsusən də İrəvan quberniyasında, Tiflis və İrəvan ədəbi mühitlərində ədəbi əlaqələr zəminində xalq ədəbiyyatı nümunələrinin toplanılıb qonşu xalqların dillərinə köçürülməsi, erməni və gürcü dillərində nəşrləri şifahi ədəbiyyat nümunələrinin yaranmasına az təsir etməmişdir;7. Xalqın islam dinindən uzaqlaşması üçün dini dəyərləri, onun qanunları, ayinləri barədə çaşdırıcı məlumatlar, islamın bəsit və yanlış şərhi daşnak siyasətinin istiqamətlərindən idi. Jurnal səhifələrində məqsədli şəkildə islamın mahiyyətini lazımınca əks etdirməyən yazıların verilməsinə, bu sahədə biliksizliyin aradan qaldırılmasını təmin etmək üçün maarifləndirmə xarakterli yazılara geniş yer ayrılmırdı.

2. “Lək-lək” və “Bürhani-həqiqət” jurnallarının yaranması və onların ictimai mədəni mübarizəsi

XIX əsrin axırlarında görkəmli və qabaqcıl maarifçilərin səyi nəticəsində İrəvan şəhərində Azərbaycan dilində dərsliklərin meydana gəlməsi, kitab nəşri, xarici ölkələr ədəbiyyatına dair tərcümə əsərlərinin işıq üzü görməsi xüsusilə maraq doğurur. Bu faydalı iş üç istiqamətdə inkişaf etdirilirdi. İrəvanın hüdudlarından kənarlarda yerli müəlliflərin kitabları nəşr olunurdu. Muəlliflər işıq üzü görən əsərlərinin Təbriz, Tehran, Tiflis, Baxcasaray və Bakı kimi şəhərlərdə çap olunmasına baxmayaraq, əsərlərinin adı ilə yanaşı, şair Arif İrəvani, şair və diplomat Fəxri Mirzə Abbas İrəvani, Molla Hacı İrəvani və yüzlərlə başqa müəlliflər doğma vətənləri İrəvanın adını müəllif təxəllüsü kimi yazmaqla əslən İrəvandan olduqlarını vurğulayırdılar. Bu barədə dissertasiyanın birinci fəslində geniş məlumat verilmişdir.

1913-cü ildə “Lək-lək”in nəşrinə icazə verilməsi haqqında senzura sənədlərində Gürcüstan SSR Mərkəzi Dövlət Tarix Arxivindəki 480-ci fondun 1-ci siyahısının 968 nömrəli iş - qovluğunda İrəvan qubernatorunun “Lək-lək”i buraxmaq haqqında Mir Məhəmməd Mir Fətullayevə və Cabbar Əsgərzadəyə verdiyi 21 yanvar 1914-cü il tarixli şəhadətnaməsində jurnalın baş məqalələr, şeir, şəhər işləri, Qafqaz xəbərləri, teleqramlar, xarici və daxili xəbərlər, felyeton, təmsil, poçta qutusu və elanların çapına icazə verilmişdir. “Lək-lək” İrəvanda türk dilində nəşr olunan ilk mətbuat orqanı, həftəlik məzhəkəli məcmuədir. “Bürhani-həqiqət” İrəvanda ayda iki dəfə nəşr olunan ədəbi, siyasi, tarixi, elmi və fənni jurnalıdır. İlk nömrəsi İrəvan şəhərindəki “Luys” mətbəəsində, 1 yanvar 1917-ci ildə, sonuncu nömrəsi isə, elə həmin ilin iyununda çapdan buraxılmış jurnalın (“Bürhani-həqiqət”) sərlövhəsində yazılır: “Etiraf, tərəqqi, etimad... hələlik ayda iki dəfə nəşr

olunan ədəbi, siyasi, tarixi, elmi və fənni məcmuədir". Müdiri və mühərriri Əli Hacı Zeynalabdınzadə Rəhimov (Məhzun), naşiri Həsən Mirzəzadədir (Əliyev). Cəmi 9 nömrəsi işıq üzü görmüş "Bürhani-həqiqət" jurnalının nömrələrində əsasən bədii və publisistik materiallar dərc edilmişdir. Jurnalın səhifələrində Əli Məhzun, Cabbar Əsgərzadə Aciz İrəvani, Əbdülhəq Mehrülnisa, Səriyyə Xatun, T.Fikrət, Ə.Sədi, Təhsin Nahid, H.Rəmzi, Təhsin İrəvani, Mirzə Cabbar Məmmədov və başqalarının orijinal, iqtibas və tərcumə əsərləri çap olunmuşdur. Jurnal, əsasən maarifci-realist ədəbiyyatın mövqeyini müdafiə edirdi. Jurnalın nəşr olunması üçün Ə.H.Zeynalabdınzadəyə icazə verilməsi haqqında Gürcüstan SSR MDTA-də (Mərkəzi Dövlət Tarix Arxivi, fond 1183, iş 680, vərəq 9) xüsusi qeyd də yazılmışdır [82].

1914-cü il fevral ayının 22-də isə "Lək-lək" jurnalının (əslində senzura sənədlərində "Leylək" (Aist) 1-ci nömrəsi, həmin ilin 30 iyununda isə 12-ci nömrəsi nəşr olunmuşdur. "Lək-lək" jurnalının naşir və redaktoru Mir Məhəmməd Mir Fətullayev və Cabbar Əsgərzadə (Aciz) olmuşdur, jurnal İrəvandakı "Luys" mətbəəsində çap edilirdi.

"Lək-lək" jurnalı "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrini davam etdirmişdir. "Lək-lək"in "Molla Nəsrəddin" jurnalı ənənələrinə sadiq olması, onun naşiri Cabbar Əsgərzadənin müxtəlif imzalarla ədəbi, bədii yazılarla çıxış etməsi, o dövrün mətbu orqanlarında maraqlı yazıları ilə "Molla Nəsrəddinçilər"i xəbərdar etməsi, "Molla Nəsrəddin" jurnalının müvəqqəti redaktoru olmuş Məmmədəli Sidqiyə göndərdiyi məktublarda fəaliyyətə başlayan bu jurnalın səhifələrində iştiraklarına, çıxışlarına zərurət olmasını xatırladırdı [11, 89-91].

İrəvandakı ziyalılardan tanınmış "Molla Nəsrəddin"çi şair Cabbar Əsgərzadə (Aciz), şairə Səriyyə Xatun, Vahid Muğanlı, fars və rus dillərində bir sıra dərsliklərin müəllifi Mirzə Cabbar

Məmmədov, Rəhim Hacı, Təhvil İrəvani "Bürhani-həqiqət"in səhifələrində sanballı məqalə və şeirləri ilə çıxış edirdilər. Məqalələrdə soydaşlarını "səfalət və zəlalət zülmündən" xilas etmək, ictimai-siyasi həyatda hökm sürən hadisələrin mahiyyətini, onları doğuran səbəbləri həqiqətin dili ilə çatdırılması çətin də olsa, əsasən buna nail olurdular.

Zamanının istedadlı ziyalılarından olan, Tiflisdə, Bakıda, İrəvanda nəşr olunan "Molla Nəsrəddin", "Bəhlul", "Zənbur", "Kəlniyyət", "Məzəli", "Tartan-Partan", "Rəncbər", "Zəngi", "Qızıl Şəfəq" [136] kimi məcmuə və qəzetlərdə satirik şeirlər və kəskin publisistik məqalələr müəllifi kimi tanınan, xalqımızın maariflənməsi və istiqlaliyyəti uğrunda əlindən gələni əsirgəməyən Cabbar Əsgərzadənin yaradıcılıq fəaliyyəti Azərbaycan ədəbi ictimaiyyətinin yaşlı nəsillərinə bəllidir. Onun tərcümeyi-halının hamıya hələ tam aydın olmayan məqamlarını təfərrüatı ilə çatdırmaq məqsədi ilə ermənilərin tarix boyu müsəlmanların, o cümlədən də Azərbaycan türklərinin başına açdığı müsibətlərin acı nəticələrini ürək ağrısı ilə qələmə alan, bu dəhşətlərin təsvirini ictimaiyyətə mətbu sözlə çatdıran maarifpərvər və ictimai xadim olması barədə "Yazıçı" nəşriyyatında görkəmli alim Zahid Əkbərovun 1991-ci ildə nəşr etdirdiyi "Cabbar Bağçaban" toplusunda daha ətraflı məlumatlar diqqətə çatdırılır. Müəllif göstərir ki, "bütün şüurlu həyatını doğma xalqının azadlıq hərəkatına, maarifinə, mədəniyyətinə, incəsənətinə sərf edən C. Əsgərzadə öz dövrünün ziddiyyətlərindən baş çıxarmaqla, ədəbi fəaliyyətini xalqının gələcəyi naminə mütərəqqi amallara yönəltməyi, yaradıcılığında irəli sürdüyü, geniş kütlələrə təlqin etmək istədiyi vacib məsələləri işıqlandırmışdır. İrəvanda türk dilində çıxan ilk mətbuat abidəsi olan "Lək-lək"in redaktoru olaraq məcmuəni "Molla Nəsrəddin" jurnalının ənənələrinə sadiq olan bir tribunaya çevirmək missiyası onun öhdəsinə düşmüşdü. Nəşr olunduğu müddətdə "Azərbaycan ictimai-siyasi və ədəbi

fikrinin inkişafına müəyyən kömək göstərmiş, azadlıq, tərəqqi və demokratiya ideyalarına xidmət etmiş jurnal ictimai-satirik və yumor dili ilə siyasi irticanı, geriliyi, ətaləti, cəhaləti özünə tənqid hədəfi seçmişdir. O, anlaşıqlı dili və demokratik məzmunu sayəsində Zaqafqaziyada, ümumən Qafqazda olan azərbaycanlılar içərisində çox yayılmış nəşrlərdən biri olmuşdur" [75].

Qeyd edək ki, tarixci-alim İsrafil Məmmədov "İrəvan dəftəri" kitabında "İrəvanda Azərbaycan mətbuatı", "Kitab nəşri", "Dövri mətbuat", "Molla Nəsrəddin" və "Lək-lək", "Bürhani-həqiqət" məcmuələri" başlıqları altında XIX əsrin sonu və XX əsrin başlanğıcında İrəvanda baş verən ictimai-siyasi olayların xronologiyasını vermişdir. Həmcinin o zaman dünyada hökm sürən özbaşınalığı, dini-xurafat buxovunda əzab çəkənlərin çıxılmaz vəziyyətini, "möminlərə" pənah gətirənlərin acı taleyini, gedən proseslərə biganə qalan şəhvət düşkünlərinin heysiyyətsizliyini oxüçulara catdıran, bu eybəcərlikləri satira atəşinə tutan ədəbi-bədii materialları ümumiləşdirməklə həmin məcmuələrdə öz əksini tapan konkret faktlarla səciyyəvi təhlillər vermişdir. Tədqiqatçı İslam Ağayev mətbuat və publisistika problemləri ilə bağlı apardığı elmi araşdırmalarında göstərir ki, "Molla Nəsrəddin" jurnalının səhifələrində Əli Razi Şamçızadə (Dabanı çatdax xala) Gəncədən, Cabbar Əsgərzadə (Aciz) İrəvandan, Salman Mümtaz Əsgərov (Xortdan bəy) Aşqabaddan, Zeynal Məmmədov (Səffəl) Təbrizdən, Sabit Manafzadə (Dastançı) Aşqabaddan, Əli Nəzmi (Məşədi Sijimqulu) Gəncədən, Məhəmmədəli Sidqi Bakıdan jurnala yazırdılar. "Məlik Naqqal" imzasına 1914-cü ildə mollanəsrəddinçi şair və publisist Cabbar Əsgərzadə Acizin redaktorluğu ilə İrəvanda çıxan "Lək-lək" jurnalında təsadüf edilir. Sual oluna bilər ki, 1914-cü ildə Tiflisdə dərc edilən "Molla Nəsrəddin" jurnalının redaktoru Qəmküsar ilə İrəvanda çıxan "Lək-lək" arasında hansı cəhətdən əlaqə ola

bilərdi?

Hər şeydən əvvəl, "Lək-lək" redaktoru Cabbar Əsgərzadənin şəxsiyyətinə diqqət yetirilməlidir. "Molla Nəsrəddin"in köhnə əməkdaşlarından olan Cabbar Əsgərzadənin öz jurnalına dostlarını dəvət etməsi təbii idi. Bu məcmuələrdə M. S. Ordubadi "Hərdəmxəyal", Ə. Qəmküsar "Məlik Naqqal" imzaları ilə çıxış etmişdilər [37, 427]. Söz yox ki, məcmuələrdə müxtəlif imzalarla çıxış edən çoxsaylı qələm sahibləri ictimai-siyasi və mədəni həyatda baş verən hadisələrə həssaslıq göstərir, hamı üçün maraqlı və aktual olan həyat həqiqətlərini əks etdirən müxtəlif məzmunlu şeirləri, hikmətli sözləri, İrəvan, Ordubad, Gəncə, Mərənd, İstanbul, Təbriz, Tiflis və digər şəhərlərdən əldə olunan xəbərləri və felyeton əvəzi yazıları maraq dairəsində saxlamaqla, məcmuənin səhifələrini daha oxunaqlı etməkdə bütün imkanlardan səmərəli istifadə edirdilər. Bu səbəbdən jurnalın səhifələrində mollanəsrəddinçi yazıçılardan C.Əsgərzadə Aciz (Lək-lək, Müqəllid və s), Əli Məhzun Rəhimov (Yetim cücə), M.S.Ordubadi (Hərdəmxəyal), M.Mir Fətullayev və başqaları iştirak etmişlər. Oğrular, dəmdəmələr, şərab içənlər, nəşəxorlar, qumarbazlar, yolkəsənlər, rəzalət bataqlığında çabalayanlar, zəhmətkeş insanların imkanlarından öz mənafeləri üçün hər an yararlananlar, ictimai-siyasi hadisələrin cəmiyyətdə doğurduğu əks-səda məcmuənin əsas mövzularındandır. "Lək-lək"çilər sosial mənşəcə aşağı təbəqəyə mənsub olan sadə, kasıb, yoxsul, məzlum kütlələrə rəğbət bəsləməyin, tüfeylilərə qarşı barışmaz mövqedə dayanmağın mahiyyətini geniş xalq kutlələrinə çatdıran mütərəqqi ziyalılar olduqlarını nümayiş etdirə bilmişdilər. "Lək-lək"də də ən çox əhəmiyyət və diqqət verilən məsələlər, ilk növbədə, müsəlman–islam dünyasındakı vəziyyət, çatışmazlıqlar, dövlətçilik sahəsindəki uyğunsuzluqlar, dini-xurafat, orucluq, məhərrəmlik ayinlərinə verilən rəvac, milli münasibətlərin kəskinləşməsi istiqamətində yeridilən siyasət, xeyriyyəçilik, maarif,

ədəbiyyat, qadınlara münasibət və s. bu kimi məsələlər öz həllini tapmışdır. Bədii cəhətdən müəyyən mənada bir qədər zəif olmasına baxmayaraq, "Lək-lək" oxucuların rəğbətini qazanmışdır. Sonuncu on ikinci nömrədə mündəricat verilməsə də, "Əxbar" başlığı ilə "Lək-lək"in aqibəti barədə oxucular məlumatlandırılır. Bəzi səbəblərə görə, məcmuənin bağlanacağı, oxuçularına onun əvəzinə daha mükəmməl, daha nəfis, daha parlaq və oxunaqlı "Çınqı" adlı satirik jurnal çıxacağı, o jurnalın da Əli Məhzun Hacı Zeynəlabdinzadə və "Lək-lək" müdirlərindən Hacı Əsgərzadənin təhti-müdiriyyətlərində olub, İrəvanın maarifpərvər cavanlarının maddi və mənəvi köməkliyi ilə nəşr olunacağı bildirilir. "Lək-lək"in 10-cu nömrəsinə əlavə şəklində "Lək-lək" can verir" adlı uşaqlar üçün nəzmlə yazılmış alleqorik bir kitabça da çap edilmişdir. Həmin əsərdə müxtəlif sinif və təbəqələrin həyatına istehzalı nəzər salınmışdır [34,17].

İrəvan ədəbi mühitinin ziyalıları inqilabdan əvvəl və sonra Zaqafqaziyada nəşr edilən rus və Azərbaycan dilli mətbuatla tanış idilər. Qəzet və jurnallarda oxuduqları məqalə və korrespondensiyalarda ictimai-siyasi, ədəbi-mədəni, sosial-iqtisadi yazılara yaxından maraq göstərirdilər, xüsusən də, Azərbaycanda baş verən hadisələrin analoji cəhətlərini müqayisə edərək İrəvan mühitinə də aid edirdilər. "Cavanlar Şurası" adlı qəzetin azərbaycanlı ziyalıların milli şurası tərəfindən 1920-ci ildə nəşrə başlaması mühim hadisə kimi qarşılanmışdı. Ancaq qəzet milli mövqedən çıxış etdiyindən fəaliyyəti dayandırılmışdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra hakimiyyət başına gələn kommunist-beynəlmiləlçi cildinə girmiş daşnaklar ölkədə kommunist-bolşevik mətbuatı yaratmaq məsələsini gündəlikdə saxlayırdılar. Zaqafqaziya Ölkə Komitəsinin qərarı ilə 1922-ci ildə EK(b)P MK-nın nəzdində azsaylı xalqlar şöbəsi yaradılmışdı. Öz millətinin hüquqlarının və mənafeyinin qorunub saxlanması üçün rəhbər

orqanlar qarşısında Azərbaycan dilində mətbu orqanın yaradılması zərurətinin gündəmə gətirilməsi 1921-ci ildə "Kommunist" (Azərbaycan dilində, redaktoru Həmid Qənizadə idi) qəzetinin nəşrinə zəmin yaratdı. Lakin İrəvanda tüğyan edən qətliamlar, terror, total qırğınlar, dağıntılar nəticəsində Azərbaycan dilində nəşr olunan "Kommunist" qəzeti həmin ilin yanvarında işıq üzu görsə də, fevralın 8-də onun redaksiyası yandırıldı, nəşri dayandırıldı. Bir il sonra, 1922-ci ildə Bala Əfəndiyevin təşəbbusu və redaktorluğu ilə "Rəncbər" qəzeti həftədə bir dəfə nəşr edilməyə başlasa da, davamlı nəşrinə qəsdən şərait yaradılmadı və Aşot Ohanesyan (Ermənistanın ilk Maarif Komissarı, sonralar EK(b)P MK-nın katibi) heç bir obyektiv səbəb olmadan 1922-ci ilin dekabrında qəzetin 52 nömrəsindən sonra bağlanmasına sərəncam verdi. Sonralar H. Huseynov "Qızıl Şəfəq" qəzetinin 25 aprel, 1934-cü il tarixli 91-ci sayında dərc etdirdiyi "On illik qalibiyyət bayramı" məqaləsində "Zəngi" qəzetinin nəşrinə nail olunması barədə məlumat vermişdir. İlk nömrəsi 29 noyabr 1924-cu ildə işıq üzu görən "Zəngi" qəzeti 1927-ci il, 15 dekabradək, həftədə bir dəfə nəşr olunmuşdur. "Zəngi"nin ilk nömrələri Bala Əfəndiyevin siyasi iradəsi, qətiyyəti, uzun müddətli gərgin mübarizəsi sayəsində, həmçinin Mustafa Huseyuovun və Murtuza Muradovun zəhmətləri nəticəsində nəşr edilmişdir. "Zəngi" qəzetinin 47-ci nömrəsinin nəşrinin üç illiyi münasibətilə 1927-ci ildə "İki bayram" başlıqlı məqalədə yazılır: "Ermənistanda şura hökuməti qurulduqdan sonra İrəvanda türkcə həftəlik "Kommunist" qəzetinin nəşrinə başlandı. Qəzetə bir neçə ay davam etdikdən sonra bir para səbəblərə görə qapandı və bir neçə ay sonra "Rəncbər" qəzetinin nəşrinə başladı. O da bir neçə ay davam etdikdən sonra qapandı". Qəzet nəşrinin çətinliklərini, maddi imkanın məhdudluğunu bəhanə gətirən Ermənistanın şovinist rəhbərləri, "Zəngi" qəzetinin bağlanmasının təşkilatçılarını, xüsusən də, Aşot

Ohanesyanı açıq-saçıq tənqid edə bilmirdi. Bu barədə "Zəngi"nin xələfi olan "Qızıl şəfəq" qəzeti 1937-ci ildə yazırdı: "Ölkənin siyasi-iqtisadi inkişafı, kütlələrin və o cümlədən azərbaycanlı kütlələrin siyasi aktivliyinin yüksəldilməsi türk dilində qəzet nəşr etmək məsələsini yenidən irəli sürmüşdür. UİK(b)P Zaqafqaziya Ölkə Komitəsi əksinqilabcı Aşot Ohanesyanın millətçi fikirlərini rədd edərək 1924-cü ildə "Zəngi" qəzetini nəşr etməyi qərara aldı" [155]. Qəzetin 1927-ci ildən 1937-ci ilədək "Qızıl şəfəq", 1937-1939-cu illərdə "Kommunist", 26 sentyabr 1939-cu ildən 1989-cu ilədək isə "Sovet Ermənistanı" adı ilə nəşr olunduğu göstərilir.

Beləliklə, Azərbaycanlılara qarşı edilən bu siyasi-mənəvi terror ardıcıl davam etdirildiyindən həm kitab, həm də qəzet nəşri sahəsində mədəniyyətimizə ağır zərbələr vurmuş, mənfur ermənilərin İrəvan azərbaycanlılarının qəzet nəşr etdirmək iqtidarında olmamaları barədə cəfəng təsəvvürləri ucbatından uzun müddət azərbaycanlı oxucuları öz ana dilində mətbuat orqanından məhrum edilmişdir.

"XIX - XX əsrlərdə İrəvan ədəbi mühiti (1800 - 1920-ci illər)" mövzusunda elmi-tədqiqat işinin ərsəyə gətirilməsi üçün İrəvan şəhərində 1914-cü ildə "Luys" mətbəəsində Türk dilində nəşr olunan "Lək-lək" məcmuəsinin transliterasiya edilməsi kimi nəcib və olduqca əhəmiyyətli bir işin icrasına tərəfimizdən əməli təşəbbüs edildi. Həmin məcmuənin nömrələrini olduğu kimi, əski əlifbadan müasir latın qrafikasına transliterasiya edildiyini nəzərə alaraq, onun nəşrə hazırlanmasını məqsədə müvafiq saydıq. Bu zaman "Lək-lək"in nəşr olunduğu dövrün ədəbi dil normalarını, üslubunu olduğu kimi saxladıq. Qeyd etmək lazımdır ki, bəzi məqamlar istisna edilməklə, mətnlərin əksəriyyəti və şeir nümunələri oxuçular üçün həm yenidir, həm də müasirlik baxımından zamanla səsləşir. Məcmuənin nömrələrindəki mətnlərdə oxucular üçün anlaşılması çətinlik törədə biləcək sözlərin

lüğətinin hazırlanmasını müsbət hal hesab etmək olar [105, 3].

Qeyd edək ki, Məmmədəli Sidqinin (1888-1956) arxivində "Lək-lək" satira jurnalının redaktoru Cabbar Əsgərzadənin bir sıra şəxsi məktubları mühafizə olunur ki, bu məktublar [148] bu jurnalın nəşrinə hazırlıq və onun redaksiya işinin təşkilinə dair məsələlərin bəzilərini aydınlaşdırmağa kömək edir. C.Əsgərzadə öz məktublarında "Ə", "Eşşək dağlayan", "Məhkəmə pişiyi", "M. P." imzaları ilə yazdığını, "Molla Nəsrəddin", "Kəlniyyət" və başqa mətbuat orqanlarında iştirak etdiyini bildirir. O, İrəvandan göndərdiyi 4 dekabr 1913-cü il tarixli məktubunda "Lək-lək" jurnalını çıxarmaq üçün qəti qərara gəldiyini xəbər verib, bu münasibətlə bir çox "Molla Nəsrəddin" yazıçılarını jurnalda iştiraka cəlb etmək istədiyini bildirib, onlardan bəzilərinin ünvanını xəbər alır. Və bu işdə çətinlik şəkdiyini etiraf edərək, 18 fevral 1914-cü il tarixli məktubunda təkrar M.Ə.Sidqidən xahiş edir ki, "Molla Nəsrəddin"in müxbir və şairlərinin ünvanını bildirsin... Başqa məktublar da sübut edir ki, "Lək-lək" mollanəsrəddinçilərə istinad etməyə çalışmışdır. Öz məzmun və mündəricəsinə görə ideya-siyasi istiqaməti etibarı ilə xırda burjua demokratiyasına daha çox meyilli olmuş "Lək-lək"in ətrafında cəmləşən şəxslərin sinfi mənsubiyyətini, onların keçdiyi həyat yolunu, dərc etdirdikləri materialları, eləcə də başqa mətbu orqanlarda dərc olunan məqalə və xəbərlərin məzmunundan aydın sezmək olur. Bu məcmuədə ictimai bərabərsizliklərin mövcud vəziyyəti tənqid olunanın kimliyindən asılı olmayaraq tənqid hədəfində olmuşdur. Əsas qayələrindən biri yeni tipli maarif və mədəniyyət uğrunda mübarizə olan jurnalda xüsusən, maarif məsələləri: yeni üsullu məktəblərdə təlim və tərbiyə metodlarının tətbiqi, tələbələrin yaxşı oxuması, soydaşlarının maarifləmsəsi yolunda əlindən gələni əsirgəməməyə sövq etmək kimi məsələlər də öz əksini tapmışdır. Jurnalda həmcinin, bəzən xalqın intibahını arzulayarkən millət, millətçilik məsələləri də

vurğulanırdı. “Kamal Paşanın ruhuna ithaf” [105, 49] adlı şeirində “Yetim cücə” (Əli Məhzun Rəhimov) zamanın ictimai-siyasi hadisələrinə işarə edirdi:

Ha dinirəm? Ay itlaf firqəsinin qamandanı!
Bircə qutardımı dəxi türklərin yazıq canı?!
Varmı yenə de bir görüm, səndə rəyasət imkanı?!..

Əli Məhzun “Yetim cücə” imzası ilə çap olunan bir şeirdə, “Bayquş” imzası ilə “Siyasi lüğət, yaxud gödən davası”ı adlı yazıda: “Hər kəsə məlumdur ki, indi yer üzündə bir parça çörəkdən ötrü nə qədər qanlar tökülür, nə qədər evlər yıxılır, nə qədər zir dəst millətlərin şərəf və heysiyyəti ayaq altında qalıb itir. Burası da məlumdur ki, nə qədər allah, din, məzhəb və dini xub qarnının çörəyə doymağında bilən millətlər varsa, (zərbin-zən kərək)dən yağ çıxardan zamanı öz qarnını doydurmaq üçün din-məzhəb adına nə qədər insanların qanını tökürlər və halonki, bunların hamısı andıra qalmış bu gödəndir, gödən olmasıdır. Dünyada heç bu qədər fırıldaqlar da çıxmazdı. Odur ki, Sədi deyir:

İn şekəmi bi hizir pıç-pıç,
Səbir nə darəd ke bisazəd be hec. (Dolanbadolan bu hünərsiz qarın, Şəhri yoxdur ki, hec nəynən barışmaz).

Bəli, bu gödənçi şeylər qayurub ki, onlardan bir neçəsini yazmağı mənfəətli bildim. Məsələ: Həmin bu gödənin ucundan ki, həmişə deyir ver yeyim, ört yatım, burnumun dəliklərindən də tökülsə, doymuyacağam: Monqol – qalxıb Kitaydan istiğlaliyyət istəyir, yəni ki, mən niyə görən, sən de, sən ye, yuyum, sən desən alçı dur! Durum, onbadur! Durum, xeyr mən onba dura bilmənəm. Çünki, adamın yediyi burnunun dəliyindən gəlir. Götür Venqiryanı – Avstryadan nə istəyir; bu nə xəril görüllər? Hamısı gödən davası....

Kipr üsyanı, Qreklərin inqilabçıları Albaniyadan nə istəyirlər? Demək istiqlaliyyət. İstiqlaliyyət və demək? Yəni adam öz keyfi istədiyi kimi işlər, yeyər, yatar, düzələr, qalxar,

daha heç kəsə dəyməz, cənab, bizim də məsləhətimizə qarış, yaxud dəyməsə, deməzlər ki, oğlan sən öz başına deyilsən ki!

Hə!.. Bu istiqlaliyyətdən (Elzas Lotaringiya) Germaniyadan, (İmam Yahya) Türkiyədən, Hindistan və İrlandiya isə İngilisdən istəyirlər... Hətta Ruset fəhlələri də bu gödənin üçundan hey tətil, hey qışqırıq edirlər ki, gərək bizim də qarnımız Yevropa fəhlələrinin qarnı kimi yesin. Bizim də hüquqlarımız Ümumavropa fəhlələrinin hüququ kimi olsun"...

Jurnalda gedən "Dil məsələsi" (Beşinci nömrədən mabəd) adlı yazı da maraq doğurur: "Danışığımızın, dilimizin islahı intiligentlərimizə, yarımçıqlarımıza yaramadığı kimi, ha eylə də mollalarımız, vaizlərimiz, həpsi kəndlilərimiz, xanəndələrimiz üçün də əlverişli degil. Bizim kənd ərafələrindən bir nəfər məşhədi ibrətən malədinə o qədər qəzəl köçürüb ki, lap layiq təmərif olduği kimi, öyləsə də danışığına təğyir verə bilməz. Bugün qavun meydanda arabaçılara xitab olaraq buyurdu arabaları ahəstə-ahəstə çəkən, tainki, xeymələrin tənanlərini kəsixtə etməsinlər. Yenə bir günləri məhəllədən bir nəfər kəndi işləri üçün suda dəvət olunur. Müəyyən vaxtında gələ bilməyir. Axırıncı dəvətdə suda gələrkən sud deyir, bununla üç dəfədir ki, dəvətnamə göndərirəm, niyə gəlmirsən? Kəndli deyir: cənab sudya, (Arpa çayının qır-qır abədindən əbur etmək məhal məmmətinən olduğu üçün xidmətinizə gec şərəfyab olduğ). Sud başa duşməyir, dilmanc qalır məəttəl. Axır, o - bu yığışıb əhvalatı suda bildirirlər. Sud deyir, get, daha bir də guzə girib məniylə böylə dilləriylə danışma. Vaizlərimiz isə buyurduqları kimi nar, alma, heyva və gövərçin əvəzinə ənar, sib, nedanə və kəbutər adət ediblər. Əgər dilimiz türkləşib islah olunarsa, o zaman onların fəzilətləri məhv olduğu kimi, fəsahət bəlağətlərinə də böyük ziyan yetirər. Qiraət, ərbiyə kimi də hürufatın hankı məxrəciylə deyiləcəyi itib gedər. Xanəndələrimiz üçün bu iş hec yaramaz (Dəşti) və (Gəlayi) mahnılarında oxunmağ üçün türk qəzəllərinin qəlibləri

yoxdur. Xanəndələrimiz də fars qəzəllərini səhih və boğazda oxuduqlari üçün dil məsələsinin ziddinə olduqları məlumdur. (Nist dər oh həlm çəz hədrən, ya pedərən çe qənim şər degumi nətəvanəm xuanim) belə səhih oxuduqları qəzəlləri də türk qəzəllərіylə dəyişəcəkləri aşkar bir işdir. Bu səbəblərə görə də, mən öz tərəfimdən dil məsələsi ətrafında yunbalanan ağalarımıza məsləhət görürəm ki, əbəda cınqırlarını da cəkməsinlər. Çünki bu məsələ intiligentlərin gözəl ləhcələrinə, molla və vaizlərimizin fəsahət və bəlağətlərinə, mənim kimi yarımçığların baədəb və pər məna danışığlərinə və xanəndələrin duzlu əssariylə oxudigləri səhih qəzəllərinə böyük zərər yetirər, o zaman da hamu bəhanəçilər əlbir olub bizim keçəl molla demişki (və əli əlsan balsalam) deyərlər. Biz də qalarıq lal, kar, lat, lut, zəvvar imam Rza. İltimas dua: Dul toyuq".

"Lək-lək" jurnalının 8 və 12-ci nömrəsində "Mələk Naqqal" imzası ilə verilmiş "Sancı" şeiri "Millət düşməninin təğriratı" sərlövhəsi şifahi etirafdır, şeir konkret bir adama qarşı yazılmamışdır. Şeirin məzmunundan uzun illər ruhani təhsili alan din xadiminin təsəvvürü yaranır. Eyni ilə "Lək-lək"in 4-cü nömrəsində çap edilən "Balaca felyeton" adlı yazıda da möminlər–"möminlik" ardıcıl surətdə ifşa hədəfindədir. Burada təsvir olunan müxtəlif sosial tərkibli adamların hər biri öz fəaliyyətindən bəhs edir:

Molla: Mən mollayam, camaatı tovlaram,
Qırxmaq üçün ülgücümü sovlaram,
Şikarımdır tamamisi ovlaram,
Qıllı qulaq çox saqqalım var mənim.
İcarə namazı qılan: Möminəm şahları tərif elərəm,
Ölü namazını artıq istərəm,
Adildir deyirəm xalqa söylərəm,
Doğruçuyam, al saqqalım var mənim!
Müqəddəs hacı*:* Mən hacıyam, yaxşı namaz qılaram,
Təzvir ilə camaatı tovlaram.

Yüz manat verərəm, bir mələk alaram,
Mötəbərəm, pulum, malım var mənim.
Qoçu, yaxud ayaqçı: Mən qoçuyam, alış-veriş edəndə,
Kəsərəm kəndlinin pulun verəndə,
Dinə bilməz puti batman çəkəndə,
On beş dəri yağım, balım var mənim.
Ruzəpaz*:* Ruzəpazam, gedirəm haqq yolunu,
Əmməni ağladıb allam pulunu,
Arvadların siğə qıllam dulunu,
Dörd nəfər də üzü anım var mənim.
Artist: Mən artistəm, səhnələrdə oynaram,
Nə rol billəm, nə hərəkət qanaram,
Yalnızca mən ad qeydinə qalaram,
Utanmaram, əcəb halım var mənim.
Student: Studentəm, oxşuyuram urusa,
Gərək olsun mənə arvad Marusa!
Müsəlmanın qızı Huri də olsa,
Mən almanam, qıraxmalım var mənim.
Jurnalçı: Jurnalçıyam, mənə bu olmuş sənət,
Hər nə xəlq olsa mən dutum diqqət,
Siz ki, belə dutubsunuz camaat!
Yazmağa çox matriyalım var mənim!
Müsəlman: Musurmanam, gözüm qəzetə baxmaz,
Hər nə haqq söz ola, beynimə batmaz.
Hələ gözüm intizardan qayıtmaz
Xaric edir, xırdaçalım var mənim.

"Lək-lək"in 5-ci nömrəsində "Naqqal" imzası ilə verilmiş "Qudurğan çay", 6-cı nömrəsində "Tülkü və xoruz" şeir - mənzumələrin məzmunu isə ictimai-siyasi məzmunludur.

"Lək-lək" jurnalının nəşri İrəvanda və onun ərazisində yaşayan azərbaycanlıların ictimai-siyasi və mədəni həyatında öz müsbət təsirini göstərməyə başlamışdır. Azadlıq, tərəqqi, və demokratiya ideyalarına onun təsiri duyulurdu. "Lək-lək"ə

müraciətlə başlayan “Tiflisdən məktub” adlı məqalədə etiraf olunur ki, “Lək-lək” jurnalı “Molla Nəsrəddin”dən fərqlənməməlidir, onun yaradıcılıq ənənələrinə sadiq olmalıdır. “Həmədanlı Məşədi İbad” imzası ilə verilmiş həmin məqalədə mətbuatın mübarizliyi [151], ədəbiyyatın ictimai-siyasi həyata fəal münasibəti diqqətdən kənarda qalmamalıdır.

“Salam əleykum, ay lək-lək dayı, səni xoş gördük. A kişi, mən əvvəllər elə bilirdim ki, bəs sən də bizim bağlarda yuva tikən Hacı Leylək qəbilindənsən, amma indi baxıram ki, xeyir a.... Sən ilə onların arasında zəmin – asiman təfavüt var: Məsələ; mənlə onlar gündüzlər ilan-qurbağa şikarına çıxırlarsa da, amma gecələr də rahət durmayıb, bir qılçaları üstə dayanıb damağlarını şaqqıldadıb yoldan keçənləri iztirabə salırlar. Ama sən gündüzlər də bu əməllərini eyləyirsən, gecə balalarını qanadlarının altına alıb, rahət səmiri lap kəsürsən. Olmaya sən qorxursan ki, gecə eşigə çıxasan, gecə veylləri bir əft yetirələr. Ay kişi, bir gəl Tiflisə, gör burada nə aləmdir! Gecə səni aparım məcthəd bağına, gürcü qızları ilə müsəlmanların məhbubanə söhbətlərinə qulaq as, gör müsəlmanlar gürcülərlə necə gözəl danışırlar. Peşələri səhərə kimi gürcü qızlarına “şini cırım” deməkdir.

Bir belə iş də mənim başıma gəldi... İrəvandan çıxanda əvvəlcə yolumu Bakıya saldım, bir neçə ay idi ki, Çornuqorodda işləyirdim. Sonra bir günləri vağzal yolu ilə gedirdim, bir nəfər həmşəhərlimizə rast gəldim, mənə dedi : hərif, bu nə gün dirrikdir düşmüsən? Lap cəhənnəm mələkinə bənzəyirsən, al aynanı, bir sifətinə bax, gör! Doğrudan da aynanı alib sifətimə baxdım, özümi tanıya bilmədim... Dedim, bəs, əzizim, necə eyləyim? Dedi, gəl, mənimlə gedək Tiflisə. Orada yaxşı fabrikalar, zavodlar var, oradaca işlə, bir ayın içində gör nə pul vurursan! Mən də həmşəhərlimin sözünə baxıb onunla Tiflisə getdim. Ama Tiflis, nə Tiflis, hesab elə bir guşə cənnətdir. Burada ola göz, xanımları görüb, doğrusu əlim

işə daha yapışmadı və Bakıda qazandığım pulları da buradaca xərcləyib, qalmışam indi Tiflisdə. Amma istəyirəm bu gün bir iş arayam və yaxud yenə Bakıya qayıdam. Çünki indi baxıram cibimdə pulum olmadığına görə madamlar daha mənə etina eyləmirlər və bu şəhirdə onların qəmehtinalığının xususunda yazıb idarənizə göndərdim, bu bir şərtiylə mənim halımı bilərsiniz. Gürcü qızları - "şəni cırım" - dedilər, pullarımi şirin-şirin yedilər. Pul qurtulanda "şeni mumazali" - dedilər".

"Lək-lək" nəşr olunduğu vaxtlarda sürgündə olmasına baxmayaraq Məmməd Səid Ordubadi başqa satirik jurnallarda cıxış etdiyi kimi, "Lək-lək"lə də əməkdaşlıq etmiş, dövrün içtimai-siyasi haqsızlıqlarını, ətrafda baş verən eybəcərlikləri felyeton və satirik şeirlərində tərənnüm etmişdir. Onun "Hərdəmxəyal" imzası ilə çap olunmuş aşağıdakı "Qalmaz" və "A bəy" şeirlərində ictimai ziddiyyətlərdən irəli gələn dəyişiklərin ictimai - siyasi motivlərinin real təsviri poetik dillə təsvir olunmuşdur:

...Bir gün var idi bizlərə sultan idin, ay bəy!
Kənd əhlinə bir sahət fərman idin, ay bəy!
Varya xanimə hər gecə mehman idin, ay bəy!
Gördin bizı hərçənd müsəlman idin, ay bəy!
Noldu gecə-gündüz yeyib asudə yatan gün,
O Leylini görcək qudurub güllə atan gün,
Meyxanədə mil təkin güllərin qışdə satan gün,
Hər ildə satıb mülküyi məqsudə çatan gün,
Veyl-veyl dolanan bisər saman idin, ay bəy!
Dada-dada aludəyi-şampan idin, ay bəy!..

Müharibə ərəfəsində ölkənin aclıq və səfalət içində olduğunu bildirən şair xalqın dözülməz vəziyyətinə acıyır [151], əhalinin yaşayışındakı çətinlikləri, dünyagörüşlərindəki məhdudiyyətləri, gözəgörünməz ilahi qüvvələrdən imdad gözləmək kimi məsələlərin insan şüurunda kök saldığını, elmə, məktəbə marağın istənilən səviyyədə olmadığını vurğulayırdı.

“Lək-lək” məcmuəsində Bakıda dərc olunan başqa satirik məcmuələrdə və gündəlik siyasi-ictimai və ədəbi qəzetlərdə də şeir və publisistik əsərlərin dərc olunmasına nail olunurdu. İrəvanda nəşr olunan “Lək-lək” və “Bürhani-həqiqət” jurnallarının İrəvan içtimai və mədəni həyatına təsiri, Tiflisdə, Bakıda, “Molla Nəsrəddin”, “Bəhlul”, “Zənbur”, “Kəlniyyət”, “Məzəli”, “Tartan-Partan”, “Rəncbər”, “Zəngi”, “Qızıl Şəfəq” kimi məcmuə və qəzetlərdə dərc olunan satirik şeirlərin və kəskin publisistik məqalələrin təlqin etdiyi ideyalara görə oxuçu marağına səbəb olurdu.

Maraqlıdır ki, “Bürhani-həqiqət” jurnalının nəşr edilməsi üçün Ə.H.Zeynalabdınzadəyə verilən icazədə xüsusi bir qeyd yazılmışdı [82] və jurnal ilk nömrəsində məqsədini, məramını şərh etmişdir: “Bürhan həqiqətin dili və isbatı deməkdir.” Həqiqəti bir nura bənzədən məqalə müəllifi belə hesab edir ki, bu qadir nur ona yaxınlaşanları cəhalət və zəlalət zülmündən uzaqlaşdırıb şəhri nicata çatdırır, həqiqətşünas növbənöv pərdələrin dalında gizlənən sirləri aşkara çıxarır. Məcmuəmizə “Bürhani-həqiqət” adı verməklə, əminik ki, onun adı ilə əməlinin bir-birinə uyğun gəldiyini gələcək nömrələrimizdə oxucularımıza sübut edəcəyik” [44].

Beləliklə, “Bürhani-həqiqət” İrəvanın ictimai-siyasi və ədəbi mühitində baş verən hadisələrin mahiyyətini, səbəb və nəticələrini həqiqətin dili ilə təsvir etmiş, oxuçularını cəhalət-dən xilas etməyin ədəbi-bədii, istiqamətlərini öz mündərə-cəsində vermişdir. Cənubi Qafqazda, İrəvan quberniyasında, xüsusən də İrəvan mühitində geniş vüsət alan siyasi vəziyyətin, sosial problemlərin, açıq və ya gizli fəaliyyətdə olan partiya-ların, qruplaşmaların yeritdiyi siyasətin məqsədini həqiqətin dili ilə xalq kütlələrinə çatdırmağa nail olmuşdur. Jurnalda Əli Məhzunun silsilə məqalələri, ədəbi tənqid və ədəbiyyat nəzəriyyəsinə həsr olunan elmi və bədii yazıları da yer almışdır. Jurnalın 20 yanvar 1917-ci il tarixli 2-ci nömrəsində

Cabbar Əsgərzadənin (Aciz) "Məni aldatdı bir mələk sima" şeirində çar hökumətinin devrilməsini, yeni həyatın başlayacağını, sülhün, səadətin, əmin-amanlığın insanların üzünə güləcəyini, dünyaya bahar gəldiyini yüksək pafosla tərənnum edir, eyni zamanda bu mənzərənin aldadıcı olduğunu da xatırladır:

...Üfüqlər, şəfəqlər, məğşuş, mənur,
Havalar, səbalar, dilavuz, dilbər,
Fələklər, mələklər, səfabizpərvər.
Çəmənlər, səmənlərimiz mənbər,
Dilara, Fərəhza, Ziba və Həmra...

...Pozub nagahan bir patatı şu hali,
Göz acdım, nə gördüm bunlar həpsi röya.
Durur dəhşəti, zülmü, cövrü məlali,
Həməndir bu dünya, həməndir bu dünya!

Baharın təsvirinə geniş yer verilmiş şeirdə yeni Günəşin doğması, təbiətin oyanması ilə insanlarda, hətta uşaqlarda da fərəh hissinin baş qaldırması bədii şəkildə əks etdirilir, bunlar bahar bayramında göyərdilən səməni halvasını xatırladır. Təzə açılmış güllərin rayihəsindən, musiqi ilə bağçada eyni coşqunluqla tütək, nağara çalan və rəqs edən uşaqların geyim - libasları, onların şad-xürrəm rəqs etməsi adamda fərəh doğurur. Bu ovqat qəflətən pozulur, göz açanda bunların hamısının röya olduğunu, bu dünyanın əvvəldən necə var, elə də qaldığını, həmənki kimi dəhşətli, zülmlü, ağrılı-acılı olduğunu yəqin edirsən.

Ümumiyyətlə, Cabbar Əsgərzadənin 1917-ci ildə "Bürhani-həqiqət" jurnalının 2, 3,5,6,7 və 8-ci nömrələrində "Məni aldatdı bir mələksima"(2), "Mənim eşqim" (3), "Hürriyyət baharı" (6), "Təraneyi etiraz" (7), "Xəyanət" (80) sərlövhələri ilə verilən bədii parcalarında dövrün yaşantıları poetik dillə ifadə edilir:

Günəş nuru camalından onun bir zərrədir naciz,
Şəbi - yeldayə bənzər zülfi - Leyladır mənim eşqim.

Bu misralarda şair "Şəbi - yeldanın, ilin ən üzun gecəsinin dekabrın 21-də olduğunu, öz eşqinin gözəlliyinə, sonsuzluğuna işarə edir. Vətənində elmin, fənnin tərəqqisini və inkişafını arzu edən şair "Təraneyi etiraz"da yola salınan köhnə ilin məhrum olduğu təəssuratlarından bir nümunə deməklə, baş verən hadisələri xatırlayır: "Kəs məni! Mən də sənin kimi olum zalım, əgər, ətimi şişə çəkib odda kabab eyləmisən..." - deyən şair "İntiqam ilə sənə mən də əzab eyləmişəm" - ifadəsi ilə quruluşdakı uyğunsuzluqların verdiyi fəsadları vurğulamaqla qarşısına cəmiyyətdə gedən prosesləri kütlələrə olduğu kimi catdırmağı məqsəd qoyan "Bürhani-həqiqət" jurnalı köhnə quruluşa, yeni yaranan ictimai-siyasi cəhətdən qiymət verməyə çalışır. "Lüğətin lüğəti" başlığı ilə verilən yazılar bütövlükdə dövrün haqsızlıqlarını, eybəcərliklərini tənqid edir. Əsas diqqəti mütləqiyyətin devrilməsinə münasibət və yeni yaranan ictimai-siyasi, sosial mühitin, ədəbi və mədəni həyatın naqisliklərinin təsvirinə yönəldirdi. Çarizmin yıxılmasını xalqın həyatında ciddi hadisə hesab edirdi. Xalqın mənafeyində durmayan mövcud siyasəti məntiqi mühakimə ilə ifşa edirdi. "Lüğətin lüğəti"ndə qələm sahibləri oxucuları lazımi qaydada istiqamətləndirə bilirdilər: "Uprava - müsəlman qlasnılarının yataq yeridir, gecələrin nə halda olduğunu görməyən gözlərdir. Asqıraq – hər bir xeyir işə başlayanda qabağımızı kəsən canavardır. Adı var, özü yox – tərəqqimiz, hüquqlarımızdır. Asiya – başımızda dolandırılan dəyirmanın daşıdır. Arvad– əbədi həbsə məhkum, bəzən baha satılan bədəfkardır. Anbar - mollanın qarnı, millətpərəstin cibidir. Axur–müftəxorun süfrəsi, yaranan yeni-yeni cəmiyyətlərin təmənnasıdır. Un– adını çəkmək qadağandır. İrəvan – upravadan, qorodovoylardan ibarət mürəkkəb, müşkül bir hökumətdir. İrəvan apteki - ölmə, yaz gələr, yonca bitər deməkdir. Astar – şəkər satanların

putu on beş manata satdıqları şəkərin meşoklarıdır. İnsaf–İrəvan ağalarının məxsus sifətidir. Bəhs –cəmiyyətlərin, firqələrin hər iclasda müzakirəyə qoyub həll etdikləri vacib məsələlərdir. Böhtan–zorlunun gücsüzə deyəcəyi haqq sözüdür. Bəxt–müftə dövlətə, şohrətə, rəyasətə sahib olmaq üçün birinci alətdir. Palçıq–İrəvan küçələrində yay və qış görünən nemətdir, bəzən dumada etiraz edənlərin üzünə yaxılır. Məslək–alış-verişdir. Torba–icində saman olduğu halda, millət qabağına düşən səfillərin başlarıdır. Tülkü–qərəzsiz məslək sahibidir. Topal–cibiştan üçün milləti qabağa aparan adama deyirlər. Təfavüt–seçkilərdə dövlətli ilə fəqirə verilən imtiyaz. Təpəbaşı – İrəvanın ən abad məhəlləsidir ki, gecələri gündüzündən işıqlı olur. Cavan –iki tapança, bir xəncər bağlayaraq papağını yan qoyanlar. Cəmiyyət–qərəz meydanı...". "Luğətin luğəti"ndə verilənləri nəzərdən keçirdikdən sonra bu nəticəyə gəlmək olur ki, ifadələrə verilən mənalar cəmiyyətdəki sosial müxtəlifliyin, insanların psixologiyasındakı qeyri-sabitliyin geniş xalq kütləsi tərəfindən məqbul sayılmayan təzadlı cəhətlərini xatırladır. Həmin mövcud şəraitdə baş verən ictimai-siyasi hadisələrdən də bəzi məqamların mahiyyətini aydınca sezmək olur. "Bürhani-həqiqət"in səhifələrində ədəbiyyat məsələlərinə, elmi məqalələrə və məişətə dair məsələlərlə yanaşı, İrəvan mühitində yaşayan azərbaycanlıların həyat və fəaliyyətinin öyrənilməsi nöqteyi-nəzərindən mühim əhəmiyyət kəsb edən məlumatların verilməsinə xüsusi yer ayrılmışdır.

3.İctimai-siyasi, ədəbi və mədəni mühitin ədəbi nəşrlərdə əksi

Qədim Azərbaycan xanlıqlarından olan İrəvan mahallarından biri Göyçədə yaşayan Azərbaycan türklərinin sonuncu yüzillikdə başına gətirilən fəlakətləri geniş ictimaiyyətə

çatdırmaq, qanunsuzluq, qırğın və vəhşilikləri dünyaya bəyan etmək sahəsində son illər bir sıra tarixi-coğrafi, ictimai-siyasi, elmi-bədii faktları, epik-lirik lövhələri özündə əks etdirən kitablar nəşr olunmuşdur. Bu sırada Məcnun Göyçəlinin "Köçkün Nəğmələri" (Bakı, 2000), İbad İbrahimovun "Alınmaz qala" (Gəncə, 2009), Əziz Ələkbərlinin "Qərbi Azərbaycan" (Vedibasar mahalı) (Alqayıd, Bakı, 2007), "Qalx ayağa, Azərbaycan! (Bakı, 2009), "Seyid Bayram ocağı" (Bakı, 2004), "Şair Bəhmən Göyçəli", Qaçay Bəhmənoğlu (2011), "Dünya həmin dünyadır", Məmməd Əfşanın (Bakı, 208), "Əzablı və uğurlu yollar yolcusu - Maqsud Müəllim", "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası", "Göyçənin qisası qalır", "Vətən, küsmə məndən", "Dünya susur, tarix susmur", (Ələddin Şamilovun)"Bir könül sədası", "İrəvan ədəbi mühiti (1920 - 1950-ci illər)", Ziyəddin Məhərrəmov (2012), "Bir bahar küləyi", Vahid Rəcəboğlu, "Qoşabulağın qoşa dərdi", "Torpağında izim qalan Göyçə", "Qara gündəlik", "Ulu Göyçə", "Aqilim, Sərrafım qaldı Göyçədə", "Göyçə mənim, qadası, Ələsgərim, Alımdır", "Göyçə gözüm işığı", "Ağlama, bülbül, ağlama!", Abbas Vəfadağlının son vaxtlarda "Gənclik" nəşriyyatında çapdan buraxılan "Göyçə kimi intizarda elim var" şeirlər və publisistik düşüncələr toplusu [145,207] və digər dəyərli kitablar bu qəbildəndir. Oxuculara toplunun məzmunu və ideyası barədə məlumat verməzdən əvvəl Abbas Mazanovla vaxtı ilə birgə maraq gostərdiyimiz bir epizodu xatırlatmağı zəruri sayırıq: "Dağlıq Qarabağ hadisələri hələ başlamamışdı. Türk düşməni Zori Balayanın "Ocaq" kitabında tarixi faktların saxtalaşdırılmasına dair Azərbaycan ziyalılarının etirazları yalnız söz-söhbət olaraq ağızlarda gəzirdi. Kitabda Azərbaycan əleyhinə yazılan ağ yalanlar, yaşayış məskənlərimizin, yer adlarımızın ermənileşdirilməsi, xalqımız haqqında yazılan uydurmalar, bir sözlə erməni həyasızlığı hamımızda qəzəb doğursa da, İttifaqın və

respublikanın əlaqədar orqanlarına sızdırmaq cəhdlərinə baxmayaraq, rəsmi qaydada məlumat verməyə heç kəs cəsarət etmirdi. Azərbaycan ziyalıları güman edirdilər ki, Ermənistanda ideya-tərbiyə işlərinin təşkilində yol verilən nöqsanlar haqqında Sov.İKP MK-nın qəbul etdiyi qərarla əlaqədar vəziyyətlə bağlı kitabın müəllifinə qulaqburması veriləcəkdir. Amma vəziyyət əksinə oldu...

Dağlıq Qarabağda mitinqlərin davam etməsi bütün ölkədə əks-səda yaratmışdı. Hamı münaqişənin tezliklə dayandırılacağına ümid edirdi. Vəziyyətin getdikcə ermənilərin xeyrinə olduğunu yəqinləşdirən Azərbaycan əhalisi kütləvi mitinqlərə başladı. Qərbi Azərbaycanın ermənilər yaşayan hissəsindəki yerli türklər ermənilərin iddialarının əksinə olaraq 1988-ci ilin 20 iyununda "Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir!"–şüarı altında etiraz nümayişləri keçirirdi.

Uzun illər Ermənistanda müxtəlif rəhbər vəzifələrdə işləyən, seçkili rəhbər orqanlarda təmsil olunan, əslən Göyçənin Cil kəndindən olan, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmiş, yaradıcı ziyalı, el ağsaqqalı Abbas Əli oğlu Mazanovla görüşənlər şair-publisistə ümumi vəziyyətlə bağlı söhbət zamanı daşnakların mitinqlərdən sonra yaman fəallaşdığını söylədi. Yaradıcılığında əks etdirdiyi kimi, erməni xisləti, xəyanəti barədə dünyanın bir sıra görkəmli şəxsiyyətlərinin, sərkərdələrinin, dövlət, elm və incəsənət xadimlərinin inkar olunmaz fikirlərini faktlar əsasında şərh etməyə başladı. Qərbi Azərbaycan ərazilərinin azərbaycanlılardan təmizlənməsi, tarixi ərazilərimizin işğalı, yüz minlərlə insanın məşəqqətli qaçqınlıq və məcburi köçkünlük həyatı, terrorçuluq və separatizmlə bağlı xalqımızın keçirdiyi yaşantılar bu fikirlərin böyük həqiqətlərə söykəndiyini bir daha vurğuladı. Xalqımızın tarixinin məşəqqətlərlə yanaşı, həm də şanlı mübarizə səhifələri ilə zənginliyini qeyd etdi və atası Əli Mazanoğlunun xatiratlarından birini olduğu kimi danışdı:

“1918-ci ilin yazında havadarları tərəfindən təpədən-dırnağa qədər silahlanmış, döyüşlərə əvvəlcədən lazımi hazırlıq görmüş daşnaklar Göyçə mahalının Cənub-Şərq istiqamətində azərbaycanlıları qırmağa, kəndləri yandırmağa başlayırlar. Kəvər və Qaranlıq ərazisində canlarını qurtarmağa çalışan əhali Ağmağan və Ağmangah yaylaqlarına tərəf yön çevirir, erməni cəlladlarının əlindən birtəhər xilas olub qaçanları isə gözlənilmədən başlayan qar-boran yollarda məhv edirdi...”.

Bu qəbildən olan hadisələr ətraf ərazilərdə, xüsusən də Azərbaycanın qərbi ilə həmsərhəd olan Türkiyə dövlətinin Qars, İqdır, Sürməli və digər vilayətlərində də tüğyan edir, yayılan xəbərlərə laqeyd qalmaq olmurdu. Türkiyə televiziyasında tarixən baş verən erməni-müsəlman qırğınları ilə bağlı yaşlı, ixtiyar qocaların söylədikləri yaşanmış faktlar maraq doğurur: Türkiyənin İqdır vilayətinin Haxməmməd kəndindən ağsaqqal, başı erməni qırğınlarında bəlalar çəkmiş, mənsub olduğu millətin və dinin özəlliklərinə sadiq Molla Hacı Abbas 97 il ömur sürmüş, ötən əsrin 90-cı illərində dünyasını dəyişmişdir. O, erməni-müsəlman savaşının acılarını, ermənilərin Azərbaycan türklərini amansızcasına məhv etdiklərinin canlı şahidi kimi gördüklərini gənclərə yana-yana danışırdı. Haxməmməd kəndindən 90 adam samanlığa doldurulub işgəncə verilmiş, Tiqran adlı bir erməni tərəfindən naxır saxlanan ağıla gətirilmiş, burada igid bir Azərbaycan türkünü atasının dizləri üstə balta ilə parça-parça etmişlər. Qalan 89 nəfəri isə diri-diri 35 metr dərinliyi olan su quyusuna atmışlar. Oba köydə də buna bənzər olaylar törədilmişdir. Həmin kəndlərdə şəhid məzarları indi də durmaqdadır. Bu su quyularının açılıb-baxılmasına, dünyaya göstərilməsinə ehtiyac vardır... Bu qətliamları ürək ağrısı ilə Molla Abbasın nəvəsi, hazırda Ankara şəhərində yaşayan Məhəmməd bəy söyləyərkən bildirdi ki, babam ölənə qədər bu olayları cavanlara danışdığından hazırda da həmin kənddə yaşayanların kicikdən-böyüyə hamısı bilir və erməni

millətçilərinin insanlığa yaraşmayan bu hərəkətlərini acı-acı xatırlayırlar. Bu dəhşətli faciələr Göyçədə də eyni ssenarı əsasında davam etdirilmişdir...

XIX əsrin birinci yarısında Çarizm İran və Türkiyə ilə apardığı müharibələr nəticəsində Zaqafqaziyanı, o sıradan Qərbi Azərbaycanı və Naxçıvanı işğal etdikdən sonra keçirdiyi inzibati dəyişiklər nəticəsində burada yaşayan xalqların tarixən mövcud olan ərazilərinin sərhədləri ermənilərin xeyrinə pozuldu [104, 40]. 1850-ci ildə İrəvan quberniyası yaradıldı və bu zaman keçmiş Naxçıvan xanlığının ərazisi, qədimdən oğuzların yaşadığı Qərbi Azərbaycan ərazisi, ulu Göyçə bu quberniyaya tabe edildi. Bundan əvvəl Göyçənin Basarkeçər bölgəsindəki 44 kənd Məzrə kənd cəmiyyətinin starşinası tərəfindən idarə edilirdi. Göyçədə məscid olmayan kənd yox imiş. Qaraiman kəndindəki məscid Hacı Əli və Məşədi İsa qardaşları tərəfindən tikilmişdir. Ziyarətə hər il Göyçədən Xorasana gedən minlərlə ziyarətçilər arasında qaraimanlı İsa Kərbəlayi Musa oğlu da varmış, yolda quldurların dəstəsi qarətə məruz qalarkən o, cəldliklə iri bir daşın arxasına atılaraq "onaçılan" deyilən silahı ilə quldurbaşını yerə sərir, quldurlar qarət etdikləri malları atıb qaçırlar. İgidliyinə görə əbədi şöhrət qazanmış, yüksək hörmət və mənsəb sahibi kimi təkcə Göyçədə deyil, bütün ətraf mahallarda tanınmış Məşədi İsanı14 namizədin içərisindən Məzrə kənd cəmiyyətinin rəhbəri seçmişlər. İnsanların inamını və etimadını qazanan Məşədi İsa 40 ildən artıq (bolşeviklər hakimiyyətə gələnə qədər) icmaya başçılıq etmiş, xalqın tələbi ilə "qırmızı inqilabın" qələbəsindən sonra da kənd sovetinin sədri təyin edilmiş, iyirminci illərin ortalarında - 1924-cü il sentyabrın 27-si, payızın beşinci, Məşədi İsanın yaşının 79-cu ilinin altıncı ayının altıncı günü, şura sədrliyinin üç il iki ay on birinci günü Basarkeçər rayonunda "kommunist" cildinə girmiş, daşnaklar xüsusən milis rəisi Xanzadyanın hiyləsi ilə ələ alınmış iki cavanın

öyrədilib silahlandırılması yolu ilə "Məşədi İsanın yağı qoruğu"nda namərdcəsinə qətlə yetirildiyi günədək qlavalıq missiyasının öhdəsindən layiqincə gəlmişdir [50, 181-191]. Məşədi İsanın həyatı və fəaliyyəti barədə onun özünə məxsus olan sənədlər, el-oba, qonşu mahallarda yaşayan yaşlı nəslin nümayəndələrinin xatirələri, həmçinin Əli Qurban Dastançının "Məşədi İsa dastanı"ndan Qərbi Azərbaycan mühitində baş vermiş hadisələr barədə sanballı məlumatları oxuyub-bilmək də zəruridir. Məşədi İsa kimi, qəhrəmanlığı dillərə düşmüş, haqqında necə-necə hekayətlər danışılan igidlər çoxdur. Qazax mahalının Dəmirçilər kəndində anadan olmuş Hacı Rəhim (1860) də bunlardan biridir. Hacı Rəhimin atası Axund Şəfi Gəncə, Qazax, İrəvan və ətraf bölgələrdə tanınmış din adamı, açıqfikirli ziyalı kimi məşhur olmuşdur. İstər müsəlman icması, istərsə də, ermənilər onu yaxşı tanıyır, onunla hesablaşırmışlar. Hacı Rəhimin qəhrəmanlıqları barədə yaşlı nəslin yaddaşlarından qeydə alınan hadisələrdən biri barədə yığcam məlumat verməklə, keçən əsrin əvvəllərində baş verən mürəkkəb hadisələrə aydınlıq gətirmək istəyirik.

1905-ci ildəki erməni-müsəlman davasında qəhrəmanlıqlar göstərmiş Hacı Rəhim yenidən qan tökülməsini istəmirdi. Yaranmış sakitlikdən istifadə edərək öz halal zəhməti ilə məşğul imiş. Lakin bədxah ermənilər dinc dayanmır, Hacı Rəhimi və onun kimi adlı-sanlı igidlərimizi rahat buraxmırdılar. Əsrin ikinci onilliyinə doğru İrəvanda hadisələri yenidən qızışdırmağa başlamışdılar. Bu ərəfədə Gəncə quberniyasında Sulikov adlı olduqca qəddar bir erməni generalı peyda olmuşdu. Çar hökuməti tezliklə onu İrəvan quberniyasına göndərmişdi. İrəvana gələn kimi, Sulikov başına qoşun toplamış, az keçməmiş onun yaxşı silahlanmış quldur dəstələri müsəlman kəndlərini talan etməyə, yerli əhalinin var-dövlətini zorla əlindən almağa, müsəlman kəndlərinin ətrafında yerləşdirdiyi silahlı quldur dəstələri ilə müsəlmanları bütünlüklə məhv

etmək üçün hazırlıq görməyə başlamışdır. Bu təhlükəli vəziyyəti görənlər xalqı qırğından qurtarmaq, erməni daşnaklarının bu iyrənc planlarının qarşısını almaq üçün tədbirlər müəyyənləşdirirlər. Hacı Rəhim Göyçənin adlı-sanlı igidlərindən, əslən Daşkənddən olan Nağı bəy Qara İdris, Ziyad, Qocaman oğlu Mədət, Məşədi Qasım, Zoddan, Qaraimandan, Şişqayadan, Cildən və digər kəndlərdən olan igidlərlə məsləhətləşir. İlk növbədə, Sulikovun müsəlmanlardan topladığı, qarət etdiyi var-dövləti əlindən almaq, sonra da onu aradan götürmək qərarına gəlirlər. Hacı Rəhim birinci fikri həyata kecirir, Sulikovun "Qırx bulaq"da saxladığı mal-qaranı Kəlbəcərə keçirir və Kazım bəy adlı dostuna verir. Özü isə təbii ki, qaçaqlıq həyatı keçirməyə məcbur olur. Bundan sonra onu Qacaq Rəhim deyə cağırırlar.

...Sursat tədarükü üçün Gəncəbasara getmiş Səməd ağa ilə Aşıq Nəcəf 1919-cu ilin aprelində Göyçəyə qayıdırlar. Ermənilər sülh təklifini müzakirə etmək üçün Şişqayaya Kor Tanrıverdinin evinə toplaşırlar. Abutalıb oğlu Cavad öz dəstəsinin üzvlərindən Tağı oğlu Əli, Dərzi Murad, Kor Qara, Xələf Əli, Dəli Yəhya, Topal Qulu ilə birlikdə həmin danışıqda iştirak edir. Barışığa getməyə razı olmur. Səməd ağa isə qışı başa vurmaq üçün müvəqqəti də olsa barışıq əldə etməyə üstünluk verir və bildirir ki, o tay Göyçəni gözünüzun qabağına gətirin; daşnak qırğınından qaçıb canını qurtaran əhalini Ağmağan dağlarında yazın qar-boranı qırıb...

Abutalıb oğlu Cavad Şişqayaya toplaşmış adamlar ilə Cilə yola düşür. Səməd ağa isə öz dəstəsi ilə Basarkeçərə gedirlər. Hacıqəriblə Pəmbəyin arasında Basarkeçərdə quldurluq edən bir qarabağlı erməni Cavadı güllə ilə qarşılayır. Onu sorğu-suala tuturlar. Yəhya istəyir bunu vursun. Cavad razı olmur ki, bizimkilər də oradadır. Görək nə olur. Erməni əldən çıxandan sonra Basarkeçərə yollanır, oraya çatan kimi daşnaklar Səməd ağanın dəstəsini qırırlar. Aşıq Nəcəfə isə bir həftə

işgəncə verirlər. Komandir Bolyanik (erməni) dedi: – Ərə, elə bu aşıq oğlanlarını görmək istəyir. Gedin onları gətirin. Üç erməni atlısı Tüstülü tərəfə yola düşdü, Nəcəfin ürəyi döyünürdü; başını saza söykəyib çaldıqca altdan-altdan atlılar gedən səmtə baxırdı. Dedi, gəl komandirə bir-iki kəlmə söz de, adını çək, bəlkə mürvətə gələ:

Səni də, məni də Allah yaradıb,
Gəl baş endir yaradana, Bolyanik!
Vermə mənə bu zülümü, zilləti,
Batmaginən nahaq qana, Bolyanik...

Amma mənfur, kafir ermənidə insaf nə gəzir, aşığın beş oğlunu gözü qarşısında diri-diri torpağa basdırdılar. Dəstə başçısının arvadı Nəcəfin başına gətirilən vəhşiliyi götürmür, ərindən onu incitməməyi xahiş edəndə naqandan açılan güllənin qurbanı olur. Nəcəfin isə işgəncədən sonra kürəyinə qaynar samovar bağlayıb, vəhşicəsinə qətlə yetirirlər [89, 348-371].

Aşıq Nəcəfin dediyi şeirlər yanında olan Kalvayı Rəhimin vasitəsilə dost-tanışlarına çatdırılmışdır. Abbas Mazanov qeyd edir ki, "1973-cü ilin yayında atam Xələf Əli onda olan həmin şeirləri itib-batmasın deyə, Aşıq Nəcəfin dediyi kimi dəftərə köçürtdürmüşdür. Həmin şeir gələcək tədqiqatçılara mənbə ola bilər, düşüncəsi ilə olduğu kimi verməyi məqsədə uyğun sayırıq:

Kalvay Rəhim, Aşıq Ələsgərə deginən,
Qoy mənim qayğıma qalsın, ağlasın.
Ağır məclislərdə, dost yığnağında
Həmişə yadına salsın, ağlasın....

Köhlən at belində gəzdiyim dağlar,
Çəninə, çiskininə dözdüyüm dağlar,
Nəcəfəm, əlimi üzdüyüm dağlar,
Lalə, tər çiçəyi solsun, ağlasın.

Qeyd edək ki, Aşıq Nəcəfin şerləri [199, 110] və erməni quldurları [101, 85] tərəfindən başına gətirilənlər [154, 53-54] barədə verilənlər məzmun etibarı bir çox yazılı mənbələrdəki məlumatlarla üst-üstə düşür [102, 40-44-46, 157, 176].

Aşıq Nəcəfin basdırıldığı yer bəlli olsa da, sovet hakimiyyəti dövründə nə onun qəbrinin üstünu götürmək, nə də xatirəsini əbədiləşdirmək mümkün olmur. İctimai quruluşda ikili mövqe tutan, imperiya nökərləri olan "kommunist" rəhbərlər uydurma erməni "qırğınına" aid abidələr uçaltmağa, yalançı, çirkin təbliğata rəvac verməyə şərait yaratdılar. Qərbi Azərbaycanın mahallarında dağıdılmış iki mindən çox kənd, qəsəbə və yaşayış məskənlərinin, onların dinc əhalisinin aqibəti barədəki tarixi faktlardan bir kəlmə də olsun yazmağa, açıb-ağartmağa isə imkan verilmədi. Hətta Azərbaycanlıların başına daşnaklar tərəfindən gətirilən vəhşilikləri, qansızlıqları bilən və yeri gələndə ictimaiyyət arasında aşkarlayacağını müəyyən-ləşdirdikləri adamları da xalq düşməni kimi müxtəlif bəha-nələrlə şərləyib, yurd-yuvasından perikdirirdilər.

Daşnaklar Aşıq Nəcəf kimi, Səməd ağanı və başının dəstəsini güllələyir. Bundan sonra yardım paylamaq adı ilə silahsız adamları bir yerə yığıb vəhşiliklə qətlə yetirirlər. Şişqaya, Böyük Məzrə və digər kəndlərin hər birində 500-ə qədər adamı iri damlara yığıb, diri-diri od vurub, quyulara doldurub üstünə daş tökürlər. Həyasızcasına etdiklərini etiraf edən ermənilərdən biri - Bayaziddən olan daşnak Vahram yazır: "Mən türk əhalisinə Basarkeçərdə heç nəyə fərq qoymadan olmazın divan tutdum. Hər bir döyüşdən sonra sağ qalanları yığışdırıb, diri-diri quyulara doldurub, üstlərindən bir ağır daş qoydum. Bütün kişiləri, qadınları və uşaqları diri-diri quylayaraq onlarla birdəfəlik qurtardım" [19, 249], [52, 273].

Azərbaycanın üzləşdiyi hadisələri - qonşu namərdliyi və erməni qəddarlığını anlatmaq baxımından Abbas Vəfadağlının kövrək hisslərlə qələmə aldığı "Göyçə kimi intizarda elim var"

toplusu olduqca dəyərlidir. Yurd həsrətli poetik misralar Vətən torpağının səmalarında qanad çalmağa həsrət durnaların fəryadına, harayına bənzəyir.

...Göyçə tək Göyçəsiz qalan Abbasam,

Məni bu çöllərə salanım haray - deyən şair elini-gününü cihada çağırır. "Dünyanın işi" adlı şeirində cəmiyyətdəki deformasiyaları, haqq-ədalət istədiyini, haqq deyə-deyə haqqının tapdanmasını car edən, gözə görünməz və ilahi qüvvələri, səcdəgahları, pirləri, övliyaları Heydər oğlu Xətaini, Xan Eyvazı, Qoç Koroğlunu, İsrafil Ağanı, Qaçaq Kərəmi, Qandal Nağını, Dəli Alını, Cəmşid bəyi, Abbasqulu bəy Şadlinskini... haraya çağıran şair bütün Azərbaycanı birliyə, vahid orqanizm kimi ayağa qalxmağa çağırırdı:

...Hərə bir dəst qoşun qurub özünə,
Millət düşüb nadanlığın nazına,
Vəfadağlı, baxma gəda sözünə,

Əlirza oğlu Heydər bəyə xəbər ver - misraları ilə ürəyindən keçənləri xüsusi olaraq vurğulayır. "Oyan, xan Eyvaz, oyan" şeirində zülmun asimana dayandığını dilə gətirən Abbas Vəfadağlı "Oyan, sazım, qılıncım, şöhrətim, şanım, oyan! Oyan, ana torpağım. Oyan, odlar diyarı – Azərbaycanım, oyan!" – deyə xalqı birliyə, qisasa cağırır. Türk dünyasını, tərəqqipərvər bəşəriyyəti köməyə səsləyir:

Oyan, ey qoca Şərqim, oyan, Əfqanım, oyan!
Qəflətlərə qapılan, oyan, Təbrizim, oyan!
Oyan, Altay, Tyan-Şan, oyan, Turanım, oyan!
Oyan, qoca Türküstan, yurdum, məkanım, oyan!

Parça-parça edilmiş Azərbaycanım, oyan! - deyə-deyə Mili, Muğanı, Lənkəranı, Naxçıvanı, Göyçəni, Ağbabanı, qədim İrəvanı, qoca Zəngəzuru... qılıncla, qalxanla, top-tüfənglə tapdanan namus və qeyrətimizin, Qarabağın, Laçının, Şuşanın və Kəlbəcərin xilasına çağırır.

A.Vəfadağlının kitabında toplanmış şeirlərindəki kədər

həm milli, həm də bəşəridir. Laqeydliyi, saymazlığı, manqurtluğu lənətləyən bu müqəddəs kədərin arxasında çağırış, əmr gözləyən fövqəladə bir qəhrəmanlıq, düşmənə aman verməyəcək bir cəsarət dayanır. Bu şeirlərin mayası Vətən məhəbbətindən yoğrulduğundan kədəri də, qəmi də, sevinci də əzizdir, doğmadır, müqəddəsdir. Şairin sabaha inamı da böyükdür. O, Azərbaycan uğrunda döyüşlərin doğma torpağımız olan Göyçənin və işğal altında olan Qarabağımızın yağılardan tezliklə təmizlənəcəyinə, həsrət çəkən səngimiş ocaqlarımızın doğma sakinlərini öz hərarəti ilə yenidən ağuşunda isidəcəyinə inanır.

Beləliklə, Zaqafqaziya xalqları arasında olan tarixi dostluğun və əməkdaşlığın köklərinin qədimliyi, onların qədim tarixə malik zəngin şifahi və yazılı ədəbiyyatlarında da öz bədii ifadəsini tapdığı barədə vaxtı ilə hər iki xalqın tanınmış sənətkarları, elm adamları tərəfindən həddindən çox elmi-publisist məqalələr, bədii əsərlər, teatr tamaşaları, dostluq əlaqələrini əks etdirən fikir və mulahizələrin yazılması məlumdur. Lakin yaşadığımız dəhşətlər, haqsızlıqlar göstərdi ki, abidə kitabımız "Dədə Qorqud"da deyildiyi kimi, "Qarı düşmən dost olmaz"mış. Zaqafqaziya xalqları arasında olan tarixi dostluğun və əməkdaşlığın köklərindən yazılanlar yalan, uydurma imiş.

III FƏSİL: İrəvan mədəni həyatında dircəliş: teatr truppalarınıın və peşəkar dram teatrının fəaliyyəti

1.İrəvanda teatr truppaları və peşəkar Dram Teatrının yaranması

Qədim Azərbaycanın Qarabağ-Zəngəzur, Təbriz-Ərdəbil, Xoy-Urmiyə, Bakı- Şirvan, Talış-Muğan, Quba-Dərbənd, Gəncəbasar, Borcalı, Naxçıvan və s. bölgələrində olduğu kimi, İrəvan xanlığı ərazisində də xalq oyun-tamaşaları geniş təşəkkül tapmışdır. Xüsusən, Novruz bayramlarında İrəvan şəhərinin ayrı-ayrı məhəllələrində qarəvəllilər, məsxərələr, "Kosa-kosa" oyunları keçirilmiş, yazda "Çütçü şumu", "Yel baba", "Qodu", "Güdül", sərt gələn qışı "qorxuzmaq" üçün "Kəvsəc" mərəkələri qurulub, mərasim oyunları keçirilib. Qızlar-gəlinlər dəstələrə bölünərək sözlü-nəğməli oyun-tamaşalarla qapı-qapı gəzib, meydanlarda halay tutulub. Məhərrləmlik ayında, xüsusən aşura günlərində məscidlərin həyətində, böyük və geniş meydanları olan məhəllələrdə şəbih tamaşaları gostərilib. Təbii ki, bütün bunlar, Azərbaycan peşəkar teatrının XIX əsrin ikinci yarısında Bakıda (10 mart, 1873), Tiflisdə (10 mat, 1873) və İrəvanda da (27 fevral 1882) təşəkkül tapmasına zəmin yaradıb. Peşəkar teatrın təşəkkül tapmasının başqa bir zəmini də İrəvan mahalında maarifçiliyin tərəqqisi ilə bağlıdır. İrəvanda olan mədrəsə təhsil ocaqları ilə yanaşı, yeni tipli məktəblərin açılması, təhsil proqramlarının daha müasir prinsip və formalarda olması, vaxtı ilə bu məktəblərdə oxumuş, xarici ölkələrdə ali təhsil almış müəllimlər, yuxarı sinif şagirdləri bilavasitə İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaranmasını iştirakları ilə zəruri etmişdir [166].

İrəvan Müəllimlər Seminariyasının tələbələri təhsil illərində elmi biliklərə dərindən yiyələnməklə yanaşı, ədəbi yaradıcılıqla məşğul olmağa da hədsiz üstünluk vermişlər.

Haşım bəy Vəzirovun "Cəfər, Əhməd və Karapet" mənzuməsi və "İnildəmə, əzizim!" adlı birpərdəli pyesi, irəvanlı Rzayev soyadlı bir tələbənin "Günahsız nigah" (bəzi mənbələrdə "Könülsüz nigah" kimi qeyd olunur) vodevili, digər seminaristlərin şeir və hekayələri İrəvan Müəllimlər Seminariyasının görkəmli pedaqoq və alimi Firudin bəy Köçərlinin bilavasitə tövsiyələri əsasında qələmə alınmışdı. F.Köcərli İrəvan gimnaziyasında dərs dediyi zaman şəhərin ictimai mühitində teatr sənətinin inkişafı üçün dəyərli işlərin görülməsini diqqətdən qaçırmayıb. Onun qayğısı ilə Yunis Nuri (Suleymanov) səhnə sənətinə bağlanmışdır. Haşımbəy Vəzirovun "Kəşkül" qəzetində kicik müxbir məqalələri də çap olunurdu. Onun İrəvan Müəllimlər Seminariyasının üçüncu sinfində oxuyarkən rus dilində qələmə aldığı "О татарских школах" - adlı məqaləsini Qafqaz Təhsil İdarəsinin orqanı "Сборник материалов для описанийа местностей и племен Кафказа" toplusunda çap edilmişdi və s.

1882-ci ilin əvvəllərində İrəvan gimnaziyasının müəllimi Məşədi İsmayılın şagirdləri ilə V.Mədətovun "Tamahkarlıq düşmən qazanır" pyesini tamaşaya hazırlamaqla İrəvanda peşəkar Azərbaycan teatrının təməli qoyulur. Əsəri ikinci dəfə üç ay sonra (2 aprel 1882-ci ildə), yeni ifaçılarla oynanılıb. Əsas rollarda müəllim və şagirdlərdən Mirzə Xəlil Hacıyev (Məmmədqulu), Rustəmxan Abbasquluxanov (Fəzli Mirzə), Məşədi İsmayıl (Hacı Fərəc) çıxış etmişlər. Hər iki hadisə İrəvanın mədəni həyatında mühim hadisə kimi qəbul olunub. Bu maarifçilik prosesinə ziyalıların çoxu qoşulub. Teatr prosesinin inkişafını diqqətdə saxlayan Məşədi İsmayıl 1883-cü il mart ayının 10-da Rzayevin bir pərdəli "Könülsüz nigah" didaktik pyesini tamaşaya qoymuşdur [165, 465].

İrəvan ziyalılarının ümumi Azərbaycan maarifi, elm və mədəniyyətinin inkişafında tarixi xidmətləri son dərəcə önəmli olmuşdur. Tiflis ədəbi mühitində formalaşan, Qori müəllim-

lərlər seminariyasında ədəbi-mədəni həyata uyğunlaşan Azərbaycan ziyalıları Naxçıvanda, Şuşada M.F.Axundovun "Xırs quldurbasan", "Müsyo Jordan və dərviş Məstəli şah" komediyalarının teatr tamaşalarını səhnələşdirir və bu tamaşalarda aktyor kimi çıxış edirdilər.

XIX əsrin sonlarında Eynəli bəy Sultanovun Naxçıvanda təşkil etdiyi "Ziyalılar cəmiyyəti" (1882) və "Müsəlman incəsənəti və dram cəmiyyəti" (1883) bu qədim diyarın ədəbi-mədəni həyatında irəliləyişlərə təkan verdi. Bu inkişaf quberniyanın aparıcı mədəniyyət mərkəzlərindən sayılan İrəvan şəhərindəki ziyalıları də hərəkətə gətirir, teatr truppalarının yaradılmasına sövq edirdi. M.F.Axundovun adı çəkilən komediyalarının, digər sənətkarların əsərlərinin tamaşaya qoyulmasına mühim əhəmiyyət verilirdi. İrəvan müəllimlər seminariyasında oxuyan tələbələr tərəfindən 1887-ci ildə tanınmış maarifci F. Köçərlinin rəhbərliyi ilə bədii özfəaliyyətin bir forması kimi xalq teatrının canlandırılması yolu ilə qədim mərasim və ayinləri dirçəltmək üçün lazımi təşəbbüslər göstərilirdi. Sadə süjetə malik, dini motivlər üzərində qurulan "Şəbih"lər, "Kosa-kosa", "Tənbəl qardaş", "Usta-şagird", "Xıdır Nəbi", müsəlman aləmində islamçılığın, xüsusən də türkdilli xalqların təntənə ilə qeyd etdiyi ayin və bayramlardan "Novruz", "Qurban" və "Orucluq" bayramları kimi "Meydan tamaşaları"nın, həmçinin, oxuçu kütləsinə bədii yaradıcılığı ilə tanınan peşəkar dramaturqların əsərlərinin repertuarlarında kiçik səhnəciklər, vodevillər və meydana gələn yeni tipli xalq teatrlarına [23, 806] böyük diqqət yetirilirdi.

İrəvanda Azərbaycan teatrının yaranması və inkişafı görkəmli ədəbiyyatşünas Firudin bəy Koçərlinin adı ilə bağlıdır. O, təkcə tamaşaların hazırlanmasında deyil, aktyor oyununa, teatr tənqidinə dair məqalələri ilə də kollektivə yaxından köməklik göstərirdi. Onun "Yeni əsr" (erməni dilində "Nor dar") qəzetinin 3 iyun 1895-ci il tarixli sayında erməni

dilində dərc olunan “Tatar (Azərbaycan) komediyası” adlı məqaləsində milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundovun komediyalarından və həmin əsərlərin teatrlarımızın inkişafındakı əvəzsiz rolundan söhbət açılırdı. S.S.Axundovun təbirincə desək, xalqı tərəqqiyə çatdırmaq üçün, ilk növbədə, “Əvam kütlənin gözünü açmaq gərəkdir, bunun üçün iki yol vardı: mətbuat və teatr.” Həcəf bəy Vəzirov hər iki yoldan baçarıqla istifadə etməklə xalqına xidmət göstərmişdi.

“Murc” (Cəkic) məcmuəsi “Müxtəlif xəbərlər” şöbəsində dərc etdirdiyi “İrəvanda türk tamaşası” sərlövhəli məqalədə 1896-cı il dekabr ayının 8-də İrəvan şəhərində Azərbaycan dilində ilk teatr tamaşasının M.F.Axundovun “Misyo Jordan və Dərviş Məstəli şah” komediyası ilə başlanmasını xəbər verməklə İrəvanda Azərbaycan teatrının yaranma tarixi bilərəkdən gecikdirilmiş, qəsdən yanlış məlumat verilmişdir. Belə ki, 1881-ci il, martın 16-da İrəvanda şəhər məktəbinin müəllimi Məşədi İsmayıl Kazımzadənin təşəbbüsü və təkidi ilə yazılmış və tamaşaya qoyulmuş “Tamahkarlıq düşmən qazanır” tamaşası sonralar Zaqafqaziyanın müxtəlif şəhərlərində ayrı-ayrı vaxtlarda əvvəlki adı ilə deyil, “Bacı və qardaş” adı ilə oynanılmışdır. 1900-cu ildə isə, Xəlilovun naşirliyi sayəsində İrəvanın Edilson mətbəəsində “Bacı qardaş” əsəri çap edilmişdir. Yanlışlıq yaradan bu yalançı məlumatları İsrafil Məmmədov faktlar əsasında təkzib etmiş, tutarlı sənədlərə əsaslanaraq “Ədəbiyyat və incəsənət” qəzetinin 1983-cü il, 18 noyabr tarixli nömrəsində dərc olunmuş məqaləsində cavab vermişdir: “Yerevan Azərbaycan teatrı 1886-cı ildə deyil, 1881-ci ilin sonu, 1882-ci ilin əvvəllərində Vasaq Mədətovun “Tamahkarlıq düşmən qazanır” pyesinin tamaşası ilə yaranmışdır” [166, 5].

Azərbaycanlı qadın aktyorların olmadığından səhnədə qadın rollarının kişilər ifa etmişlər. Tamaşada əsasən, azərbaycanlılar, ermənilərin, bir neçə nəfər də rusların iştirak etdiyi

gostərilir (“Murc”, 1896, № 12). “Nordar” (“Yeni əsr”), (1896, 17 dekabr, № 233) qəzetinin “İncəsənət və ədəbiyyat” bölməsində dərc olunan “İrəvanda ilk türk tamaşası” məqaləsi də bu mədəni hadisənin işıqlandırılmasına - İrəvanda Azərbaycan teatr həyatının canlanmasına həsr olunmuşdur: “Dekabrın 8-də İrəvan türklərinin (Azərbaycanlılarının) teatr tamaşasının ümumi xeyriyyə cəmiyyətinin başlanğıcı hesab etmək olar. Dünən ilk dəfə türk teatr həvəskarlarının kiçik bir qrupu şagirdlər arasında heç bir milli fərq nəzərdə tutmadan yerli gimnaziyanın yoxsul şagirdlərinin mənafeyinə türk dilində və türk həyatından götürülmüş ilk tamaşa verdilər. Tamaşaya qoyulan, afişada göstərildiyi kimi, bu tamaşa M.F.Axundovun “Misyo Jordan” komediyası idi” [169, 18]. Məqalədə, qadın rollarının oğlanlar tərəfindən oynanıldığı, ümumən başqa obrazların necə təsir bağışlaması, səhnə mədəniyyəti barədə söhbət açılır.

Qeyd edək ki, XIX əsrin sonlarına doğru M.F.Axundov ədəbi məktəbini davam etdirən bir pliada istedadlı dramaturqların meydana gəlməsi, teatr həyatının canlanması və tərəqqisi ilə əlaqədar repertuara yeni-yeni əsərlərin çıxması İrəvan ədəbi ictimaiyyətinin diqqətini cəlb edirdi. Səhnəyə qoyulan əsərlər dərhal əks-səda verir, barəsində mülahizələr söyləyir, yaxşısı təqdir, pisi tənqid edilirdi.

Tədqiqatçılar XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının realist istiqamətdə inkişafında dövri mətbuatın müsbət rolunu dönə-dönə vurğulamışlar. Akademik Fuad Qasımzadənin qeyd etdiyi kimi, “Əkinçi” və “Kəşkül”un nəşri Azərbaycan realist ədəbiyyatının inkişafına mühim təsir göstərdi. “Əkinçi”nin nəşri ilə Azərbaycanda realist ədəbi hərəkat getdikcə yayılmağa başladı. XIX əsrin 80-ci illərində bu ədəbi hərəkatın Rəşid bəy Əfəndiyev, Eynəli bəy Sultanov, Vasaq Mədətov, 90-cı illərində isə Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Mərimanov, Haşım bəy Vəzirov, Suleyman

Sani Axundov, Cəlil Məmmədquluzadə kimi istedadlı nümayəndələri yetişdi" [110, 388].

Tədqiqatçı alim Sadıq Şükürov "Sovet Ermənistanı" qəzetinin 6 avqust 1981-ci il sayında Firudin bəy Köçərli ilə Qabriel Sundukyan arasındakı münasibətlərdən söhbət açarkən uzun müddət "ədəbi ictimaiyyətin diqqətindən yayınan əhəmiyyətli bir məsələnin aydınlaşdırılmasından - "Qabriel Sundukyanın Firudin bəy Köçərliyə məktubu"na cavab olaraq yazırdı: "Puşkin, Lermantov, Şevçenko və başqa rus şairləri ilə yanaşı, Mirzə Şəfinin əsərlərini də alman dilinə tərcümə edən Fridrix Fon Bodenştet 1871-ci ildən başlayaraq Mirzə Şəfi Vazehin şeirlərini öz adına çıxdı. Avropa ədəbiyyatşünasları arasında ikitirəlik yaratdı. Fransız F.Maker bu məsələni aydınlaşdırmaq üçün 1912-ci il, fevralın 15-də dostu Sundukyana aşağıdakı məzmunda bir məktub göndərdi: "Mənim əziz və hörmətli ustadım, icazə verin Sizdən ədəbi mühitdə olan bir məlumat xahiş edim. Şübhəsiz, almaniyalı F.Bodenşdet və onun ... "Mirzə Şəfinin nəğmələri adlandırdığı poemalar haqqında eşitmisiniz? 1840-1850-ci illərdə Tiflisdə Mirzə Şəfi adlı bir şair həqiqətən olmuşdurmu? Yaxud onun haqqında eşitmisinizmi? Bizim burada onun haqqında çox az məlumatımız var. Ondan bəhs edən muəlliflərdən bəziləri deyirlər ki, Bodenşdet Mirzə Şəfinin şeirlərini tərcümə etmişdir. Bəziləri isə bildirirlər ki, bu şeirlərin hamısını Bodenşdetin özü yazmışdır. Mirzə Şəfi adı isə tamamilə xəyaldır. Mən çox tərəddud icərisindəyəm, bu qaranlıq məsələnin işıqlandırılması üçün Sizin böyük xeyirxahlığınızdan bir az kömək gözləyirəm. Əziz və hörmətli ustad, mənim səmimi hörmət və hərarətli təşəkkürümü lütfən qəbul edin" [179].

1937-ci ildən indiyədək ədəbiyyatşünasların dönə-dönə xatırladıqları bu məktuba cavab verib-vermədiyi aydın deyildir, lakin F.Köçərlinin yeni tipli məktubu bu mühim məsələni aydınlaşdırır. F.Köçərli "Tiflisski listok" qəzetinin 1912-ci il

29 mart tarixli 72-ci nömrəsində “Redaksiyaya məktub” rubrikası altında gedən bir məqalədə Q. Sundukyanın ona göndərdiyi məktubu çap etdirmişdir. F.Köçərli yazır: “Martın 10-da mərhum Sundukyandan aşağıdakı məzmunda məktub aldım: Hörmətli cənab Firudin bəy, icazə verin, Sizi bir iş üçün narahat edim, əziyyət olsa da mənə bildirin görüm, Sizə Mirzə Şəfi adlı şair məlumdurmu? Onun çap olunmuş şeirlər kitabı varmı? Əgər varsa, həmin kitabı haradan əldə etmək olar? Bu məlumatı parisli professor bilmək istəyir. Çalışıram onun xahişini yerinə yetirim və bu sahədə Sizə borclu olaram” [179].

Mirzə Şəfi Vazehin tədqiqatçısı Akif Bayramov “Mirzə Şəfi Vazehin ədəbi irsi” monoqrafiyasında XIX əsrin 40-cı illərində Mirzə Şəfinin Tiflisdə keçmiş tələbəsi M.F.Axundovun köməyi ilə Tiflis qəza məktəbində Azərbaycan və fars dilləri üzrə müəllim işləməsi, həyatının zəngin hadisələrlə dolu olduğunu, burada azərbaycanlı, rus, gürcü, erməni və xarici ölkə ziyalıları ilə tanışlığından, A.A.Bakıxanov, M.F.Axundov, X.Abovyan və başqaları ilə tez-tez görüşdüyü, söhbət etdiyi müasirlərindən olduğunu xüsusilə qeyd edir. X.Abovyanın Mirzə Şəfiyə xüsusi hörmət bəslədiyini, hər iki ədibin bir-birilə yaxın dost və məsləkdaş olduqlarını F.Bodenştedin onların dostluğu barədə (M.Şəfi və X.Abovyanın dostluğundan söhbət gedir) özünün 1950-ci ildə nəşr etdirdiyi “Şərqdə min bir gün” əsərinin 163-cu səhifəsində” [40] qeyd etmişdir ki, bu da bir çox qaranlıq məqamlara aydınlıq gətirir.

F.Köçərlinin İrəvanda Azərbaycan teatrının yaranmasında böyük əməyi olub. Sənətşünaslıq doktoru Sabir Rzayev isə “İrəvan teatrının keçmişindən” adlı məqaləsində ilk tamaşanın 1886-cı ildə göstərildiyini, əsərin isə M.F.Axundovun “Müsyo Jordan və dərviş Məstəli şah” komediyası olduğunu vurğulayaraq yazır: “Azərbaycan dilində tamaşa oynamağa mane olan murtəce qüvvələr bu səhnələri təşkil edənlərə qarşı da qızğın mübarizıyə girişirdilər. Firudin bəy Köçərli öz tələbələri

ilə bir növ gizli teatr fəaliyyətinə başlayır.

Bu kicik qrup V.Şekspirin, F.Şillerin dramaturgiyasını, M.F.Axundovun, N.B.Vəzirovun və başqa yazıçıların yaradıcılığını öyrənir. Onların teatrsız keçən bu on ili hec də hədər getmir. Bu müddətdə F.Köçərli dramaturiji ədəbiyyatı dərindən öyrənir, bir sıra dəyərli tədqiqat əsərləri yaradır. Onun tələbələri isə, yeni tamaşaların təşkil olunması ilə məşğul olurlar. Bu tamaşa 1896-cı il dekabrın 8-də İrəvanın Canpoladov qardaşlarının klubunda göstərilir. Bu vaxt artıq F.Köçərli Qoriyə qayıtmışdı. Bu həmin tamaşa idi ki, on il əvvəl məktəblilər tərəfindən oynanılmışdı.

"Musyo Jordan və dərviş Məstəli şah" bu dəfə kicik məktəb tamaşasından fərqli olaraq əməlli-başlı teatr tamaşası idi" [114, 88].

Beləliklə, deyilənlərdən bu qənaətə gəlinir ki, İrəvanda Azərbaycan teatrının yaranması haqda Hrayr Hovagimyanın yazdıqları heç bir tarixi mənbəyə əsaslanmadığından inandırıcı deyildir.

İrəvan Azərbaycan teatrının yaranması ilə bağlı "Ədəbiyyat və incəsənət" qəzetinin 1983-cü il 18 noyabr tarixli sayında [59,182] tarixçi alim İsrafil Məmmədovun dərc olunan məqaləsində göstərildiyi kimi, İrəvan Azərbaycan teatrı 1886-cı ildə deyil, 1881-ci ilin sonu, 1882-ci ilin əvvəllərində Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanar" pyesinin tamaşası ilə yaradılmışdır [81, 465].

İrəvan Dövlət Azərbaycan Dram Teatrı milli səhnə sənətimizin tarixi salnaməsində xüsusi yer tutur. Özünun yaradıcılıq və üslub forması olan, mürəkkəb ziddiyyətli bir proses keçən İrəvan teatrını iki mərhələdə təqdim edib öyrənmək lazımdır. Onun yaradıcılığının birinci mərhələsi həvəskarlıq, ikinci mərhələsi isə kollektivin İrəvan Dövlət Azərbaycan Dram Teatrı kimi yaradıcılıq fəaliyyəti prosesi kimi səciyyələndirilir. İrəvan xanlığının ictimai-siyasi və mədəniyyət

mərkəzi olmuş tarixi İrəvan şəhəri XIX əsrdə azərbaycanlıların ən iri mədəniyyət mərkəzlərindən idi. 1870-ci illərdə burada türk-rus dillərində məktəblər açılmış, yaradıcılıqla məşğul olan qələm sahiblərinin şeir-sənət məclisləri, musiqi axşamları keçirilmişdir.

Xalqımızın səhnə sənətinin mühim qollarından biri olan bu teatr meydana gəldiyi vaxtdan bu günədək mütərəqqi dünya ədiblərinin, eləcə də Azərbaycan və qonşuluqda yaşayan xalqların dramaturgiyasının ən gözəl nümunələrinin alovlu təbliğatcısı kimi böyük şöhrət qazanmışdır.

Azərbaycan-erməni teatr əlaqələri tarixində ər-arvad: Stepan və Alma Safrazyanlar hər iki xalqın incəsənətinin, xüsusilə teatr sənətinin həm yaxınlaşması, həm də ictimaiyyət arasında geniş yayılmasına səy göstərmişlər.

Qeyd edək ki, M.F.Axundovun məşhur "Lənkəran xanının vəziri" komediyası Azərbaycan teatrının tarixində bəzi mənbələrdə "Sərab xanının vəziri" adı ilə verilmişdir bunun da səbəbi vardır. Teatrşunas Əli Vəkil özünun "Azərbaycan-erməni teatr əlaqələri" monoqrafiyasında gostərir ki, "Azərbaycan teatrının salnaməsi"ndə dərc olunmuş bir məktub bu məsələyə tam aydınlıq gətirir: "Azərbaycan teatrının salnaməsi" (67, 34) kitabında qeyd olunur ki, Azərbaycan-erməni teatr əlaqələri tarixində ər-arvad Stepan və Alma Safrazyanların xidmətləri var. 1959-cu ildə Yerevanda Haypehrat nəşriyyatında çapdan çıxmış "Ədəbi Ermənistan" məcmuəsində (№2, 182) Stepan və Alma Safrazyanların teatrdakı fəailiyyətləri barədə oxuyuruq: "Bu görkəmli teatr fədailəri ölkədən-ölkəyə, şəhərdən-şəhərə dolaşaraq tamaşalar vermişlər" [196]. "M.F.Axundov 1870-ci il dekabrın 7-də Tehranda Mirzə Yusif xana yazırdı: "Əziz tərcüməçiyə deyiniz ki, "Hekayəti-xani Sərab"ı hər yerdə "Hekayəti-xani-Lənkəran" yazsın. Çünki mətbəədə mənim xəbərim olmadan Lənkəranı yanlış olaraq Sərab, deyə çap etmişlər. Sərab yanlışdır,

Lənkərandır. Sərabın yanında dəniz yoxdur.” Şuşada (1880) on beş nəfərdən ibarət bir truppa təşkil edərək “Bacı və qardaş” klubunda Axundovun “Sərab xanının vəziri” pyesi tamaşaya qoyulmuşdur [196, 8].

1884-cü ildə Azərbaycan dilini erməni dilindən yaxşı bilən Stepan və Alma Tiflisdə Arteruni teatrı binasında yerli azərbaycanlı həvəskar ziyalıların qarşısında bir sıra tamaşalar hazırlayıb səhnəyə çıxarmışlar. Həmin truppanın repertuarına Vasaq Mədətovun Azərbaycan dilində yazdığı “Fətəli şah” və “Qırt-qırt” pyeslərini oynamışlar. Onlar qastrol tamaşalarını yalnız Zaqafqaziya çərçivəsində deyil, 1889-cu ildə Təbrizdə və Tehranda qastrol zamanı M.F.Axundovun “Hacı Qara” komediyası, “Sərab xanının vəziri” və “Hacı Qara” komediyası, V.Mədətovun “Qırt-qırt” və “İki qardaş” əsərlərini tamaşaya qoymuşdur. Bu əsərlərin tamaşalarına Təbriz hakimi Əmir Nizamla birgə xarici dövlətlərin konsulları da baxmışlar [196, 8]. Firudin bəy Köçərlinin rəhbərliyi və rejissorluğu sayəsində Sultanməcid Qənizadənin “Dursunəli və Ballıbadı” (7 mart 1885), M.F.Axundovun 1888-ci ilin 21 martında təkrar quruluşda “Sərgüzəşti-vəziri xani-Lənkəran”, “Müsyo Jordan və dərviş Məstəli şah” (4 aprel 1890), “Hacı Qara” (20 oktyabr, 1894) əsərləri səhnəyə qoyulmuşdur [81,8]. Teatr həvəskarlarının 1897-ci ildə oynanılan tamaşası barədə erməni dilində çıxan “Nor-dar” qəzeti yazırdı: “Dekabrın 8-də İrəvanda türk teatr tamaşasının və ümumi xeyirxahlıq ideyasının yekun dövrü hesab olunmalıdır. Dünən birinci dəfə olaraq türk artistlərinin xırda bir qrupu İrəvan gimnaziyasının yoxsul şagirdlərinə kömək üçün öz həyatlarından bəhs edən ilk tamaşasını verdi: Mirzə Fətəli Axundzadə - “Müsyo Jordan və dərviş Məstəli şah.” İştirak edənlərdən biri də Yunis Nuri idi.”

Azərbaycanın ədəbiyyatından, mədəniyyətindən, incəsənətindən bəhrələnə-bəhrələnə özlərinin mütərəqqi, inkişaf

etmiş xalq olduğunu nümayiş etdirməyə səy göstərən ermənilər fürsət düşdükcə, öz namərdliklərindən əl çəkməmişlər, üzdə özlərini dost, humanist insan kimi göstərmiş, arxadan daima zərbə vurmuşlar. Bu ədəbi mühitlərin jurnalist, naşir, şair və publisistləri ilə sənət, əqidə dostluğu edən beynəlmiləlçilərin sıraları sıxlaşırdı. Belə sənətkarlardan biri də əsərlərini Azərbaycan və erməni dillərində yazan, şair və dramaturq kimi tanınan V.H.Mədətov Nəzmi (1845-1914) idi.

O, M.F.Axundovun təsiri altında erməni hərfləri ilə Azərbaycan dilində yazdığı "Qırt-qırt", "Tamahkarlıq düşmən qazanır" və "Gözə görünməyən şal" adlı pyeslərini yazıb çap etdirmişdir. Şair və dramaturq kimi tanınan V.H.Mədətov "Molla Nəsrəddinin lətifələri"ndən doxsan dordünü erməni dilinə çevirmişdir. Azərbaycan müəllimlərləri və erməni ziyalı qadınlarının köməyi ilə "Qırt-qırt" əsəri Dilicanda oynanılmış və toplanan pul M.Ə.Sabirin əsərlərinin nəşrinin yardımına yönəldilmişdir. Teatrşunas Cabir Rzayev "Ermənistanda Azərbaycan teatrı tarixindən səhifələr" məqaləsində yazır: "1884-cü ildə İrəvan gimnaziyasının müəllimləri, məşhur maarifçi və ədəbiyyatşunas Firudin bəy Köçərlinin rəhbərliyi altında İrəvanda birinci dəfə olaraq Azərbaycan dilində tamaşa verilir."

Bütün bunlara baxmayaraq İrəvanda Azərbaycan teatrının nə vaxt yaranması haqqında müxtəlif mülahizələr vardır ki, onları iki qrupa ayırmaq olar. 1. tarixi həqiqəti təhrif etmək. 2. onlar barədə dəqiq məlumat vermək qənaətini yaratmaq.

Əslində, İrəvan Azərbaycan teatrının necə yaşı var? Bu teatr nə vaxt, necə yaranıb? Bu suallara H.Hovagimyanın "Yunis Nuri" (Yerevan, 1962), S.Rizayevin "Ermənistanda Azərbaycan teatrı" (Bakı, 1963) kitabçalarında yetərincə cavab verilmişdir. Mətbuat vaxtında erməni və rus dillərində çap olunmuş bu kitabçaların əhəmiyyətini vermişdir. İsrafil Məmmədov "Teatr tariximizdən səhifələr" (Bakı, Qismət,

2009) kitabında oxuçulara maraq doğuran faktları göstərərək yazır: “Bəs onda bu barədə bir daha söhbət açmağa ehtiyac varmı? ” sualına cavab verərək, qeyd edir ki, bəli var! Ona görə ki, Ermənistanda yaşayan azərbaycanlıların (təkcə İrəvan quberniyasında XIX əsrin sonunda 313.178 nəfər idi) ictimai fikir, mədəniyyət tarixinə dair əsərlərin əksəriyyətində olduğu kimi, teatr tarixinə aid bu kitabçalarda mühim faktlar təhrif olunmuşdur. Həmin faktlar son zamanlar çapdan çıxan əsərlərdə, qəzet və jurnal məqalələrində (Qobustan, № 4, 1974; Ermənistanda Azərbaycan və kürd teatrları tarixindən, Yerevan, 1976; Bir teatrın üç aktyoru.Yerevan, 1977; Sovet Ermənistanı 29 noyabr, 1977; Yunis Nuri. Yereavan, 1980; Azərbaycan Sovet Ensklopediyası, 5-ci cild; Azərbaycan Sovet Ensklopediyası, 3-cu cild;) olduğu kimi, təkrarlanmaqla həqiqətə özgə don geyindirməyə çalışmışlar. Bu təhriflərin köku Ermənistanda Azərbaycan teatr tarixinə aid bəzi qondarma faktları erməni oxuçusuna təqdim edən Hrayr Hovagimyanın yuxarıda adı çəkilən kitabçasında qoyulmuşdur: M.F.Axundovun “Müsyo-Jordan və Dərviş Məstəli şah” komediyası ilk dəfə İrəvanda tamaşaya qoyulmuşdur; Ermənistanda Azərbaycan teatrının tarixi həmin tamaşadan (8 dekabr 1886-cı il) başlanır; F.Köçərli 1884-cu ildə İrəvan gimnaziyasının müəllimləri idi; C.Məmmədquluzadə 1898-1903-cü ildə İrəvanda yaşamışdır; Yunis Nuri bu teatrın banisidir və 1905-ci ildə “Şərqi-Rus” qəzeti və “Molla Nəsrəddin” jurnalını yaymaqla o, bolşevik təşkilatının tapşırıqlarını yerinə yetirirdi; H. Ərəblinski ilə Göyərcin xanım 1906-cı ildə İrəvana qastrola gəlmişlər və s.” [129, 13].

İrəvanda Azərbaycan teatrının tarixinin qəsdən saxtalaşdırılması erməni Hrayr Hovagimyan “Ermənistan Azərbaycan Teatrı tarixindən səhifələr” adlı məqaləsində də davam etdirilir: “80-ci illərin sonlarından başlayaraq, İrəvanda azərbaycanlı əhali arasında mütərəqqi ideyalar tədricən

güclənir. Getdikcə ziyalılar yaranır, kitab və mətbuat şəhərə daha çox daxil olur. Teatr da şəhər müəllimlərlərini maraqlandırır. Onlar Azərbaycanın müxtəlif yerlərində ana dilində verilən tamaşalar haqqında tez-tez xəbər tutur, ruhlanır və öz qüvvələri ilə tamaşa verməyi qərara alırlar. 1884-cü ildə İrəvan gimnaziyasının müəllimi, məşhur maarifci və ədəbiyyatşünas Firudin bəy Köçərlinin rəhbərliyi altında birinci dəfə olaraq Azərbaycan dilində tamaşa verilir. 1896-cı ilin dekabrın 8-də İrəvanda Azərbaycan dilində tamaşa verilir" [5, 183].

Hovagimyan İrəvanın əhalisinin o dövrdə 75-80 faizinin azərbaycanlılar olduğunu, ziyalılarının az olduğunu təhrif edir və İrəvanda Azərbaycan Teatrının yaranması, orada gostərilən ilk teatr tamaşası haqqında bilərəkdən qeyri-dəqiq məlumat verir. Obyektiv mənbələr Hovagimyanın yalanını üzə çıxarır [5, 184].

1884-cü ildə İrəvan gimnaziyasının müəllimi Frudin bəy Köçərlinin rəhbərliyi altında verilən tamaşalar haqqında yaxından məlumatı olan, "sonralar 1898-1903-cü illərdə İrəvanda yaşayan yazıçı Cəlil Məmmədquluzadə azərbaycanlı teatr həvəskarlarını çox ruhlandırırdı" [190] [114]. Həmin sözlərin müəllifi öz tədqiqatında 1896-cı ildə M.F.Axundovun İrəvanda göstərilən "Müsyo Jordan və dərviş Məstəli şah" komediyası haqqında da oxuçulara məlumat verir: "M.F.Axundovun dramaturgiyası istər Azərbaycanda (1873), istərsə də Ermənistanda (1896) Azərbaycan teatrının yaranması işində əsas olmuşdur" [195, 52]. Əslində, həmin komediya on il əvvəl İrəvanda oynanılmışdır. "Müsyo Jordan və dərviş Məstəli şah"ın 1825-ci ildə Peterburqda ev tamaşalarından birində tamaşaya qoyulması, 1877-ci ildə İranda, 1883-cü ildə Naxçıvanda, 1885-ci ildə Tiflisdə oynanılması [150, 13] məlum faktdır.

M.F. Axundovun anadan olmasının 150 illiyi ilə əlaqədar olaraq 1962-ci ildə Ermənistanda da "Bilik" Cəmiyyəti

tərəfindən çap edilən “M.F.Axundov və ermənilər” adlı bir monoqrafiyanın müəllifi Avetis Şahsuvaryan qeyd edir ki, “Təəccüblü də olsa, hələ indiyədək 1850-ci ildə Peterburq universitetini bitirib Tiflisə qayıdan və M.S.Voronsovun dəftərxanasında tərcüməçi vəzifəsində çalışan dramaturq Qabriellə eyni dəftərxanada tərcüməçi işləyən Mirzə Fətəli Axundovun qardaşlıq və dostluq münasibətləri barədə istedadlı dramaturqların həyat və yaradıcılığından ətraflı söhbət açılmır. M.F.Axundov Q.Sundukyanla Stepanos Nersesyanla birgə Tiflisdəki erməni seminariyasında müəllim işləyirdilər. Müəllif bunların dostluğu barədə digər erməni ədəbiyyatşunaslarının əsərlərində də söhbət açılmadığını qeyd edir. Göstərir ki, Mirzə Fətəlinin komediyalarını Q.Sundukyan “Qafqaz” qəzetinin səhifələrində rus və Azərbaycan dillərində oxumuş, bu səhnə əsərləri erməni dramaturquna ilham vermişdir. Onun da əsərləri Azərbaycan yazıçılarının diqqətini cəlb etmiş, komediyalarından “Axşam səbri xeyir olar” Sultanməcid Qənizadə tərəfindən, “Pepo” isə Əbdürrəhim bəy Haqverdiyev tərəfindən tərcümə edilmiş və uzun müddət Azərbayan teatrlarının səhnələrində oynanılmışdır. Bu əsərlərdəki əsas rollarda – Məşədi Şəban rolunda səhnəmizin peşəkar aktyoru Cahangir Zeynalov çıxış etmişdir. “Xatabala” əsərinin əsas rolunu – İsa rolunu Ermənistanın əməkdar artisti Yunis Nuri məharətlə oynamışdır.”

Teatr tamaşalarına artan maraq İrəvan ziyalılarının diqqətindən yayınmamış, İrəvanskilər, Pənah xan Makinski, Əli xan Makinski, Qazıyev qardaşları və başqalarının maddi-mənəvi dəstəyi ilə bu sahəyə meyl göstərənlərin sayı artmışdı. Səhnədə 1890-cı ildən rejissor və aktyorluq edən, aparıcılığı ilə əlaqədar olaraq istedadı ilə başqalarından fərqlənən Yunis Nuri ilk dəfə 1897-ci ildə səhnəyə çıxaraq teatrın canlanmasını, göstərilən tamaşaların il ərzində əvvəlkilərlə müqayisədə sayının daha çox olmasına müvəffəq olur. Dini xürafatın,

nadanlığın, fitnəkarlığın mövcud olduğu bir şəraitdə İrəvan ziyalıları, xüsusən də Pənah xan Makinski səhnədə oynayanları gözlənilən hər cür təhlükədən qorumaq üçün tamaşaların oynanılmasını öz sarayında təşkil edir. Həmin dövrdə İrəvanda göstərilən tamaşaların əksəriyyəti "Canpoladovlar qardaşlarının teatrı" adlanan, nisbətən əlverişli və geniş binada göstərilirdi. Mətbuat səhifələrində, tamaşaların proqram və afişalarında bu binanın adı "Canpoladov teatrı", "Canpoladov klubu" kimi də yazılıb. Klub böyük qardaş İsay Canpoladovun təşəbbüsü ilə inşa edilib" İrəvan şəhərinin tanınmış ziyalıları hörməti yüksək tutulan izzət və şərəf sahibləri Pənah xan Makinski, Əli xan Makinski, Qaziyev qardaşları, Təkinskilər, İrəvanskilər və başqaları İrəvan Müəllimlər Seminaryasının müəllim və yuxarı sinif şagirdləri ilə birlikdə tamaşalar hazırlayıb oynanılmasında İrəvanda Milli teatrın tərəqqisi üçün müəyyən faydalı işlər görmüşlər. Yunis Nuri teatr tamaşalarının hazırlanıb oynanılmasında, həm də bir rejisor kimi əlindən gələni etmişdir. 1903-cü ilin yayında Pənah xan Makinskinin evində onun ailəsi üçün məxsusi hazırlanıb göstərilən "Qırt-qırt" tamaşası xan evinin teatr mərkəzinə çevrildiyindən xəbər verir. 1903-cü ilin payızında teatr həvəskarları Yunis Nurinin rəhbərliyi ilə Kərim Əhmədov, Mirzəli, Qənadlı Cabbar, Səfər Əhmədov. Huseyin Salmanov kimi fədakarlar, sonralar Rza Şeyxzadə, Mustafa Rəcəbov, Məcid Rəcəbov, Mehdi Kazımov, Asəf bəy Şəfiyev, Məmmədağa Şahtaxtlı (Şahtaxtinski, Ayaqçı Sadıq, Məşədi Huseynoğlu və başqaları da truppanın tamaşalarında çıxışlar etmişlər. Yunis Nuri "şeytan əməli" ilə məşğul olduğuna görə xürafatcılar tərifindən döyülüb, ciddi zərbələr alsa da sənətə sevgisi azalmamışdır.

2.İrəvanda XX əsrin əvvələrində teatr tamaşaları

XX əsrin əvvəllərində İrəvanda teatr tamaşaları "İçtimai yığnaq" şəklində "Ziyalılar klubu" adlandırılan Canpoladov qardaşlarının teatr binalarında göstərlirdi. 1913-cü ildə Əli Rəhimzadə (Məhzun) və Əsgər Axundov rəsmi dairələrdən icazə alaraq "İrəvan islam dram şirkəti"ni yaratmışdılar. "Şirkət"in turuppasının tərkibibdə Mir Abbas, Əli Məhzun, Asif bəy Şəfibəyov, Mehdi Kazımov, Məcid Rəcəbov xüsusilə fəallıq göstərmişdilər. "İrəvan islam dram şirkəti" aprel ayının 29-da Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" və "Kimdir müqəssir?" kicik həcmli pyeslərini, mayın 16-da Əlirza Huseynzadənin "Millətpərəstlər", "Sevgili övlad" dramlarını, oktyabrın 18-də Haşım bəy Vəzirovun "Döymə qapımı, döyərlər qapını" məsxərəsini, noyabrın 15-də osmanlı ədibləri Huseyn Bədrəddin və Məhəmməd Rüfətin "İbrahim bəy, yaxud istibdad qurbanı" faciəsini tamaşaya qoymuşlar. Tamaşada əsas rollarda Cabbar Əsgərzadə, Səid Əkbərov, Əli Məhzun və Cəlal çıxış etmişdir... İrəvandakı teatr qüvvələrinin "Şirkət"in ətrafında cəmləşmələri ümumilikdə, şəhərin teatr prosesinə canlanma verimişdir. "İrəvan islam dram şirkəti"nin adı müxtəlif mətbuat səhifələrində "İrəvan dram şirkəti", "Şirkət" kimi də qeyd olunub. Canpoladov klubunda Jan Batist Molyerin "Zorən təbib" (24 yanvar), Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (31 yanvar), Rza Quluzadənin "Pul, yoxsa Allah"? (16 mart) tamaşaları göstərilib. Müxtəlif aktyor-rejissorların quruluşlarında həvəskar aktyorlar Mirmahmud Kazımovskinin "Daşım-daşım", tərcümə edilmiş "Mən ölmüşəm", "Sevgili övlad" vodevillərini tamaşaçılara təqdim edilib. Nümayiş etdirilən tamaşaların elanları İrəvanda nəşr olunan "Lək-lək" satirik jurnalının (22 fevral 1914-cü il) 1-ci sayının elanlar bölməsində şəhər əhalisinə bildirilirdi ki, "Fevralın 27-də İrəvan İslam Dram şirkəti aktyorları tərəfindən

müdiri Əli Məhzun cənablarının şərəfinə olaraq 5 pərdəli "Qayıt nər" faciə əsəri tamaşaya qoyulacaq. Biletlər indidən "Tofiq" mehmanxana-sında və "Ülfət" qəhvəxanasında satılır. Təfsilat afişalardan məlum olar." Burada formalaşan truppada Huseyn Salmanov, Məmmədağa Şahtaxtlı, Rza Şeyxzadə, Mirzə Mustafa Rəcəbov, Asəf bəy Şəfibəyov, Kərim Əhmədov, Əli Məhzun Rəhimov, Mir Abbas kimi həvəskar aktyorlar vardı.

"Canpoladovlar klubu"nda 1914-cü ilin 25 avqustunda "Məşədi İbad" komediyası yaralı rus əsgərlərinin nəfinə oynanılıb, tamaşada səhhətlərini yaxşı hiss edən əsgərlər də iştirak ediblər. Sentyabrın 4-də və 8-də isə, Əli xan Makinskinin evində "Məşədi İbad" tamaşası qadınlar üçün göstərilib. Əldə olunmuş vəsait Birinci Dünya müharibəsində yaralanan insanlara qayğı göstərən "Qırmızı xaç" cəmiyyətinə verilib. İrəvandakı azərbaycanlı teatr həvəskarları humanizm tədbirlərinin həyata keçirilməsində həmişə öndə olublar.

İrəvan mühitində yaşayan müsəlmanların həyatında səhnə əsərlərinin necə böyük rol oynadığına diqqət yetirən M.Nasir Azərbaycan dilində ildə 30-35 dəfə tamaşa göstərildiyini, azərbaycanlıların milli şüurunda silinməz izlər buraxdığını müsbət hal kimi qiymətləndirirdi. Tanınmış yazıçılar və əcnəbi müəlliflər Canpoladovun teatrında tamaşaya qoyulan əsərlərinə baxdıqca özü də dram əsəri yazmaq qərarına gəlir. Yaşadığı mühitdə baş verən hadisələri tərənnüm etmək, soydaşlarının dünyaya baxışını dəyişmək üçün bədii yaradıcılığının imkanlarını zamanla həmahəng edir, 1912-ci ildə qələmə aldığı "Millətpərəstlikmi? Şərabxorluqmu?" adlı iki pərdəli melodramını yazır.

Çar Rusiyasının üsul-idarəsi qədim İrəvan quberniyasında istədiyi kimi siyasət yeridirdi. Haqqı tapdalanan Azərbaycan xalqı cəhalət içərisində yaşayır, hüquqları tapdalanır, soydaşlarının zəlil halda olmasından istifadə edənlər,

özünü “millətpərəst” adlandıranlar özlərinin mənfəətləri üçün hər cür vasitəyə əl atırlar. “Millətpərəstlikmi? Şərabxorluqmu?” adlı melodramında bu cəhətləri təsvir edən M.Nasir senzura idarəsinin müdiri Şərifovun adına icazə üçün məktub yazır və Şərifov melodramın nəşrinə icazə verir. Əsər 1913-cü ildə İrəvanda “Kultur” mətbəəsində çap olunur. Məmmədəli Nasir pyesin Canpoladovun teatrında tamaşaya qoyulmasını istəyir. Yerli hakimiyyət orqanları zərərli bir əsər kimi rədd etsələr də, bu hadisədən az sonra İrəvanda rus-tatar məktəbi açılır və melodramı həmin məktəbdə tamaşaya qoyurlar [152, 19, 20]. Məmmədəli Nasirin “Millətpərəstlikmi, şərəbxorluqmu?”, “Zorən izdivac” və “Ruşvətxor qazı” dramlarını 1914-cü ilin may və iyun aylarında isə, “Məktəbi-İslamiyyə”nin şagirdləri tamaşaya hazırlamış, tamaşadan toplanan pulu isə məktəbin kasıb şagirdlərinə sərf etmişlər. “İrəvan islam dram şirkəti” Məmmədəli Nasirin adları sadalanan və “Bədbəxt ailə” dramlarını öz repertuarına tez-tez daxil edib.

İrəvanda Azərbaycan teatrı aktyor ifaları, rejissor işləri və repertuar tərtibi baxımından 1900-1917-ci illərdə ciddi nailiyyətlər əldə etmişdir. Müxtəlif teatr truppalarının İrəvanda qastrol səfərləri zamanı tamaşalar göstərmələri, Sidqi Ruhullanın, Huseyn Ərəblinskinin, Mirzağa Əliyevin, Cəlil Bağdadbəyovun, Əbülfət Vəlinin, bəstəkar Zülfuqar bəy Hacıbəyovun İrəvandakı qastrolları yerli həvəskarların yaradıcılıqla işləmələrinə, sənətdə püxtələşmələrinə geniş stimul vermişdi.

Yunis Nurinin yaradıcılıq təşkilatçılığı və rejissorluğu ilə Nəriman Nərimanovun “Nadir şah”, Yevgeni Çırkovun “Yahudilər”, Jan Batist Molyerin “Zorən təbib”, Mirzə Fətəli Axundovun “Molla İbrahimxəlil kimyagər”, Aleksandr Ostrovskinin “Kimdir müqəssir?”, Əbdürrəhim bəy Haqverdiyevin “Bəxtsiz cavan” (1910), Huseyn Ərəblinskinin rejissorluğu ilə Əbdurrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, Sidqi Ruhullanın rejissorluğu ilə Nəcəf bəy Vəzirovun

“Müsibəti-Fəxrəddin”, Zülfüqar bəy Hacıbəyovun (rejissoru özü olub) “Əlli yaşında cavan” (1910-1913-cü illərdə), Üzeyir bəy Hacıbəyovun “Məşədi İbad” (1916-ci il, rejissor Rza Şeyxzadə) və digər səhnə əsərlərinin tamaşaçılar tərəfindən maraqla qarşılanması teatrın tarixinə bir əlvanlıq gətirmişdir. Başqa yerlərdən fərqli olaraq, İrəvan teatrında qızların səhnəyə çıxması daha erkən özünü göstərmişdi. Üzeyir bəy Hacıbəyovun “Arşın mal alan” operettasında Gülçöhrə rolunu oynayan Tamara Əsəd qızının cəsarəti xüsusilə maraq doğurur. İrəvanda azərbacanlı teatr həvəskarlarının işinin istiqamətləndirilməsində Bakıdan 1909-cu ilin may ayında qastrola gələn aktyorlardan H.Ərəblinski, M.Əliyev, S.Ruhulla, Y.Ağayev, C.Bağdadbəyov kimi səhnə xadimlərinin əməyi xüsusilə qeyd olunmalıdır.

1921-ci ilin əvvəlindən İrəvanda təşkil olunan Əzizbəyov klubundakı dram dərnəyinin fəaliyyətinə istiqamət verən Bala Əfəndiyev tamaşaların hazırlanması və rolların oynanılmasında təşkilatcılığı ilə daha çox fərqlənmişdi. Bala Əfəndiyevin, Mustafa Huseynovun, Məmmədəli Nasirin, Yunis Nurinin təşəbbüsü ilə 1922-ci ildə Əzizbəyov adına azərbaycanlılar klubunun nəzdində İrəvan Azərbaycan teatrı yenidən fəaliyyətini bərpa etmiş, 1929-cu ilə qədər repertuarında “Nadir şah”, “Laçın yuvası”, “İki yol”, “Ölülər”, “Hacı Qara”, “İblis”, “Məşədi İbad” və sair çoxsaylı tamaşalarla Zəngibasar, Vedi, Basarkeçər, Dilican və başqa rayonlara qastrollarda olaraq azərbaycanlı əhaliyə mədəni xidmət göstərmişdir.

İrəvan şəhərində teatr həvəskarlarının fəaliyyətini istiqamətləndirmək üçün Bakıdan qastrola gələn aktyorların göstərdikləri tamaşalarda, xüsusən də Üzeyir Hacıbəyovun “Məşədi İbad” musiqili komediyasında baş rolları qastrolçuların özləri ifa etsələr də, qadın rolunun tiflisli aktirisa Gövhər Əliyeva tərəfindən oynanılması lojada əyləşən irəvanlı qadınların marağına və alqışlarla qaşılanmasına səbəb

olmuşdur. Qastrol tamaşalarına gələnlərlə birgə İrəvandakı yerli Azərbaycanlı aktyorların birgə iştirakı ilə uğurlu tamaşaların oynanılması və ruh yüksəkiyi və alqışlarla qarşılanan qastrolçular Naxçıvanın müxtəlif rayonlarına səfərə çıxmaq qərarına gəlmiş, oradan da İrana getmək təşəbbüsündə bulunmuşlar. Bu qastrollara rəhbərliyi Zülfüqar Hacıbəyovun etdiyi və onun "Əlli yaşında cavan" komediyasının oynanıldığı barədə "Yervanskiy vestnik" və "Yeni irşad " qəzetlərinin 1911-ci il sentyabr –oktyabr saylarında da məlumatlar verilmişdir.

"İrəvanda Dövlət Türk Teatrosu yaratmaq barədə "1928-ci il mart ayının 15-də Ermənistan hökumətinin qərarı teatrsevərlər tərəfindən böyük razılıq hissi ilə qarşılanmış, tanınmış sənətkar Yunis bütün imkanlarını bu işin təşkilinə sərf etməklə, Bakı Dövlət Teatr Məktəbinin məzunlarından təyinatla teatra göndərilməsinə, onların gücü ilə Molyerin "Zorən təbib", C.Cabbarlının pyeslərindən "Aydın", "Sevil". "Almaz", "Yaşar", "1905-ci ildə", "Od gəlini" (1928-1936-cı illərdə), tərcümə edilmiş "Pepo" (1930), Anatoli Qlebnovun "İnqa" (1930), A.Şirvanzadənin "Namus" əsərlərinin bədii sənətkarlıq cəhətdən maraqlı quruluşda hazırlanmasına müvəffəq olmuşdur. İrəvan Azərbaycan Dövlət Dram Teatrının yaranması, onun fəaliyyəti Bakıdakı sənət dostlarının sevincinə səbəb olmuşdur. Belə ki, 1929-cu ildə Bakıdan dəvət olunmuş gənc aktyorlardan Xədicə, Qəzənfər Məlikov, Qafar Həqqi bu teatrda çalışmağa başlayırlar. Onlar İrəvan teatrının yerli aktyorlarından Yunis Nuri, Abbas Həsənov, Əhməd Qazıyev, Əli Mənsur, Əkbər Rzayev, Cəmil Əliyev, Murtuza Muradov, Abbas Əli Axundov, Məmməd Abbasov, Həmid İbrahimov, Məmmədbağır Qaraxanov, Cəfər Əhmədov və başqaları ilə birlikdə İrəvan Azərbaycan Dövlət Dram Teatrının şöhrətlənməsi üçün aktyorluq-yaradıcılıq imkanlarından baçarıqla istifadə edirdilər. az əvvəl də bəhs etdiyimiz kimi, teatr öz

tarixini qərarın rəsmi elan olunduğu gündən etibarən Molyerin "Zorən təbib" tamaşası ilə acmışdır. Sabir Rzayev və Əkbər Yerevanlı "Yunis Nuri" adlı kitabında teatr dövlət statusu aldıqdan iki ay yarım sonra 1928-ci il iyunun 14-də C. Cabbarlının "Aydın" pyesinin tamaşaya qoyulduğunu qeyd edirlər. Teatrın 1929-cu ilin yanvarında dövlət statusu aldığını, əsərin 14 iyun 1928-ci ildə deyil, 1929-cu ilin mart ayının 6-da tamaşaya qoyulduğu tarixi fakt kimi göstərilir və bu səhnə əsərinin ikinci dəfə mart ayının 22-də yenidən tamaşaçıların xahişi ilə göstərildiyi qeyd edilir [5, 197], [160-a,163]. İrəvan Azərbaycan Dövlət Dram Teatrının 1938-1947-ci illərdə peşəkarlıq cəhətdən milli rejissorluq üslubu və forma axtarışlarının geniş əhatəliliyi ilə xüsusilə diqqəti cəlb etmiş, İttifaqın məşhur mədəniyyət mərkəzlərində təcrübə keçmiş və təhsil almış Əli Şahsabahlı, Baxşı Qələndərli kimi görkəmli sənətkarların quruluşunda göstərilən tamaşalarda aktyorlar ifaçılıq maneralarının zənginliyinə görə fərqlənirlər. Bundan məmnun qalındığına görə teatra Cəfər Cabbarlının adı (14 fevral 1935) verilmişdir.

Bu teatrın fəaliyyəti 1918-1927-ci illərdə xüsusən maraq doğurur. Belə ki səhnədə sənətkar kimi tanınanların peşəkarlıqları kamillik baxımından tamaşacı rəğbətini qazanmışdır. Sonrakı dövrlərdə repertuar baxımından çoxsaylı ədiblərin əsərlərinin tamaşaya hazırlanması geniş vüsət almış, bu hal 1950-ci ilədək davam etmiş, azərbaycanlıların deportasiya edilməsi ilə əlaqədar teatrın fəaliyyəti dayandırılmışdır. 1967-ci ildə İrəvanda çalışan rəhbər azərbaycanlı ziyalılarından Yunis Rzayev, Qəşəm Aslanov, Həbib Həsənov, Sabir Rzayevin, Əkbər Suleymanov və İsrafil Məmmədovun təşəbbüsü ilə Ermənistan hökuməti qarşısında məsələ qaldırılmış, İrəvan Azərbaycan Dövlət Dram Teatrı bərpa edilmiş və 1988-ci ilədək yaradıcılıq axtarışlarını davam etdirmişdir. "İrəvan Dövlət Azərbaycan Dram Teatrının uzun illər boyu dözülməz

şəraitdə fəaliyyət göstərməsinə və yarandığı gündən öz səhnəsi, salonu olmadığına" haqq qazandırmaq cəhdləri mətbuat səhifələrində qeyd edilmişdir. İrəvanda rus dilində çıxan "Kommunist" qəzetinin 24 noyabr 1989-cu il tarixli 270-ci sayında dərc olunmuş "43 faiz və digər saxta faktlar " məqaləsi məhz bu məqsədlə yazılmışdır. Təəssüf ki, məqalə muəllifi Q.Avakyanın gətirdiyi faktlar vaxtında təkzib olunmamışdır... "Qacqınlıq şəraitində yaradıcılıq fəaliyyətini davam etdirən Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının 125 illik yubileyinin keşirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2006-cı il tarixli sərəncamı ilə tədbirlər hazırlanıb həyata keçirilmişdir. Prezidentin 16 oktyabr 2007-ci il tarixli Sərəncamı ilə teatrın əməkdaşlarından 7 nəfərinə "Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə" fəxri adlarlarla; Abdullayeva Tamella, İsmayılova Elmira, Nəcəfov Süleyman Azərbaycan Respublikasının "Xalq artisti", Əliyeva Dilarə, Əliyeva Tünzalə, Kərimov Vaqif, Azərbaycan Respublikasının "Əməkdar artisti" və Piriyev İftixar isə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" təltif olunmuşdur.

İrəvan Dövlət Azərbaycan Teatrının tarixində və taleyində inkişaf, tərəqqi, tənəzzül məqamları da olmuşdur. Teatrın yaradıcılıq yolu, xüsusən sovet dövründəki fəaliyyəti ilə maraqlanmaq istəyənlər İsrafil Məmmədovun "İrəvan dəftəri III. Teatr tariximizdən səhifələr" (Bakı 2009), Calal Allahverdiyevin "İrəvan ədəbi mühiti (1920-1950-ci illər)" (Bakı, 2010), İlham Rəhimlinin "İrəvan Dövlət Azərbaycan Dram Teatrı (Bakı, 2007)" kitablarından daha geniş məlumat əldə edə bilərlər.

Beləliklə, İrəvan ədəbi mühitində teatr truppalarının yaranmasına dini motivlər üzərində qurulan "Şəbih"lər, "Kosakosa", "Usta - şagird", "Xıdır Nəbi", müsəlmançılığın, türkdilli

etnosların təntənə ilə qeyd etdiyi ayin və bayramların mahiyyətilə bağlı olan “Meydan tamaşaları”nın təsiri ilə teatr truppalarının yaranmasına böyük ehtiyac yaranmış, göstərilən təşəbbüslərin nəticəsi olaraq, İrəvanda 1882-ci ildə peşəkar Azərbaycan teatrının təməli qoyulmuşdur;

- Azərbaycan dramaturgiyası və onun ən görkəmli nümayədələrindən Mirzə Fətəli Axundovun, N.Vəzirovun və sosializm cəmiyyətinin incəliklərini tərənnüm edən sənətkarların əsərlərinin İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində oynanılması, Bakıdan İrəvana, İrəvandan Bakıya teatr xadimlərinin qarşılıqlı qastrol səfərləri, incəsənət xadimlərinin yaradıcılıq ezamiyyətləri, 1921-ci ilin əvvəlindən İrəvanda təşkil olunan Əzizbəyov klubundakı dram dərnəyinin fəaliyyətinə istiqamət verən Bala Əfəndiyev tamaşaların hazırlanmasında və müxtəlif rolların oynanılmasında təşkilatçılığı ilə yeni-yeni tamaşaların hazırlanması İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarının inkişafına və zənginləşməsinə stimul olmuşdur.

- Azərbaycan-erməni teatr əlaqələrinin inkişafında müsbət işlərin görülməsi davamlı olmamış, bəzən teatrın fəaliyyətinin dayandırılmasına Ermənistan rəhbərliyi qərar vermişdir. İrəvan Azərbaycan Dövlət Dram Teatrının həvəskar aktyorlarının repertuarlarının janr, əlvanlıq və zənginlik baxımından diqqəti cəlb edən səciyyəvi xüsusiyyətləri daha böyük, tarixi mövzuları əks etdirən əsərlərin səhnəyə çıxarılmasına şərait yaratmışdır.

IV FƏSİL: AZƏRBAYCAN KLASSİK ƏDƏBİ İRSİ ERMƏNİ ƏDƏBİ QAYNAQLARINDA

1.Azərbaycan klassik ədəbi irsi erməni nəşrində

Sovetlərin hakimiyyətinə kimi Eçmiadzində yerləşən, 1939-cu ildən İrəvana köçrülən Matenadaranda - Mesrop Maştos adına Qədim Əlyazmalar İnstitutunda bir çox xalqların dilində saxlanılan 6390 əlyazma içərisində Azərbaycan klassik ədəbi irsinin erməni mənbələrində olanları da maraq doğurur. Tarixçilərin qənaətinə görə əsası hələ V əsrdə qoyulmuş bu qədim elm mərkəzində müxtəlif kitablar, əlyazmalar, miniatur sənədlər qorunub saxlanmışdır. Həqiqətən də, Matenadaranda müxtəlif əsrlərə aid olan saysız-hesabsız ədəbi incilər diqqəti özünə cəlb edir. Burada mühafizə olunan əlyazmalar forma və məzmununa görə bir-birindən fərqlənir. Ən qədim əlyazma fəlsəfə və astranomiyaya aid olmaqla 981-ci ildə qeydə alındığı göstərilmişdir. Buradakı 1202-ci ildə yaradılmış məcmuə həcminə və ağırlığına görə ən böyüyüdür. 1204-cü ildə Səlcuqların basqını zamanı "Muş təntənəsi" adlı incə miniatür və çıxışlar məcmuəsinin sahibi olur, bu qiymətli əlyazma isə düşmənlər tərəfindən zəbt edilir.Yeddi əsr Arakelos kilsəsində saxlanılan bu qiymətli əlyazmanı başqa yerə asanlıqla aparmaq üçün 1915-ci ildə ikiyə bölünür, bir hissəsi Eçmiadzinə gətirilir, qalan hissəsi isə xeyli müddətdən sonra Ərzurumdakı erməni kilsəsinin həyətində torpağa basdırılır. Bu məcmuənin içərisindən düşmüş vərəqləri İtaliyada tapılmış və hazırda Venesiyadakı Mxitaryanlar matenadaranında mühafizə olunur. 1920-ci il 29 noyabrda Ermənistan Sovet Sosialist Respublikası yarananda sonra hökumət qədim əlyazmaların toplanıb mühafizə edilməsi üçün tədbirlər görmüş, 1920-ci il, dekabrın 17-də Eçmiadzindəki Matenadaran dövlətin ixtiyarına verilmişdir. İki il sonra 1915-ci ildən Moskvada mühafizə

olunan 4660 əlyazması Ermənistana qaytarılmışdır. Bunlar 1915-1921-ci illərdə Matenadaranda toplanmış 1.730 qədim əlyazmalarına əlavə olunmuşdur. Həmin nadir tapıntılar İttifaqın bir çox iri şəhərlərindən və Türkiyədən gətirilən qədim əlyazmalar hesabına sayı artırılmışdır. 20 ildən sonra Matenadaran paytaxta köçürülmüş, Respublika Nazirlər Sovetinin qərarı ilə Qədim Əlyazmaları Elmi-Tədqiqat İnstitutuna çevrilmiş, burada mühafizə məqsədilə əlyazmaların elmi mühafizəsi, orjinalların öyrənilməsi və tərcümə şöbələri yaradılmış, qədim əlyazmaların sayı 12 minə çatdırılmışdır. Bu mədəniyyət ocağında ermənilərə məxsus əlyazmalarla yanaşı, başqa xalqların da - ərəb, fars, türk, assori, Azərbaycan, yunan, kürd və başqa xalqların dillərində mindən artıq əlyazmaları qorunub saxlanılır [210, 85-104] ki, bunların içərisində xalqımızın qədim tarixinə, ədəbiyyatına və incəsənətinə aid bir çox qiymətli əlyazmalar vardır. Onların araşdırılmasına azərbaycanlı ədəbiyyatşunaslardan Həmid Araslı, Mirəli Seyidov, Lətif Huseynzadə, Onik Yeğanyan, Babken Cukasızyan, Əkbər Yerevanlı, Hakop Papazyan və başqaları daha çox diqqət yetirmişdir [210, 85, 104].

Azərbaycan klassik ədəbi irsi içərisində sovet dönəmində xalqımızın böyük oğlu Nizami Gəncəvinin "Xəmsə"sinin Şərqin müxtəlif yerlərində yazılan nüsxələrinin saxlanılması şairin xəlqiliyinin Zaqafqaziya məkanından çıxaraq, bütün Şərq dünyasına yayılmasından, eyni zamanda ədəbi və fəlsəfi təfəkkürün inkişafına təsirindən soraq verir. Dahi Nizaminin poemalarının çoxsaylı sürətləri köçürülmüş və bütün Şərqdə əldən-ələ keçmişdir [174, 97-101]. Nizami Gəncəvinin əsərlərinin əlyazmasına Matenadaranda da rast gəlinir. Burada yaradılan Şərq ədəbiyyatı şobəsinin 32 nömrəli kataloqunda 268 vərəqdən ibarət 27 X 18 sm. ölçüdə olan farsca "Nizaminin divanı"nı 1889-cu ildə Əbdül Huseyn Fərid tərəfindən köçürülmüş, hər səhifədə 31 misra yerləşdirilmişdir.

Nəfis şəkildə tərtib olunmuş bu əlyazmasında poemaların məzmununa uyğun olaraq 48 şəkil vardır. "Yeddi gözəl" poemasının bədii tərtibatı xüsusilə, maraqlı və təsirlidir. Əsərin harada və kim tərəfindən köçürüldüyü aydın oxunmur. Ölməz Nizaminin poemalarından bəziləri isə, ayrıca məcmuə şəklində tərtib edilmiş və Matenadaranda əbədi məskən tapmışdır. Şərq ədəbiyyatı şöbəsinin 57 nömrəli əlyazması Nizami Gəncəvinini 60 vərəqdən ibarət "Yeddi gözəl" poemasıdır. Onun üzü XVI əsrdə köçürülmüşdür. Qeyd edək ki, Matenadaranın Şərq ədəbiyyatı şöbəsində istər Nizami Gəncəvinin, istərsə də onun müasirlərinin ona həsr etdiyi səmimi misralara da rast gəlinir. Nizaminin müasirləri, eləcə də ondan sonra gələn Dünya və Şərq şairləri Nizaminin böyük sənətkar, qüdrətli qələm sahibi olduğunu vurğulamış və sevmişlər. Burada eyni zamanda, Şirazi Orfinin 93 vərəqlik farsca divanı (XVI əsr) mühafizə olunur. Əsərin kim tərəfindən köçürüldüyü barədə məlumat verilməsə də həmin "Divan"ın Nizami Gəncəvi və Sədi Şiraziyə həsr olunduğu məlumdur. Məcmuənin müəllifi tarixdə "Orfi" ləqəbi ilə məşhur olmuş Xacə Seyid Məhəmməd İbn Zeynalabdin Əli Şirazidir.

73 nömrəıli "Şairlər məcmuəsi" adlanan əlyazmasının 1641-ci ildə Məhəmməd Kərim Huseyn tərəfindən köçürüldüyü, divana əlliyə yaxın məşhur Şərq şairlərindən Nizami Gəncəvinin, Xaqani Şirvaninin, Sədi Şirazinin, Əbdülrəhim Caminin, Molla Məhəmməd Səbuhinin, Əbülqasim Firdovsinin və başqalarının şeirləri və poemaları daxil edildiyi qeyd olunmuşdur [174, 97-101]. 99 nömrəli əlyazmasında 1224-1800-cü ildə Məhəmməd Qarabağı tərəfindən Qarabağda tərtib olunan və üzu köçürülən farsca "Leyli və Məcnun" məcmuəsi isə iki hissədən ibarətdir. 1-30 vərəqdə Nizaminin "Leyli və Məcnun" poeması, 30-43 vərəqdə Hafiz Şirazinin lirik şeirləri verilmişdir. Azərbaycan-erməni ədəbi əlaqələr tarixində xüsusi yer tutan Əfzələddin Xaqani yaradıcılığı haqqında yazılmış da

misralar diqqəti cəkir.

1965-ci ildə, erməni dilində "Hayastan" nəşriyyatında çap edilmiş kitabçada Xaqaninin 110 rubaisi və bir neçə şeiri verilmişdir. Şərqşünas Sergey Umaryanın tərtib etdiyi bu şeirlər kitabında şairin poetik parçaları orijinala uyğun şəkildə tərcümə edilmişdir. S. Umaryan Azərbaycan şairlərinin həyat və yaradıcılığından bəhs edən məqaləsində yeri gəldikcə Xaqani poetikasından, onun təsir güçünün bədii xüsusiyyətlərindən də geniş məlumat vermişdir: "Xaqani şerlərinin ilk tərcüməçisi XIII əsrdə yaşamış məşhur erməni şairi Friq olmuşdur. Friqin Xaqanidən tərcümə etdiyi bir rubai uzun illər müəmmalı qalmış və ədəbiyyatşünaslar arasında mübahisələr doğurmuşdur. Sonralar isə, şairin bir neçə rubaisini Hovanes Tumanyan erməni dilinə tərcümə etmişdir" (93, 69). Friqin Xaqanidən etdiyi tərcümələrin araşdırılması və dəqiqləşdirilməsi sahəsində Babken Cukasızyan və Avetis Şahsuvaryan müəyyən işlər görmüşlər.

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən Nizami, Xaqani və başqalarının seçilmiş əsərləri [114, 69], Xaqani "Şeirlər və rubailər" kitabı ayrıca erməni dilində, "Hayastan" nəşriyyatı tərəfindən 1965, Azərbaycan dilində isə, 1962-ci ildə Yerevanda nəşr olunan "Ədəbi Ermənistan" məcmuəsində [190, 102, 181,185] işıq üzü görmüşdür. XIV əsdə yaşamış Firiqin Xaqanidən tərcümə etdiyi rubailər 1907-ci ildə Hulkişvarda nəşr olunan "Külliyyatı"nın 1292-ci səhifəsində "Firiq Xaqaninin tərcüməçisidir" məqaləsi bu barədə deyilənlərə aydınlıq yaradır. Əkbər Yerevanlı "Azərbaycan-erməni ədəbi əlaqələri" monoqrafiyasında ("Hayastan", 1969) Friqin tərcümə etdiyi rubainin Xaqaninin başqa bir külliyyatında da, həmcinin Ankara tarix və dil fakültəsinin kitabxanasındakı 1297 nömrəli əlyazmasında da olduğunu göstərir [190, 147-448].

Matenadarandakı əlyazmalar içərisində Məhəmməd

Füzulinin əsərləri daha çox diqqəti cəlb edir. Şərq ədəbiyyatı şöbəsində Azərbaycan dilində saxlanılan və həcmi 120 vərəq olan 473 nömrəli əlyazma "Leyli və Məcnun" poemasının mətnidir. Əsərin nə zaman və kim tərəfindən yazıya köçürüldüyü qeyd olunmasa da, XIX əsrin əlyazması olduğu ehtimal edilir. Poemanın həm əvvəlindən, həm də sonundan vərəqlərin düşdüyü hiss olunur. Dahi şairin "Leyli və Məcnun" poemasının Azərbaycan dilində olan başqa bir variantı 110 vərəqlik meşin üzlü bir kitaba nəstəliq xətlə köçürülmüşdür. Füzulinin bu məşhur poeması XVIII əsrin tanınmış məşhur şəxsiyyətlərindən Məhəmməd Yusif Cahanşah tərəfindən köçürülmüşdür. Digər variantdan fərqli olaraq, bu əlyazmada maraq doğuran Leylinin, Məcnunun, Nofəlin, İbn-Salamın və başqalarının şəklinin verilməsidir. Bu şəkillər cəmi 18 ədəddir.

"Füzulinin əsərləri" adlanan 499 nömrəli əlyazma isə, 105 vərəqdən ibarətdir. Burada Füzulinin qəzəlləri, lirik şeirləri və poemalarının toplandığı əlyazmasının Matenadaranda saxlanılan nüsxəsinin 1783-cü ildə Əbdül Kərim tərəfindən hər səhifəsində 15 misra olmaqla gözəl xətlə köçürüldüyü və əsərləri burada saxlanan Azərbaycan şairləri icərisində birinciliyin Məhəmməd Füzuliyə məxsusluğu xüsusilə göstərilir. Əlyazmalarında məhəbbət şairi Məhəmməd Füzulinin 1842-ci ildə 122 səhifəlik divanının kim tərəfindən qələmə alındığı dəqiqləşdirilməsə də, Şərq ədəbiyyatı şöbəsində saxlanılan əlyazmaları içərisində onun alleqorik "Səhhət və Mərəz" əsəri və "Ruhnamə" adı ilə məşhur olan poeziya nümunələri vardır. Füzulinin eyni zamanda, "Eşq və gözəllik" məsələlərindən bəhs edən, tibbə aid mülahizələrini alleqorik şəkildə ifadə etdiyi "Hüsn və eşq" əsərinin olmasından danışılır. Görkəmli alim Mirəli Seyidovun araşdırmasından aydın olur ki, bu poetik nümunələrin katibi Məhəmməd İbn Kazım Təbrizi olmuşdur. Məhəmməd Füzulinin Kərbəlada şiələrin qanlı müharibələrindən bəhs edən və özü tərəfindən

Azərbaycan dilinə tərcümə olunan “Hədiqətus-suəda” adlı tərcümə əsəri Ermənistan SSR Nazirlər Soveti yanında (Matenadaran) müzeyin Şərq ədəbiyyatı şöbəsində saxlanılan 283 № -li əlyazması 1861-ci ildə Abdulla Ağa İbn Teymur Ağa tərəfindən yazıya köçürülmüşdür [176, 40-88]. Matenadaranda Azərbaycan şairi İmadəddin Nəsiminin əsərləri də var ki, onların ilk dəfə aşkara çıxarılmasında Babken Cukasızyanın xidmətləri vardır” [58, 227]. Nəsimi şeirlərinin ermənilər arasında dillər əzbəri olduğu barədə faktlara aydınlıq gətirən Budax Amtesinin Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olduğu, o cümlədən, Nəsimi yaradıcılığına çox yaxşı bələdliyi (mindən artıq “nəsimi” bilirmiş) [177, 16,20], Nəsiminin ermənilər arasında geniş yayılan “nəsimiləri”ni söyləyərmiş.

Matenadaranın Şərq ədəbiyyatı şöbəsində N.Gəncəvi, İ. Nəsimi, M.Füzuli kimi klassiklərin əsərləri ilə yanaşı, burada ərəb əlifbası ilə mühafizə olunan, ədəbiyyat tarixindən bizə məlum olan təriqətçi şair Fəzlullah Nəimi, XV əsrin görkəmli Azərbaycan şairi Mirzə Cahanşah Həqiqinin (1397-1467) şeirləri də mühafizə olunmuşdur.

Pənahi Makulinin “Ədəbi məlumat cədvəli”ndə Həqiqi farsca yazan bir şair kimi göstərilir [123, 424]. Mirzə Cahanşah Həqiqi Cənubi Azərbaycanın Xoy şəhərində anadan olmuşdur. O, Azərbaycanda Qaraqoyunlular dövlətinin yaradıcısı Qara Yusifin üçüncu oğludur. Həqiqi yaradıcılığını əks etdirən “Divan”ı uzun müddət elm və ədəbiyyat aləminə bəlli olmamış, ona görə də tədqiqatdan kənar qalmışdır. Mirzə Cahanşah Həqiqinin divanı bir müddət Türkiyə sultanlarının saray kitabxanasında saxlanmış, Sultan Həmidin hökmranlığı dövründə isə “Divan” saraydan yoxa çıxmış, sonralar həmin qiymətli kitab Misirə, İsgəndəriyyə kitabxanasına verilmiş, oradan Londona aparılaraq yox olmuşdur. 1961-ci ildə Amerikada yaşayan Harutyun Hazaryan adlı bir erməni ərəb, fars, Azərbaycan və türk dillərində 270 ədəd çox qiymətli

əlyazma kitabları ilə birlikdə içərisində Mirzə Cahanşah Həqiqinin "Divan"ını İrəvan Dövlət Universitetinə göndərmişdir. Həqiqinin öz xətti ilə yazıldığı qeyd edilmiş "Divan"ın birinci hissəsində Həqiqinin fars qəzəlləri, ikinci hissəsində Azərbaycan dilində yazılmış qəzəlləri və rubailəri verilmişdir. Burada Həqiqinin farsca 78 qəzəli, azərbaycanca 61 qəzəli və 16 rubaisi toplanmışdır. Şairin "Divan"ı 500 illiyi ərəfəsində, 1966-cı ildə Yerevan Pedaqoji İnstitutunun müəllimi, görkəmli filoloq alim Lətif Huseynzadə tərəfindən "Hayastan" nəşriyyatına təqdim olunmuş, 12500 nüsxə tirajla ayrıca kitab şəklində çap edilmişdir. Klassik Azərbaycan şeiri ənənələrindən məharətlə istifadə edən Cahanşah Həqiqinin yaradıcılığından verilən nümunələr oxuçu qəlbinin incə tellərinə toxunuraq, onun sənətkarlığını bütün çalarları ilə bir daha təsdiqləyir [195, 185].

Matenadaranda Azərbaycan ədəbiyyatı ilə bağlı olan əlyazmalar içərisində XIII əsrə aid bir çox şeirlərin, eyni zamanda, "Yusif və Zuleyxa" adlı poemanın müəllifi şair Əli haqqında azərbaycanlı oxuçusuna ilkin məlumat verilir. "Yusif və Zuleyxa" poeması (əlyazması №154) Əlinin qırmızı mürəkkəblə yazılmış 95 vərəqlik əlyazmasıdır. Əlyazmalar içərsində şair Əlinin ayrıca məcmuə şəklində olan "Muxtarnamə" əsərinə də (əlyazması № 376) rast gəlirik. XIX əsrdə yazıldığı ehtimal olunur. Əli bu əsəri ərəb sərkərdəsi Muxtara həsr etmiş və onun şərəfinə "Muxtarnamə" adlandırmışdır. Bu məcmuənin hər səhifəsində 15 misra yazılmışdır.

Matenadaranın Şərq ədəbiyyatı şöbəsində astronomiya, tarix, fəlsəfə və poetikaya aid əsərləri bütün Yaxın Şərqdə məşhur olan Nəsrəddin Tusinin Azərbaycan dilində "Cavahirnamə" (əlyazması № 140) adlı kitabı saxlanılır. Qiymətli daşlar, onların təbiəti, əhəmiyyəti və kimyəvi xassələri haqqında yazılmış bu əsər 32 fəsildən ibarətdir. Hər fəsli bir daşın adıyla adlandırmış kitab "Cavahir" fəsli ilə açılır.

Məcmuə qara mürəkkəblə, fəsillərin adları isə qırmızı mürəkkəblə yazılmışdır. Məcmuədə haqqında söhbət açılan 2-ci qiymətli daş Yaqutdur. Həmin fəsildən sonra Azərbaycan xalqına yaxşı məlum olan qiymətli ziynət daşları – zümrüd, firüzə, mərcan, billur, şəvə, kəhrəba və başqaları haqqında, Divanın 31-ci fəslində balıq və fil dişləri, 32-ci fəsildə ətriyyat haqqında söhbət açılır.

Qeyd edək ki, buradakı materiallar eyni zamanda bir çox mübahisələrə də aydınlıq gətirir. Belə ki, Əkbər Yerevanlının "Azərbaycan-erməni ədəbi əlaqələri" kitabında "XVI-XVIII əsrlərdə Azərbaycan dilində söz qoşan erməni aşıqları" fəslində Çubuqoğlu şeirlərini daxil etməsi, onun tərcümeyi-halı barədə məlumat verilməməsi, XVI əsrin sonlarında yazıb-yaradan erməni sənətkarı kimi qələmə verməsi, Matenadaranda saxlanılan əlyazmalarının əksəriyyətinin Azərbaycan dilində olması onun erməni şairi olmaması fikrini möhkəmləndirir. İlyas Muşeğin 1721-ci ildə tərtib etdiyi "Nəğmələr" kitabına Çubuqoğlunun Azərbaycan dilində bir neçə şeirini daxil etməsi barədə məlumat verən Suleyman Məmmədov "Dostluq salnaməsindən sətirlər" adlı məqaləsində yazır: "Azərbaycan ədəbiyyatı nümunələrinin toplanması işində İlyas Muşeğ Astvadzaturyanın da xidməti az deyildir. Onun "Nəğmələr" kitabında Kərəmin, Aşıq Qəribin, Koroğlunun, Nəsiminin, Füzulinin, Şah İsmayıl Xətainin və başqalarının erməni əlifbası ilə Azərbaycan dilində yazılmış qoşma, mahnı və şeirlərinə rast gəlirik." 1721-ci ildə İlyas Muşeğ tərəfindən toplanılmış "Fars (Azərbaycan) şairlərinin mahnı və şeirləri" adı altında tərtib olunub Moskvada Rusiyanın xarici siyasət arxivində saxlanılan şeirlər dəftərində Dədə Qürbət adlı şairin şeirləri diqqəti daha çox cəlb edir. Dəftərdə Dədə Qürbətdən başqa çoxsaylı sənətkarın adı qeyd olunmuş və şeirlərindən nümunələr də verilmişdir. İlyas Muşeğ Astvadzaturyanın XVIII əsrin iyriminci illərində klassik Azərbaycan sənətkarlarının şeir parçalarını

divan şəklində erməni əlifbası ilə köçürüb yayması Azərbaycan xalqının mədəni irsinin zənginliyindən xəbər verir ("Azərbaycan gəncləri" qəzeti, 23 noyabr, 1971).

Matenadaranda saxlanan əlyazmalardan biri də "Qarabağ tarixi" adlı (əlyazması №226) kitabdır. Həcmcə bir o qədər də böyük olmayan bu məcmuənin böyük əhəmiyyəti vardır. Əlyazmanın vərəqlərinin bəzisi düşdüyündən nə vaxt üzü köçürüldüyünü müəyyənləşdirmək çətindir. Naməlum müəllif üçüncü səhifəsində qeyd edir ki, bu əsərin yaradılmasında Vahan Dadyana minnətdaram. O, mənim xahişimlə "Qarabağın keçmişi" fəslini yazmışdır.

12 fəsildən ibarət olan "Qarabağın tarixi" kitabı Şuşa şəhərinin əsasının qoyulmasındsn bəhs edir. Məcmuənin əvvəlində ermənicə əsərin muəllifinin Mirzə Mehdi xanın olduğu göstərilmişdir. Görünür, müəlliflərin adlarının bir-birinə uyğun gəlməsindən əlyazmanın tədqiqatçısı "Tarixi Nadir" kitabının müəllifi Mirzə Mehdi xan ilə "Tarixi Qarabağ" əsərinin müəllifi Mirmehdi Xəzanini səhv salmışdır.

XIX əsrin tarixçilərindən Mirmehdi Xəzaninin "Tarixi Qarabağ" adlı əsərində görkəmli Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin saraydakı mövqeyinə həsr olunan fikirlərə və maraqlı faktlara, eyni zamanda Vaqifin, Vidadinin, Məhəmməd Huseynin, Mirzəcan Mədətovun şeirlərinə və deyişmələrindən nümunələrə də rast gəlinir. Müzeydəki 110 №-li əlyazmasında "Vaqif və başqaları haqqında divan"da 86 vərəqlik məcmuədə Azərbaycan və fars dilində şeirlər, sənədlər, Vaqifin Səməd bəyə, Qasım bəy Zakirə, Mirzəcan Mədətova yazdığı məktubları da vardır. Matenadaranda farsca-azərbaycanca və ərəbcə-azərbaycanca bir neçə lüğət saxlanılır. Eyni zamanda, burada Şərqin nəhəng poeziya korifeylərindən Əbülqasim Firdovsinin, Sədi Şirazinin, Hafiz Şirazinin, Əbdurrəhman Caminin, Rudəkinin, Əlişir Nəvainin, Ruminin, Tahirin və başqalarının əsərləri də saxlanılır ki, bu saysız-

hesabsız sərvətlər icərisində Azərbaycan ədəbiyyatına aid nümunələr daha çox əhəmiyyət kəsb edir.

2. Azərbaycan-erməni ədəbi əlaqələri

Mədəniyyətlər və ədəbiyyatlar arasında qarşılıqlı əlaqə konkret tarixi şəraitdə öyrənildiyindən bu və ya digər içtimai-siyasi şərait, tarixi dövr və formasiya bir-birindən asılı olmayaraq, xalqların mifoloji-fəlsəfi görüşlərini, mifologiyasını, şifahi və yazılı ədəbiyyatlarında oxşar cəhətlərin yaranmasına kömək edən ilkin və əsas səbəbləri nəzərə almaq vacibdir [176, 4].

Azərbaycan və erməni ədəbi əlaqələri barədə yazılan elmi araşdırmalardan söhbət açarkən xatırlanan ilk müəlliflərindən biri Mirəli Seyidov və onun "Azərbaycan-erməni ədəbi əlaqələri (Orta əsrlər)" (Bakı, Elm, 1976) monoqrafiyası yada düşür. Monoqrafiyada müəllif Azərbaycan-erməni ədəbi əlaqələrinin formalaşması üçün Məmməd Arif, Mir Cəlal, Məmməd Cəfərov, Şıxəli Qurbanov, Əkbər Ağayev, Əkbər Yerevanlı, Fərhad Fərhadov kimi ədəbiyyatşunas alimlərin araşdırmalarına istinadən ədəbi əlaqələrin ədəbiyyat tariximiz üçün bir sıra elmi məqalələri nəzərdən keçirmişdir.

Əkbər Yerevanlı özünun "Azəri-erməni ədəbi əlaqələri" [190, 250] monoqrafiyasında hər iki xalqın ədəbi-mədəni əlaqələrində erməni aşıqlarının Azərbaycan dilində yazıb-yaratdıqlarını "ən parlaq təzahürlərdən" hesab etmişdir. Bu hal ilk baxışda oxuçuya xoş təsir bağışlasa da, mahiyyət etibarı ilə Qərbi Azərbaycanın ayrılmaz ərazilərindən olan İrəvan xanlığı ərazilərində baş verən hadisələrin ümumu mənzərəsi, ictimai-siyasi hadisələrin xalq kütlələri tərəfindən istənilən səviyyədə başa düşülmədiyini, ədəbi-mədəni dəyərlərimizim çox saymazyana şəkildə ermənileşdirildiyini qeyd etmək əvəzinə, göstərilən faktlar özü buna imkan versə də, o zamankı

kommunist rejiminin sərt qadağalarından ehtiyat edildiyi göz qabağındadır. Məsələn: Q.Levonyan "Aşıqlar və onların sənətkarlığı" monoqrafiyasında (1944, İrəvan) "azəricə yazan erməni aşıqların sayı 400-dür" - deməsini və G. Tarverdiyana istinad edərək XIX əsrdə azəri dilində söz qoşan erməni aşıqlarının sayı "1300 nəfərdir" - faktını görkəmli Azərbaycan folklorşünası Əhliman Axundov haqlı olaraq inandırıcı saymamış, fikirlərini "Ədəbiyyat və incəsənət " qəzetində in (1963,14 sentyabr, 37-ci say) dərc etdirmişdi. Həmin dövrdə azərbaycanlı aşıqların sayı ümumi əhalinin say tərkibinə müvafiq olaraq erməni aşıqlarından daha çox olmuşdur. Təəssüf ki, erməni alimlərinin özlərinin yalancı, uydurma, bayağı tarixlərini yaratmaq üçün xəlvəti yeritdikləri siyasət soydaşlarımızı, xüsusən də aparıcı sahələrdə çalışanlarımızı dərindən düşündürməmişdir. Zaman-zaman yaşadığımız ərazilərdə məskunaşdırılmış ermənilər maddi-mədəniyyət abidələrimiz, xalqımıza məxsus ərazilərdəki toponimlərimiz, coğrafi adlarımız, milli musiqi və mahnılarımız, rəssamlıq və toxuculuq nümunələrimiz bilərəkdən ermənileşdirilmişdir. Bu məsələ indi bizim hər birimizi bir azərbaycanlı kimi ciddi düşündurməli, ideoloji cəhətdən mübarizəmizin konturlarını müəyyənləşdirməlidir.

Azərbaycanın qədim və zəngin ədəbi irsi Şərqin ədəbi-mədəni inkişaf tarixində öz əhəmiyyətli yerini tutmuşdur. Ta qədim zamanlardan bizim günlərədək Azərbaycanın dünyada məşhur olan çoxsaylı xadimləri, dahiləri bir çox xalqların tanınmış adamları tərəfindən hörmətlə yad edilmişdir. Çox təəssuflər olsun ki, Azərbaycanın Şərqin mədəni inkişafına verdiyi töhfələri onun qonşuluğunda yaşayan ölkələrin xalqları çox qısqanclıqla qəbul etmiş, daha doğrusu, xəbislik edərək üstündən sükutla kecmişlər. Azərbaycanın zəka sahiblərinin, elm, ədəbiyyat və sənət adamlarının Şərqin mədəniyyətinin inkişafı sahəsindəki əməli fəaliyyətlərini dünya ictimaiyyətinə

çatdırmaqda təhriflərə yol vermişlər. Lakin həqiqətlərin olduğu kimi dünya ictimaiyyətinə çatdırılmasında dünyanın susduğunu yəqinləşdirən sağlam düşüncəli insanlar tarixi faktları aşkarlamaqdan çəkinməmişlər. Azərbaycanın tarixi torpaqları, ədəbiyyatı, incəsənəti və mədəniyyətini diqqət mərkəzində saxlayan ermənilər bunları mənimsəyərək özününküləşdirmək xülyasından əl çəkməmiş, düşmənçilik mövqeyində dayanaraq, daha da həyasızlaşmışlar. AMEA Bakıxanov adına Azərbaycan Tarix İnstitutu professor Yaqub Mahmudovun pəhbərliyi ilə 2009-cu ildə tarixi sənədləri və faktları özündə əks etdirən "İrəvan xanlığı" adlı kitabını nəşr edilmişdir. Kitab Azərbaycan ictimaiyyəti tərəfindən mühim əhəmiyyətə malik bir hadisə kimi hədsiz razılıqla qarşılanmışdır [106, 203].

Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən 1954-cü ildə nəşr olunan "Erməni nəsri antologiyası"nda [51, 165] XIX əsrin sonu və XX əsrin əvvəllərində yazıb-yaradan 33 yazıçının tərcümeyi-halı, həmçinin onların nəsr əsərlərindən nümunələr verilmişdir. Bu qələm sahiblərinin əksəriyyəti Türkiyə, İran, Gürcüstan və İrəvanın bu və ya digər yaşayış məskənlərində doğulan Sovet ədəbiyyatının nümayəndəsidir. Bu erməni müəlliflərindən X.Abovyan, Q.Ağayan, H.Paronyan, A.Şirvanzadə, Muratsan, V.Parazyan, O.Tumanyan, S.Zaroyan, A.İsahakyan, H.Sevuns, X.Tapalsyan və s. əsərlərini Azərbaycan dilinə Calal Məmmədov, Kövsər Tarverdiyeva, Ənvər Məmmədxanlı, Mirzə İbrahimov, Qılman Musayev, Mir Calal, Əli Fərəcov, Şəmsəddin Abbasov və başqaları tərcumə etmişdir. Adıkeçən antalogiyada haqqında oxuçulara ilk dəfə məlumat verilənlərdən biri Vrtanes Parazyan əslən Van şəhərindəndir. Vrtanes Papazyan (1866-1920) Eçmiadzində Gevorkyan məktəbində oxumuş, burada aldığı təhsillə kifayətlənməyib əvvəlcə Bakıya gəlmiş, sonra İstanbula, oradan da Cenevrəyə və Moskvaya getmişdir. Təhsilini başa vurub Zaqafqaziyaya qayıtdıqdan sonra müəllimlik edən

V.Parazyan, sonra İrana gedib, İran xalqının tarixini öyrənməklə məşğul olur, "Aləmgir", "Azərfəza" və "Asi" romanlarını yazır, bədii əsərlərində feodal mütləqiyyətini və İngiltərə müstəmləkəcilərini tənqid edir, xalqı üsyana cağırır. V.Papazyan yaradıcılığının ilk dövrlərində məhdud burjua zehniyyətinin mənfi təsiri altında qalsa da, burjua millətciliyindən "üzaqlaşır", "realist" ədəbiyyat cəbhəsində dayanır, özünu "demokratik" cəbhənin nümayəndəsi kimi göstərir. Yazıları V.Papazyanın qatı millətci olduğunu ortaya çıxarır. Türkiyədə yaşayan ermənilərin həyatından bəhs edən bir sıra hekayə, ocerk və məqalələrində utanmadan erməni zəhmətkeşlərinin "Türkiyə hakim dairələri tərəfindən necə əsarətdə saxlanıldığından" bəhs edən V.Papazyanın qərəzkarlıq etdiyi qabarıq hiss olunur.

Ümumiyyətlə, erməni yazıçılarının əksəriyyətinin mövzu dairəsində təsvir olunan hadisələrin əsas ideyasını türklərə və Osmanlı imperiyasına qarşı yönəldilən qərəzli, məkrli, qatı düşmənçilik hissləri əsas yer tutur. Rus işğalından sonra İrəvan quberniyasının müxtəlif ərazilərində məskunlaşdırılan ermənilər müsəlmanlara qarşı hec bir əsası olmayan iftiralar, böhtanlar atmaqla, müxtəlif dövlətlərin ərazilərində məskunlaşmış, özləri tərəfindən müsəlmanlara qarşı törədilən soyqırımının üstünü ört-basdır etməklə "erməni soyqırımı" adı ilə dünyaya haray salmaq üçün dəridən-qabıqdan çıxmışlar. Erməni millətçiləri qədim Oğuz yurdu İrəvanda-indiki Ermənistanda "Daşnaksutyun"un proqram və məramnaməsində nəzərdə tutulan məsələləri ardıcıllıqla həyata keçirmək üçün müsəlman kəndlərini talan edir, odlayır, uşaqları, qocaları qəddarcasına qətlə yetirir, maddi-mədəniyyət abidələrini darmadağın edir, canını vandalların əlindən qurtaranları isə öz dədə-baba yurdlarından didərgin salır, əraziləri ermənləşdirir, guya dünya ictimaiyyətini çaşdırmaq üçün mətbu orqanlarda, qəzet və jurnallarda, bədii ədəbiyyat nümunələrində "türklərin ermənilərə

qarşı soyqırımı siyasəti yeritdiyini" təbliğ edirdilər.

Məlumdur ki, Azərbaycanın tarixi torpaqlarına, mədəniyyətinə, ədəbiyyatına, musiqisinə ermənilər həmişə qısqanclıqla yanaşıblar. Bu iki xalq arasında düşmənçilik; ixtilaf hər zaman ermənilər tərəfindən törədilib. Onların ardıcıl düşmənçilik siyasəti üçbatından Azərbaycan öz tarixi torpaqlarını hissə-hissə itirib, mədəniyyəti və incəsənəti təxribata məruz qalıb.

Əslən İrəvanlı olan və erməni dilini mükəmməl bilən, professor İsrafil Abbaslı arxiv materialları əsasında tərtib etdiyi "Azərbaycan həqiqətləri" (erməni ədəbi qaynaqlarında) kitabında qədim Azərbaycan-Türk mədəni irsinin erməni mədəni irsindən üstün olmasını tutarlı elmi dəlillərlə sübut edir və erməni alimlərinin fikirlərinə əsaslanaraq belə bir nəticəyə gəlir ki, erməni xalqının mədəniyyətinin, erməni dilinin formalaşmasında Azərbaycan-Türk dili, aşıq və muğam sənəti əsaslı rol oynamışdır. Müəllif qeyd edir ki, bu kitab həqiqətin və keçmişin çoxəsrlik çətinlikləri ilə yaranan erməni mədəniyyətinin nümayəndələrinin (yazıçıların və şairlərin, alimlərin və incəsənət xadimlərinin) Azərbaycan türkləri və Azərbaycan-şunaslıq haqqında olan fikirlərinin və düşüncələrinin əsasında toplanıb hazırlanmışdır. Əlbəttə ki, erməni dilli mənbələrdə tarixi xronikadan başlayaraq (V-XVIII əsrlər) cürbəcür əsrlərə aid olan əlyazmalarda, "xalq kitablarında", şair və yazıçıların əsərlərində, elm və din mütəxəssislərinin araşdırmalarında Azərbaycan türkləri və onların mədəni irsi haqqında olan fikirləri qeyd etməmək mümkun deyil. Təəssüf ki, bu kitabda Azərbaycan mənəvi mədəniyyətinin təsirinin gücü və yayılma dairəsi, təkzib edilmiş, qəbul edilənlər isə, hər şeydən əvvəl, cürbəcür tarixi vaxtlarda yaranan nəticələrdir. Bu gün bu mənbələrə müraciət hazırki zamanın aktual məsələsidir və bir çox suala aydınlıq gətirə bilər. Azərbaycan həqiqətlərini öz ədəbi-bədii və publisist yazılarında etiraf edən erməni tarixçilərinin, ədəbiyyatşünas alimlərinin, yazıçılarının,

folklorşünaslarının qeyd etdikləri maraqlı fikirləri diqqəti özünə cəlb edir. Yeri gəlmişkən, qeyd olunmalıdır ki, ermənilərin Azərbaycan həqiqətləri, erməni–Azəbaycan əlaqələri barədə filoloq alimlərdən Yusif Rustəmzadənin, Əkbər Yerevanlının, Abbas Səmədovun, Teymur Əhmədovun və s. erməni ədəbi qaynaqlarından, qəzet və jurnallardan, rəsmi sənədlərdən zaman-zaman toplayaraq ümumuləşdirdikləri fikirləri Azərbaycan oxuçularına tanışdır. Bunlardan bəzi secmələr dissertasiyada qeyd edilir.

Xacatur Abovyanın erməni dilində nəşr olunan "Seçilmiş əsərləri" (İrəvan, 1950, V cild) səhifə 174-də qeyd olunur ki, "Erməni xalqı tatar (Azərbaycan dilindən) dilindən çox söz və ifadə götürub, hansı ki, bu gün də istifadə olunur... Ancaq öz poetizminə, səslənməsinə və axarına görə, qrammatik nöqteyi nəzərdən tatar dili (Azərbaycan dili) bütün başqa dillər arasında yeganə dildir." Daha sonra X.Abovyanın 1939-cu ildə "Erməni yaraları" əsərində dil məsələsinə toxunur: "Bizim yeni dilimizin (aşxarablar) yarı hissəsi türk və fars dilindən olan sözlərdən ibarətdir. Bu dillər bizim xalqın zövqünü elə oxşayıb ki, ermənilər öz dilini qoyub, türkcə oxumağa, nağıl, atalar sözləri danışmağa davam edirdilər, səbəb? Çünki onlar buna öyrəşiblər", "Xalq – (erməni xalqı) aşxarabar (xalq dili) öz məzmunu və formasına görə qədim erməni dilindən (qrabar) tamamilə fərqlənir və hər cəhətdən tatar (Azərbaycan) dilinə bənzəyir. Adi söhbət zamanı ermənilər nəinki tək sözlər, hətta tam cümlələri və ifadələri türk (Azərbaycan) dilində söyləyirlər." "Türk (Azərbaycan) dili bizdə elə geniş yayılıb ki, onu hətta qadınlar və uşaqlar da başa düşür. Ona görə də, xalq arasında tatar (Azərbaycan) dilində şeirlərin yaranması və oxunması adi hala çevrilib." "Qədim və yeni erməni dilini biribirindən fərqləndirən danışıq manerası və sintaksis quruluşudur. Bu nöqteyi-nəzərdən qədim erməni dili (qrabar) Avropa dillərinə oxşayır, yeni erməni dili (aşxabar) türk (Azərbaycan)

dilinə. Kim bilmir ki, insanın qəlbi qaralanda, hec bir qılınc, hec bir dərman, yuxu – söz, xüsusən də oxşama ifa aşıq havası və bayatı kimi təsir etmir" [3].

Mikael Nalbadyanın (1829-1866) 1940-ci ildə, İrəvanda erməni dilində nəşr olunan əsərlərində (183-184-cu səhifələrində) Türk dili və türk şərqiləri barədə söylədiyi fikirləri də maraq doğurur: "Bu gün türk (Azərbaycanlı) və erməni, demək olar ki, bir diyarda yaşayır. Bu xalqlar eyni təbiətin təsirinə məruzdurlar.Yaxın zamanlara qədər, demək olar ki, bir dövlətin himayəsində idilər. İkisi də Asiyadadır, ikisi də Şərqdəndirlər, xasiyyətcə, danışıq maneraları sarıdan oxşardırlar, səbəb isə, asiyalı olaraq eyni şəraitdə yaşayırlar. Milləti adı və dini ilə seçən insanlar təbii-psixoloji səbəbi başa düşə bilməzlər. Türk erməninin şikayət dolu, kədərli havasına qulaq asıb həzz alır, erməni isə türkün (Azərbaycanlının) ifasından həzz alır. Və onların hər ikisi üçün Betxovenin simfoniyaları, Motsartın "Don Juan"ı "səhrada bir səs" kimi səslənir. Hər birisi min dəfə "Durna, hardan gəlirsən", Koroğlunun "Eyvazın gümüş kəməri" mahnısına, eləcə də Kərəmin və Aşıq Qəribin mahnılarını ifa etməyə üstünlük verirlər".... Qədim melodiyalar və mahnılar "havaların böyük hissəsi türklərdən (azərbaycanlılardan) götrülüb. Ermənilər yaşayan bir çox yerlərdə olmuşam, hər dəfə çalışırdım ki, təmiz erməni sözu eşidim. Ancaq bu günə kimi bu sözu eşidə bilməmişəm." Elə türk (Azərbaycan) sözləri var ki, bütün millət (ermənilər) tərəfindən istifadə olunur. Bu sözlərin əhəmiyyətli mənası qədim erməni dilində olmasına baxmayaraq, türk sözləri xalqın danışıq dilində özünə elə yer eləyib ki, onları öz dialektlərindən "qoparıb" özlərinin çoxdan yaddan çıxmış xalq üçün artıq mövcud olmayan sözlərini dialektlərinə qaytara bilmirlər. M.Nalbadyanın bu fikirləri ilə Qazaros Ağayanın (1840-1911) fikirləri üst-üstə düşür. Q.Aqayanın "Secilmiş əsərləri"nin III cildində (Yerevan,1940, s.25-26, 325-331) və "Secilmiş əsərləri"ndə

(İrəvan, 1939, s, 117), “Daraz” jurnalının 1893-cü ilin beşinci və doqquzuncu nömrələrində “Müasir şifahi erməni mahnıları” adlı məqalədə oxuyuruq: “Erməni dilinin qrammatikası türk (Azərbaycan) qrammatikasına çox bənzəyir, erməni xalqı, aşıqlar onun öyrənilməsində, sonra isə hətta türk (Azərbaycan.) dilində danışmaqda çətinlik çəkmirdilər. Hətta indi də bir çox erməni yazıçısı var ki, türk (Azərbaycan) dilində çox gözəl danışırlar, uzaqda yaşamaqlarına baxmayaraq, ermənilər üçün türk dili əziz, doğma dil kimidir. Onu da qeyd etmək istəyirəm ki, türk (Azərbaycan) dilində ermənilərin asanlıqla mahnı ifa etməyi ondan irəli gəlir ki, iki dilin forması və düşüncə tərzi eynidir.” Erməni aşıqları “mahnıları (şerləri) erməni dilində yox, türk (Azərbaycan) dilində bəstələyirdilər. Erməni dilində oxumaq adəti bizim aşıqlar arasında yayılmayıb” [3].

Q.Ağayan “Secilmiş əsərləri”nin III cildində (Yerevan.1940. 25, 26, 325, 331-ci səhifələri) yazır: “O vaxtların mahnıları arasında “bayatı ən əsas və ən çox yayılmış idı. Əlbəttə ki, elə mahnılar var ki, hansını ki, yalnız aşıqlar bilirdi, ancaq elələri də var ki, aşıq olmayanlar bilirdi. Ancaq bayatını hamı bilir: balacadan böyüyə kimi, qadınlar da, kişilər də. Öz kədərlərini, qəmlərini, qayğılarını bayatıyla ifadə edirdilər; sevgini, xəyallarını, ayrılığı; şikayətlərini, ölənləri üçün göz yaşlarını, bütün fikir və hisslərini bayatı ilə ifadə edirdilər.” Bayatıda “ birinci, ikinci və dördüncü sətir eyni sözlə bitir. Bu söz birinci sətirdə müəyyən deyil, ikinci və üçüncu sətirdə müxtəlif mənalar daşıyır. Ona görə bayatı türk (Azərbaycan) dilində deyilir, çünki türk (Azərbaycan) dilində bir sözün bir neçə mənası ola bilər, erməni dilində belə imkanlar yoxdur. Koroğlunun qəhrəmanlığı ölkəmizin bütün xalqları arasında yayılmışdır. Türklər (azərbaycanlılar) onu türk (Azərbaycan) sayırlar, kürdlər – kürd, ermənilər isə – azərbaycanlılaşmış erməni sayırdılar. Onun türk (Azərbaycanlı)” və kürd dilində olan mahnılarını yalnız ermənilər ifa edirlər, digər xalqlar isə

onun mahnılarını öz dillərində ifa edirlər. Yazıçı və tarixçi Sarkis Mkrtiç isə, Məhsəti Gəncəvi barədə fikirlərini bu cür ifadə etmişdir: "Məhsəti (yəni, "aya bənzər") Gəncədəndir. O, məna ilə dolu olan rubailəri ilə məşhurdur. Məhsəti İslama qarşı olub. O, öz çirkin əməlləri üçün qadınlardan istifadə edən dini fanatlara qarşı çıxırdı... Məhsəti ədəbi arenaya gələnə qədər şairlər öz bəxtsiz talelərindən gileylənirdilər. Ancaq Məhsəti öz şerləri ilə bütün əzab çəkənlərin simasını dəyişdi. Məhsətidən qabaqkı nəsil din tərəfdarları ilə açıq dava aparırdılar. Ancaq Məhsəti hicri təqviminə görə (V əsrdə) onların qadınların hüquqlarını pozan qanunlarına qarşı çıxdı. Məhsəti ömrünün sonunadək qadın azadlığına olan məhəbbətini tərənnum edərək öz ideyaları uğrunda mübarizə aparmışdır."

XIX əsrdə Q.Haxverdyan yazırdı ki, "Allah tərəfdarı olan aşıqlar belə hesab edirdilər ki, erməni dili şeirlərdə yaradan və müqəddəslər haqda oxuyanda lazım olurdu. Dini mahnılar, nəsihətlər erməni sözləri ilə deyilirdi, əks halda, bu dinə qarşı cinayət idi. Ancaq gözəl poetik hisslər fars, türk dilində, hətta osmanlı ləhcəsi ilə ifadə olunurdu." 1875-ci ildə "Mşaq" qəzetinin, 8-ci sayında (erməni dilində) yazılır: "Həsən bəy (Zərdabi) Məlikov adlı ali təhsilli bir gənc türk bütün qadağa və maneələri dəf edərək, ilk dəfə Bakıda türk dilində qəzet dərc edəcək." Leo Arakel Babaxanyan (1860-1932) isə, 1946-cı ildə nəşr olunan "Ermənistanın tarixi" (III cild, s.1072) əsərinə şərhində yazır: "Aşıqlar həyat, məişət haqda olan nağıllarında, mahnılarında türk (Azərbaycan) dilində oxumağı üstün tuturdular, çünki bu dil daha ifadəli, zəngin, axarlıdır, nəinki erməni dili." "Erməni aşıq sənətinin az, demək olar ki, əhəmiyyətsiz bir hissəsi öz ədəbiyyatımıza aiddir. İri əsərlərin böyük hissəsi (dastanlar, qəhrəmanlıq nağılları) türk (Azərbaycan) dilində yazılıb."

"Türk (Azərbaycan) xalqı böyük mədəni inkişaf, həmcinin

hərtərəfli sənət baçarığı göstərir. Bu baçarıq əsasən, şifahi ədəbiyyatda birüzə verir. Şifahi ədəbiyyat atalar sözləri və deyimlərlə zəngindir. Türk (Azərbaycan) xalqı bir çox mədəni dəyərlərin daşıyıcısı olan digər xalqlarla bərabər dünyagörüşün formalaşmasında öz yerini tutur. Türk atalar sözləri rus və digər xalqların atalar sözlərinə bənzəyir. Müqəddəs rəvayətlər kimi, bu atalar sözlərində həkk olunan fikirlər türk (Azərbaycan) xalqı üçün böyük əhəmiyyət kəsb edir. Əsrlərin təcrübəsi bu atalar sözlərində öz əksini tapır. Ona görə onlar müəllif fikirləri kimi təqdim olunurlar. Doğrudan da - atalar sözləridir" [3].

Ədəbiyyat və İncəsənət Muzeyinin Elmi arxivinin "Şirvanzadə fondu" № 143/77 (erməni dilində) saxlanılan Aleksandr Şirvanzadənin (1858-1935) yazısında deyilir: "Sizə məlumdur ki, mən Azərbaycan vətəndaşı olaraq, Vətənimin mədəni məsələləri ilə, xüsusən də türk (Azərbaycan) teatrı və ədəbiyyatının vəziyyəti ilə maraqlanıram. Ona görə də, mən türk xalqının mədəni sferada olan uğurlarını görəndə fərəh hissi kecirirəm. Böyük Oktyabr İnqilabı nəticəsində, doğrudan da, türk fəhlə sinfinin yaradıcılıq ruhu çar zincirlərini sındırmağa nail olmuşdur. Bundan sonra sürətli inkişaf dövrü başlamışdır. Türk (Azərbaycan) teatrının fövqəladə inkişafı məni çox sevindirir." Türk-Azərbaycan dilinin, aşıq sənətinin zənginliyi, şirinliyi haqda fikir söyləyənlər çoxdur. Məsələn, Q.Levonyanın 1944-cü ildə İrəvanda, erməni dilində nəşr olunan "Aşıqlar və onların sənəti" adlı əsərinin 37-ci səhifəsində yazır: "Bu məktəbdə (Azərbaycan – Osmanlı - erməni aşıq məktəbi) hər hansı bir aşığın erməni dilində yazmaq və oxumaq baçarığı nadir haldır. Onlar öz mahnılarını türk dilində, yəni, Osman hökmranlığı dövlətinin dilində bəstələyirdilər" [3]. Şair Avetik İsaakyanın (1875-1957) Azərbaycan ədəbiyyatı və onun klassiklərindən bəhs edən, "Secilmiş əsərləri"ndə (Yerevan,1951, s.44, 97, 99, 156, 157) isə oxuyuruq: "Hacıbəyov öz

operalarını yaradaraq, Azərbaycanın zəngin və bənzərsiz xalq musiqisindən istifadə edirdi. Onun musiqisi erməni xalqı üçün həmişə doğma olmuşdur. Bu musiqi erməni və Azərbaycan xalqlarının yaxınlaşması üçün gözəl vasitə idi. Həmin əsərin 97-ci səhifəsində "Nizami poeziyasının gücü"ndən bəhs edən ifadələrlə tamamlanır. O, daha sonra yazır: "Azərbaycan xalqının bayatılardan ibarət olan zəngin şeir sərvəti var. Təbiətə yaxın olan xalq bayatı vasitəsilə özünün həyatdakı obrazını açmışdır. Bayatı yazanların adları məlum olmasa da, o məlumdur ki, onlar xalqın arasındandırlar. Onlar – övladlarını itirmiş analardır, məcburi köckünlərdir, aşiq olanlardır... Azərbaycan xalqının nəfəsi, bayatının nəfəsi – bütün gözəlliyi ilə dağ havasıdır, həm də qəm, kədər, qüssə, qəhrəmanlıq, əzab-əziyyət deməkdir. ... Erməni xalqı da bayatını çox sevir, bununla belə həm Azərbaycan, həm də erməni bayatılarını böyük məhəbbətlə oxuyurlar. Ancaq Zəngəzurda və Qarabağda yaşayan ermənilər azərbaycanlılar kimi, bayatını yaxından hiss edirlər və öz arzularını bayatı ilə ifadə edirlər."

Ümumiyyətlə, dilimiz, musiqimiz, ədəbiyyatımız haqqında erməni qaynaq-larında məlumatlar çoxdur. Məsələn, 1938-ci il, 20 apreldə "Sovetakan Ayastan" qəzetində (erməni dilində) Nizami Gəncəvi haqqında yazılıb: "Filosof - şair, mütəfəkkir Nizami öz zamanının qabaqcıl ideyalarının təbliğatcısı olub. O (Nizami), bizim üçün, Qafqaz xalqları üçün əziz olduğu kimi, eyni səviyyədə doğma və dəyərlidir. Qafqaz xalqlarının qardaş xalq olması üçün Nizami, öz humanist, azadlığı tərənnum edən ideyaları ilə vasitəçilik rolu oynayırdı. O, həmişə Qafqaz xalqlarının qardaşlıq münasibətlərinin iştirakçışısı olub. Nizami tək Azırbaycan xalqının deyil, bütün Qafqaz xalqlarının fəxridir - azərbaycanlıların, ermənilərin və gürcülərin" [3]. Avetik İsaakyan yazısında Nizamidən bəhs edirsə, Şair Yeğişe Çarents (1897-1937) "Qrakan tert" (Ədəbi qəzet), 10 yanvar, 1935, №1-də Cəfər Cabbarlının ölümü

münasibəti ilə yazırdı: “C.Cabbarlının ölüm xəbəri məni sarsıtdı. Bu məşhur insanla bir neçə görüşdən sonra mənə aydın oldu ki, o, həmin şəxsiyyətdir ki, hansı ki, onun sayəsində tək Azərbaycanın deyil, həm də Zaqafqaziya ədəbiyyatı və teatrı ümumittifaq çərçivəsində məşhurluq əldə etdi. Güclü söz ustadı olan C.Cabbarlı öz əsərlərində bizim beynəlmiləl bolşevik mübarizəmizi qələmə alan qabaqcıl dramaturq idi.”

Klassiklərimizi yüksək dəyərləndirənlərdən biri də akademik Derenik Dəmircyan (1877-1956) idi. O, “Sovetakan Hayıstan” (erməni dilində) 21 sentyabr 1947-ci il sayında Nizami Gəncəvi yaradıcılığı haqqında yazırdı: “ ... Nizami öz əsərlərində Azərbaycan xalqının əsrlərlə yaratdığı mədəniyyətin məzmunu haqqında yazırdı. Beləliklə, o, Azərbaycan xalqının dini mədəniyyətinin ədəbi formasını göstərmişdir. Bir çox nəsillər Nizamidən çox şey öyrənib. Nizaminin yaradıcılığı, zorakılıq hökm edən dövrlərdə belə, doğrudan da, gələcək dircəlişə qulluq edərək insanların urəyində yaşamağa davam edir. İmkan daxilində, Nizami real həyata möcüzə gətirib və Azərbaycan xalq məişəti ilə onu zənginləşdirərək, Azərbaycan və Qafqazın tarixi keşçmişi və coğrafi adlarıyla bağlamışdır...”

Şair Stepan Zoryan isə, “Sovet Ermənistanı” qəzeti, 21 sentyabr, 1947, 222 (erməni dilində) sayında yazır: “Nizami, özünün zamanında yüksəlmiş, gələcək əsirlərə humanist əlini uzatmışdı... Nizami dünyanın böyük şairlərindən biri olmuş, Şərqdə şair, yaradıcı, mütəfəkkir kimi dünya ədəbiyyatının məbədgahında nəhəng söz ustası kimi möhkəm yer tutmuşdur. Biz bu dahi şairi (Nizami) özümüzə doğma sayırıq, ona görə ki, onun əsərlərində nə qədər incə hisslər və fikirlər vardır, onlar bu gün də bizi həyəcanlandırır və bizi düşünməyə vadar edir... Bizim ədəbiyyatşunasların təbirincə, özünun ideya və yaradıcılığı ilə o (Nizami) təkcə öz müasirlərinin deyil, həm də ardınca gələn şairlərin, həmcinin də bir çox orta əsr erməni

şairlərinin yaradıcılığına faydalı təsiri olmuşdur. Biz fəxr edirik ki, Azərbaycan xalqının böyük oğlu və Zaqafqaziyanın gözəl oğlu Hizami mirvarini xatırladan əsərlərini bəxş etmiş, dünya filologiyası dahi şairlər məbədgahında artıq öz yerini çoxdan tutduğuna görə ona (Nizamiyə) minnətdardırlar" [3].

Ümumiyyətlə, yalnız, Nizami haqqında deyil, C.Cabbarlı, H.Cavid, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, M.Ə.Sabir və s. haqqında da gözəl sözlər söyləmişlər. Məsələn, "Xatabala" jurnalının redaktoru Qareqin Ereytsiyan "Sovetskaya Armeniya" qəzetinin 30 mart 1965-ci il, 38-ci sayında (erməni dilində) "Cəlil Məmmədquluzadə barədə yazır: "Mirzə Cəlilin kolleqalarından birinin səhər tezdən "Molla Nəsrəddin"in ilk nömrəsini gətirməsini hec vaxt mən unutmaram və adamı dərin düşüncələrə qərq edən jurnalı mən açdım və oxudum, sonra isə rəsmlərə xeyli baxdım, məndə inam yarandı ki, xalqın sevimlisi olan jurnal o qədər savadlı yazılmış, içtimai məzmunlu, öz qarşısına ciddi, bütün xalqlara gərəkli, ciddi vəzifələr qoymuşdur." "Mən Cəlil Məmmədquluzadə ədəbi, tənqidi və ictimai fəaliyyətini həmişə yüksək qiymətləndirmişəm. O, çox mədəni adam olmuşdur. Az danışar, lakin çox işləyərdi. O, bütün varlığı ilə öz xalqına bağlı idi" [3].

Nairi Zaryan isə, "Kommunist" qəzeti, 28 dekabr, 1936 (erməni dilində) sayında M.Ə.Sabirə həsr etdiyi məqalədə qeyd edir: "Azərbaycanı məşhur ədəbiyyat günləri münasibəti ilə təbrik edir, Zaqafqaziya xalqlarının qardaşlığı uğrunda mübariz, Azərbaycan ədəbiyyatının böyük klassiki Sabirin əziz xatirəsi qarşısında ehtiramla baş əyirəm." Bütün bunlar həqiqətdir. Ədəbiyyatımız, klassiklərimiz haqqında söylədikləri kimi, təcavüzkar Ermənistanın və onun havadarlarının əsassız iddia və tələblərini erməni alimlərinin, tarixçilərinin, siyasətçilərinin və din xadimlərinin özləri də müxtəlif dövrlərdə tənqid və etiraf etmişlər. Bunu aşağıda sadalanan etiraflar, fikir və mülahizələr təsdiq edir. Azərbaycanın tarixçi alimləri

Atamoğlan Məmmədli və Nuridə Allahverdiyevanın Azərbaycan, ingilis, alman, fransız və rus dillərində müxtəlif mənbələrdən toplayıb geniş oxuçu kütləsinə təqdim etdikləri "Erməni elitasının etirafları" toplusundan daha aydın görmək olar. Bu topluda cəmləşən yazıların hamısı deyil, dissertasiyada nəzərdə tutulan dövrə aid olan ümdə məsələlərə diqqət yönəldilmişdir: Qatı erməni millətçisi, türksoylu xalqların bir nömrəli düşməni, əsərlərində türk millətinə hər cür böhtanlar yaxan Zori Balayan iftira və ağ yalanlarla dolu olan "Ocaq" əsərinin 120, 273-cu səhifələrində qeyd edir ki, ...1828-ci ildə məşhur "Türkmənçay" müqaviləsi olmasaydı, Qriboyedov və Abovyan olmasaydı, rus əskərləri olmasaydı, bu gün müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni ocaqları olmayacaqdı... Təkcə son onillikdə (60-70-ci illərdə) Vətənə 200 mindən çox erməni köcmüşdür. A.Lalayan isə, 1918-20-ci illərdəki qırğınlar haqqında 1936-cı ildə Moskvada nəşr olunan "İnqilabi Şərq" jurnalının 2-3 saylarında faktlara istinad edərək yazırdı ki, "Daşnak nümayəndələri ətraflarına çoxlu könüllü dəstələri yığaraq müharibə gedən türk ərazilərində qadın, uşaq, qoca və əlilləri amansızcasına doğrayıb tökürülər." Lalayan Moskvada 1938-ci ildə nəşr olunan "Tarixi yazışmalar" məqaləsinin 79-107-ci səhifələrində isə yazırdı ki, "əksinqilabi daşnak hökumətinin daxili siyasətinin mahiyyəti ölkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalisini fiziki cəhətdən məhv etməkdən ibarət idi" [3].

Erməni tarixcisi Lalayan yazırdı ki, əksinqilabi daşnaq hökumətinin daxili siyasətinin mahiyyəti olkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalisini fiziki cəhətdən məhv etməkdən ibarət idi". Erməni daşnaklarının başçılarından biri olmuş A.Əmiryan yazırdı ki, təkcə İrəvan quberniyasında daşnaklar tərəfindən 200 azərbaycanlı kəndi dağıdılmışdır (Bakı fəhləsi,

28.05.1918.).

ABŞ, İndiaparolis, “Bobbs Meril kompani” nəşriyyatı 1928-ci ildə Ohanes Apresyanın xatirələrindən Leonard Ramesden Hartvill “İnsanlar belədir. 1918-22-ci illər Azərbaycan hadisələri bir ermənինin xatirələrində” məqaləsində göstərir ki, “bir az sakitləşən kimi Şuşanı yenə gördüm. Şəhərin türk məhəlləsində daş-kəsək yığnaqlarından başqa bir şey qalmamışdı. Bütün evlər yandırılmış, onların sahibləri isə öldürülmüşdür. Eyni hal Xankəndindəki türk məhəllələrinin də başına gətirilmişdi... Bakıda ermənilər ingilislərin yardımı ilə böyük neft şəhərini ələ keçirdilər və şəhərin türk əhalisindən 25.000 nəfərini qırdılar.

Amerikalı erməni yazıçısı L.Z.Sürməliyannın “Xanımlar və cənablar, müraciətim sizədir” kitabından isə oxuyuruq: Türklərlə ermənilər arasındakı ziddiyyətlərin yaranmasının səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin amansız qəddarlığının olmasıdır.

Rusiya Federasiyasının Mərkəzi Dövlət Tarix fondunun 880-ci fondunun 5-ci siyahısının 389-cu qovluğunun 18-ci vərəqində Azərbaycan torpaqlarında erməni əyaləti yaradan rus məmurları Çar Rusiyası generalının 1828-ci il mart tarixli ali fərmanını rəhbər tuturdular: “Силойю трактата с Персией, заключенного 10 февраля 1828 г., присоединение к России Ханство Нахчыванское повелеваем во всех велах именовать отныне областью Армянской”.

Çağdaş ermənilərin sevimli yazıçısı Raffi (Akop Melik Akopyan) 1971-ci ildə Hayastan nəşriyyatında çap olunan “Samvel” adlı əsərində, 16-cı səhifəsində erməni etnosunun tarixi haqqında bunları etiraf edir: “Bizim quru tariximiz tarixçiyə çox az bilgi verməkdədir. Bizim ədəbiyyatımız kilsə yazılarından o yana gedə bilməmişdir.” “Quru tarix”ə, “ kilsə yazılarından o yana gedə bilməyən ədəbiyyata” malik olan

ermənilərin inkişafı barədə erməni yazıçısı V.Papazyan isə XX əsrin əvvəllərində yazırdı: “Erməni xalqı tamamilə cahil, avam, vəhşi və başlıcası şüursüz vəhşilər idi. Adamlar daha çox basqın və talançılıqla məşğul olurdular... Onlar bir şimallı kimi təkcə ovla yaşayırdılar.”

1905-ci ildə Londonda nəşr olunan “ İstoriya vostocnoqo voprosa” məqaləsində ermənilərin keçmişi ilə maraqlanan Qarakaşyan yazır: “ermənilərin keçmişi haqqında tarix və ya salnamə sayıla biləcək məlumatlar yoxdur. Marr.H.Y. 1964-cu ildə Tiflisdə çap olunan “O rezultatax tvorcestve Rustaveli i eqo poeme” əsərinin 102-ci səhifəsində gostərir ki, “Bu gün ermənilərin ədəbiyyat sahəsində az-çox nələri varsa, bütün bunlar türk xalqları ilə, xüsusən də sonralar Azərbaycan türkləri ilə qonşu olmaları sayəsində əldə edilmişdir. Bu işdə poeziya sahəsi də istisna deyildir. Erməni müəllifi Qukasyan və akademik M.Abeqyanın belə bir fikri təsdiq edirdi ki, erkən cağlarda erməni poeziyasında qafiyəli şeir Azərbaycan və başqa türk dillərinin təsiri ilə meydana gəlmişdir. Bu fikirləri incəsənət sahəsinə də şamil etmək olar. Belə ki, erməni əsilli akademik Marr, ermənilərin başqa xalqların təsiri altında mədəni cəhətdən müəyyən inkişafa çatdıqlarını belə qələmə almışdır: “Erməni incəsənəti öz yüksək inkişafını erməni çarları dövründə deyil, erməni dövlətinin süqutundan sonra tapmışdı.”

1962-ci ildə İrəvanda (ermənicə) nəşr olunan “Ədəbiyyatda erməni-Azərbaycan dostluğu” yazısının 31-ci səhifəsində Q.Antonyan qeyd edir ki, “Erməni dilində milli koloritli məhəbbət dastanlarının olmaması qabaqcıl fikirli sənətkarları daimi düşündürmüşdür. Təsadüfi deyil ki, ermənilər Azərbaycanın tarixi mədəni nailiyyətləri ilə üzləşmişdilər. Ermənilər vaxtı fovtə verməyərək Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələrini nəinki mənimsədilər, hətta onları utanmadan öz adlarına çıxmağa, özününkuləşdirməyə başladılar, bütün

bunları etiraf edən erməni muəllifi Q. Ağayan yazırdı ki, "bizim aşıqların mahnılarla qarışıq dastanları yoxdur, bunlar ancaq türklərdədir."

1880-ci ilin 161-cı sayında ermənilərin kürd əhalisinə qarşı törətdiyi əməllərdən də bəhs edərək "Mşak" qəzeti yazırdı ki, "Konstantinopol üçün dünən və bugün çox həyəcanlı günlər idi. İyulun 28-də xəbər yayıldı ki, ...Milli intiqam naminə ermənilərin güclü silahlı dəstələri Vaspuraqanın kürd kəndlərinə hüçum edib, 7 kəndi yandırıb dağıdıblar..."

Erməni müəllifləri (Herand Pasdermaciyan və s.) Tehranda 1369- cu ildə farsca nəşr etdirdiyi "Tarixe Ermənistan" kitabının 446-cı səhifəsində təsdiq edirlər ki, kürd əhalisinin qətlə yetirilməsində Daşnaksutun partiyasının xüsusi rolu olmuşdur. Erməni yazıçısı Amayak Siras Moskvada nəşr etdirdiyi "Rodimıy kray" əsərinin 150 - 158-ci səhifələrində qeyd edir ki, 1896-cı ildə ermənilər kürd milli paltarlarını geyinib türklərə hüçumlar edirdilər... Usta Martirosun oğlu Vahanın evində (Bitlisdə) kürdlərin çoxlu milli paltarları vardı. Ermənilər kürd paltarlarını geyinib osmanlı məmurlarına güllə atıb, sonra qaçıb gizlənirdilər ki, türklər onlara silahlı basqın edən şəxslərin kürdlər olduğuna inansınlar və beləliklə türklər ilə kürdlər toqquşsunlar.

Avropa alimlərindən Korte Les Armeniens en Anatholie "P. 52" araşdırmasında erməni etnosunu tədqiq edərək belə bir nəticəyə gəlmişdir: "Türkiyədə sizi aldadan birinə rast gəlmişsinizsə, bilin ki, bu şubhəsiz bir ermənidir. Məmləkətin xüsusiyyətlərinə yaxşı bələd olan Eskişəhərin böyük bir xristian səyyahı mənə təcrübələrini ona - buna öyrətdiyini soylədi: "Bir türk ilə iş görəcəyin halda müqavilə bağlamağa lüzum görmürəm, onun sözu yetər. Amma bir yunan və ya başqa bir xristianla iş görərəmsə, yazılı bir müqavilə bağlaram. Bu, şərtdir. Ermənilərə gəlincə, onlarla yazılı da olsa hec bir müqavilə bağlamaram; çünki hec bir müqavilə onların yalan və

hiylələrinə qarşı bir təminat verməz.” Erməni elitasının etiraflarından bundan da təsirləndirici və bundan da kədərləndirici məzmunda olan çoxsaylı misallar gətirmək olar və onlar istənilən qədərdir [124, 3-50].

Xalqlar dostluğunun tarixi-bədii salnaməsi hər bir xalqın mənəviyyatı olan ədəbiyyatı, yaradıcıları ilə tanınmış söz ustaları və ictimai fikir adamlarıdır. Tədqiqatçı alim Əkbər Yerevanlı özünun “Azəri-erməni ədəbi əlaqələri” monoqrafiyasında Azərbaycanın mütəfəkkir şairi Xaqani Şirvaninin əsərlərindən XIII əsrin görkəmli erməni şairi Firiqin tərcümələr etməşi, erməni mütəfəkkirlərinin dahi Nizami Gəncəvinin dostluq və qardaşlıq ideyaları yayan ədəbi irsini yüksək qiymətləndirərək öyrənilməsini zəruri bildikləri barədə faktlar əsasında söhbət açır. Həmçinin tədqiqatında qeyd edir ki, “Erməni-Azərbaycan xalqlarının ədəbi əlaqələri” kitabının müəllifi Q. Antonyan bu sahədə müəyyən işlərin görüldüyünü söyləsə [18, 221] də, bu əlaqələrin dərindən və hərtərəfli öyrənildiyini deməyə çətinlik çəkir. XIX əsrdəki zəngin olan ədəbi mühitlərin xarakterik cəhətlərini əks etdirən bir dəyərli monoqrafiyanın yazılmadığını vurğulayır. Bu münasibətlərin tədqiq olunub qiymətləndirilməmiş sahələrinin mövcudluğunu xatırladır. Zaqafqaziyanın Rusiyaya birləşdirilməsindən sonra yeni tarixi şəraitdə ədəbi əlaqələrin məzmunu və səciyyəvi cəhətlərin, bir çox mühim ədəbi hadisələr və faktlar, bədii tərcümə, ədəbi tənqid məsələlərini hərtərəfli aydınlaşdırıb-qiymətləndirmək tələbi baxımından qarşıda duran problem məsələlər hələ də birtərəfli təsvir olunmuşdur. Bu tələb 1917-ci ilədək olan dövrə daha çox aiddir. Bu ədəbi əlaqələrin inqilabi-demokratik məzmun kəsb etdiyi, proletar ədəbiyyatı, bolşevik və fəhlə mətbuatı əlaqələrinin tədricən möhkəmləndirilməsi ilə izah olunmalıdır. Lakin bu məsələlərin öyrənilməməsi ədəbi əlaqələrin ümumi mənzərəsini yaradan bir tədqiqat əsərinin meydana çıxmasına imkan vermirdi. Yazılan bəzi əsərlər

əhəmiyyətli olsa da, XX əsrin əvvəllərində azərbaycan-erməni əlaqələrinin inkişaf tarixi haqqında tam təsəvvur yaratmırdı. Bu sözlər Q. Antonyanın adı yuxarıda çəkilən monoqrafiyasına da aiddir. Kitabın əsas nöqsanı müəllifin tədqiqatı birtərəfli aparmasıdır. Bu məsələdə görkəmli alim Şamil Qurbanovun vaxtında soylədiyi fikir indi də öz elmi dəyərini saxlayır: "...Muəllif (Q.Antonyan) Azərbaycan ədəbiyyatını əlaqələrdən danışmaq üçün kifayət qədər bilmədiyindən, kitabda əsas yeri erməni ədəbiyyatı və bu ədəbiyyatdan gətirilən nümunələrə vermişdir. Müqayisədə Azərbaycan ədəbiyyatından hec bir bədii nümunəni fakt kimi gostərməmişdir. Xalqlar arasındakı ədəbi əlaqələr haqqında... əsər yazmaq üçün tədqiqatçıdan onun seçdiyi hər iki ədəbiyyatı yaxşı bilmək tələb olunur" [120]. Bunu onunla əlaqələndirmək olar ki, erməni millətçilərinin şovinist movqeyi daim istər gizli, istərsə də açıq-aşkar bütün məsələlərdə, o cümlədən də Azərbaycan şifahi və yazılı ədəbiyyat nümunələrində aşılanan bəşəri və milli dəyərləri təhrif etməklə, onun obyektivliyini qiymətləndirməyə imkan vermir, tarixi faktları olduğu kimi deməyə dili gəlmir. Türk torpağının çörəyi və suyu ilə yaşayıb mövcudluğunu təmin edən, sonradan türk xalqına, bütövlükdə Türk dünyasına düşmən kəsilən, müsəlmanara qarşı tarixdə görünməmiş qətliamlar törədən ermənilər barəsində dünyanın tanınmış tarixçiləri, səyyahları, siyasətçiləri, şairləri milli və dini mənsubiyyətlərindən asılı olmayaraq öz qeydlərində obyektiv söyləməyi özlərinə insani borc saymışlar. Azərbaycan şairi Nəsiminin şeirlərini əzbər bildiklərinə və xalq arasında yaydıqlarına, inamlarından və etiqadlarından dönmədiklərinə görə Budax Amtesi və Xacatur Tiqranaqertsi "diri-diri soyulmuşlar" [3].

Sayat-Novanın (1712-1795) Azərbaycan, erməni və gürcü dillərində nəğmələr toplusu Zaqafqaziya xalqlarının sülh və mehriban qonşuluq şəraitində yaşamasının parlaq təzahürü kimi görünür. Təəssüf ki, bu belə deyil. "Sayat Nova

dəftəri”ndə toplanan Azərbaycan və gürcü dillərində şeirlər erməni əlifbası ilə yazılmışdır. Şübhəsiz ki, Sayat Nova bu dillərə dərin bələd olmuş, məclislərdə öz kamançasının müşayiəti ilə erməni, gürcü və Azərbaycan dillərində nəğmələri avazla ifa etmişdir. Buna görə də yanlışlıqla dəftərindəki erməni əlifbası ilə yazdığını gürcü və Azərbaycan şeirlərinin müəllifi hesab etmişlər. Zənnimcə, “Sayat Nova dəftəri”ndəki Azərbaycan qoşmalarının üslubu, məzmunu və bədii xüsusiyyətlərini hansı millətə aid olduğundan xəbər verir. Dəftərdə yazılanlar üslubu, məzmunu və bədii xüsusiyyətlərinə görə Azərbaycan xalqına məxsusluğunu təsdiq edir. Mətbuatı xalqla ziyalılar arasında tribuna adlandıran M.Nalbandyan xalqın həyatını düzgün əks etdirən ədəbiyyata güzgu kimi baxır, poeziyanı xalqların tarixi-poetik gündəliyi hesab edirdi. O, insan qəlbini təlatümə gətirən Azərbaycan, erməni və gürcü musiqisindəki bənzərliyi hər üç xalqın təfəkkür tərzinin yaxınlığında, həm də qonşuluq və əməkdaşlıq münasibətlərində görürdü [3]. Sovet Ermənistanı qəzetinin 1957-ci il tarixli sayındakı məqaləsində “İnsan azadlıq üçün yaranmışdır” - deyən M. Nalbandyan Şərq dilləri üzrə alimlik dərəcəsi alarkən Azərbaycan və gürcü dillərindən imtahan vermiş, Azərbaycan dilindən “əla” qiymətləndirilmişdir. Milli qürur hissini xalqlar dostluğunda görən vətənpərvər sənətkar millətçiliyin barışmaz düşməni olmuş, “Qoy hər bir xalq öz milli simasını qoruyub saxlasın” - demişdir [179].

Ümumiyyətlə, Matenadaranda - Ermənistanın Qədim Əlyazmalar İnstitutu mindən artıq əlyazmanın qorunub saxlanması, burada Azərbaycan xalqının qədim tarixinə, ədəbiyyatına və incəsənətinə aid bir çox qiymətli əlyazmaların tədqiqatda səciyyələndirilməsi ədəbi mühitin tarixilik baxımından nailiyyətlərindən xəbər verir. Azərbaycan dilində “Əkinci”, erməni dilində “Mişaq” qəzetlərinin yaradıcılıq istiqamətlərindəki üst-üstə düşən cəhətləri, erməni dilində qəzet və

jurnallarda tanınmış erməni sənətkarlarının ədəbi əlaqələrə dair tarixi həqiqətləri özündə əks etdirən fikirləri, Əkbər Yerevanlının Azərbaycan- erməni əlaqələri, Mirəli Seyidovun Azərbaycan– erməni ədəbi əlaqələri monoqrafiyaları, Fazil Qaroğlunun "Ermənilər və həqiqətlər" tarixi özündə əks etdirən kitabında fəslin ümumi məzmunu və məqsədinə aid tutarlı faktları ehtiva edirlər. Matenadaranda saxlanan Azərbaycan və erməni xalqlarının ədəbi əlaqələrinin tarixiliyinin aparıcı cəhətlərinin hər iki xalqın sənətkarlarının erməni əlifbası ilə yazılmış və Azərbaycan dilində olan əsərlərin hərtərəfli tədqiq olunması, XIX əsrin tarixçilərindən Mirmehdi Xəzaninin "Tarixi Qarabağ" adlı əsərində Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin saraydakı mövqeyinə həsr olunan maraqlı faktlara rast gəlindiyi, Azərbaycan şairlərindən Vaqifin, Vidadinin, Məhəmməd Huseynin, Mirzəcan Mədətovun şeirlərinə və deyişmələrdən nümunələrə nəzər salınması, "Vaqif və başqaları haqqında divanda" 86 vərəqlik məcmuədə azərbaycanca və farsca şeirlər və sənədlər, Vaqifin Səməd bəyə, Qasım bəy Zakirə, Mirzəcan Mədətova yazdığı məktublar böyük əhəmiyyətə malikdir. Həmçinin buradakı fars-azərbaycan və ərəb -azərbaycan dillərində bir neçə lüğətin və Şərqin nəhəng poeziya korifeylərindən Əbülqasim Firdovsinin, Sədi Şirazinin, Əbdürrəhman Caminin, Rudəkinin, Əlişir Nəvainin, Ruminin, Tahirin və başqalarının əsərlərinin saxlanması, bu saysız-hesabsız sərvətlər icərisində ədəbi əlaqələri numayiş etdirən nümunələr xüsusilə diqqəti cəlb edir.

V FƏSİL: AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI VƏ AŞIQ YARADICILIĞI

Folklor başqa xalqlarda olduğu kimi, Azərbaycan xalqının həyatında da özünəməxsusluğu və spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edən bədii yaradıcılıq sahəsidir. Mənası xalq birliyi, xalq hikməti deməkdir. Termin kimi işlədilməsi XIX əsrin əvvəllərindən məqbul sayılmışdır. Onun epik, lirik və dramatik növləri vardır. Əfsanə, nağıl, rəvayət, lətifələr, atalar sözləri, zərbi-məsəl, dastan və sair epik növə, qədim əmək və mövsüm-mərasim nəğmələri, laylalar, bayatılar, aşıq şeirləri lirik növə, xalq dramları və tamaşaları isə dramatik növə aid edilir. Qədim zamanlardan yaranmış, formalaşmış və ənənələrə müvafiq olaraq sabitləşmiş adları sadalanan bu şifahi xalq ədəbiyyatı nümunələrinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır [45,15-35], [67, 131-132], [27, 11-12], [7, 3-5].

Milli mədəniyyətimizin təşəkkül prosesinə İslam dünyagörüşü poetik təfəkkürün əsas mənbələrindən biri olmaqla möhtəşəm aşıq sənətinin formalaşmasına münbit zəmin yaratmışdır. Bu baxımdan Azərbaycan milli mədəniyyətinin əsasını aşıq sənətinin təşkil etdiyini söyləmək mumkundur. Ədəbi-bədii təfəkkürümüzdə gedən milliləşmənin ədəbiyyatda, mifologiyamızda canlanmasını, aşıq yaradıcılığının ədəbi prosesimizin inkişafına güclü təkan verdiyini tədqiqatımızda bir daha yəqinləşdiririk.

Azərbaycanın, xüsusən də keçmiş İrəvan xanlığına daxil olan ərazilərin xalqımızın min illərin o üzündən yol alıb gələn ən qədim tarixi barədə ilkin bilgilər öncə mifik təfəkkürdə, bu təfəkkürün daşlaşdığı mifoloji mətnlərdə günümüzə qədər gəlib çıxmışdır. İrəvan xanlığının Göycə, Vedibasar, Gərnibasar, Zəngibasar, Sərdarabad, Sürməli mahallarını əhatə edən, Azərbaycan, Türkiyə, İran və

Ermənistanın bugünkü dövlət sərhədlərinin kəsişdiyi bir məkanda yerləşən İrəvan çuxuru İrəvan ədəbi mühitinin aşıq yaradıcılığı ilə xarakterizə olunur.

Tarixi-coğrafi mövqeyinə görə, Dərələyəz, Zəngəzur, Gərnibasar və İrəvan mahalları ilə çevrələnən bu ulu diyar yüzillər boyu öz adlı-sanlı, qüdrətli saz-söz istedadına malik adamları ilə şöhrətlənmişdir. Göyçə mahalı ta qədim zamanlardan qaynar folklor həyatına malik region kimi diqqət mərkəzində olmuşdur [28].

Aşıq Ələsgər ocağının yetirməsi, şair sazbənd və tarbənd Pənah (Göyçə) Qurbanovun "Xalq qəzeti"nin 2008-ci ilin sentyabr-oktyabr saylarında bəşər sivilizasiyasını şərtləndirən məsələlərin bir sıra elmi aspektlərini qələmə almış, bütün dövrlərdə bəşər həyatında, onun intellektinin inkişafında incəsənətin bir-biri ilə sıx bağlı olan iki növünün, musiqi və poeziyanın rolunun böyük mənəvi qüvvəyə malik olduğunu elmi cəhətdən səciyyələndirmişdir. İslam dünyagörüşü poetik təfəkkürün əsas mənbələrindən biri olmaqla möhtəşəm aşıq sənətinin təşəkkülünə münbit zəmin yaratmışdır. Məsələyə bu baxımdan yanaşıldıqda akademik Nizami Cəfərovun qeyd etdiyi kimi, aşıq sənətinin Azərbaycan milli mədəniyyətinin əsasını təşkil etdiyini söyləmək daha doğru olar [45]. Ədəbi-bədii təfəkkürümüzdə gedən milliləşmənin ədəbiyyatda, mifologiyamızda canlanaraq ədəbi prosesimizin inkişafına güclü təkan verdiyini aşıq yaradıcılığından, dastanlardan əməli nümunələr gətirməklə fikrimizi tamamlaya bilərik.

Ümumiyyətlə, Türk dünyasında, o cümlədən İrəvan xanlığının əhatə etdiyi ərazilərin folklor örtüyündə şifahi söz sənəti və aşıq yaradıcılığı, bütövlükdə ədəbi mühitin formalaşmasından müstəsnalıq təşkil edir. Əsrlərdən nəsillərə gəlib çatan şifahi xalq ədəbiyyatının çoxsaylı janrlarının nümunələri mühitin tarixi özünəməxsusluğu barədə daha əhatəli təsəvvür yaradır. Azərbaycan Milli Elmlər Akademiyası

Ədəbiyyat İnstitutu, Şifahi xalq ədəbiyyatı şöbəsi və Folklor İnstitutunun son illər ərzində ayrı-ayrı bölgələr üzrə toplayıb Azərbaycan folkloru antologiyası seriyasından nəşr etdirdiyi kitablar maraq doğurur [28].

Azərbaycan xalqının əsrlərdən bəri bugünkü nəslə gəlib çatan bədii sənət inciləri içərisində şifahi xalq ədəbiyyatı əvəzsiz bir xəzinə kimi diqqət mərkəzində olmuş və tarix boyu da diqqət mərkəzində olacaqdır. Oğuz ellərindən olan Şərur-Dərələyəz, Göyçə, Vedibasar, Gərnibasar, Zəngibasar, Sərdarabad, Sürməli mahallarında da xalqımızın müxtəlif dövrlərdə yaratdığı nağıllar, əfsanələr, dastanlar, bayatılar, tapmacalar, laylalar, lətifələr, aşıq şeirləri və s. məclislərin, ağır el yığnaqlarının bəzəyinə çevrilmişdir. Bu yaradıcılıq nümunələri zehinlərə iz sala-sala, yaddaşlara yazıla-yazıla yeni-yeni sənət nümunələrinin yaranmasına, istedadlı sənətkarların üzə çıxmasına öz təsirini göstərmişdir. İrəvan xanlığı və onunla həmsərhəd mahallarda dünyaya göz açan hər bir şəxs şad günündə də, qəmli vaxtlarında da saza bağlanmış, sevincini də, dərdini də aləmə sazla car etmişdir.

Tarixi-coğrafi mövqeyinə görə Dərələyəz, Zəngəzur, Gəncəbasar və İrəvan mahalları ilə çevrələnən Göyçə mahalı yüzillər boyu öz adlı-sanlı adamları, mərd-igid bahadırları, bir də qüdrətli saz-söz istedadına malik adamları ilə şöhrətlənmişdir. Əsasən, dağlıq ərazidə yerləşən öz ətrafında yüzdən çox kəndi cəmləşdirən Göyçə mahalı çox-çox qədim zamanlardan qaynar folklor həyatı üstünə köklənmiş regionlardan biri kimi şifahi Azərbaycan ədəbiyyatının qaynar ocaqlarından olmuşdur. Bu da səbəbsiz deyildir. Göyçə mahalının təbii gözəllikləri, buz bulaqları, ayna suları, dərin dərələri, sərt qayaları, yaylaqları, mərd və cəsur insanları xalq yaradıcılığının inkişafı üçün münbit zəmin olmuşdur. Çünki saz-söz mühiti təkcə istedadlı sənət adamlarının yaradıcılığı ilə yox, həm də "tarixi-coğrafi ərazinin, iqlim şəraitinin, güzəran

biçiminin və yaşam tərzinin bir toplu, bir bütöv halında" [112, 176] vəhdət yaratması ilə meydana gəlir. Bu mənada Göyçə mahalının təbii-coğrafi [209] relyefdən tutmuş etnoqrafik həyat tərzinəcən bütün atributları istər zəngin folklor arealının, istərsə də koloritli saz-söz mühitinin təşəkkül tapmasına güclü təkan verə bilmişdir. Orta əsrlərdən etibarən Göyçədə gündən-günə güclənən sənət ahənginin özülü el həyatının xarakteri, həmin çevrənin axar-baxarlı, bar-bəhrəli zəngin iqlim şəraiti ilə birbaşa bağlı olmuşdur. Təbiətin iqlim gözəlliyi el-ulusun mənəvi dünyasındakı zənginlik və gözəlliklə biri-birini tamamlamışdır. Dədə Qorqud boylarında adı çəkilən Göyçənin sözu-söhbəti də yüzillər boyunca oğuz ruhuna bağlı qalmışdır. Bu mahalın elat danışığı öz kaloriti, canlı və obrazlı dinamizmi ilə əsl folklor dili kimi araşdırıcıların diqqətini cəlb etmişdir. Göyçə sinədəftər ağsaqqal-ağbircəklərin, zəngin repertuara malik söyləyici-informatorların sıx şəkildə məskun olduğu folklor bölgələrindən biri olmuşdur. Burada saza-sözə hədsiz bağlılıq və qeyri-adi həssaslıq mövcud olduğundan hər əlinə saz götürən Göyçədə özünü sənətkar elan etməyə cəsarət etməmişdir. Saz çalmağı, söz oxumağı bu eldə uşaqdan-böyüyə hamı baçarmışdır. Saza-sözə toydan-toya, məclisdən-məclisə deyil, demək olar ki, hər gün müraciət olunmuşdur. Saz-söz, poeziya göyçəlinin gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Göyçəyə məxsus folklor mühitinin formalaş-masında qissəxan-dərvişlərin, dünyagörmüş qocaların, el sinədəftərlərinin, mollaların, aşıqların söylədikləri qaravəllilər, hədislər, sehrli nağıllar, məhəbbət və qəhrəmanlıq dastanları mühim rol oynamışdır.

1. Ədəbi mühitin folklor örtüyü və Göyçə mahalında formalaşan sənətkarlar

İrəvan ədəbi mühitinin folklor örtüyü bütün zamanlarda özünun rəngarəngliyi ilə seçilmiş, məzmun, forma, ideya cəhətdən təkmilləşən, bu və ya digər növə aid şifahi xalq ədəbiyyatı nümunələri bütün dövrlərdə öz dəyərini saxlamışdır. Yazıya köçürülməmiş nümunələr ağızdan-ağıza, nəsildən-nəsilə keçərək yaşamış, ümumən folklora daxil olan bütün növ əsərlər xalqımızın həyatında onun özü ilə birgə yaşamış və yaşamaqdadır.

Göyçədə ilk el aşığı kimi tanınan **Ağ Aşığın, el şairlərindən Almənmədin, Məmmədhuseynin, ustad aşıqlardan Aşıq Alının, Aşıq Məhərrəmin, Aşıq Musanın, Molla Tağı oğlu Məhəmmədin, Mərzə Bəylərin, Şair Aydının, Aşıq Əzizin, Şair Məhəmmədin, Usta Abdullanın, Şair Əbulfərin Aşıq Ələsgər** ocağından çıxan çoxsaylı sənətkarların həyatı, yaradıcılıq və ifaçılıq qüdrəti Göyçə aşıq mühitinin təşəkkül və inkişaf özünəməxsusluğundan soraq verir [8]. Adları qeyd olunan bu ulu sənətkarlar öz yaradıcılıq-larında şifahi xalq ədəbiyyatından bəhrələnmiş, xalqın ruhunu, mənəviyyatını, onun müdrikliyini, milli xüsusiyyətlərini yaratdıqları sənət əsərlərində koloritə çevirmiş və poetik məharətlə ifadə etmişlər [67].

Bəllidir ki, Göyçə aşıq mühiti özünun ən kamil və yetkin çağlarını XIX-XX yüzilliklərdə keçirmişdir. Lakin həmin sənət zirvəsi hec də birdən-birə fəth olunmamışdır. Əvvəlki yüzilliklərdə gedən yaradıcılıq axtarışları, xalq ruhundan gələn mənəvi-estetik təkanların cilalandırıcı, kamilləşdirici gücü, ecazkar folklor örnəklərinin yaratdığı tükənməz bədii potensiya uzun bir zaman ərzində **Aşıq Ələsgər, Aşıq Musa, Aşıq Nəcəf**, Məmmədhuseyin, Növrəs İman, Aşıq Talıb ucalığının poetik üslubi təşəkkülünü hazırlamışdır.

Ümumiyyətlə, Azərbaycan klassik aşıq sənətinin təcrübəsinə dərindən yiyələnən, digər aşıq mühitlərində yetişmiş Qurbani (Dirili), Abbas Tufarqanlı, Xəstə Qasım, Abdal Gülablı, Aşıq Valeh və başqa bu sıradan olan ustadların saz-söz irsini incəliyinə qədər mənimsəyən, qədim türk dastançılıq ənənələrini, o cümlədən də Azərbaycan xalq dastançılığının sənətkarlıq keyfiyyətlərini yaradıcı şəkildə əks etdirən Göyçə mühitinin özü də unikal sənət örnəkləri – saz-söz inciləri, dolğun dastanlar, zərif aşıq havaları ortaya qoymuşdur. ”Göyçə gözəlləməsi”, “Köhnə Göyçə”, “Göyçə-gülü”, “Göyçə Qaragözü”, “Heydəri”, ”Nəcəfi”, “Ağır Şərili”, “Şahsevəni”, “Məmmədsoyünü” kimi melodik zənginliyə malik saz havaları Göyçə aşıq mühitinə məxsus bəstəçiliyin tarixi yadigarlarıdır.

Göyçə aşıq mühitinin sənət mənzərəsi gostərir ki, bu mühit əvvəlki yüzilliklər ərzində hazırlanmış tarixi təcrübəni həm ifaçılıq, həm də yaradıcılıq istiqamətində uğurla davam etdirmişdir. Sözu gedən mərhələnin sənət həyatının bağlı olduğu ilkin qaynaqları ümumiləşdirici bir baxışla nəzərdən keçirdikdə görürük ki, XIX əsr Göyçə aşıq mühitini ərsəyə gətirən tarixi yol İrəvan xanlığına daxil olan digər ərazilərdə də saz-söz adamlarının sənət həyatı qarşılıqlı şəkildə bəhrələnməyə şərait yaratmışdır. İrəvan xanlığı ərazilərinin folklor örtüyü, xüsusən aşıq sənəti tarixi baxımdan sufi-dərviş ocaqları ilə sıx şəkildə təşəkkül tapmışdır. Bu mühitin yaranmasında məşhur Miskin Abdal ocağının misilsiz rolu olmuşdur. Bir tərəfdən Miskin Abdal ocağından çıxan dərviş-aşıqlar, başqa bir tərəfdən də kənardan gələn (əsasən Cənubi Azərbaycandan) missioner haqq aşıqları Göyçə aşıq sənətini bicimləndirmiş, bu hal ətraf ərazilərə də öz təsirini gostərmişdir.

Miskin Abdal Göyçənin Zərgərli (Sarıyaqub) kəndində Məhəmməd kişinin ailəsində dünyaya göz acmışdır. Onun əsl adı Huseyn olmuş, həyatı qeyri-adiliklər icində kecmişdir.

Atası Məhəmməd (Məmmədcəfər) Şah İsmayılın atası Şeyx Heydərin yaxın dostu olmuşdur. Rəvayətə görə Şah İsmayıl öz Qızılbaş dəstəsi ilə Şirvan tərəfə üz tutarkən Göyçə mahalından kecməli olur. Hər yerdə yüksək hörmət və məhəbbətlə qarşılanan gələcək Azərbaycan şahı bu mahalın təbii gözəlliklərinə, adamlarının dini təəssubkeşliyinə heyran qalır [112]. Bu görüşdə müsəlmançılığın, islamın güclənməsində Miskin Abdal adlı bir şəxsin xüsusi əməyi olduğunu ona deyirlər. Şah İsmayıl üzünü görmədiyi, lakin hədsiz məhəbbətlə sevdiyi bu din xadimi ilə görüşur. Görüşdə Miskin Abdal İsmayıla saz bağışlayır. O, çox xoşhal olur. Vəd edir ki, zəfərlə qayıtdıqdan sonra yenə bu torpaqdan (Göyçə mahalından) keçəcək, bu ulu torpağın, onun qədirbilən xalqının qonağı olacaqdır. Xalq onu böyük ehtiramla yola salır. Miskin Abdal Şah İsmayıla uğurlar, qələbə diləyir. Yürüşünü zəfərlə başa çatdıran İsmayıl vədinə əməl edir... Göyçədən özü ilə Təbrizə on iki aşıq aparır. Miskin Abdalı da saraya dəvət edir. Deyilənə görə, bundan sonra onların bir çox görüşləri olmuş, aralarında səmimi dostluq münasibəti yaranmışdır. Ustad aşıqların söylədiyinə görə "Şahsevəni" saz havasını da Miskin Abdal Şah İsmayılın şərəfinə bəstələmişdir.

Miskin Abdalın şeirlərində "Qocadağ", "Maymaqdağ" və başqa bu kimi yer adlarının çəkilməsini nəzərə alan bəzi tədqiqatçılar onun gah Qazaxda, gah Hallavar Pəmbəyində, gah da Gədəbəydə anadan olduğunu göstərməklə çaşqınlıq yaratmışlar. Dəqiq elmi mülahizələrə əsaslanmadan tarixi faktları saxtalaşdırmışlar. Miskin Abdalın əzəli və əbədi yeri Sarıyaqub kəndi olmuş, ona Səfəvi dövləti tərəfindən verilmiş şəhadətnaməyə vurulan möhürün ortasındakı "1515" rəqəmi, bu şəhadətnamənin 1820-ci ildə Göyçə mahalının Çaxırlı kəndinin kəndxudası tərəfindən yenidən təsdiq edilməsi barədəki sənəd də deyilənlərə tutarlı subutdur [91].

Miskin Abdalın zəngin yaradıcılığı olub. Onun

“Unutma”, “A dağlar”, “Düşərsən” rədifli qoşmaları aşıq şeirinin ən yaxşı nümunələrindəndir [38]. Bu şeirləri Gədəbəy rayonunun Çalburun kənd orta məktəbinin müəllimi Vaqif Məmmədovun yaddaşından köcürüb ilk dəfə oxuçulara təqdim edən filologiya elmləri namizədi Yaqub Babayev olmuşdur.

Sonrakı yüzilliklərdə Miskin Abdalın ocağına mənsub dərviş-aşıqlar, eləcə də təsəvvuf dünyagörüşünü mənimsəmiş ustadlar Miskin Abdalın fikir və düşüncələrinin, o cümlədən də şeirlərinin Göyçə mühitində və onun təsir dairəsində olan yaxın bölgələrdə yayılmasına məxsusi diqqət yetirmişlər. Miskin Abdalın saz-söz irsi isə Göyçədə sənət mühitinin püxtələş-məsinə ölçüyəgəlməz dərəcədə güclü təsir göstərmişdir.

Qeyd edək ki, Miskin Abdal yaradıcılığının toplanması və nəşri sahəsində görülən işlər diqqətəlayiqdir. Onun 11 gəraylısı, 3 təcnisi, 1 deyişməsi, 6 divanisi, 23 qoşması, “Miskin Abdal və Sənubər”, “Aslan Şahla İrvahımın nağılı”, “Miskin Abdalla Şah İsmayıl” dastanları görkəmli tədqiqatçı filoloq alim Huseyn İsmayılov tərəfindən kitab halında nəşr edilmişdir [134]. Bizim tədqiqat çevrəmizə daxil olan XX yüzilliyin iyirminci illərində Növrəs İman Miskin Abdal irsini mənimsəməyin istisnasız olaraq Göyçə aşıqlığının şərti olduğunu vurğulamışdır:

Yaxşı bəyənmişəm Miskin Abdalı,
Cəm imiş başında huşu, kamalı.

Göyçədə aşıq sənətinin inkişafında mühim rol oynayan sənətkarlar sırasında Ağ Aşığın sənət fəaliyyəti də müstəsna tarixi əhəmiyyətə malikdir. Mərənddə Huseyn Sərdarın aşığı olmuş **Ağ Aşıq** XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamışdır. Əsl adı Allahverdidir. Basarkecər rayonunun Qanlı kəndindən olan Aşıq Mehdinin söylədiyinə görə Mərənddən baş götürub Dərələyəzə, oradan da Göyçənin Kərkibaş kəndinə pənah gətirən Ağ Aşıq burada məskunlaşmışdır. O, birinci dəfə Göyçənin Zod kəndində keçirdiyi toy şənliyində söylədiyi

dastanla hamını heyran etmişdi. Dinləyicilərin dastanı ilk dəfə eşitdiklərini və onlara böyük təsir bağışladığını bilən Ağ Aşığın qırx gecə heç kəsin hələ eşitmədiyi nağılları, dastanları söyləmək qabiliyyəti alqışlarla qarşılanmış, camaatın xahişi ilə qırx gün bu kəndin qonağı olmuşdur. Səsi-sorağı mahalın hüdudlarından çox-çox uzaqlara yayılan Ağ Aşığın sazlı-sözlu dünyası onlarla sənətkarın yetişməsində, bir ədəbi məktəb kimi formalaşmasında öz təsirini gostərmişdir. Onun dillər əzbəri olan qoşmalarından istifadə edən aşıqlar yaradıcılıqlarını daha da zənginləşdirmişlər. Əslində, XIX-XX yüzilliklərdə Göyçədə fəaliyyət göstərən aşıqların demək olar ki, əksər qisminin sənət şəcərəsi birbaşa Ağ Aşığa (Allahverdiyə) bağlıdır. Bu fakt belə deməyə əsas verir ki, Göyçə aşıq sənətinin ideya-estetik başlanğıcı fəlsəfi-ürfani status kimi Miskin Abdal ocağına söykənirsə, mahalda sənət iqlimi Ağ Aşıq Allahverdi ilə hərəkətə başlayır:

Bir maral baxışlı, tərlan cilvəli,
Gəlib məni gördü, güldü, qayıtdı.
Pünhanı göstərdi gül camalını,
Buxağına şəbnəm doldu, qayıtdı.

Gözləyərkən gözlərimə sataşdı,
Xəstə canım eşq oduna tutuşdu.
Şəhrayıdan qıya baxıb ötüşdü,
Ağ Aşığa nəzər saldı, qayıtdı.

Ağ Aşığın bu kimi şeir nümunələrinə sonrakı dövrlərdə təkcə Göyçədə deyil, Tovuz, Borçalı və Kəlbəcərdə də çoxsaylı nəzirələr qoşulmuşdur [18, 35]. Heyif ki, onun yaratdığı qiymətli saz-söz inciləri hələ də tam şəkildə yaddaşlardan toplanıb xalq ədəbiyyatı xəzinəsinə təhvil verilməmişdir. Onun yalnız "Olmaz" və "Qayıtdı" rədifli qoşmaları aşıqlar kitabında nəşr edilmişdir [18, 36].

Bir çox tədqiqatçılar və **Ağ Aşığı** öyrənənlər uzun müddət Allahverdi adlı aşıqların və el şairlərinin şeirlərini bir nəfərin adına – Kərkibaşlı Ağ Aşıq təxəllüslü Allahverdinin adına yazmışlar. Bu da onun tərcümeyi-halında qeyri-dəqiqliyin yaranmasına səbəb olmuşdur. Bu pərakəndəliyə Ə.Şamilov özünun "Aşıq Alının ustadı kimdir?", "Bir daha Ağ Aşıq haqqında" [184] məqalələrində Kosacanlı (Şərur) Ağ Aşıqla Kərkibaşlı Ağ Aşığı bir-birindən ayırmışdır. Bütün tarixi mərhələlərdə Ağ Aşıq sənətinə Göyçədə böyük ehtiram göstərilmiş, mühitin yetişdirdiyi bütün aşıqlar onu özlərinin ustadı saymışlar.

XIX əsr Göyçə ədəbi mühitinin tanınmış el şairlərindən Daşkəndli Məmmədhuseynin (1800-1880) yaradıcılığı da sonrakı dövrlər üçün bir məktəb rolunu oynamışdır. Onun dillər əzbəri olan qoşma, gəraylı, təcnis, divani, müxəmməs və deyişmələri yeni yaradıcı qüvvələrin yetişməsinə əvəzsiz təsir göstərmişdir. Şeirlərinin mayasını düzlük, səmimiyyət, mərdlik, igidlik, halallıq, duz-çörəyə sədaqət, şöhrətə uymamaq, xəyanətkarlıqdan uzaq olmaq kimi mühim cəhətlər təşkil edir. Bütün zamanlarda Göyçə mahalında bu insani keyfiyyətlərə xüsusi diqqət yetirilmişdir. Şair Məmmədhüseyn də insani keyfiyyətlərin yüksək bədii dildə tərənnümünə ayrıca fikir verən bir sənətkar olmuş, şeirlərində bu qayəni ifadə edən orijinal ifadələr, atalar sözü və aforizmlər işlətməyə daha çox diqqət yetirmişdir. Məsələn, "Yəni nə" rədifli qoşmasındakı "Namərd ilə ülfət qılmaq yəni nə?", "Müxənnətlər yaxşı gündə dost olur", "Həqiqət şərtilə baxgilən sözə", "Ağıl bir qumaşdır kimsənə satmaz. Əsli comərd olan zikrsiz yatmaz", "Gedən getdi, daha geri qayıtmaz" kimi nəsihətamiz misralar onun könül dünyasının əsas cizgilərini əks etdirir.

Şair Məmmədhuseyn yaradıcılığı XX əsr Göyçə ədəbi mühitini **Molla Şəfi qızı Başxanım, Aşıq Savad, Aşıq Nəcəf, Həsən Xəyallı, Aşıq Alqayıt, Aşıq Hacı, Qəmgin Fəzi,**

Sərraf Şuriyə, Coşqun Ağababa və digər el şairlərinin sənət yoluna işıq salmış, doğma kəndi Daşkəndin adını saz və sözlə əbədiləşdirmişdir. "Məmmədsöyünü" adlı güclü melodik təsirə malik saz havası da aşıq sənətinə onun yadigardır.

Göyçənin sazını-sözunu dünyaya yayan sənətkarların ən görkəmlilərindən biri də 1801-ci ildə Göyçənin Qızılvəng kəndində dünyaya gəlmiş Mirzə oğlu Aşıq Alıdır. 17 yaşında aşıqlığa başlamış Aşıq Alı bir çox saz havalarının yaradıcısı olmuşdur. Məşhur Ağ Aşığın yanında şagirdliyə başlayan Aşıq Alı özü sənətkar kimi yetkinləşdikdən sonra **Aşıq Ələsgər, Aşıq Məhərrəm, Aşıq Qulu, Aşıq Məsim, Aşıq Meydan və Aşıq İsa kimi** sənətkarlara ustadlıq etmişdir. Çoxsaylı şagirdlər yetirən Aşıq Alının özündən sonra gələn aşıqların yaradıcılığına müsbət təsiri olmuşdur. Onun şeirlərindəki vətən məhəbbəti, el dərdi, mənəvi saflıq, təbiətin gözəlliklərinin qorunması məsələləri çox sənətkarlıqla nəzmə çəkilmiş, zamanın dözülməzliyinə, varlıların ədalətsizliyinə, din xadimlərinin riyakarlığına qarşı barışmaz fikirlər öz bədii ifadəsini tapmışdır. Aşıq Alının "Getdi", "Dolandırır", "Diyarında" rədifli qoşmalarındakı poetik fikirlər deyilənlərə nümunədir. Onun bu qəbildən olan şeirləri ölümündən sonrakı dövrlərdə də poetik yaradıcılıqda özünəməxsus iz buraxmışdır.

On ildən artıq Ağ Aşığa şəyirdlik edən Alı ustadı ilə Yaxın Şərq ölkələrinə - İrana, Türkiyəyə, Qafqazın vilayətlərinə səfərlər etmiş, məclislər aparmış, ərəb, fars dillərini öyrənmiş, İslam görüşlərinə dərindən bələd olmuşdur. O, bütün türk dünyasına əvəzsiz mədəniyyət inciləri bəxş edən aşıq sənətini mükəmməl öyrənmiş, onu yeni poetik incilərlə zənginləşdirmişdir. Həmin dövrün yaradıcı aşıqları və el şairləri Aşıq Alı şeirlərinin təsiri altında bir çox qoşma və gəraylılar söyləmişlər. Bütövlükdə, XIX əsr Göyçə aşıqlığı kimi XX yüzillikdəki aşıqlıq da öz repertuarında Aşıq Alı irsinə geniş yer vermiş, onun ifaçılıq [142, 15] məharətinin və

yaradıcılıq keyfiyyətlərinin qorunub yaşadılmasına xüsusi diqqət yetirmişdir.

Alının Bəsti adlı bir qadınla ailə qurması və həyat salnaməsinə "Bəstinamə" adlı dastan qoşması, şeirlərinin əksəriyyətini ona həsr etməsi də bir tarixdir:

Həbibimdi, təbibimdi Bəsti yar,
Uydu könlüm o dildara dolandı.
Vəfasız dünyanın vəfalı yarı,
Əmr eylədi, düz ilqara dolandı.

Yazı haxdan oldu, o, doldu yandı,
Hərdən əbri təki o, doldu yandı.
Sevda aləmində od oldu, yandı,
Alı səməndərdi, nara dolandı.

Aşıq Alı usdad Ələsgərlə, başqa şəyirdləri ilə Türkiyədə olmuş, Anadolu kəndlərində toy məclisləri keçirmişdir. "Aşıq Alının Türkiyə səfəri" dastanı da bu səfər zamanı yaranmışdır. Onun aşıqlar tərəfindən el şənliklərində oxunan şeirləri indi də məclislərin bəzəyidir.

Göyçədə aşıq şeirinin inkişafına güclü təsir göstərmiş el sənətkarları çoxdur. 1825-ci ildə Şişqaya kəndində anadan olmuş **Şişqayalı Aydın** da bunlardan biridir.

Uşaq yaşlarından həyatın acı sınaqlarına sinə gərmiş Aydın ömrünü əzab-əziyyət içərisində keçirmişdir. Nökərçilik etmiş, savad almağa imkanı olmamışdır. Şeirə, sənətə uşaqlıqdan könül vermiş, sazlı-sözlu Göyçə məclisləri onun mənəvi məktəbi olmuşdur. Aydın 15-16 yaşlarından bədahətən şeir söyləməklə yaradıcılığa başlamış, toylarda, el şənliklərində özünün bamәzə hərəkətləri, gülməli söhbəti ilə camaatı əylən-dirmişdir. Sazın-sözün coşub-cağladığı, ustad sənətkarların məclis qurub cövlan elədiyi bir mahalda şair adını qazanmaq həm Aydını, həm də onun doğma kəndi Şişqayanı dillər əzbərinə çevirmişdir. Çoxları ona ustad yanına getməyi, aşıq

sənətini öyrənməyi məsləhət görsə də o, bənnalıq etməyi, papaq və kürk tikməyi üstün tutmuşdur. Şeir, poeziya isə ömrü boyu onun varlığına hakim kəsilmişdir. Dövrün, zamanın ziddiyyətləri, həyatın məşəqqətli anları ilə qarşılaşan Aydın, yaradıcılığında ictimai-siyasi motivləri təsvir etməklə haqsızlığa, ədalətsizliyə dözməyərək xalqın istək və arzularının tərənnümçüsü olan el sənətkarı zirvəsinə yüksələ bilmişdir. Şairin zülmə, ədalətsizliyə qarşı yazılmış şeirlərindən təsirlənən kənd yoxsulları 1877-ci ildə varlı torpaqlarının bölüşdürülməsinə cəhd göstərmişlər. Bundan təşvişə düşənlər el şairinə qəsd etmək, onu aradan götürmək istəmişlər. Bundan xəbər tutan şairin böyük qardaşı Eyvaz qəsdin təşkilatçısını aradan götürmüşdür... Aydın qardaşları Eyvaz və İsmixanla birlikdə Sibirə sürgün edilmişdir. El sənətkarının həyatının ağır illəri onu çətin imtahanlar qarşısında qoysa da, vətənindən uzaqlarda yaşaması onun məğrur ruhunu, gələcəyə olan nikbin inamını qıra bilməmiş, gələcəyə ümidlə baxmışdır:

Qəm eyləmə, dəli könül,
Ağlayanlar gülər bir gün.
Rəhmə gələr çərxi fələk,
Göz yaşını silər bir gün,

Üzun müddətli sürgün həyatını başa vuran el şairi vətənə qayıtdıqdan sonra bir müddət Bakıda fəhləlik etmişdir. Özünün ictimai-siyasi məzmunlu bir sıra şeirlərini də məhz "neft və milyonlar səltənəti"ndə yaratmışdır. 1892-ci ildə vətəninə dönən **Aydını** el-obası böyük məhəbbətlə qarşılayır. Bu səmimi görüşdən qəlbi riqqətə gələn şair iztirab, kədər, qüssə dolu xatirələrini poetik misralarla ifadə etmişdir. Aydın yaşadığı sirli-sehrli dünyanın keşməkeşlərinə həssaslıqla yanaşan, düşünən və düşündürməyi baçaran qüdrətli bir el sənətkarı idi. Həyatın ağır imtahanları ilə üzləşməyə məcbur olmuş bu əyilməz insanın yaradıcılığında zaman və onun fitnə-fəsadları öz dolğun bədii təcəssümünü tapmış, şeirlərində çox zaman

ünvansız olsa da dövrün eybəcərlikləri kəskin ittiham və etiraz obyektinə çevrılmişdır:

Üzün qara olsun, ay cərxi-fələk,
Kimləri gör kimə möhtac eylədin.
Qızılı tullayıb zibilliklərə,
Sən misi götürub bir tac eylədin [142, 38].

Göründüyü kimi, Aydın təbiəti, onun əsrarəngiz gözəlliklərini tərənnum edərkən mahir bir rəssama çevrilir. Onun şeirlərini oxuduqca gözlərimiz önündə ecazkar, poetik tablolar - dağlar, laləli, nərgizli çöllər, durnagözlu bulaqlar canlanır:

Xəyal məni bir cənnətə aparır,
Gözümün önündə bağlar görünür.
Hündürlü-alçaqlı səf çəkib duran
Yamacı yamyaşıl dağlar görünür.

Aydın yaradıcılığında Göyçə gözəllərinin təsviri, onların ülvi və təmiz məhəbbəti diqqəti cəlb edir:

Göz var ki, adamın qəlbini sıxar,
Göz də var aşiqin evini yıxar.
Aydınam, çətin ki, yadımdan çıxar,
Canımı odlara yaxan gözlərin.

Xalq təfəkkürunə və danışıq dilinə yaxınlıq, sadəlik, təbiilik, səmimilik Şişqayalı Aydın poeziyasının mayasıdır. Onun şeirlərinin bədii dilin ahəngdarlığı, yığcamlığı ilə oxuçu qəlbinə asanlıqla yol tapması da bu səbəbdəndir. Şairin "Deyirlər", "Görünür", "Gözlərin", "Gəlsin", "Endi", "Bir gün kimi" rədifli şeirləri məclislərimizdə aşıq və müğənnilər tərəfindən sonsuz məhəbbətlə oxunur. İ. Ələsgərov öz namizədlik dissertasiyasında "Endi", "Gəlin" şeirlərinin Aşıq Talıbdan və Aşıq Ağayardan yazıya alındığını göstərmişdir [67]. Onun "Yaralıdı", "Düşdü" şeirləri ilk dəfə 1964-cü ildə "Telli saz ustadları" kitabında çap edilmişdir.

1915-ci ildə 90 yaşında vəfat etmiş, doğma kəndi Şişqayada dəfn olunmuş, Şişqayalı Aydının hafizələrdə uyuyan

şeirlərinin toplanıb küll halında çap olunmasına böyük ehtiyac vardır.

2. Aşıq Ələsgər və onun yaradıcılıq ənənələrini davam etdirən "Ələsgər ocağı" sənətkarları

Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının, aşıq sənətinin inkişafında böyük xidmətləri olan dahi sənətkardır. Ulu ustad - Aşıq Ələsgər bu müqəddəs sənətin zirvəsində dayanmışdır. Hələ sağlığından bu günümüzə qədər onun haqqında fikir söyləyən görkəmli şəxsiyyətlər – alimlər, yazıçılar və digər şeir-sənət xiridarları da bu qənaətdə olmuşlar. Tutduğu mövqeyindən asılı olmayaraq, xalqımızın hər bir övladı Aşıq Ələsgəri sonsuz məhəbbətlə sevmiş, qoşma və gəraylılarını əzbərləmiş, yaddaşlarında mühafizə edə-edə gələcək nəsillərə ərməğan etmişdir. Tədqiqatçı İslam Ələsgər babasının 175 illiyinə ithaf etdiyi "Aşıq Ələsgərin əsərləri: dastan-rəvayətlər, xatirələr" kitabının əvvəlində Dədə Ələsgərin XX əsrdə və XXI əsrin ötən müddətində Azərbaycanda, Türkiyədə işıq üzu görən çoxtirajlı nəşrləri barədə oxuçulara yığcam məlumat vermişdir. "Şərq-Qərb" nəşriyyatının 1999-cu ildə çapdan buraxdığı bu kitaba Aşıq Ələsgərin 109 qoşması, 33 təcnis və dodaq-dəyməzi, 12 divanisi, 23 müxəmməsi, 17 gəraylısı, 9 bağlaması, 19 həcv və hərb-zorbası, 3 deyişməsi, 2 qəzəli, 12 dastan-rəvayəti, 20 xatirəsi, ulu ustada sənətkarların 11 bənzətməsi daxil edilmişdir [67, 561].

Göyçə aşıq mühitinin formalaşmasında "Ələsgər ocağı" şübhəsiz ki, böyük bir ədəbi məktəb rolunu oynamışdır. Bu məktəb mahalın Ağkilsə, Zod, Nərimanlı, Daşkənd, Qaraqoyunlu, Sarıyaqub, Canəhməd, Kəsəmən, Böyük Məzrə, İnəkdağı, Şişqaya, Şorca, Subatan, Babacan, Ağbulaq, Cil, Qoşabulaq və digər kəndlərində el şairləri, sənətkar və ifacı aşıqların üzə çıxmasına həm zəmin yaratmış, həm də bu söz

sərraflarının şöhrətlənməsinə, soraqlarının uzaqlara yayılmasına səbəb olmuşdur. Ağ Aşıq – Aşıq Alı xətti boyunca gələn sənət şəcərəsinin ən uğurlu və qüdrətli davamcısı olan Aşıq Ələsgər sözün həqiqi mənasında Göyçə aşıq mühitinin sənət zirvəsi sayılır.

Aşıq Ələsgər 1821-ci il mart ayının 22-də Novruz bayramı günü anadan olmuş, 1926-cı il mart ayının 7-də vəfat etmiş, doğma kəndi Ağkilcə kəndində dəfn olunmuşdur. Aşıq Ələsgər həm öz ecazkar, möhtəşəm poetik yaradıcılığı, həm də aşıq sənəti şəbəkəsini genişləndirmək üçün həyata kecirdiyi ustadlıq fəaliyyəti ilə Göyçə aşıq mühitinə tarixi şöhrət gətirmişdir:

Adım Ələsgərdi, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.

Aşıq Ələsgər sazının-sözünün ecazkar təsiri altında hələ onun öz sağlığında ikən onlarla istedadlı Göyçə əhli saza-sözə bağlanmışdı. Beləliklə, "Ələsgər ocağı" yaranmağa başlamışdır. Burada ailə, nəsil içərisindən çıxmış istedadların da ayrıca yeri olmuşdur. Təsadüfi deyildir ki, məhz Aşıq Ələsgərin sənət aləminə gəlişindən, saz-söz ulduzuna çevrilməsindən sonra Göyçədə aşıqlığa meyil daha da güclənmiş, saz-söz düzüb qoşanların sayı böyük sürətlə artmışdır. Ələsgər sehrinin təsiri altında saza-sözə bağlananların xeyli qismi böyük sənətkarın ömrünün son illərini əhatə eləsə də, hər halda həmin dövrdə Göyçə aşıq mühitində Ələsgər nəfəsinin, Ələsgər nüfuzunun sənət aləmində tanınan, ocaq, ziyarət yeri olaraq canlı şəkildə yaşaması faktının özü son dərəcə əhəmiyyətlidir. Ustad Ələsgər şeirinin səs-sorağı təkcə Göyçə mühitini deyil, bütövlükdə Azərbaycan mahallarını bürümüş, saz-söz aləminə təravət, poetik kamillik və gözəllik gətirmişdir. Digər bölgələrə yayılma nəticəsində onun şeirləri bəzən başqalarının əsərləri ilə qarışdırılmış, bununla əlaqədar olaraq sonralar folklor toplayıcıları da bəzi dolaşıqlıqlara yol verməyə məcbur

olmuşlar. Məsələn, Göyçə aşıq mühitindən bəhrələnən, aşıq poeziyasının kamil bilicilərindən olan, Lacın rayonunun Alxaslı kənd sakini, mərhum el sənətkarı Aşıq Kərəm Bəylərovun yaddaşında qalan Dədə Ələsgərin zəngin poetikasının üç şeiri əhvalatla birgə mənim tərəfimdən yazıya alınmışdır. Bu, Ələsgərin kitablarına daxil edilməyən "Gözlərinə qurban", "Sənəm, gəl" və "Şəvəkarda" rədifli şeirlərdir. Qeyd edək ki, Dədə Ələsgərin 1999-cu ildə "Şərq-Qərb" nəşriyyatında çapdan çıxan kitabına bu məlumatların əlavə edilməsi unudulmuşdur. Bu qoşmalar olmuş əhvalatla birlikdə "Şuşa"qəzetinin 27-30 mart 1976-cı il saylarında [142], "Sövet kəndi" qəzetinin 1984-cu ilin 99-cu sayında [145, 418-420], həm də Azərbaycan Ensiklopediyası NPB tərəfindən 1997-ci ildə nəşr olunan "XX əsr Göyçə aşıq mühiti (1920-50-ci illər)" monoqrafiyasında öz əksini tapmışdır [142, 19].

Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun 1963-cu il nəşri olan "Aşıq Ələsgər" kitabında "Qanan ola" rədifli qoşmasının Alxaslı kəndində Sənəm adlı bir qıza deyildiyi, 1934, 1935 və 1937-ci il nəşrlərində üc bənddən ibarət olduğu göstərilsə də, əslində həmin şeirdə Sənəmin adı çəkilmir. "Sənəm, gəl!" qoşmasının Salman Mümtazın tərtib etdiyi "El şairləri" kitabında Xəstə Qasım tərəfindən deyildiyi gostərilir. Xəstə Qasıma məxsus olan şeirlə Aşıq Ələsgərin "Sənəm, gəl!" qoşmasının ilk bəndinin ikinci və üçüncu misraları uyğun gəlsə də qalan bəndlər bir-birindən məzmunlarına görə fərqlənir:

Yenə gözəllərdə gəlhagəl oldu,
Yaşıllı, zərbablı, allı Sənəm, gəl!
Ovçusun görəndə maral baxışlım,
Özü hallı, yüzü xallı Sənəm, gəl!

Aşıq Ələsgərin "Sənəm, gəl!" qoşmasında isə birinci bənd aşağıdakı kimidir:

Səni gördum, əl götürdum dünyadan,

Yaşıllı, zərbablı, allı Sənəm, gəl!
Ovçusun görəndə maral baxışlım,
Ay üzü, bircəyi xallı Sənəm, gəl!

Aşıq Ələsgərin poetik irsinin və ustadlıq fəaliyyətinin 20-50-ci illər XX əsr Göyçə aşıq mühitinin sənət həyatına təsiri hər hansı bir qüdrətli saz-söz sənətkarının təsirindən müqayisəyəgəlməz dərəcədə güclüdür. Göyçə aşıq mühiti XIX əsrin ikinci yarısından başlayaraq XX əsr boyu və günümüzədək Aşıq Ələsgər sənəti ilə nəfəs almışdır. 1963-cü ildə nəşr olunan "Aşıq Ələsgər" kitabında İrəvan aşıqlarından Xəstə Həsən adlı birisinin Xəstə Qasımın "daümül ovqat" qafiyəli müstəzad qıfılbəndini öz əsəri kimi yazdırıb, bir üzünü Aşıq Ələsgərə, bir üzünü də Aşıq Misgin Bürcüyə göndərdiyi göstərilir. Aşıq Ələsgər qıfılbəndi həmin müstəzad ilə açır və qıfılbəndin Xəstə Qasımın əsəri olduğunu xatırladır... Xəstə Həsənin ədəbi oğru olduğu faktına üzün illər sükutla yanaşılsa da, folklor araşdırıcısı Əli Şamil "Xəstə Həsənin doğum və ölüm tarixinə dair bəzi mülahizələr" adlı yazısında məsələyə aydınlıq gətirmişdir. İslam Ələsgərin "Aşıq Ələsgərin əsərləri: dastan-rəvayətlər, xatirələr" kitabının (Bakı, 1999) 561-ci səhifəsində [183, 106-111] gostərilir ki, Aşığın şəyirdlərinin qeydlərinə görə, İrəvan yaxınlığındakı Kankan kəndində keçirilən bir şənlik məclisində Xəstə Qasımdan söz düşmüş, onun bağlamalarının hələ hec kəs tərəfindən açılmadığını etiraf etmişlər. Həmin kənddə yaşayan Abutalıb (O, Aşıq Ələsgərlə siğə qardaş imiş) deyir ki, nə cür çətin bağlama olsa, Aşıq Ələsgər açar. Bir atdan mərc gəlirlər, Xəstə Qasımın bağlamasını "Xəstə Həsən" adı ilə yazıb, bir üzün Aşıq Ələsgərə, bir üzün isə Miskin Bürcüyə göndərirlər. Aşıq Ələsgər bağlamanı açır... Aşıq Ələsgər bağlamanın cavabını göndərəndən bir qədər sonra Abutalıbdan ona məktub gəlir. O, məktubda əhvalatın necə olduğunu və mərci apardığını Aşıq Ələsgərə bildirir.

Təxminən bir əsrdən bir qədər az Aşıq Ələsgərin yaddaşlarda qalan, yazıya alınmayan bir qoşması barədə oxuçulara "Vedibasar" qəzetinin 1-15 avqust 2008-ci il tarixli sayında "Şeir ilk dəfə nəşr olunur" başlığı altında məlumat verilir. Yazıda maraqlı bir hadisə diqqəti cəlb edir: - Otən əsrin əvvəllərində İrəvan xanı Huseynəli xan ətraf mahalların tanınmış simalarını İrəvandakı Goy məsciddə keçirilən Aşura təziyəsinə dəvət edir. Tədbir iştirakçıları arasında ömrünün kamillik dövrünü yaşayan Aşıq Ələsgər və həmin illərdə gənc olmasına baxmayaraq, kifayət qədər şöhrət qazanan Abbasqulu bəy Şadlinski də iştirak etmişdir. Dədə Ələsgər məclisə daxil olanda Abbasqulu bəy onu ilk dəfə gördüyü üçün məclis iştirakcılarının birindən onun kim olduğunu soruşur. Bəyin marağı ustad aşığın nəzərindən qaçmamış və "Məscidin" şeirini demişdir (Dədə Ələsgərin "Dağlar" və "Dolanır" rədifli qoşmalarının hansı tarixi şəraitdə deyildiyi Aşıq Ağayarın yaddaşından yazıya köçürülmüşdür).

Göyçə aşıq məktəbinin ölməz sənətkarları barədə ağsaqqalların, ağbirçəklərin yaddaşlarında yatıb qalan çoxsaylı rəvayət və xatirələrin qələmə alınması, toplanılıb küll halında folklor arxivinə verilməsi gələcək nəsillər üçün əvəzsiz töhfədir. Bu iş indiki şəraitdə, Göyçə mahalı əhalisinin müxtəlif ərazilərə səpələndiyi və yaşlı adamların get-gedə dünyasını dəyişdiyi bir zamanda olduqca vacib, son dərəcə gərəkli, həm də zəruridir.

Saz və sözsevərlər məqam gələndə, yeri düşəndə ata-babalarından və ustad sənətkarlardan Aşıq Ələsgərlə bağlı eşitdikləri maraqlı əhvalatları danışmaqdan böyük məmnunluq duyurlar. Söhbətlərində danışdıqları əhvalatların nə zaman, harada və kimlərin məclisində baş verdiyini, bir çox qoşmaların hansı tarixi şəraitdə yazılmasına aydınlıq gətirmək istədiklərini vurğulayırlar.

Aşıq Ələsgərin anadan olmasının 175 illiyi münasibətilə

onun külliyatının tam şəkildə İslam Ələsgər tərəfindən nəşrə hazırlandığını və yaxın vaxtlarda isıq üzü görəcəyi barədə bir toy məclisində söhbət edirdilər… Əslən Göyçənin Pəmbək kəndindən olan, hazırda Bakı şəhərində məskunlaşan, ixtisasca filoloq Məzahim Bayramov Aşıq Ələsgərin "Dağlar" və "Dolanır" rədifli qoşmalarının yazılma tarixinin maraqlı əhvalatlarla bağlı olduğunu söyləməzdən əvvəl qeyd edir ki, Dədə Ələsgərin ustadlıq etdiyi sənətkarlardan Zodlu Ağayar **(Xəlilov Ağayar Xəlil oğlu,** 1880-1978) onun yaradıcılığını hamıdan mükəmməl bilən aşıqlardan idi. Dəfələrlə onun apardığı məclislərin iştirakçısı olmuşam: güclü hafizəsi, dərin biliyi, qeyri-adi yaddaşı ilə el-obada şöhrət tapmışdı. Yaşlı nəslin nümayəndələrindən hansı Göyçəlidən soruşsalar ki, Aşıq Ağayar necə sənətkar idi?! - Aşıq Ələsgərin yaradıcılığını və onunla bağlı əhvalatları hamıdan dəqiq bilən, məlahətlə oxuyan, şirin bir ləhcə ilə dastanlar danışan ən istedadlı ustad aşıqlardan biri Ağayardır, -deyərlər. El ədəbiyyatının, həmcinin Aşıq Ələsgərin həyat və yaradıcılığının öyrənilməsi məqsədilə Göyçə mahalında vaxtı ilə ekspedisiyada olan görkəmli alimlərdən H.Əlizadə, M.Təhmasib, Ə.Axundov, A.Nəbiyev, Q.Namazov, İ.Abbasov, S.Paşayev, M.Həkimov və onlarca başqaları bilavasitə Ələsgəri tanıyanlarla, onun ustadlıq etdiyi şagirdlərlə, o cümlədən də Aşıq Ağayarla görüşmüşlər. Bu tədqiqatçı alimlər, xüsusən də İslam Ələsgər Əsəd, Nəcəf, Talıb, Əli, Məhəmməd, Şükür, Behbud, Hümbət, Bayram, Hacı, İslam, Rəcəb, Ağayar kimi tanınmış el sənətkarlarının söylədikləri rəvayət, əhvalat və şeirləri yazıya alıb "Aşıq Ələsgər" kitabında nəşrini təmin etmişlər. Bu nəcib işdə Aşıq Ağayarın əməyi heç də az olmamışdı. Elə onun "Sinəmdə getdi" rədifli qoşması da Ələsgər yaradıcılığına dərindən bələdliyinə bir işarədir:

Aşıq Ələsgərin söz dəryasının,
Ləl, gövhər qiyməti sinəmdə getdi.

Ölçüyə sığışmaz, çəkiyə gəlməz,
Möhnəti, hikməti sinəmdə getdi...

Azərbaycanın şimal-qərbində Qabırrı cayının sağ sahilində yerləşən Eldar düzündəki obalardan olan (indiki Samux rayonunun ərazisi) adlı-sanlı, cəngavər, səxavəti və igidliyi ilə tanınmış qaçaq Əmirəhməd hər il yaylaq vaxtı erkən Göyçənin Pəmbək kəndinin yaylaqlarında məskən salar, dağlarda ilk qar görünəndə Arana üz tutardı. Onun bina saldığı bu yaylaq yeri özündən sonra "Əmirəhmədin yurdu" kimi el arasında tanınmış və yaddaşlarda yaşamışdı.

Əmirəhməd Aşıq Ələsgərə sifariş göndərir ki, onun məskən saldığı yaylağa təşrif gətirsin. Ələsgər sifariş çatan kimi tədarük görur, səfərə çıxır, nəhayət, dağ aşırımlarından keçə-keçə Əmirəhmədin obasına varid olur. Aşıq dağların qoynunda bir zamanlar bir-birinin yaxınlığında qurulan çadırları, burada yaylayan elləri, qoyun sürülərini, naxırları görmək arzusu ilə ətrafı seyr edir. Baxdıqca qanı qaralır, halı pərişan olur, dağların, yaylaqların tənhalığından çox sıxılır. Əvvəllər gördüyü qurğu-büsatın olmadığından təsirlənir. Dağların zirvəsini tutan çən, yamaclarını bürüyən sis duman sanki sahibsizlikdən Aşıq Ələsgərə gileylənir, at kişnərtisinə, qoyun-quzu mələrtisinə, bulaq başına dəstə tutub gedən türfə gözəllərin şən qəhqəhələrinə, şaqraq gülüşlərinə ehtiyac duyulduğunu, həsrət qalındığını çox böyük urək ağrısı ilə xatırlayır… Yaylaqlardakı bu kimsəsizlik aşığa bir dərd olur. Bu dərdin şeir variantı qələmə alınmadan, yazıya köçürülmədən artıq onun yaddaşında faktların zənginliyi ilə həkk olunur. Fikirlər burulğanında çırpına-çırpına, ictimai şəraitin törətdiyi fəsadları ürəyində məzəmmətləyə-məzəmmətləyə xəyallar aləminin acılı-şirinli xatirələrindən bir anlığa ayrılmaq istədikdə gündoğan tərəfdən seyrələn bulud topaları arasından görünən, dağın yamacına sığınan çadırlara gözləri sataşır, gəlib çatdığını yəqinləşdirir… Bu o vaxtlar idi ki, əsrin başlanğı-

cında erməni millətçiləri türkləri öz tarixi torpaqlarından planlı surətdə çıxarmağa, qırmağa, milli soyqırıma başlamışdılar. 1905-ci il faciəsi baş vermiş, qorxu və həyəcandan Aran camaatı yaylağa gəlməkdən ehtiyat etmişlər. Ayağı yer tutan şələ-barxana ilə gecəynən Gəncəbasara, Gədəbəyə, Qazağa və başqa yerlərə çıxıb gedir, qalanlar isə naümid vahimədə yaşayırdılar. Belə bir vəziyyətdə Göyçə mahalında qalan əhali əkin-biçinini davam etdirirdi. Adlı-sanlı igidləri, sənətkarları, üzdə olan başbilənləri camaatın qaçıb dağılmamasına hər vasitə ilə nail olurdular… Son illərin qanlı hadisələrini Aşıq Ələsgər yaradıcılıq təxəyyülündən keçirə-keçirə gələcəkdə nələrin baş verəcəyini düşünürdü… O, cəmənlikdə oynaşan uşaqlardan Əmirəhmədin çadırını soruşur. Uşaqlar bələdçilik etmək istəyəndə Ələsgər deyir ki, odur, Əmirəhməddir, özüm gedərəm, siz əziyyət çəkməyin. Aşıq Ələsgərin gəldiyini görən Əmirəhməd, Dəli Alı və Məşədi Yolçu irəli yeriyib onu çox böyük mehmannəvazlıqla qarşılayırlar. Məclis qurulur, söhbət qızışır. Dünyanın, zamanın gedişindən hər kəs biliyi, dünyagörüşu dairəsində söhbətlər edir. Ələsgər danışıqdan anlayır ki, toy üçün çağırılmayıb… Əmirəhmədin Məşədi Yolçunun doqquz əli silahlı adamla Motaluçanda Ələsgərlə Əsədin yolunu kəsib Dəli Alının (XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış məşhur igidlərdən biri də Dəli Alıdır, əslən Goranboyun Qarasuçu kəndindəndir) bacısı oğlu Zeynalabdının toyunun necə keçməsini tərif etməsini, Alı və Ələsgər əhvalatını xatırlatması Aşıq Ələsgərə bu dəvətin məqsədini yəqinləşdirməyə bir eyham olur və deyir: - Yaxşı iyidi vəsf edərlər. Dəli Alı cah-calallı, şöhrət-şanlı adamdır. Düzünü deyirəm, həm də mərddir, səxavətlidir. Məşədi Yolçu toydan gətirdiyimiz qızılları alanda çox mətləbləri yada sala bilmədim. Canımın hayında idim, gözümə heç nə görükmürdü, ölümdən də qorxmurdum. Məni ağrıdan o idi ki, məşhur bir iyidin toy məclisinə atlı gedib atsız qayıdasan, bundan, bu

“şərəfdən” narahatçılıq keçirirdim…

Məşədi Yolcu gülümsünə-gülümsünə: - Sən allah, məni niyə utandırırsan, bir zarafat idi. O tərifləri toyda desəydin, bəlkə də onun iştirakçılarından başqa hec kəs eşitməzdi. Bu əhvalat bütün hər yerdə soylənilir.

Söhbətdi də, edirik, deyə Aşıq Ələsgər dilləndi. Əmirəhməd dedi: - Ay Aşıq Ələsgər, hec soruşmursan ki, səni nə üçün burya çağırtdırmışam?

- Nə üçününü deyərsən, hamımız bilərik.

- Bu yaylaqlara baxırsanmı, indi bomboşdur. Həmişə Eldarın camaatı burada yaylaqlayardı. Mənim zəhmimdən heç kim bu həndəvərə ayaq basa bilmir… Mənim də Ələsgər tərifinə ehtiyacım var...

Aşıq Ələsgər eşitdiyi sözlərdən bərk tutulur, sazı köynəyinə qoyur və deyir: - Ay Əmirəhməd, Eldar camaatı arasında sənin kimi qüdrətli, namuslu, qoçaq, iyid oğullar çox-çoxdur, onları təkcə sənin ayağına vermərəm.

- Mən sənlə razılaşmıram, bəs bu qoçaqlar nə üçün yaylağa çıxmırlar?!

Aşıq Ələsgər yaylaqların belə boş qalmasının səbəbini erməni - müsəlman savaşı ilə izah etdikdən sonra sazı yenidən köynəyindən çıxardıb fikrini bir daha on bəndlik “Dağlar” qoşması ilə ifadə edir… Əmirəhmədin igidliyi yox, dağların vəziyyətinin tərənnümü Ələsgəri daha çox düşündürür. Əmirəhməd ha gözləyir ki, şəninə təriflər deyiləcək. Ələsgər isə özünü o yerə qoymur, söhbətin istiqamətini başqa səmtə yönəldir. Əmirəhməd bundan bərk inciyir… Ələsgər gecəni burada qalır, səhər tezdən durub getmək istəyəndə Dəli Alı Əmirəhmədin üzrxahlığını eyləyir və getməməsini xahiş edir. Ələsgər isə inadından dönmür. Yaylağı duman-çiskin bürüməsinə baxmayaraq o, obanı tərk edir. Bir xeyli getdikdən sonra yolun səmtini itirdiyini zənn edir, haraya gedəcəyini, nə edəcəyini bilmir. Elə hey gedir, yol tükənmək bilmir. Birdən

qulaqlarına danışıq səsləri gəlir. Səs gələn tərəfə diqqətlə qulaq asır, səhəng çiynində iki zənənin yavaş-yavaş adımladığını dumanın seyrələn yerindən görür. İrəli yeriyib mehribanlıqla soruşur:

- A qızım, yolu çaşmışam, dumandan-çəndən yerləri ayırd edə bilmirəm, bura haradır? Onlardan biri deyir ki, bura Şınıx mahalının yaylağıdır. Siz haradan gəlib, haraya gedirsiniz?! Cavabında Ələsgər:

- Dağlıq Qaraqoyunlu Xudaverdiyəm, bə siz kimsiniz?

Hər ikimiz Kərbəlayi Sarının gəliniyik. Qaynatamızın aşıq dostları çoxdur, bəlkə sizi də tanıyır, gedəyin qonağımız olun… Obanın birinci muxuru (çadırı) bizimkidir.

Siz gedin, bir azdan mən özüm gələrəm, - deyir. Aşıq Ələsgər bir az ayaq saxlayıb yubanır, sonra isnad verilən maxura tərəf addımlayır. Çatanda görür ki, Kərbəlayi Sarı namaz qılır, namazdan fariq olandan sonra ona yaxınlaşıb salam verir.

- Əleykum salam, ay Aşıq Ələsgər, deyərək çox səmimi görüşurlər.Yaxşı, mən soruşdum, deyə tanıdım, bə mənim Ələsgər olmağımı haradan bildiniz?!

- Mən Sizin üçaboylu, enli kürəkli, iri gövdəli bir şəxs olduğunuzu çox adamdan eşitmişəm…

Hər ikisi muxura daxil olur. Çay-çörəkdən sonra olub-keçənlərdən söhbət edirlər. Axşam obanın camaatı böyüklu-kiçikli Aşıq Ələsgərin başına yığışır. Məclis qurulur. Saz havaları, dastanlardan oxunan şeirlər bir-birini əvəz edir… Gecə yarıdan keçdiyindən məclisdəkilər dağılışır. Amma bunların çoxu aşığın Ələsgər olduğuna inanmır. Kərbəlayi Sarı onlara deyir ki, zəndiniz sizi aldatmasın, Aşıq Ələsgərin özüdur, sazı da sol əllə çalır…

Aşıq Ələsgər neçə günün yol yorğunu idi. Gün çeştə çıxana kimi yatır, oyananda Kərbəlayi Sarı onu bulaq başına aparır və təbəssumlə deyir:

-Ay Aşıq Ələsgər, məni bağışla, axşamkı adamların çoxusu Sizin Aşıq Ələsgər olduğunüza inanmır.

-Kərbəlayi, mən bunu axşamdan duymuşam. İndi ki elədi, icazənizlə Ələsgər olduğumu sübuta yetirim. Birdən sazıma "müştəri" düşən olar… Və bədahətən "Dolanır" rədifli qoşmasını deyir. Aşıq Ələsgər bir neçə gün bu obanın əziz qonağı olur. Onu böyük məhəbbətlə doğma mahalına yola salırlar.

Ələsgərin müxtəlif illərdə nəşr olunan kitablarının hamısına daxil edilmiş, beş bənddən ibarət olan "Dolanır" şeirinin ilk dəfə Murov yaylağında deyilməsi faktı Azərbaycan Elmlər Akademiyasının 1963-cü ildə çapdan buraxdığı "Aşıq Ələsgər" kitabının izahatlar bölməsində göstərilmişdir. Həmin qoşma kitabın 36-cı səhifəsində ayrıca, 178-ci səhifəsində "Şair Vəli ilə deyişmə" şəklində verilmişdir. Aşıq Ələsgərin deyişdiyi şair Vəli də Azərbaycanın ustad aşıqlarındandır (deyilənlərə görə Aşıq Ələsgərin dostu olmuş və dəfələrlə deyişmişlər).

Sair Vəli Tovuz rayonunun Yuxarı Bozalqanlı kəndində 1860-cı ildə anadan olub, 1933-cü ildə vəfat etmişdir. Aşıq Ağayarın söylədiyinə görə "Dolanır" qoşması 5 deyil, 6 bənddir. Şeirin aşağıdakı:

Gördüm igidləri mərdü mərdana,
Vəsfini birbəbir saldım dastana.
Gözəllər şövqündən dəli, divana,

Məcnun kimi biyabanlar dolanır - bəndinin indiyədək heç bir nəşrdə verilmədiyini Aşıq Ağayar söyləmişdi. Aşıq yaradıcılığı ilə maraqlananlar üçün bu fakt bir yenilikdir.

XIX yüzilliyin əvvəllərində doğulduğu güman edilən, Göyçə mahalının Bala Məzrə kəndindən olan Əziz Məzrəli [Bax: 153, 208, 146] də aşıqlıqda ad çıxaranlardandır. O, aşıqlıqla yanaşı, həm də çar məmurları əleyhinə satirik və bəzən də üsyankar şeirlər qoşub, el məclislərində ifa etdiyinə

görə dəfələrlə dustaq edilib sürgünə göndərilmişdir. Məhkəmənin qərarı ilə Əzizə aşıqlıq etmək qadağan olunsa da, o, inadından dönməmiş, haqsızlığı ifşa edən şeirlər söyləmişdir:

Ay ağalar, gəlin sizə söyləyim,
Gecə-gündüz işim ahu-zar olub.
Bərəkət kəsilib, urza gödəlib,
Müxtəsəri, dünya çox bekar olub.

Hec igidin əli düşməsin dara,
Dara düşən olar işdən avara.
İşləməklə versə, verər Cabbara,
Çalışmaqdan qulaqları kar olub.

Doğrudurmu gör Əzizin dediyi?
Allah qırmaz yaratdığı bəndiyi.
Hacı Bədəl qoyub bu məzəndiyi,
Onca arpa pulnan barabar olub.

Əziz yaşadığı dövrün haqsızlıqlarına qarşı mərdi-mərdanə mübarizə aparmaqda şeirin tənqidi imkanlarına daha çox önəm verib [153].

Aşıq Rza Məzrəli (1895-1968) də Aşıq Əzizlə eyni kənddən olan aşıqlardandır. Rzanın uşaqlıq illəri Göyçənin qanlı-qadalı dövrünə düşüb. O, doğma mahalı Göyçənin pərən-pərən düşən, müxtəlif ərazilərində didərgin ömru yaşayan sənətkarlarından saz çalıb, söz qoşmaq öyrənib. Axırda Tovuz rayonunda məskunlaşıb və burada da tanınmış aşıqlarla el şənliklərində saz və sözün yaradıcısı kimi özünü tanıdıb, yaratdığı ustadnamələrlə, oxuduğu mahnılarla məclis iştirakcılarının rəğbətini qazanıb.

XIX əsrin axırları və XX əsrin əvvəllərində Göyçədə özünün sazı və sözü ilə elin məhəbbətini qazanan, özündən sonrakı aşıqlığın sənət həyatına, xüsusən də ifaçılıq

mədəniyyətinə güclü təsir göstərən istedadlı sənətkarlardan biri, əslən Daşkənddən olan, Aşıq Ələsgərin şəyirdi **Aşıq Nəcəf Məmmədqulu oğlu Məhərrəmovdur** (1866-1918). Aşıq Nəcəf (Daşkəndli Aşıq Nəcəflə Ələsgərin qardaşı oğlu Aşıq Nəcəfi qarışdırmamaq lazımdır) Dədə Ələsgərdən sənətin sirlərini öyrənəndən sonra sazını götürüb el-el gəzər, şənlik məclisləri keçirərmiş. Yay-yaz aylarında isə əkinçiliklə məşğul olarmış. Deyilənlərə görə, Aşıq Nəcəfdə olan səs Göyçə aşıqlarının çoxunda yox imiş, onun zənguləsi lampanı söndürərmiş.

Aşıqlar sazları və sözləri ilə daima ermənilərə qarşı mübarizə etmişdilər. Mənfur ermənilərin törətdiyi qırğınlara qarşı mübarizədə iştirak edənlərdən biri də Aşıq Nəcəf olmuş, məhz bu hadisənin iştirakçısı kimi də qansız ermənilər tərəfindən əvvəlcə iki oğlu – Aslan, Şiraslan, sonra da özü qaynar samovar belində faciəli surətdə qətlə yetirilmişdir. Aşıq Nəcəfin əldə edilən şeirləri onun poetik yaradıcılığının mükəmməlliyi barədə fikir söyləməyə imkan verir. Onun faciəli taleyi ilə bağlı el arasında gəzən xatirə-söhbətlər və rəvayətlər "Aşıq Nəcəf və Gülüstan" [89, 348-371] dastanının ortaya çıxmasına zəmin yaratmışdır. Aşıq Nəcəfin oxu və çalğı biçimi, məclis aparma tərzinin incəlikləri Göyçə aşıq mühitində dərindən mənimsənilmiş və ustad-şagird ənənəsi yolu ilə sənət aləminə gələn sonrakı nəsillərə də ötürülmüşdür. Göyçə aşıq mühiti XIX-XX əsrlər mərhələsində peşəkar ifacı və yaradıcı aşıqlarla yanaşı, istedadlı el şairlərinin poetik irsi ilə də şöhrətlənmişdir. El şairləri bir tərəfdən Göyçə aşıqlarının repertuar zənginliyinə, ikinci tərəfdən də şairlik ənənəsinin mahalda geniş yayılmasına əvəzsiz xidmət göstərmişdir.

Adı dillər əzbəri olan Zod kəndi sinəsi üstündə ərsəyə çatan şair övladları ilə tanınmışdır. XIX əsrin el şairlərindən **Məhəmməd Molla Tağıoğlu (1830-1910), Mirzə Bəylər (1837-1919), Usta Abdulla (1865-1943), Hacı Əliş Ağa**

(1872-1922) öz dövrlərinin savadlı adamlarından olmuş, saza-sözə maraq göstərmiş, düzüb-qoşduqları şeirlərlə Göyçə aşıq mühitinə məxsus poetik irsi daha da zənginləşdirmişlər.

Göyçə mahalının Zod kəndindən olan, el şairi Məhəmməd Molla Tağıoğlu təhsil almış savadlı, tanınmış, aşıqlıq etməsə də, aşıq şeiri şəkillərində dəyərli qoşmalar yazmış, sözləri aşıq məclislərində oxunmuşdur. Qərbi Azərbaycan ədəbi mühitində, söz-saz məclislərində yaxından iştirak edən Məhəmmədin saz havaları üstə yazdığı qoşmaların bəzisi unudulmuşdur. Şair Məhəmməd Dədə Ələsgərin mollalara yazdığı həcvdən incimiş və ona aşağıdakı cavabı yazıb göndərmişdir:

Axunda əl çalıb çox da laf etmə,
Kəlamım zülfüqar, dini unutma.
Hər çuğul sözünün dalınca getmə,
Arif olan kəsdə gərək kar olsun.

Kamal dərk et, özün cəkmə əlaya,
Bica qilu-qalı salma araya.
Cavansan, başını salma bəlaya,
Adın bədnam olub, iş dişvar olsun.

Doqquz bəndlik şeirin burada verdiyimiz bəndlərindən aydın görünür ki, Aşıq Ələsgər cavan vaxtlarında çuğul sözünə inanıb mollaları həcv etmiş, bu da din xadimlərinə toxunmuş, Məhəmməd Molla Tağı oğlu gənc Ələsgərə dəyərli məsləhətlər vermiş, həm də Ələsgərin təbini yüksək qiymətləndirmişdir.

El şairi Mirzə Bəylərin həyat və sənət yolunda atası Kazımın xüsusi rolu olmuşdur. O, özü savadlı, tərəqqipərvər olduğu üçün oğlu Bəylərin təhsilinin qayğısına qalmış, oğlunun ərəb, fars, rus, fransız dillərində mükəmməl təhsil almasına nail olmuşdur. Doğma kəndi Zodda Axund Qafarın yanında 4 il ruhani məktəbində və təxminən 1870-1880-ci illərdə İrəvanda rus-tatar məktəbində, daha sonra Kəvərdə gimnaziyada təhsil

almışdır. Çox dil bilməsinə və yaxşı xəttat olmasına görə el arasında ona "Mirzə Bəylər" - deyə müraciət edərmişlər. Qabiliyyəti, istedadı ilə məşhur olan Mirzə Bəylər üzun müddət İrəvan quberniyasının dəftərxanalarında, İqdırda təxminən 19 il general Köçelinin yanında tərcüməci və katib, İrəvan quberniyasının Məzrə qəza məhkəməsində Boqoslovskinin katibi işləmiş, bundan sonra işləmək üçün Türkiyəyə göndərilmişdir. Türkiyədə olarkən Məşhəd şəhərinə ziyarətə getdiyinə görə ona Məşədi Bəylər - deyə müraciət edirmişlər. Xidmət müddəti başa çatdıqdan sonra Zodda təsərrüfat işləri ilə məşğul olan Mirzə Bəylər, eyni zamanda kənddə iki su dəyirmanı inşa edib, camaatın ixtiyarına vermişdir. Mirzə Bəylər "Molla Nəsrəddin" jurnalının abunəçisi olmuş, şeirin, sənətin, sənətkarın qədrini bilmiş, Mirzə Ələkbər Sabir xəstə olarkən "Molla Nəsrəddin" yurnalı redaksiyasının ünvanına şairin müalicəsi üçün Hacı Əliş Ağa ilə birlikdə 20 manat qızıl pul göndərmişdir.

Dövrünün görkəmli aşıqlarından Dədə Ələsgər və Aşıq Huseyn Şəmkirli ilə dostluq etmiş Mirzə Bəylərin dünyagörüşü, həyata baxışı, zamanın ağrı-acılarından baş çıxarması, dostluqda sədaqəti, çox dil bilməsi Aşıq Ələsgəri valeh etmiş, bir dost kimi onu xüsusi olaraq nəzmə çəkmiş, tarixiləşdirmişdir:

Mövc edən dərya tək moc verir təbi,
Məddahi-mövladı, budur səbəbi,
Firəngi, rusi, farsı, türkü, ərəbi –
Beş dilinnən var savadı Bəylərin.

Şeiri oxumuş və yüksək qiymətləndirmiş Mirzə Bəylər deyilənlərə görə, özünun "Ələsgər" rədifli şeiri ilə Aşıq Ələsgərə öz ehtiram, təşəkkur, minnətdarlıq və tövsiyəsini bildirmişdir.

Ümumiyyətlə, Mirzə Bəylərin bir ziyalı və el şairi kimi Göyçənin ictimai-mədəni həyatına təsiri sonrakı dövrlərdə də

qabarıq şəkildə nəzərə çarpmaqdadır. 20-50-ci illərin yaradıcı və ifacı aşıqları, eləcə də el şairləri onun şeirlərinə hörmət və ehtiramla yanaşmış, poetik məharətinin incəliklərindən yaradıcı şəkildə bəhrələnmişlər. Mirzə Bəylərin yaxın qohumlarından olan, Basarkeçərin Qaraqoyunlu kəndinin şair oğlu İbrahim Qurbanovun "Göyçə, səndən kimlər keçdi" poemasında verilmiş şeirlərdən bir neçəsi Mirzə Bəylərə məxsusdur [119, 99].

İbrahim Qurbanov Mirzə Bəylərin oğlu Mirzə Əlinin qızı Gülzadənin oğludur. "İbrahim Köçkün" imzası ilə yaradıcılığını davam etdirən İbrahim Qurbanovun poetic irsindən nümunələr, mərkəzi mətbu orqanlarda dərc olunan publisistik məqalələrin, "Ədəbi Ermənistan" almanaxında işıq üzu görən şeirlərin, "Nurlan", "Ağrıdağ", "Nurlar", "Səda" və "Təknur" nəşriyyatlarında "Sirli-sehirli dünya" (2004), "Göyçəli Göyçəsiz necə yaşasın?", "Mirzə Bəylər nəfəsiyəm" (2006), "Həkimin dünya dərdi" (2008), "Bir Huseyn Arif vardı" (2008), "Qalan Göyçə" (2009) şeirlər kitablarının muəllifidir.

El şairi **Usta Abdulla** da (1858-1943) XIX əsrin sonu, XX əsrin əvvəllərində Göyçə ədəbi mühitində özünəməxsus yeri olan sənətkarlardandır. Abdullanın atası Rəhim dülgərlik sənəti ilə yanaşı, sazbəndlik edər, arabir də şeir yazarmış. Rəhim sadə sənət adamı-xarrat olsa da, şeirə, sənətə, saza-sözə göstərdiyi böyük marağa görə aşıqların tez-tez onun evinə toplaşıb deyişməsi, dastan və nağıl soyləməsi bir ənənəyə çevrilibmiş. Göyçə mahalının sənət həyatında böyük bir ədəbi məktəb rolunu oynayan aşıq məclisləri Abdullanın taleyindən yan kecməmiş, onun zehnində dərin izlər buraxmışdır. Atasından dülgərlik, aşıqlardan şeir demək öyrənən Abdulla get-gedə dərin zəkalı, geniş məlumata malik olan bir söz sənətkarı kimi şöhrətlənmiş və onun yazdığı gəraylı, qoşma, müxəmməs, təcnis və s. az bir zaman içində dillərdə əzbər

oxunmuş, doğma Göyçədən çox-çox uzaqlarda da aşıqların repertuarlarında özünə yer almışdır. Usta Abdullanın (Zodlu Abdulla) yaradıcılığında Aşıq Ələsgərin oğlu Bəşirlə molla-xanada təhsil alması və onların arasında yaranmış dostluq əlaqələri xüsusi rol oynamışdır. **Usta Abdullanın** yaradıcılığına aşiqanə şerlərlə yanaşı, əxlaqi-tərbiyəvi, yaşadığı zəmanədən, haqsızlıqdan şikayət, zülmə qarşı üsyan və nifrət, insanları mərdliyə, dostluğa, əməyə, düzlüyə, səxavətə səsləyən parçalar çoxdur:

Səxavətsiz dövlət nəyə gərəkdir,
Əgər yığsan bu dünyanın sanınca.
Mərifət lazımdır bir insan üçün,
Hökmu olsa, Dağıstanın xanınca.

Abdullayam, dostla ara dəyibdi,
Çünki olub bəxti qara, dəyibdi.
Sinəmə hesabsız yara dəyibdi,
Qərar tutsa, bir zənburun sanınca.

Usta Abdulla şeirlərinin bu istiqamətdəki poetik ovqatı uzun zaman Göyçədəki yaradıcı aşıqların, xüsusən də el şairlərinin yaradıcılığına güclü təsir etmişdir. Həmin əhval 20-ci illərin sənət həyatında da duyulmaqdadır. El sənətkarının şeirləri aşıq yaradıcılığının kamil nümunələridir. Şeirlərinin ruhunda dövrun nəbzi duyulur. Şeirlərində daha çox şikayət, zamanın ziddiyyətləri, rüzgarın səmti bilinməyən külәkləri hədsiz qəm- kədər, qəlb yarası kimi cəhətlər əks olunmuşdur. Ötən əsrin 40-cı illərinə qədər yaşayıb yaratması və mühitlə birbaşa əlaqədə olması da sözu gedən poetik ovqatın güclü mühafizəsində mühim rol oynamışdır:

Ay ağalar, ay qazılar,
Mən bu dərdə dözüm, neynim?
Düşdüm qəmin dəryasına,
Qəvvas olub üzüm, neynim?

Ustad Abdullanın istedad və qabiliyyətini yüksək qiymətləndirən Aşıq Ələsgər bir şeirində yazırdı:

Ustadlarda mən də gördum bir dənə,
Zoddu Abdullanın kamalına baş.

Bu misraların məzmunundakı fikir, onun sənət dostları arasında daha çox təcnis ustası kimi tanınmasına işarədir. Çünki aşıq şeirinin ən mükəmməl şəkli təcnisdir və sənətkar burada həm xüsusi istedada malik olmalı, həm də xalq dilinin incəliklərinə bələd olmalıdır. Onun yaradıcılığına bu baxımdan yanaşanda görünür ki, Usta Abdulla xalq dilinin mahir bilicisi kimi məzmunu, mətləbi sözə qurban vermir, eyni cinsli sözlərin düzümündə məzmun bütövlüyünə daha çox üstünlük verilir.

Aşıqlar diyarı Göyçənin Zod kəndinin bir övladı da el şairi **Hacı Əliş ağa** Əmiraslan oğlu Kəsəmənlidir (1838-1919). Yaxşı saz çalan, müxtəlif janrlarda şeirlər yazan Hacı Əliş ağa 1838-ci ildə Zod kəndində doğulmuş, ilk təhsilini də kənddə xüsusi məktəbdə almışdır. Onun atası Əmiraslan ağa dövrünün müəyyən savad görmüş, elm və maarifə qayğı gostərən, özü də aşıqsayağı şeirlər yazan, gözəl saz tutmağı baçaran bir şəxs olmuşdur. Əmiraslan ağa oğlu Əlişi də ziyalı kimi görmək istəyirdi. Rəsmi sənəd olmasa da, yerli ağsaqqalların söylədiklərinə görə, Zodda seminariyaya bənzər üçillik məktəb olmuşdur. Bu məktəbə ibtidai təhsil almış və ya şəxsi məktəblərdə oxumuş gənclər qəbul olunurmuş. Çox güman ki, Əliş ağa bu məktəbdə təhsil almış, biliyini genişləndirmək üçün başqa şəhərlərə getməyi arzulamışdır. Atası Əliş ağanın elmə olan marağını görüb onu Qori müəllimlər seminariyasına göndərmişdir. Elmə və maarifə dərin maraq göstərən Əliş ağa ərəb, fars və rus dillərini mükəmməl mənimsəmiş, Şərq ədəbiyyatını, eləcə də Azərbaycan klassiklərinin ədəbi irsini öyrənmiş, özü də həm klassik, həm də xalq şeiri şəkillərində əsərlər yazmışdır. Təhsilini tamamlayıb doğma yurduna

qayıdan Əliş ağa Göyçə saz-söz mühitində, ümumiyyətlə Göyçə mədəni həyatında yaxından iştirak edir. Dövrünün savadlı ziyalısı olan Mirzə Bəylər, Usta Abdulla və Ələsgər ocağı ilə əlaqə saxlayır, dostluq edir.

Haci Əliş ağa bir müddət dövlət idarələrində də işləmiş (1880-1885), İrəvan quberniyasında və Qarabağ xanlığında müxtəlif vəzifələrdə çalışmışdır. Şairin "Arzular" şeiri Qarabağ xatirələrindən yaranmışdır. Şeirdə Əliş ağanın Qarabağdakı həyatı, xüsusən Mirzə Adıgözəl bəyin dövründə işləməsi, Qarabağ mahalını gəzib yaxından tanıması haqqındakı təəssüratlar tarixi sənəd kimi də maraq doğurur. Hacı Əliş ağa da Göyçənin bəzi el şairləri kimi, həm aşıq şeiri şəkillərində, həm də divan ədəbiyyatının müxtəlif formalarında şeirlər yazmışdır. "Molla Nəsrəddin" məcmuəsi ilə də yaxından əlaqə saxlamış Hacı Əliş ağa jurnala Sabirsayağı satirik şeirlər yazıb göndərmiş, "Bizlərin də dərdinə qalsan, ay molla əmi" mətləsi ilə başlayan şeiri jurnalda dərc olunmuşdur. Onun "A molla" şeiri bu münasibətlə yazılmışdır. Şairin yaradıcılığından müsəlmanara xitabən sünni-şiə mübahisəsini aradan götürməyə həsr olunan şeirindən yaddaşlarda qalan iki misranı nümunə göstərmək olar:

Yüz il ibadət eyləsə də,
Hacı girməz cənnətə,
Olmasa səndən bir ixtiyar, Əli!

Haci Əliş ağanın "Dünya", "Ağaxan", "Möhlət", "Axtarıram", "Ağlar" və başqa şeirləri onun zəngin dünyagörüşünə malik olduğunu gostərir.

Hacı Əliş ağa 1902-ci ildə dövlət vəzifələrindən uzaqlaşıb Göyçəyə qayıtmış və buranın maarif və ədəbi mühitində iştirak etmişdir. 1918-ci ildə daşnakların törətdikləri qırğın Hacı Əliş ağanı da doğma yuvasından didərgin salmış, o, Gəncəyə köçmüşdür. Dəhşətli qırğınlara dözə bilməyən Haci Əliş ağa 1919-cu ildə vəfat etmişdir. O, Göyçə ədəbi mühitinin geniş

dünyagörüşlu, savadlı ziyalısı kimi yaddaşlarda qalmışdır [84, 160].

İslam Ələsgərov özünün "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları" monoqrafiyasında "Ələsgər ocağı"nın yetirməsi olan **el şairlərindən Aşıq Ələsgərin atası Alməmməd (təxminən 1790-1875), Aşıq Musa Səfəroğlu (1830-1912), şair Məhəmməd (1853-1937), şair Bəşir (1867-1934), şair Əbdüləzim (1873-1943)** və digərlərinin tərcümeyi-halları, bədii yaradıcılıqları barədə əhatəli məlumat vermişdir. "Ələsgər ocağı" toplusunda bu ocağın, XX əsrin qismətinə **düşən Aşıq Qurban, Aşıq Talıb, Aşıq Nəcəf, Növrəs İman, Aşıq Musa, Şair Həşim, Aşıq Əli, İsmixan Didərgin, Haqverdi** kimi söz sərraflarını da oxuçularla görüşdürmüşdür [68, 289].

Burada adı keçən Alməmməd Aşıq Ələsgərin atasıdır. O, Göyçə mahalının Ağkilsə kəndində yaşamış, yoxsul həyat kecirmiş, kəndin sayılan adamlarından biri olmuşdur. Dülgərliklə məşğul olmuş, 4 oğul, 2 qız atası olduğu üçün həmişə zəhmətə qatlaşmış, Kəlbəcərin ərazisindəki meşələrdən gətirdiyi ağaclardan şana, kürək, dırmıq düzəldərək satıb, ailəsini dolandıran Alməmməd aşıqlıq eləməsə də, ustad aşıqların şerlərini əzbərdən söyləyər, özü də həvəsi gələndə şeirlər qoşarmış. Onun şeirləri tez-tez aşıq məclislərində eşidilərmiş. Bu nəslin şeir yazanları çox olsa da, onların yaradıcılığına aid nümunələr bəzən qarışıq düşmüşdür. Alməmmədin qoşduğu, çox incə mətləblərə toxunan düşündürücü şeirləri olmuşdur. "Görmədim" divanisini M.P.Vaqif üslubunda söyləmişdir:

Dünya, sənin gərdişinlə başa vuran görmədim,
Qəhr oldu aləm, qəhr işindən, can qurtaran görmədim.
Bilmirəm ki səbəb nədi, şadı qəmgin eylədin?
Abadını viran qoydun, artdı haran görmədim.

Alməmmədəm, bu dünyada bir nişanam qalmadı,
Getdi əldən qohum-qardaş, atam, anam qalmadı.
Süleyman tutdu dünyanı, dedi: mənəm, qalmadı.
Bir kəs ilə heç düz ola sənin aran görmədim.

Alməmmədin "Görmədim"lə yanaşı, "İnsan", "Şirin-şirin" rədifli daha iki qoşması da oxuçulara tanışdır [68, 5-7].

"Ələsgər ocağı"ndan su içənlərdən biri də Aşıq Musa Səfəroğludur. O, Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Təəssuf ki, indiyədək onun barəsində olan yazılarda yanlışlığa yol verilmiş, Göyçənin Qaraqoyunlu kəndindən olduğu göstərilmişdir. Bu yanlışlıq vaxtı ilə Azərbaycan Sovet Ensiklopediyasında da təkrar olunmuşdur. Sevindirici haldır ki, İslam Ələsgər bu yanlışlığa aydınlıq gətirmiş, əsl faktları üzə çıxarmışdır.

İlk təhsilini xüsusi məktəbdə alan Aşıq Musanın ikinci məktəbi Göyçə aşıq mühiti olub. O, ustadlardan aşıq şeirinin incəliklərinə yiyələnib, saz havalarının mahir ifaçısı kimi tanınıb. Təəssuf ki, çox zəngin yaradıcılığı olmasına baxmayaraq, aşıq Musanın şeirlərinin çoxu itib-batmışdır. Əldə olunan şeirlərinin əksər hissəsi Göyçənin Sarıyaqub kəndində yaşamış, axırıncı qaçqınlıqda Gəncəbasara pənah gətirmiş və vətən həsrətinə dözməyərək, dünyasını dəyişmiş nəvəsi Müşkül Musanın 2000-ci ildə "Azərbaycan Ensiklopediyası" NPB işıq üzü görən "Torpağında izim qalan Göyçə" kitabında oxuçulara təqdim olunmuşdur. Müşkül Musa babasının adını daşımaqla yanaşı, onun sənətini də yaşatmışdır. Şeirləri içərisində aşıq yaradıcılığının bütün növlərinə aid nümunələr olan Aşıq Musanın yaradıcılığı formaca rəngarəngdir. Onun əldə olunan şeirləri yaradıcılığı barədə fikir söyləməyə imkan verir. Bir çox şeirlərindən ehtimal etmək olur ki, onun "Dağıstan səfəri" adlı bir dastanı da varmış.

Aşıq Musa aşıq şeirinin ən mürəkkəb şəkillərindən məharətlə istifadə edib. Bir çox sənətkarların yetişməsində

əlindən gələni əsirgəməyib. Söz düşəndə qocaman sənətkarlar Musanın hazırcavab, qürurlu, şəxsiyyətinə hörmət edən, hec kəsdən çəkinməyən, sözü üzə şax deyən adam olduğunu danışardılar. Deyilənlərə görə, Musanın düşmənləri çox olub, hətta onu bir vaxtlar təqib də ediblər. Ömrünün bir qismini səfərlərdə keçirən el aşığı dəfələrlə Türkiyə və İranda olub. Aşıq Ələsgərlə Türkiyə səfərinə dair dastan da yaranıb. Şeirlərindən Aşıq Musanın şair kimi kamil sənətkar olması bəlli olur. Onun "Nə günahı telli sazın? " gəraylısı yalnız lirizmi ilə deyil, həm də tutarlı məzmunu ilə aşıq şeirində xüsusi yer tutur. Sazı cadugər mollalardan müdafiə edən aşıq deyir:

... Musa vəsfin söylər saza,
Ruh verir gəlinə, qıza.
Oxşamayır sehirbaza,
Nə günahı telli sazın?

Aşıq yaradıcılığına dair məqalə və kitab yazan bir çox elm adamları din xadimlərinin aşıq musiqisini haram buyurmağı barədə dolayısı ilə açdığı söhbətlərində həmişə Aşıq Musanın yuxarıdakı şeirini misal çəkmiş, söz sənətinin paklığını və müqəddəsliyini aşığın ifadələri ilə bir daha təsdiq etmişdir. Onun yaradıcılığında dövrünün ictimai haqsızlıqlarına qarşı bir etiraz sədası duyulmaqdadır. Zəhmətkeşlərin ağır həyat şəraiti, ağaların, bəylərin, mülkədarların özbaşınalığı, çar cinovniklərinin xalqa amansız divan tutmaları, xüsusilə, yaz əkinçi, qış dilənçi olan kəndlilərin keçirdiyi məşəqqətli günlər aşığı hədsiz dərəcədə kədərləndirir:

Bilin, bu yerlərdə ədalət yoxdu,
Hec bilmirəm, kimə gedim dada mən?! -

deyən el nəğməkarı ümidini itirmir, gələcəyə inam bəsləyir, obrazlı şəkildə "zimistanın nobahar" olacağını gözləyir. Mövcud quruluşla razılaşmayan aşıq, xalqı əsarətdən qurtaran, hamıya xoşbəxtlik bəxş edən, onun öz sözləri ilə desək, "viranə

könülləri abad eləyən” ədalət divanının tez gəlməsini arzulayır.

Aşıq Musanın yaradıcılığında vətən məhəbbəti çox güclüdur. Ana təbiətin gözəlliklərindən doymayan, onu tükənməz sevgi ilə vəsf edən, uça dağlarını, səfalı yaylaqlarını, buz bulaqlarını, qoyun-quzu sürülərini, doğma ellərini tərifləyən aşıq, qürbət ellərə yönü düşəndə, şənlik məclisləri keçirsə də, yenə kədərlənir, vətən həsrəti çəkir. Bu baxımdan onun “Balabançı”, “Dağlar”, “Görüşməyə”, “Göndərrəm” rədifli qoşmaları daha səciyyəvidir. O, qucağında boy atdığı, havası ilə nəfəs aldığı doğma diyarı Göyçəni yeri gəldikcə tərifləmiş, ona xüsusi bir şeir də həsr etmiş [68], şeirdə Göyçənin təbii gözəlliklərini sadalamaqla yanaşı, həm də oranın insanlarının məhəbbət əhli olmasını, qonağa göstərdikləri hörməti iftixarla qeyd etmişdir:

Hər dağdan ucadı Çalmalı dağı,
Car olur köksündən Qumlu bulağı.
Əziz saxlayırlar gələn qonağı,
Dad verir dəhanə balı Göyçənin.

Aşıq Musanın “Bir gün”, “Kəklik”, “Gülə-gülə”, “Köynəkcək”, “İndi”, “Dilbər”, “Biri yaz”, “Var”, “Dilim”, “Olmaz”, “Ağ ola” gəraylı və qoşmaları, “Ağlar”, “Mənnən”, “Ay üzə-üzə”, “Əyər-əyər” kimi təcnisləri aşıq şeirinin nadir incilərıdir. Şeirlər eyni zamanda, etnoqrafik cəhətdən də zəngindir. Belə ki, onların məzmununda Göyçənin həyat tərzi, adət-ənənəsi, xalq məişətinin bir sıra xüsusiyyətləri bədii boyalarla təsvir olunub. Müxəmməslərində bu məziyyət daha dolğun əksini tapmışdır. “Samavar” şeirində süfrə məclisinin geniş təsviri verilib:

Samavarım, sən coşanda yar dolanır,
Özü zər, libası zər, qəddi qələmkar dolanır.
Çox çəkir zəhmətini, buxağında tər dolanır,
Bundan artıq söz deməyə yoxdu kamalım, samavar.

Aşıq Musa dodaqdəyməz cığalı təcnisin də kamil

nümunələrini yaratmışdır. O, klassik ədəbi irsə yaxşı bələd olduğundan [84] onun bədii ifadə formalarından məharətlə bəhrələnmişdir. M.P.Vaqif ədəbi irsinə yaxından bələd olan aşığın qoşmalarında şairin ruhu aydın duyulur. Onun "Ağ ola" rədifli qoşması Vaqifin həmin rədifli qoşması ilə eyni ruhda səslənir, elə bil hər ikisi bir mənbədəndir:

Dərdini anlaya, qədrini bilə,
Əlində məhrəba istəkan silə.
Alçaqdan danışa, uçadan gülə,
Geyinə, sallana, damağ çağ ola.

Çox incə zövqə və həssas təbiətə malik olan ustadın ustadnamələri də məclislərdə layiqli yer tutur və indi də estetik əhəmiyyətini saxlamaqdadır. Onun "Dilim" şeiri bu baxımdan daha ibrətamizdir:

Dilim, bu öyüdü sənə deyirəm,
Çox dünya malına sarışma, dilim.
Çalış sən həmişə öz əməyin ye,
Haram mal yeməyə alışma, dilim!...

Təsərrüfata, rəncbərliyə yaxşı bələd olan aşıq özü təsərrüfat alətləri - xış, kotan düzəldir, əkin və biçin vaxtı saz götürməzmiş, ancaq təsərrüfatla məşğul olarmış. Təsadüfi deyil ki, aşığın qəbir daşının arxa üzünə xış (cüt) şəkli çəkilmişdir.

Ömrünün çox hissəsini təsərrufat işlərində, xüsusən də çobançılıqda keçirən və aşıqlıqla məşğul olanlardan biri də ustad Aşıq Ələsgərin **qardaşı Məhəmməd Alməmmədoğludur**. El arasında "Şair Məhəmməd", bəzən də "Çoban Məhəmməd" kimi tanınan Məhəmməd Alməmmədoğlunun bədahətən şeir demək qabiliyyəti, yaxşı hafizəsi varmış. Ailələrində babası da, atası da, qardaşları da şeir yazdıqlarından bəzən onların sənət nümunələrini biri-birindən fərqləndirmək çətinlik törətsə də, yaylaqlarda, el-obada baş verən hadisələri böyük sənətkarlıqla nəzmə çəkmiş Şair Məhəmmədin şeirlərində Göyçə yaylaqlarının ab-havası duyu-

lur. Milli qırğın vaxtı dədə-baba yurdunu tərk edib Kəlbəcərə köcmək məcburiyyətində qalan Məhəmməd zamanın ağır sınaqlarını "Fələk" rədifli şikayətnaməsində təfsilatı ilə təsvir etmişdir. İngilis silahı ilə silahlanan erməni millətçilərinin qəddarcasına Göyçəyə divan tutması, mahalda törətdikləri qırğınlar, qaçanların dağlarda borana düşüb qırılması tarixi bir sənəd nümunəsidir:

İngilisdən gələn şalon,
Göyçəni qoydu viran.
Öləni oldu, qaçanı
Dağlarda düşdü borana.
Ac qaldı, uşaq ağlaşdı,
Hamı yön tutdu arana.
Çiynimizə xurcun verdin,
Döndərdin hammala, fələk.

Şair Məhəmmədin "Məhəmməd və gürcü qızı", "Məhəmmədin Qars səfəri", "Məhəmmədin Cələbiyan səfəri" və "Məhəmmədin Yalanbol vilayətinə səfəri" kimi bir neçə dastanı məşhur olmuş, aşıqların dilində məclislərdə söylənilmişdir [70, 289].

Aşıq Ələsgərin yaradıcılığı, onun ünlü adamlarla tanışlığı, onlara həsr etdiyi qoşmaları, olmuş əhvalatlarla bağlı dillərdə gəzən maraqlı söhbətləri yaşlı adamların, xüsusən də aşıq sənətini ürəkdən sevənlərin yaddaşlarında qalmaqdadır. Saz-söz məclislərində onun şagirdi olan və onlar barədə el arasında dillərdə dolaşan və dastanlaşan maraqlı şifahi xalq ədəbiyyatı nümunələri diqqəti cəlb edir: "Ələsgər ocağı"nın tanınmış sənətkarlarından **Qurban, Talıb və Ağayar** tez-tez Qarabağda, Gəncəbasarda, Cavanşir mahalında keçirilən toy məclislərinə dəvət olunarmışlar. Bir dəfə Kəlbəcərin Qamışlı kəndində Zal adlı hörmətli, el arasında böyük nüfuzu olan müdrik bir kişinin qonağı imişlər… Məclis qurulur, söhbət get-gedə şirinləşir. Aşıqlar məclis əhlinin könlünə yatan

əhvalatlardan, aşıq deyişmələrindən söz salıb, çalıb oxuyurlar. Heyranlıqla aşıqların oxuduğu saz havalarına saymazyana kənardan qulaq asan bir gözəl qız nəzərlərini aşıqlardan çəkmir. Qurbanın arabir muğam üstə oxuması onun canına elə bil yağ kimi yayılır, aldığı mənəvi qidadan sanki sehirlənir. Baxışlarındakı qeyri-adi məsumluq Aşıq Qurbanın diqqətindən yayınmır, ürəyindən keçənləri qıza çatdırmaq üçün dərdini Aşıq Ağayara açır, ondan xahiş edir ki, elçim ol və bu barədə Talıba bir kəlmə də olsun söz sızdırma.

Məclis dağılır, səhər açılır. Ağayar fürsət tapıb qızla görüşür, get-gəldən, Kəlbəcərlə Göyçənin doğmalığından, bir çox ailələrin qohumluğundan, bir-birinə qız verib-qız almasından söhbət edirlər. Nəhayət, Ağayar mətləb üstə gəlir, Qurbanın ona vurulduğunu söyləyir. Qız isə Qurbanın ondan yaşda böyük olduğunu və bu sevdanın baş tutmayacağını bildirir. Ağayar vəziyyəti Qurbana nağıl edir. Lakin Qurban inadından dönmür. Ağayardan xahiş edir ki, bir də ərzi-bəndəliyini əsirgəməsin və "Qurban üçün" rədifli qoşmasını dilcavabı da olsa, qıza catdırsın… Aşıq Ağayar deyilən kımi də edir:

Sahibi səltənət, şirin tərəccəm,
Bir qədər qayğıya qal Qurban üçün!
Dost gərək dostunun cəfasın cəksin,
Özünü zəhmətə sal Qurban üçün!

Bir sümükdən xırda, sarğıdan qalın,
Əmən cavanlaşar ləbinin balın.
Bu xəstə canımın bilə əhvalın,
Dillənəndə deyə–çal Qurban üçün!

Söhbəti uzatmağa dəyməz, dünənnən mən sözümü demişəm, ay Aşıq Ağayar, - deyə Gözəl xanım öz etirazını bildirir… Lakin Ağayar onunla xudafizləşib ayrılıb gedəndən

sonra fikirlərə dalır, qəlbinin dərinliklərindən bir peşimançılıq hissinin baş qaldırdığını özü də gizlədə bilmir, ürəyində məhəbbət duyğularının yarandığından da çox mütəəssir olur… Yenə növbəti məclis qurulur, aşıqlar dövran edir, Aşıq Qurban olmuşlara cavab əlaməti kimi "Ağarıb" müxəmməsini söyləyir:

...Qeyrətə xələl verib, gətirir töhmət qocalıq!
Bir ayrılıq, bir də ölüm çox artırır dərd qocalıq.
Mərd igidi, şux gözəli edib bimürvət qocalıq.

Qurban deyər aman, aman, aman bimürvət qocalıq – deyə Aşıq Qurban möhür bəndini tamamlayır. Gözlərində parlayan sevgi-məhəbbət qığılcımlarından Gözəl xanımın razılığını yəqinləşdirir… Bir-birinə vururlar. Aralarında əhdi-peyman edirlər. Qurban elçi gondərəcəyinə söz verir və sənət dostları ilə Göyçə mahalına qayıdırlar… Gələndə atası Məşədi Salehdən Məkkə ziyarətinə hazırlaşdığını eşidir. Ağayardan təvəqqə edir ki, mənim başıma gələnləri atam səfərə çıxmamış bildir, qəti fikrimi söylə.

Ağayar nə qədər özünu cəmləşdirsə də, utandığından Qurbanın eşq sevdasına düşdüyünü, əhdi-peyman bağladığını deməkdə çətinlik çəkir... Axırda Qurban özü məcbur olub dərdini atasına danışır. Atası deyir ki, oğul, sənin eşqə düşdüyünü eldə-obada bilsələr, hamı bizi qınayar. Axı sən ailəlisən... Aşıq el arasında ən hörmətlə qarşılanan, sevilən, ehtiram gostərilən şəxsdir. İnnən belə səni qabaqda saysız-hesabsız məclislər gözləyir. Hər məclisdə bir gözələ vurulsan, daha onda nə olar?!.. Belə fikirlərdən daşın... Qurban atasının sözlərinə cavab olaraq bədahətən "Getməsəm olmaz" rədifli qoşmasını deyir:

Ata, vallah, bu dərd məni yandırır,
Verdiyim ilqara getməsəm olmaz.
Seyraqublar gedər yaman qandırar,
Ollam üzü qara, getməsəm olmaz.

Sən ol Xoca Əziz, mən olum Məsim,
Vəfalı meylimi bəs necə kəsim,
Badi-səba kimi gərək tünd əsim,
Məcnun kimi dağı gəzməsəm olmaz.

Atasının narazılığından həya edən və ümidini itirən Qurban bu sevgini nə ürəyindən cıxara, nə də unuda bilir. Gözəl xanımın məhəbbəti onun üzərində sanki bir kölgə kimi gəzib, təqib edir. Dərdə-qəmə tab gətirə bilmir, eşqin fərağından bir müddətdən sonra dünyasını dəyişir. Qurbanın ölüm xəbəri Gözələ çatır, o, qaralar geyinir, əsl məhəbbətin acısını dadır, üzü gülmür, özünü həyatda kimsəsiz sanır, xəstəlik tapır, ürəyindəki məhəbbətini özü ilə birlikdə qəbr evinə aparır...

...Aşıq Qurban Dədə Ələsgərin qardaşı Məşədi Salehin böyük oğludur. Onun doğum tarixi dəqiq məlum olmasa da, çox gənc vaxtlarında, həyatının çiçəkləndiyi bir zamanda, 1915-ci ildə kəndi Ağkilsədə vəfat etmişdi. Aşıq Talıbın və başqa qohumlarının söyləməsinə görə, Qurban simaca yaraşıqlı, mərifət-qanacağı ilə xalq içində hörmət qazanmış yaxşı bir aşıq olmuşdu. Gözəl səsi, bədahətən şeir demək, muğam havalarını çox məharətlə ifa etmək qabiliyyəti varmış... Qurban Aşıq Ələsgərin ən sevimli şəyirdi imiş, onun vaxtsız vəfatı ustadını məyus etmiş, bu hadisədən sonra Aşıq Ələsgər bir daha əlinə saz almamışdır [70, 290].

Aşıq Qurbanın şeirlərinin əksəriyyəti unudulmuş, yalnız bir necə şeiri "Ələsgər ocağı" toplusuna daxil edilmişdir. Qurban ilə Gözəl arasında baş verən bu uğursüz məhəbbət əhvalat şəklində mərhum Aşıq Ağayarın yaddaşından qələmə alınması ötən əsrin təxminən 70-ci illərinin əvvəllərinə aiddir. Onda nə Aşıq Ağayar, nə də başqaları Göyçə mahalının bir vaxtlar dağılacağını, əhalisinin qaçqın-köçgün olacağını, onun sənət həyatının pələsəng düşəcəyini ağlına belə gətirməzdi. Ağıla gəlməyən başa gələr, - deyiblər... Bu əhvalat "Folklor

məsələlərinə dair tematik toplu”nun 1999-cu il tarixli 3-cü sayının 32-37-ci səhifələrində tərəfimizdən ətraflı qələmə alınmışdır.

Aşıq Qurbanın yaradıcılığından yalnız “Yetirsin”, ”Getməsəm olmaz”, ”Ay, ana düşər”, “Yaraşır” rədifli şeirləri yazıya Aşıq Ağayarın və Aşıq Talıbın hafizəsindən köçürülmüşdür. Bu şeirlərdə fəzilətin ən ümdə cəhətlərindən əhdə vəfa qılmaq, dostluqda sədaqətli olmaq, həsrət, intizar, gələcəyə inam duyğuları vardır. “Getməsəm olmaz” şeirində ilqarına əməl edəcəyini, dara cəksələr də “Huri-qılman”a bənzər yarına qovuşacağını, el-oba içində üzu ağ, başı uça olacağını vurğulayır. Aşıq Qurbanın ifaçılıq biçiminin bir çox istiqamətləri Göyçə aşıq mühitinə məxsus aşıqlar tərəfindən sonrakı dövrlərdə də yaşadılmışdır.

Ələsgər nəfəsinin həm ailə xətti, həm də sənət axarı ilə birbaşa daşıyıcısı olan Aşıq Talıbın Göyçə aşıqlıq sənətində müstəsna yeri vardır. Aşiq Talıb Ələsgər oğlu 1877-ci ildə Ağkilsə kəndində anadan olmuş, aşıqlıq sənətini atasından öyrənmişdir. İlin yaz-yay aylarında əkinçilik etmiş, payız-qış aylarında isə xalqımızın toylarında, el şənliklərində sazlı-sözlü söhbətləri ilə şərəfli ömür yolu keçmişdir. Klassik və müasir aşıq sənətini mükəmməl bilən Aşıq Talıb Göyçə sənətkarlarının, xüsusən atası aşıq Ələsgərin irsinin sinədəftəri kimi aşıqlar arasında böyük nüfüza malik olmuşdur. Yaşadığı, ömür sürdüyü mühitin təsiri onu ustad aşıq zirvəsinə qaldırmışdır. O, 1979-cu il, mayın 21-də, 102 yaşında Ağkilsə kəndində vəfat etmişdir.

XX əsr Göyçə aşıq məktəbinin saz-söz aləmindəki sənət uğurları birbaşa Aşıq Talıbın iştirakı və ya onun xeyir-duası ilə qazanılmışdır. Göyçə aşıq mühitinin ən sanballı numayəndələrindən sayılan, aşıq sənətini, xüsusən də Aşıq Ələsgərin uzaq sələflərinin və yaxın xələflərinin yaradıcılığını istənilən səviyyədə bilən saz-söz ustadlarından biri də Aşiq

Nəcəfdir. Şagirdliyi və yetkin aşıqlığı 1920-50-ci illər arasına düşən bu istedadlı sənətkarın Göyçə aşıq mühitində özünəməxsus dəsti-xətti olmuşdur. Aşıq Nəcəf 1900-cu ildə Ağkilsə kəndində doğulmuş, kicik yaşlarından atadan yetim qalmış, bu səbəbdən də ailənin ağırlığı onun üzərinə düşmüşdür. Mollaxanada təhsil alsa da, Dədə Ələsgərdən aşıqlığın sirlərini öyrənmiş, yaşadığı dövrün ictimai-siyasi hadisələri onun şeirlərinin aparıcı mövzusuna çevirmişdir. Göyçə aşıqlığında saza-sözə həssas münasibətin qorunub saxlanılmasında dəyərli xidmət göstərmiş;

Mahalım Göyçədi, Nəcəfdi adım,

Ələsgər, İmandı mənim ustadım – deyən Aşıq Nəcəf ustadlardan gələn yüksək səviyyəli ifaçılıq və yaradıcılıq ənənələrinin yaşadılması və sənət aləminə yeni gələn şagirdlərə, saz-söz həvəskarlarına mənimsədilməsinə ürəkdən bağlanmış, bu sahədə böyük qayğıkeşlik və tələbkarlıq gostərmişdir.

Göyçə aşıq mühitinin XX yüzillikdəki sənət həyatının bağlı olduğu yaxın qaynaqları üzə çıxarmaq baxımından Göyçə mahalında hörmət-izzəti ilə hamıya nümunə olan Aşıq Ələsgərin qardaşı Məşədi Salehin oğlanları: Növrəs İman və Aşıq Musanın yaradıcılığının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu böyük sənətkarların yaddaşlardan qələmə alınan, arxivlərindən toplanan şeirləri zəngin poetik keyfiyyətlərə malik ədəbi irsdən soraq verir.

Ədəbiyyat aləmində Növrəs İman kimi tanınan şair İman da Ağkilsəlidir (1903). Təhsilini doğma mahalının Huseynquluağalı kəndində molla məktəbində almışdır. Sovet hakimiyyəti qurulduqdan sonra bir müddət Kəlbəcərin Seyidlər kəndində kənd Sovetinin katibi işləmişdir. Özündən əvvəlki aşıq və el şairlərinin şeirlərinə cavab yazmış və bir çox açılmamış qifilbəndləri açmışdır. İmanın həyatına və yaradıcılığına dair məlumatlara "Yeni kənd" jurnalının (1927) 4-5 saylarında, Hümmət Əlizadənin "Azərbaycan aşıqları"

(1930, II cild) toplusunda və “Ədəbiyyat qəzeti”ndə (1935, 23 aprel), “Xalq ədəbiyyatı səhifəsi”ndə rast gəlinir. Coşqun təbə, yüksək biliyə, möhkəm yaddaşa, bədahətən şeir demək qabiliyyətinə malik olan el şairinin çoxsaylı şeirlərinin əksəriyyəti öz əli ilə məhv edilmişdir. Müxtəlif illərdə “Dan ulduzu”, “İnqilab və mədəniyyət” jurnallarında, “Ədəbiyyat qəzeti”ndə dərc olunan və aşıqların, el şairlərinin, sənətkarın başına gələn əhvalatlardan az-çox xəbəri olanların yaddaşlarından qələmə alınan şeirləri Növrəs İmanın həm tərcümeyihalı, həm də uğursüz taleyi barədə müəyyən təsəvvür yaratmışdır. O, əsrin 30-cu illərinə qədər Tovuz rayonunun Aşağı Ayıblı kəndinin sakini, saz-söz xiridarı kimi tanınan Məşədi Qədimlə dostluq münasibətində olmuş, görüşləri zamanı İman Məşədi Qədimin aşıq və şairlərin şeirlərindən ibarət nümunələri dəftərinə öz xətti ilə yazmışdır. Məşədi Qədim İman itkin düşəndən sonra bu dəftəri ölənədək əziz bir yadigar kimi saxlamış, onu İmanın yaxın qohumlarına çatdırmağı övladlarına vəsiyyət etmişdir. ”İtkin şairin tapılan dəftəri” Aşıq Talıbın oğlu Aşıq Haqverdiyə çatdırılmışdır.

Növrəs İmanın xəstə olması, baş götürub vətənindən getməsi, İrana və ya Türkiyəyə köçməsi, orada yaşaması və əcəli ilə ölməsi barədə müxtəlif guman və fərziyyələr də vardır. Növrəs İmanın “Mənəm”, “Mənəm, mən”, ”Məni”, “Görünür”, “Kağız”, “Doyunca” və bu kimi şeirlərində doğma el-obasından ayrı düşdüyü, qürbətlərdə qəm-kədər içərisində yaşadığı xüsusilə vurğulanır. ”Tərk olan vətəndən, yad olan eldən mənəm”, - deyir:

...Çox çalışdım, cəfa çəkdim əlimdən,
İncimədi bircə kimsə dilimdən.
Aqibətdə cüda düşdüm elimdən,
Alıbdı qürbətdə intizar məni [68, 200].

Eyni rədifdə yazdığı başqa bir şeirində isə qəribliyin yaman dərd olduğunu, "fərmani qürbətdən", "hökmü-xudadan", "qəhri-qəzadan", nagahan tapdığı ağrılardan bədənindəki əzaların onu incitdiyini izhar edir:

Bir yandan ayrılıq, elin fərağı,
Yandırır cismimi atəş sayağı.
İmanam, ömrümün növrəstə çağı,
Üzür işgəncələr, cəzalar məni.

Növrəs İman "Mənim" rədifli şeirində xoş günə həsrət olduğunu, biçarə Məcnun kimi könlünü bihudə sərf etdiyini göstərir:

...Qürbətdə qovruldum, oldum füqara,
Ayrılıb vətəndən düşdüm kənara.
Növrəstə İmanam, mənəm biçara,
Həsrətdi dərmana gözlərim mənim.

XX əsr Göyçə aşıq mühitində özünəməxsus yeri olan **Növrəs İmanın** yaradıcılığına 1920-50-ci illərin Göyçə aşıqları öz repertuarında çox geniş yer vermişlər. Belə ki, onun adının çəkilmədiyi, şeirlərinin oxunmadığı saz-söz məclisi olmamışdır. İtkin düşdüyü zamandan indiyə qədər Növrəs İmanın həm özünün göynərtili itkinliyinə çoxsaylı şeirlər qoşulmuş, həm də şerlərinə nəzirələr yazılmışdır.

Növrəs İmanın qardaşı Aşıq Musa (1909-1948) da Göyçə mühitinin sənətkarlarındandır. "Öləsgər ocağı"nın yetirməsi, **Aşıq Musa** (1909-1948) saz havadarlarının ən mahir ifacısı olmuş, Aşıq Huseyn Cavana aşıq sənətinin incəliklərini öyrətməkdə baçarığını əsirgəməmişdir. Onun "Ay, ağa, sinə", "Açıldı", "Qardaş" rədifli şeirləri el arasında geniş yayılmışdır.

İtkin İmanın dərdindən "Qəlbim qan ağlayır, didəm yaş tökür, ... bəs, dərdi olan da gülərmi" - deyən aşığın həsrətli, nisgilli misraları Göyçə aşıqlarının dillərində əzbərdir:

Musa məhbəsdədi, yoxdu həyanı,
Neylədin İmanı, ay kərəm kanı?!

Mən onsuz dünyada neylərəm canı,
Tükənməz dərdimi bölərmi qardaş?!

Dədə Ələsgərin nəvəsi, **Bəşirin** oğlu olan el şairi **Həşim** də 1920-50-ci illər və daha sonrakı dövr Göyçə aşıq mühitində istedadlı söz xiridarı kimi tanınmışdır.

912-ci ildə Ağkilsə kəndində anadan olmuş Həşim 1989-cu ildə Daşkəsən rayonunun Bayan kəndində vəfat etmişdir. Şeirlərini "Həşim", "Mahir" təxəllüsləri ilə yazmış aşığın qoşma, müxəmməs və təcnislərinin mövzusu "qələm qaşlı, şəhla gözlü, qəmər üzlü, maral baxışlı, bəstə boylu, siyah telli" gözəllərdir:

Mən Mahirəm, gözəl, sizə qurbanam,
Qələm qaşa, şəhla gözə qurbanam,
Qəmər üzə, şirin sözə qurbanam,
Ləbinin balına ehtiyacım var.

Göyçə saz-söz mühitinin 20-50-ci illər mərhələsində poetik axtarışları, öz rəngarəngliyi və dolğunluğu ilə böyük maraq doğuran kamil sənətkarlarından biri də "Xəstə Bayraməli"dir. **Xəstə Bayraməli** (Bayraməli Abbasəli oğlu Xudiyev) 1898-ci ildə Göyçə mahalının Nərimanlı kəndində, yoxsul bir ailədə dünyaya gəlmişdir. Körpə ikən atasını itirmiş, ögey ata ocağında keçmiş həyat onu sıxmış, gördükləri, eşitdikləri və başına gələnlər bu gəncin dünyagorüşündə acı təəssüratlar yaratmışdır. Doğma yurdun füsunkar gözəllikləri, ayna bulaqları, vüqarlı dağları onun ilham çeşməsini çağlatmış, dünyagörmüşlərdən eşitdiyi nağıllar, dastanlar, ağılar, laylalar, bayatılar və aşıq havalarının həzin melodiyalarından vəcdə gələrək, yaşantılarını poetik misralara çevirmişdir."Olmuşam" rədifli qoşmasında "Qolu bağlı ədalətin səsiyəm" - deyən şair ürəyinin düşmən xəncərindən bölündüyünü, sevgi dünyasının həzin nəğməli ozanı olduğunu, həsrət dənizində üzdüyünü, Məcnun tək ana yurdunun səhralarında gəzdiyini söyləyir:

Bayraməli, çoxdu hələ söhbətim,
Əgər taleyimdən varsa möhlətim;
Erkən dilə gəlib şair niyyətim,
Görüb duyduğumu yazan olmuşam.

Xəstə Bayraməlinin şeirlərində ictimai-siyasi haqsızlıqlara, ədalətsizliklərə kəskin etiraz hakimdir. Onun iki min misradan ibarət yüz altmışdan çox müxtəlif rədifli şeiri "Mənim Göyçəm" kitabında çap olunmuşdur. Xəstə Bayraməli 1952-ci ildə vəfat etmişdir.

Fəaliyyət dövrü XX əsrin 20-50-ci illərinə düşənlərdən biri də **Bəhmən Göyçəlidir**. Göyçə aşıq mühitində ustad sənətkar kimi böyük rəğbət qazanan Bəhmən Göyçəli (Bəhmən İbrahim oğlu Qarayev) 1901-ci ildə Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur. Uşaq yaşlarından ata qayğısından məhrum olmuş, keçirdiyi məşəqqətli həyat gənc Bəhməni mətinləşdirmiş, şeirə, sənətə marağını artırmış, çaldığı saz havaları, qoşduğu şeirlər, danışdığı dastanlar, keçirdiyi toylar ilə dillər əzbərinə çevrilmişdir. Aşıq Bəhmən Göyçə mahalının hüdudlarından kənarlarda da məşhur olmuş, xalq ruhu, həyat həqiqəti, mövzu rəngarəngliyi, forma əlvanlığı onun bədii yaradıcılığının əsas məğzini təşkil etmişdir.

Ədəbiyyat tarixində həm şair, həm də ustad aşıq kimi tanınan Bəhmən Göyçəlinin işıq üzü görən "Vətən, küsmə məndən" [187, 22] kitabında zəngin irsindən yalnız 25 qoşması, 7 gəraylısı, 9 təcnisi, 18 divanisi,14 müxtəlif şeiri, Aşıq Alının, Xəstə Qasımın, Növrəs İmanın qıfılbəndlərinin açılması, 17 deyişməsi, 1 meracnaməsi, "Əfqan və Tufan", "Bəhmən və Humay" dastanları toplanıb çap olunmuşdur. Yaradıcılığında sənətin, sənətkarın, məclislərin keçirilməsində aşığın böyük sima olduğunu yüksək qiymətləndirən Bəhmən "Aşıq olan", "Gözdə, gözdə, sən", "Ələsgər" rədifli şeirlərində bu fikirləri əks etdirə bilmişdir:

Günəş tək aləmə bir işıq saldın,
Gövhər kanı, söz ümmanı, Ələsgər.
Təmiz ad saxladın, ellər dolandın,
Gəzə-gəzə hər bir yanı, Ələsgər, –

deyərək onun Nizami, Xaqani, Füzuli, Nəsimi kimi böyük sənətkar olduğunu, dastanlar yaratdığını, eldən ilham aldığını, gəlinlər köçürüb, toylar yola saldığını, ala gözlü, şirin dilli, incə belli, siyah telli şux gözəllərə tərif dediyini, Göyçənin başını uca etdiyini misralara köçürmüşdür:

Adını eylədin yaxşı Göyçənin,
Dağlardan ucadı başı Göyçənin,
Sevinir torpağı, daşı Göyçənin,
Şad eylədin sən Bəhməni, Ələsgər.

XX əsr Göyçə aşıq mühitinin formalaşmasında Məmmədhüseynin, Molla Şəfinin, Molla Abuzərin, Molla Şəfi oğlu Hacı Rəhimin böyük rolu olmuşdur. Molla Şəfinin ailəsində dünyaya göz açanların hamısı dini təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmiş, ədəbi yaradıcılıqla məşğul olmuşlar. Onun oğlu Molla Hacı Rəhim, qızları Başxanım və Savad öz mütərəqqi fikirləri, saza-sözə, elmə marağı, xalqının təəssübkeşi olmaları ilə tanınmışlar.

Əsrin əvvəllərində ermənilərin Göyçə mahalında törətdiyi qırğına başçılıq edənlərə qarşı amansızlıq göstərənlərdən biri də Hacı Rəhimdir. Təəssüf ki, onun aşıq şeiri üslubunda yazdığı qoşmaları qələmə alınmadığından itib-batmışdır. Lakin Hacı Rəhimin bacıları Başxanımın (1880-1956), Aşıq Savadın (1885-1970) [30, 151-161] qoşma, gəraylı və bayatıları yaddaşlardan qələmə alınmışdır.

Aşıq **Savad Şəfiqızı** 1885-ci ildə Göyçə mahalının Daşkənd kəndində molla Şəfinin ailəsində anadan olmuş, ruhani təhsili almış, Sarıyaqub kəndindən olan xalq sənətini, xüsusən də aşıq sənətini ürəkdən sevən Temir adlı bir gənclə ailə qurmuş, yaşadığı zamanın ictimai-siyasi hadisələrindən

təngə gələn bu ailə üzvləri də başqaları kimi, doğma yurdundan çıxıb getmək məcburiyyətində qalmış, Gədəbəy rayonunun Söyüdlü kəndində məskunlaşmış və burada da vəfat etmişdir. Aşıq Savad Şəfiqizinin həyat yoldaşı Temirdən saz çalmaq öyrənməsi onun ictimai mövzularda qoşmalar yazmağında az rol oynamamışdır. O, aşıqlıq etmiş, məclislərdə, el şənliklərində özünun, xüsusən də ustad sənətkarların dillər əzbəri olan şeirlərini oxumuşdur. Aşıq Savadın "Olarmı", "Götür" rədifli qoşması və gəraylısı vətən həsrətinə həsr olunmuşdur.

Başxanım Şəfiqızının qoşmalarında vətən sevgisi, övlad məhəbbəti, sənətə qiymətlə yanaşı, bir nisgil də hiss olunur. Böyük Vətən müharibəsində həlak olmuş iki oğlunun dərdi onun poetik misralarında öz əksini tapmışdır:

Fələyin özü də sağalda bilməz,
Bədənimdən bir cüt qolum kəsilib.
Sözüm kəndirlənib, kəlməm dolaşır,
Sitəm xəncəriylə dilim kəsilib - deyən

şair "Gəlin", "Sən götür" rədifli şeirlərində və silsilə bayatılarında çəkdiyi qəm-qüssəni, tökdüyü göz yaşını, fələyin sitəmini bədii dillə tərənnüm edir. Onun şeriyyəti oğlu şair Xəyallı Həsənin yaradıcılığına bir təkan, bir ədəbi məktəb olmuşdur. Dayısı Molla Hacı Rəhimin tərbiyəsi ilə formalaşan Hacıyev Həsən Məhərrəm oğlu (1903-1966) dini təhsil alan, molla kimi tanınmış və şair **Xəyallı Həsən** kimi şöhrət qazanmışdır. O**, Aşıq Ələsgərin qardaşı oğlu Nəcəflə, Aşıq Huseyn Bozalqanlı, Abdulla, Bəhmən Göyçəli, Aşıq Əsəd**, Ağdabanlı Şəmşir və s. kimi sənətkarları ilə dostluq etmiş, 2000 beytə yaxın şeir yazmışdır. Təkcə şeir yazmaqla kifayətlənməmiş, xalqın yaddaşından dastan və nağıllar toplamaqla da məşğul olmuşdur. Onun arxivində çapı vacib olan böyük həcmli "Dərvişi Beççə" nağılı, "Abbas və Gülgəz", "Qurbani və Pəri xanım" dastanlarının çap olunmamış variantları, el şairlərinin şeirləri vardır.

Həsən Xəyallının "Alındı", "Gəl alım", "Olar" rədifli şeirləri böyük sənətkar olduğunu, aşıq şeiri üslubunda əvəzsiz nümunələr yaratdığını göstərir. "Nurlar" nəşriyyatında şairin "Axtar məni" şeirlər kitabı 2006-cı ildə işıq üzü görmüşdür. Həsən Xəyallının övladları Sərraf Şiruyə, Nəbi, Əmirxan, Aqil İman, nəvələri Qılman İmanlı, Zülfiyyə, Aqşin onun layiqli davamçılarıdır. Poeziya aləmində öz imzaları və çoxsaylı kitabları ilə məşhurdurlar. Sərraf Şiruyə "Ağlama, bulbul, ağlama" (1994), "Ölümdən sonrakı ömür" (1997), "Bu ocağın odu sönməz" (1998), "Cəsurlar" (2000), "İgid ölər, adı qalar" (2000), "Ayrılığın sonu varmış" (2006), "Könlüm Göyçəni istər" (2006), "Tərtərin yaralı cəngavərləri" (2006), "Mən haqqa sığınmışam", "Hər görüş bir xatirədir" (2007), "Göyçədən gələn səslər" (2008), Zülfiyyə Şiruyəqızı "Mən bir sınmış budağam", Qılman İmanlı "Səni axtarırdım özümü tapdım" (2004), "Hardan düşdün yadıma sən" (2008) şeirlər kitabının müəllifidir. Yeri gəlmişkən qeyd edim ki, Sərraf Şiruyə aşıq şeirinin təcnis janrında ən çox yazan, müasir Azərbaycan ədəbiyyatında qüdrətli təcnis ustadı kimi tanınır.

Doğma yurd yerlərindən məcburən uzaq düşən, çəkdiklərini saza söyləyənlərdən biri də **Məmməd (İrəvanlı) Cəfərovdu**r. O, 1894-cü ildə İrəvan quberniyasında Keşişkənd-də anadan olmuşdur. Məmməd İrəvanlı öz tərcümeyi-halında yazır: "1904-10-cu illərdə muzdurluq etmişəm. 1910-1914-cu illərdə Ukraynanın Tuva vilayətində su kəməri tunelində işləmişəm... 1914-1917-ci illərdə Bakıda Musa Nağıyevin neft buruqlarında fəhlə işləmişəm... 1917-1920-ci illərdə erməni-Azərbaycan savaşında Bakıdan İrəvana getdim. Orada da yaşamaq mümkün olmadı. 1920-1926-cı illərdə Gədəbəy mahalında yaşamışam... ". Tərcümeyi-halından da göründüyü kimi, məşəqqətli həyat keçirən, didərginlik həyatı yaşadığı bu illərdə aşıq Məmməd Cəfərov dərdini saza söyləmiş, onunla həmdərd olmuş, yaşayış yerini dəyişmiş, Ağdamın Qərvənd

kəndində məskunlaşaraq həm təsərrufatla məşğul olmuş, həm də aşıq sənətini özünə peşə seçərək el şənliklərində çalıb-oxumuşdur. Aşıqlar arasında **Aşıq Məhərrəm** (1825-1910, Göyçənin Alçalı kəndi) kimi tanınmış el şairinin həyatı da çox məşəqqətli və ziddiyyətli keçmiş, 1905-ci ildə ermənilərin Göyçədə törətdikləri qırğınlardan sarsılmış, gördüklərini şeirlərində təsvir etmişdir:

Yaşılbaş sonalar tərk oldu səndən,
Həsrət qaldın gəlin-qıza, bulaqlar.

Deyilənlərə görə, Aşıq Məhərrəmin yaradıcılığında ustadnamələr çoxluq təşkil etmişdir. Bəziləri başqa aşıqların şeirlərinə qarışdığından, çox az qoşmaları aşıqlar tərəfindən ifa olunur. "Bulaqlar" şeirindən onun təbiətə vurğunluğu aydın görünür:

... Məhərrəm arzular gəlsin baharın,
Ərisin kirmələr, tökülsün qarın.
Dəhanda dad versin abı-kövsərin,
Olsun içənlərə məzə, bulaqlar.

Göyçə mahalının Zağalı kəndində anadan **olan Müğüm Məmmədovun (1903) d**a həyatı məşəqqətli keçmiş, uşaqlıqda muzdurluq etmiş, qaçqınlığın, köçkünlüyün acı dadını o da dadmışdır. İlk vaxtlarda Gəncə şəhərinə köçmüş Müğüm Məmmədovun saza, sözə olan həvəsi onu Ağdaş diyarının Ləki kəndinə, oradan da Şəkinin Göybulaq kəndinə gətirib çıxarmış, 1927-ci ildə Cəfərabadda məskunlaşmışdır. Burada təsərrufat işlərində, müxtəlif vəzifələrdə çalışan Müğüm Məmmədov təqib olunaraq həbs edilmişdir. Həbsxanadan qayıdandan sonra ömrünü Şəki diyarında tanınmış aşıqlardan biri kimi Göyçə aşıq sənətinin özəlliklərini iştirakcısı olduğu məclislərdə yayıb-yaşaymağa həsr edib.

Ümumiyyətlə, XX yüzilliyin ortalarında Göyçə aşıqlığında yüksək ifaçılıq məharəti göstərmiş ustad sənətkarlar çox olub. Qoşabulaq kəndində anadan olmuş **Aşıq Hümmət**

Məhərrəm oğlu Daşdəmirov (1876-1951) da bunlardan biridir. Gənc yaşlarından şözə, saza maraq göstərmiş, ustad yanında şəyirdlik etmiş, peşəkar-ifaçı aşıq kimi məclislər aparmış, ustadlıq etdiyi həmkəndlisi **Aşıq Rəcəb Əli oğlu Əhmədov** (1913 - 2006) saz çalmağı ondan öyrənmişdir.

Aşıq Hümmət gənc yaşlarından Göyçənin İnəkdağı kəndində məşhur el sənətkarı Aşıq Qəhrəmanın yanında şəyirdlik etmiş, ustadından xeyir-dua alandan sonra peşəkar-ifaçı aşıq kimi məclislər keçirmiş, öz sənətini istəyində olanlara həvəslə öyrətmişdir. Həmkəndlisi Aşıq Rəcəb, qardaşı oğlu Həmil, özünun övladları - **Zaman (bir müddət Adil Alıyevlə aşıqlıq etmişdir), İsrafil və Əlaslan saz** çalmağı, şeirlər yazmağı, qədim aşıq havaları üstə oxumağı ondan öyrənmişlər.

Aşıq Hummət şeirlər yazsa da, məclislərdə ustadlardan, xüsusilə də Aşıq Alıdan, Ağ Aşıq Allahverdidən, Ağdabanlı Qurbandan, xüsusən də Tufarqanlı Abbasdan, Dədə Ələsgərdən bildiyi qoşmaları özünəməxsus bir üslubda oxuyarmış. Aşıq Rəcəb Əhmədovun dediyinə görə, 1905-1907-ci illərdə erməni daşnaklarının törətdiyi ilk qırğının birinci mərhələsində **Hümmət Daşdəmirov** Xoşbulaq yaylağında ailəsi ilə borana düşmuş, əynindəki yapıncı onları şaxtadan mühafizə etmiş, üstlərini örtən qar tarının altında dinclik tapsalar da, onun nəfəsinin hərarətindən kirpiklərində əmələ gələn buzdan gözləri zədələnmişdir. Hava sakitləşəndə xoş təsadüfdən yaxından keçən karvan onlarla birlikdə xeyli adamın həyatını xilas etmişdi. Bu hadisədən sonra Gəncəbasarda yaşamış və aşıqlıq etmiş, qohum-qardaşdan ayrı düşdüyünə görə həyatı bədbin keçmiş, həyat yoldaşını və ilk məhəbbətinin yeganə yadigarı olan İsrafil adlı cavan oğlunu itirmişdi. Dost-tanışların təhriki ilə həmkəndlisi Zinyət Əli qızı ilə ailə qurmuş, doğma kəndi Qoşabulağa qayıdaraq əkinçiliklə məşğul olmuşdu. Mənfur ermənilərin törətdiyi soyqırımın canlı şahidi olan, qaçhaqaçda dünyasını dəyişən qohum-əqrəbasının uğursuz

taleyinə acıyan Aşıq Hümmət [145, 289-317] yenidən ayrı düşdüyü sazını sinəsinə basıb dərdini dilə gətirir... Yeni izdivacdan dünyaya göz açan körpə balasına, vaxtilə erməni qırğınından canını qurtarsa da, iki oğlunu yetim qoyub dünyasını qəriblikdə dəyişən və Gədəbəyin Xar-Xar kəndində torpağa əmanət etdiyi istəkli qardaşı Məmmədin həyat yoldaşı Fatmanın adını yeni doğulmuş qızına verməklə, qəlbindən heç vaxt çıxmayan "oğul dağını" isə balaca İsrafil doğulandan sonra untmağa çalışmışdır. Gözləri zəif görən, çoxsaylı rəvayət, dastan, nağıl, qaravəlli, hədis bilən, məlahətli səslə oxuyan, saz havalarını xüsusi məharətlə ifa edən Aşıq Hümmətə, zəif gördüyünə görə, "Kor Aşıq" və ya sadəcə "Aşıq" deyərmişlər. Onun sazını özündən başqa heç kim çala bilməzmiş. Qardaşı nəvəsi onun haqqında deyir ki, "1951-ci ilin noyabr ayının on altısı idi, yaxşı yadımdadır. Mənim dörd yaşım vardı. Aşıq əmim Hümmətin ölümünü bir müddət böyüklərin məsləhəti ilə qızına bildirmədik, çünki o, ikinci övladı ilə oğul anası olmuşdu. Onu da deyim ki, o saz əsrin əllinci illərində divardan asılı saxlanırdı. Günlərin birində oğlu İsrafil sazı köynəyindən çıxarıb kökləmədən çalanda təəccublənənlər də oldu. Bildirdi ki, dədəmin sağlığında sazı çalmağı öyrənmişəm. Onun kimi çalmasam da, dilləndirirəm... Saz çalmağı böyük qardaşım Zamana və mənə, şairliyi isə kiçik qardaşım Əlaslana sirayət edib...

1975-ci ilin yayında Aşıq Şəmşir Şuşada "Dağ-iqlim sanatoriya"sında müalicə olunurdu. Şair dostlarımdan Ağa Lacınlı, Əli Mahmud, İsa Şuşalı və bir də mən Dədə Şəmşiri ziyarətə getmişdik. Çox söhbət etdik, Göyçədən söz düşəndə Aşıq Hümmətin qardaşı nəvəsi olduğumu bildi və dedi: - Oğlum, rəhmətliklə mənim dostluğum olub, hələ cavan vaxtlarımızda. Cavanşir mahalına yolu düşəndə mənim əziz qonağım olardı, məclislərə gedərdik. Rəcəb adında bir cavan şəyirdi də vardı. Gərək ki, Rəcəb Bərdədə yaşayır... Çoxları

Aşıq Hümmət barədə gördüklərini danışır. Sənətdə və yoldaşlıqda onu hamıdan yaxşı Aşıq Rəcəb Əhmədov tanıyır. Hər dəfə ondan söhbət düşəndə ustadının mərd, cəsarətli, gəzdiyi mahalların yolunu-yolağını, dağını-daşını uzaq məsafədən tanıyıb göstərən, adamlarının psixologiyasını bilən bir adam olduğu barədə maraqlı epizodlar söyləyirdi. Təəssüfləndirici odur ki, onun qoşma və gözəlləmələrı yaddaşlardan yazıya alınmamışdır.

Qərbi Azərbaycanın tarixi ərazilərindən olan Göyçə mahalının Basarkeçər rayonundakı Qoşabulaq kəndində anadan olmuş (1897) aşıqlardan biri də **Aşıq Behbud Əl**i oğlu Nəbiyevdir. Atası Əli kişinin maddi vəziyyətinin ağırlığından təhsil almayan Behbud gənc yaşlarından İnəkdağı kəndində dayısı Aşıq Qəhrəman Alırza oğlunun yanında şəyirdlik etmişdir. Oxumağı və yazmağı baçarmadığı halda, fitri istedada malik olan Behbud iki il ərzində aşıqlıq sənətinin incəliklərini dərindən öyrənmiş və bir müddətdən sonra sərbəst aşıqlıq etmişdir. Mənfur ermənilərin törətdiyi soyqırımın ağır nəticələri onların ailəsindən də yan keçməmiş, o, ata-anasını, qardaş-bacısını və yaxın qohumlarını itirmişdir. Cavanlıq dövrünün ictimai-siyasi ziddiyyətlərin, iqtisadi çətinliklərin baş alıb getdiyi bir vaxta düşdüyündən, başqa yaşıdları kimi gənc aşığın da həyatı çətin və dözülməz olmuşdur. Bütün bu çətinliklərə baxmayaraq o, öz dağma kəndində ailə həyatı qurmuş və yaşamışdır. Sovet hakimiyyəti illərində kənd təsərrüfatında çalışmış, boş vaxtlarında isə İrəvan, Qazax, Gəncə, Kəlbəcər, Gədəbəy və başqa rayonlarda aşıq məclisləri təşkil etmiş, saysız-hesabsız toy şənlikləri keçirmişdir... Böyük Vətən müharibəsindən geri qayıtmayan oğlu Qurbanın dərdi onu sarsıtmış, əlinə bir daha saz alıb məclislərə getməyi öz ata qürurına sığışdırmamışdır [143, 317]. Tanıyanlar Aşıq Behbudun dərin zəkaya, güclü yaddaşa malik olduğundan bu gün də böyük maraqla danışırlar. Bir dəfə Azərbaycan Elmlər

Akademiyasının folklorşünas alimləri Göyçəyə gəlmişdilər. Onlar Aşıq Ələsgər irsinin toplanması ilə əlaqədar yerli əhalinin yaşlı sakinlərindən eşitdiklərini yazıya alırdılar. Tədqiqatçı alim, Bakı Dövlət Universitetinin "Şifahi xalq ədəbiyyatı" kafedrasına rəhbərlik etmiş professor Azad Nəbiyev də həmin nümayəndələr arasında idi. O, Aşıq Behbuddan mahalda yazıb-yaradan sənətkarlardan bildiyi qoşmaları və əhvalatları danışmağı xahiş etdikcə maraqlı faktları üzə çıxarır, tapıntı sayılanları dəftərinə köçürürdü (qeydlər sonralar Azad müəllimin monoqrafiyalarında öz əksini tapmışdı). Aşıq Behbudun yaxşı hafizəsi orta əsr xalq dastanlarını mükəmməl mənimsəməkdə yardımçı olmuşdur. Onun apardığı məclislərdə hədsiz maraqla söylədiyi dastanları lap uşaq yaşlarımda dinləmişəm. "Koroğlu", "Abbas və Gülgəz", "Şah İsmayıl", "Qəndab", "Valeh və Zərnigar", "Əsli və Kərəm" dastanlarını indinin özündə də qaçqınlıq ömrü yaşayan Qoşabulaq kəndinin yaşlı adamları yaxşı xatırlayırlar. Altı övladı olmuş Aşıq Behbudun böyük oğlu Qurbanın müharibədə həlak olması onu sənətindən uzaqlaşdırmışdı. Cavan yaşlarında vəfat etmiş qızı Dursunun Fəzail adlı oğul yadigarı DQ hadisələri dövründə doğma yurdundan didərgin düşmüş, Sank-Peterburq şəhərinə getmiş, 2010-cu ildə orada vəfat etmişdir. Aşıq Bebudun qızı Aqilə Qazax rayonunda, oğlanlarından Bəhman Goranboy rayonunun Qaradağlı kəndində, Tavariş İsmayıllının Soltankənd kəndində, saza-sözə hədsiz maraq gostərən bir neçə ali məktəb qurtarmış oğlu Valehin ailəsi isə Bakı şəhərində yaşayır. Təəssüflər olsun ki, 1972-ci ilin dekabrında doğma kəndi Qoşabulaqda vəfat etmiş Aşıq Behbudun qoşmaları onun həyat yoldaşı Zərnişan qarının yaddaşından vaxtında yazıya alınmadı...

Aydındır ki, aşıqlara el sənətkarı deyilməsi səbəbsiz deyil. Belə ki, aşıqlar hər zaman el ilə birlikdədir. Onlar daima elin şad günündə olduğu kimi, dar günündə də yanında

olmuşdur. XIX əsrin ikinci yarısında Ağbabada, Borçalıda, Dərələyəzdə, Göyçədə saz-söz sənətkarlarının yaradıcılığında dövrün qanlı hadisələrinin öz əksini tapması da bu səbəbdəndir. Bunu bütövlükdə bütün aşıqlara, eyni zamanda Aşıq Nəsibə də aid etmək olar.

Ağbaba mahalında dünyaya göz açan Nəsib (1874) məlahətli səsi olduğundan aşıq Şenliyin şəyirdi olur, onun yanında aşıq kimi püxtələşir, zamanının bir çox aşıqları ilə deyişmələri dillərdə əzbər olur [153]. Həssas qəlbli şairin "Keçdi" rədifli gəraylısını nümunə kimi qeyd etmək yerinə düşər:

Ağbabanın yaylağından,
Bir cut gözəl gəldi, keçdi.
Qızıl tənə qulağında,
Dərdlərimi bildi, keçdi...

Mən Nəsibə zülüm oldu,
Ağladım gözlərim doldu.
Biri ürəyimi aldı,
Qara günlər gəldi keçdi.

Aşıq Nəsibin müasiri olan **Məhəmməd Huseynov** 1887-ci ildə Ağbabanın Mağarcıq kəndində doğulmuş, hazırcavab bir el şairi kimi tanınmış, həyatının bir qismi sürgündə keçmişdir. Nəsibin şeir həvəskarlarının yaddaşında qalan qoşma və təcnisləri aşıqların repertuarını bəzəyib. Onun "Dəymə" təcnisi dilimizin incəliklərinə həsr olunmuş [153] poetik nümunələrdəndir:

... Həsrətindən yazıq yanşaq ha yana,
Yoxdu canıyanan, verə hay ana.
Ha yalvardım, bir yetmədin hayana,
Dərdə yaramırsan, yarama dəymə.

XX əsr Göyçə aşıq mühitində söz inciləri yaratmaqda ad çıxarmış sənətkarlardan biri də el şairi **Niftalı Qafarovdur.**

Göyçənin Ağbulaq kəndində anadan olmuş Niftalı Qafarovun (1898) kiçik yaşlarından poeziya ən yaxın sirdaşına çevrilmiş, sazla yaşamış, sözlə nəfəs almışdır. O, şeirlərini Göyçə mahalının xalq arasında tanınmış el şairi, dayısı şair Kazımın seçdiyi "Aqil" təxəllüsü ilə yazmışdır. Dayısına oxşamaq, onun kimi yazıb-yaratmaq, şair olmaq arzusunu həmişə qəlbində yaşatmış Niftalının yaradıcılığında Kazım böyük rol oynamışdır. **Şair Kazım** bacısı oğlunun fitri istedada malik olduğnu hiss etmiş, onu mollaxanaya göndərmişdir. Burada keçilən ilahiyyat dərsləri onun poeziyaya marağını daha da artırmış, Ağbulağın sazlı-sözlü adamlarının məclisləri, dayısı Kazımın qaranlıq daxması ilk şeir məktəbinə, doğma kəndinin toy məclisləri yaradıcılıq auditoriyasına çevrilmişdir. Aqil inqilaba qədər müəyyən yaradıcılıq təcrübəsi keçsə də, onun əsl sənət yolu Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra başlamışdır. Doğma kəndinin ilk müəllimlərindən biri olmuş Niftalı 1937-ci ilin yazında Gədəbəy rayonunun Ağkilsə (indiki İvanovka) kəndinə köçmüş və müəllimlik fəaliyyətini burada davam etdirmişdir [56]. El arasında böyük şöhrət qazanmış şairin bir sıra şeirləri müxtəlif məcmuə və qəzetlərdə, "El aşıqları rəhbərlər haqqında" kitabında dərc edilmişdir. 1939-cu ildə Bakıda keçirilmiş el ədəbiyyatı nümayəndələrinin müşavirəsində **Aqil** də iştirak etmiş və xalq şairi S.Vurğunun təqdimatı ilə SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir. Yazıçı Nəsib Əfəndiyev "Azərbaycan" jurnalının doqquzuncu sayında (1976) çap etdirdiyi "Alovlu şairi xatırlayarkən" adlı yazısında S.Vurğunla bağlı xatirələrindən söhbət açmış, Aqilin adını böyük hörmət və ehtiramla çəkmiş, S.Vurğunun onun yaradıcılığını yüksək qiymətləndirdiyini və onları çap etdirmək üçün təşəbbüs göstərdiyini qeyd etmişdir.

Həqiqətən də, ölməz şairimiz S.Vurğunun Aqilin müxtəlif ədəbi almanaxlarda silsilə şeirlərinin dərcinə böyük köməkliyi olmuşdur. N.Qafarovun yaradıcılığında sevgi-məhəbbət

motivləri, vətənin tərənnümü əsas yer tutmuşdu. 1942-ci ildə könüllü olaraq orduya getmiş, qələmini süngüyə çevirmiş, ümumi düşmənə qarşı mərdliklə vuruşmuş Aqil 1943-cü ilin qızğın döyüşlərinin birində Ukrayna torpağında həlak olmuşdur. "Qalmaz", "Xəngəl", "Yaxşıdı" və b. şeirləri yadigar qalmış Aqil sözün, sənətin qədrini bilən, onun şərəfini qorumağa çalışan həssas bir şair olmuşdur. Yaşadığı dövrün sosial-mənəvi həyatına qəlbən bağlanmış şair mühim tarixi hadisələrlə dolu olan ictimai-siyasi prosesləri də yaradıcılığında əks etdirmişdir.

Nəsimi, Füzuli, Xaqani, Xətai, Vaqif kimi ölməz sənətkarlarımızın yaradıcılığına dərin maraq göstərmiş Aqil onların bəzi şeirlərinə nəzirələr yazmışdır. Yaradıcılığında aşıq şeiri ilə klassik poeziya ənənələrini üzvi surətdə birləşdirməyin zəruriliyini xüsusi olaraq vurğulamış, onların vəhdətini poetik nümunələrdə göstərə bilmişdir. Onun heca vəznində yazdığı şeirləri ilə yanaşı, qəzəlləri daha çox diqqəti cəlb edir. Aqilin "Oxusun" rədifli qəzəli bu baxımdan nümunədir. Özünün dolğun bədii-estetik dəyəri ilə seçilən poeziyasında, xüsusən də gözəlliyin tərənnümünə həsr olunmuş müxəmməslər Aqilin yüksək bədii-estetik keyfiyyətlər qazanan və yeni məzmun kəsb edən yaradıcılığında el-obanın sevinci, qəlbinin səsi eşidilir.

Ağbulaq kəndində anadan olan el şairlərindən olan Şair Kazımın (1842-1929) yaradıcılığında da eyni şeylər görülməkdədir. Həcv yazmağa daha çox meyl edən Kazımın "Nazlı xanımla deyişmə"si və "Çıxar", "Ölü", "İnciyər" kimi şeirləri məlumdur. Deyilənlərə görə, Aşıq Ələsgər kasıb gün-güzəran keçirən Kazıma həmişə maddi cəhətdən kömək göstərərmiş.

Əli Mazan oğlu Namazov (1890-1974) da Kazımın müasirlərindəndir. O, qədim Göyçənin sazlı-sözlü Cil kəndindəndir. Yaşadığı dövrün aşıq və el şairlərinin yaradıcılığı

təsirsiz qalmamış, Kazım, Aqil, Müseyib kimi sənətkarlarla ünsiyyətdə olması onda aşıq sənətinə böyük maraq oyatmışdı. O həm saz və balaban çalmağı öyrənmiş, həm də aşıq poeziyasının müxtəlif janrlarında yazdığı şeirləri ilə tanınmışdır. Əli Mazanoğlu XX əsrin əvvəllərində erməni daşnaklarının törətdiyi vəhşiliklərə qarşı aparılan mübarizənin fəal iştirakcısı olmuş, tökülən qanları, törədilən qırğını gözləri ilə gördüyündən şeirlərinin birində giley-güzarını bu şəkildə ifadə etmişdir:

Əli deyər bəd zamanlar,
Əbəs verdin nahaq qanlar.
Gədiklərdə çox insanlar,
Sən saldın borana, dağlar!

Əli Mazanoğlunun nümunə verdiyimiz aşıq şeiri üslubunda yazdığı bir qıfılbəndi də maraq doğurur:

Aşıq, məni halı eylə,
Ustad kimdir, dərsi nə?
Uç səyyahın yolçusuyam... [140-38].

Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərində Göyçə aşıq mühitində tanınmış sənətkarlar çox idi. Basarkeçərin Yarpızlı kəndində anadan olmuş Aşıq Vəli də bunlardan biridir. O, dövrünün ustad aşıqlarından dərs almış, Azərbaycanın əksər bölgələrində keçirdiyi toylarda oxuduğu saz havaları, söylədiyi dastanlarla xalqın hörmətini qazanmışdır, xalq yazıçısı İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" romanında göstərildiyi kimi,... Qarabağın ən hörmətli, sənətə, sənətkara qiymət verən adamları Aşıq Vəlini öz dəstəsi ilə Göyçə mahalından toylar yola salmağa çağırarmışlar. Göyçənin müxtəlif kəndlərində yaşamış el ağsaqqalları onun "Misri", "Koroğlu cəngisi", "Ayaq divani" və s. saz havaları üstə zil səslə oxuduğu mahnılardan çox bəhs etmişlər. Təəssuf ki, Aşıq Vəlinin yaradıcılığı inqilabdan əvvəlki illərə təsadüf etdiyindən onun ədəbi irsinə aid nümunə gostəriləsi tutarlı

faktlar yoxdur. Anadan olduğu tarix məlum olmasa da o, 1929-cu ildə doğma kəndində vəfat etmişdir. Onun vəfatından sonra da ailəsində aşıq sənətinə olan maraq sönməmiş, oğlu **Aşıq Oruç Əhmədov** (1920-1976) tərəfindən davam etdirilmişdir. Aşıq Oruç Əhmədov Göyçənin adlı-sanlı sənətkarlarından aşıqlıq sənətini öyrənmiş, yazdığı qoşma, gəraylı və təcnisləri ilə şöhrətlənmişdir. Azərbaycan türklərinin deportasiyası zamanı Gədəbəy rayonundakı Zəhmət kəndinə pənah gətirmiş, burada aşıqlıq sənətini yaşatmış, hətta 1953-1970-ci illərdə rayon mərkəzində fəaliyyət göstərən aşıqlar ansambılına rəhbərlik etmişdir. **Aşıq Orüç** gənc aşıqların yetişməsinə qayğı gostərmiş, Gədəbəy aşıqlarından İsfəndiyar Rustəmov, Şahsuvar Fərzəliyev, Zahid Aslanoğlu kimi aşıqların həyata vəsiqə almasında əlindən gələni əsirgəməmişdir. "Qurbani" dastanının ən dolğun və əhatəli variantı Aşıq Orucdan yazıya alınmışdır [112, 136]. Qeyd edək ki, Aşıq Oruç Əhmədovun həyat və fəaliyyəti barədə "XX əsr Göyçə aşıq mühiti (1920-1950-ci illər)" monoqrafiyasında kifayət qədər məlumat verilmişdir [140, 40-41].

Aşıq Cəlil Şahablı (?-1918) isə, Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun 13 km. cənub-şərqində, Çapançay qolunun kənarında, Şahablı kəndində anadan olmuşdur. 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan bu kəndi İ.Şopen (1831) xaraba kəndlər sırasında vermişdir. Sonradan geri qayıdan kənd camaatı dağılmış kəndin yaxınlığında yeni kənd salmış, bu kəndi Yeni Şahablı adlandırmışlar. 1887-1914-cü illərdə bu kənddə müvafiq olaraq 853-840 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd Andranikin quldur dəstələrinin hücumuna məruz qalmış, dağıdılmış, qarət edilmiş, yandırılmış, əhalisi qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar birtəhər qaçıb canlarını qurtarmışlar. Elə o vaxtdan da kənddə ermənilər məskunlaşmağa başla-

mışlar. 1919-cu ilin yanvarında Andranikin "Van" və "Sasun" polklarının törətdiyi vəhşiliyə, müsəlmanların kütləvi soyqırımına məruz qalan kəndlərdən biri də Şahablı olmuşdur. Daşnaklar əmin-amanlıq yaratmaq adı altında iclas bəhanəsi ilə azərbaycanlıları iri damlara yığıb, od vurmuşlar, uşaqları süngünün ucunda qaldırıb tonqalların içinə tullamış, qoca və qadınları ot tayaları içərisində diri-diri yandırmışdılar. Soyqırım zamanı daşnaklar **Şahablı Aşıq Cəlili** də vəhşicəsinə qətlə yetirmişlər. Əsir götürdükləri aşığa Andranikin şərəfinə bir qoşma deməyi təklif etmişlər. Aşıq isə üzunu Böyük Vediyə tərəf tutub, Abbasqulu bəyi haraya çağıran məşhur şeirini söyləmişdi:

...Vedinin dağları batıbdı yasa,
Daşnaklar istəyir Vedini basa.
Bir məktub yazmışam o xan Abbasa,
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya, gəlsin!
Çat haraya, bəyim, nicat günüdü,
Vedinin davası, qeyrət günüdür!.. [28, 402].

Bundan qəzəblənən mənfur ermənilər aşığın dilini dibindən qopardaraq, üstünə neft töküb, sazı ilə birlikdə kərmə qalağı icərisində diri-diri yandırmışlar [65, 529].

Qərbi Azərbaycanın Vedibasarından olan aşıqlardan biri də **Aşıq Xudayardır**. Aşıq Xudayar Vedibasar mahalının Qarabağlar kəndində anadan olmuşdur. 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Qarabağlar-Sufla, yəni Aşağı Qarabağlar kəndinin adı İ.Şopenin 1831-ci ilə aid məlumatlarında artıq Vedibasar mahalının xaraba kəndləri sıyahısında verilmiş və bu bölgədə köçəri tayfalar sırasında Qarabağlı tayfasının da adını çəkmişdir. Bu kəndin ev-eşiyindən didərgin düşmüş əhalisi sonralar Aşağı və Yuxarı Qarabağlar kəndlərində yenidən məskunlaşmışlar. Kəndi sonradan Çimən adlandır-

mışlar. Kəndin keçmişdə də, indi də çoxsaylı tayfaları içərisində Şərəflilər, Oruçlular və digər tayfaları Orta Asiya və Azərbaycanın bir çox ərazilərində məcburiyyət üzündən məskunlaşanlar içərisindən çıxan görkəmli şəxsiyyəyləri vardır. Sonradan geri qayıdan kənd camaatı dağılmış kəndin yaxınlığında yeni kənd salmış, "Zaqafqaziya diyarının dövlət kəndlərinin iqtisadi vəziyyətinin öyrənilməsinə dair materiallarda (1886) Çimən adlandırılan bu kənddə 1886-cı illərdə 85 ailədə 853 nəfər azərbaycanlının yaşadığı göstərilmişdir. 1914-1922-ci illərdə bu kəndin əhalisi xaricdən gəlmiş 210 erməni mühacirinin yerləşdirilməsi hesabına 110 nəfər olmuşdur. Dövrün haqsızlıqlarını, törədilən qırğınları öz gözləri ilə görən **Aşıq Xudayar** millətinin, dədə-baba yurdunun keşiyində duran Abbasqulu bəy Şadlinskini dillər əzbəri etmiş, "Abbasqulu bəy"ə ithaf olunan şeirində onun dəstəsindəki mərd- mübariz igidlərin adını poetikləşdirmişdir:

... Vedibasar yeriyibdi, bir qanlı davadan deyim,
Dəstəsində şir oğullar, bu eldən, obadan deyim.
Məhərrəmnən İbrahimnən, Xəlilnən Nəbodan deyim.
Andranikin bağrını yarıbdı Abbasqulu bəy!
Tanrı ona rusxət versin, müsəlmanın dayağıdı!
Yoxsulların, fağırların evlərinin çırağıdı!
Ay Xudayar, bu mərd oğul qoçaqların qoçağıdı!
Bu millətin xilasına durubdu Abbasqulu bəy!

Xalqının ümidi olan Abbasqulu bəyin şüçaətini, döyüşdə düşməni məğlubiyyətə uğratdığını faktlarla təsvir edən Aşıq Xudayar başqa bir qoşmasında yazır:

Abbasqulu bəy dönüb aslana, şirə,
Qoymayır ki, yağılar Vediyə girə.
Tağı bəy göndərmir qoşuna cirə,
Zeyvə-Düdəngini eyləyib Şurə.
Qılıncı əlində Xan Abbasqulu,
Xalqının umudu can Abbasqulu...

Tərcümeyi-hallarından da göründüyü kimi, Göyçəli aşıqların əksəriyyətinin həyatı məşəqqətli keçib, ağır güzəran keçirən, qaçqınlıq həyatı yaşamağa məcbur edulən bu sənətkarların çoxunun yaradıcılığında bu yaşananlar əks olunub. 1881-ci ildə İrəvan mahalının Sürməli qəzasının Huseyn kəndində doğulan **Yaqub Mustafa** oğlu (1881-1920) uşaq vaxtından varlılara nökərçilik edib, 1905-ci il erməni qırğını nəticəsində ailəlikcə bu kənddən o kəndə köçüb. Nəhayət, 1920-ci ildə Gəncə qəzasının Qızılhacılı kəndində yurd salıb, üç il sonra isə Ağdam qəzasına köçüb. Təəssuf ki, onun sonrakı taleyi haqqında hələlik müfəssəl bir məlumat əldə edilməmişdir. Yalnız onun dillərdə gəzən "Qaçqını" [28-405] rədifli qoşması yaşlı nəslin yaddaşından yazıya alınmışdır.

1918-1920-ci illərdə erməni daşnaklarının hücumları zamanı doğma yurdunu tərk edib Sədərəkdə məskunlaşanlardan biri də Aşıq Məhəmməd Kotuzludur (məzarı kəndin köhnə qəbristanlığındadır). Təqridən XIX əsrin 70-80-ci illərində Vedibasar mahalının Kotuz kəndində anadan olmuş Aşıq Məhəmməd Kotuzlu Adıgözəl oğlu Şəbəndə nəslinin övladıdır, tarixən Ağqoyunlular nəslindən olduqlarını soyləyirlər. Gənc yaşlarında vergi verildiyi soylənilir. Əmisi qızı Gülzarla ailə qurmuş Aşıq Məhəmmədin Xatın adlı qızı olmuşdur. Xatın Çatma kəndindən olan həmyerlisi Ələsgərlə evlənmiş, onların Rəcəb, Nəcəf, Müstəcəb, Firəngiz, Göyərçin adlı övladları olmuşdur. Akstafa rayonunun Xətai kəndində yaşamışlar. Məhəmməd Kotuzlunun şeirlərini qaynı Ağamalı yazıya köçürmüşdür. Onun "Məscidin", "Qanadında Ayla Günün nişanı", "Səndən mənə bir imdad", "Qoşma", "Sənin", "İbrahim Xəlil", "Məni", "Ay gavır" adlı şeirləri vardır. Daha çox "Məscidin" qoşması məşhurdur, həmin qoşmanın son bəndində Abbasqulu ağanın düşmən hiyləsindən hifz olunmasını ilahi qüvvələrdən diləyən Məhəmməd Kotuzlu yazır:

...Qul Məhəmməd deyər Abbasqulu xan,
Sakinim Kotuzdu, bilginən pünhan.
Sənə kömək olsun qadiri-sübhan,
Dörd yerdən qurşanıb beli məscidin [28, 406], [192].

Aşıq yaradıcılığı Azərbaycan şifahi xalq ədəbiyyatının ən zəngin qoludur. **Aşıq Məhər** də bu sənətinin imkanlarından baçarıqla istifadə edən sənətkarlardandır. Onun yaradıcılığı oxculara geniş təqdim olunmasa da, bu söz sərrafının həyatı haqqında yaşlı nəslin yaddaş və xatirələrində yaşatdıqlarına müraciət etmək zərurətinə ehtiyac duyulmuşdur. Aşıq Məhər çoxsaylı sənət adamlarının yetişdiyi Pəmbək mahalının Qarakilsə adlandırılan rayonun Hallavar kəndində 1870-ci ildə muzdur ailəsində anadan olmuşdur. O, kiçik yaşlarında anasını itirmiş, atası Cəfər kişinin himayəsində böyümüşdür. Məhər lap uşaq yaşlarından kəndin varlı adamlarına nökərçilik etmiş, yaşamaq üçün min bir əziyyətlərə düçar olmuşdur. O, sinədəftər sənətkar olmaqla, yanaşı, gözəl və məntiqi cəhətdən mənalı şeirlər deyərmiş. Təhsil görməsə də, qeyri-adi istedadı sayəsində böyük bir irs qoyub getmişdir. Aşıq Məhərin məclislərində iştirak etmiş yaşlı nəslin söyləmə-xatirələrinə görə o, sözün məqamında bədahətən qoşma, təcnis, bayatı deyərmiş və dediklərini də uzun müddət yadında saxlayarmış. 30 yaşında Qonşu Yuxarı Kilsə (Dızman) kəndində yaşayan Mustafa kişinin qızı Fatimə ilə ailə qurmuş Aşıq Məhərin Qızyetər adlı bir övladı olmuşdir. Aşıq Məhər yeganə övladını hədsiz məhəbbətlə sevmiş, boya-başa çatdırmış, ev-eşik sahibi etmişdir. Onun ədəbi irsi elmi-bədii cəhətdən çox qiymətli və təqdirə layiqdir. "Erməni", "Gəlmişəm", "Yaxşıdır", "Gəlibdir", "Gəlir", "Deyim", "Olur", "Sədi qardaş", "Əzizin", "Yoxdur", "Dağlar", "Kasıbın" və bir çox başqa rədifli şeirlərində ictimai-siyasi motivlər, yeni quruluşun ziddiyyətləri tərənnum olunur. Sevgi-məhəbbət ruhunda yazdığı "Bu evdə" şeiri diqqəti çəkir:

Şükür, tanrı, sənin min bir adına,
Göründü Abbasın yarı bu evdə.
Qayım-qədim olsun təzə gərdəyi,
Başacan yeyilsin barı bu evdə.

Artıq olsun bu gəlinin hörməti,
Başından tökülsün malı, dövləti,
Bir cüt corab Aşıq Məhər xələti,
Gətirsin geydirsin qarı bu evdə.

Aşıq Məhər 1937-ci ildə uzun sürən ürək xəstəliyindən vəfat etmişdir.

Ümumiyyətlə, İrəvan ədəbi mühitində, xüsusən də onun aparıcı qolu sayılan aşıq sənətinin inkişafında qonşu ədəbi mühitlərin qarşılıqlı əlaqələrinin bir-birinə təsiri böyük rol oynamışdır. Mühitin qonşu, doğma mühitlərdən Kəlbəcər, Gədəbəy, Qars, Sürməli, Urmiyə, Göyçə, Ağbaba, Tovuz, Şəmkir, Qazax, Borçalı ədəbi mühitləri ilə qarşılıqlı əlaqələri, müxtəlif zaman kəsiyində tarixi, ictimai-siyasi zərurət üzündən yaşayış yerlərini dəyişən sənət adamlarının əvvəlki yaşayış yerlərinin yaradıcılıq üslubuna sadiq qalmaları, sənət ənənələrini yaşatmalarına meydan vermişdir. Bu mühitlərin saz-söz adamlarının biri-birindən yaradıcılıqla bəhrələnməsi mühitləri istər-istəməz yaxınlaşdırmışdır. Sanki bəzi nəzərə çarpan ümdə cəhətlərlə yanaşı, aşıq poeziyası nümunələri, saz havalarının ifası baxımından çalğı və avaz eyniliyi dinləyicilər tərəfindən fərqləndirilməmişdir ki, bu da aşıq mühitlərində formalaşan sənətkarların keşməkeşli həyatı, ədəbi-mədəni əlaqələri, etnik qohumluq münasibətləri baxımından biri-birləri ilə qırılmaz tellərlə bağlı olmasından xəbər verir. Bu bağlılıq indi də vardır. Qeyd olunmalıdır ki, İrəvan ədəbi mühitinin əhatə etdiyi ərazilərdə istər klassik şeir üslubu, istərsə də xalq şeiri üslubunun sintezi diqqəti cəlb edir. El şairlərinin və ustad-yaradıcı aşıqların mövzu cevrəsi forma cəhətdən eyniyyət

təşkil edir, lakin məzmun baxımından üslub müxtəlifliyi vardır. Burada dini şeirlər, Quran qissələrindən istifadə, təriqət şeirləri, satirik şeirlər, süjetli şeirlər həm yazılı, həm də şifahi ədəbiyyatda Borçalı və digər ədəbi mühitlərdə olduğu kimi poetik yaradıcılıq istiqamətləridir[132, 103-105].

Dissertasiyanın "Azərbaycan şifahi xalq ədəbiyyatı və aşıq yaradıcılığı"na dair fəslində verilən məlumatlar, göstərilən və təqdim olunan elmi araşdırmalar, diqqətə çatdırılan qənaətlər əsasən, fəslin məzmununu özündə ehtiva edir:

- Azərbaycan xalqının milli mədəniyyətində müstəsna rol oynamış şifahi xalq ədəbiyyatı və aşıq sənəti tarix boyu müxtəlif adlar daşımaqla zəngin inkişaf yolu keçmiş, Dədə Qorquddan tutmuş zəmanəmizə kimi ustadlıq zirvəsinə yüksələn sənətkarların folklor örtüyümüzdə özünə vəsiqə qazanan yaradıcılıq nümunələrini həm sələflərinin, həm də xələflərinin yaddaşında saxlamaqla xalqın mənəvi sərvətini təqdim edir;

- Aşıq sənəti sinkretik sənət olmaqla, incəsənət və ədəbiyyatın bir neçə növünü vahid məcrada bütövləşdirmişdir. Söz qoşmaq, ona musiqi bəstələmək, dastan yaratmaq, sazın müşayiəti ilə ifa etmək, dinləyənlərdə xoş ovqat yaratmaq kimi mənəvi zövqün yaranmasını təmin edir;

- Aşıq sənəti və onun müxtəlif ərazilərdə formalaşan aşıq məktəblərinin ustad sənətkarları yaradıcılıqlarında həm aşıq sənətinin ənənələrini qoruyub saxlayaraq inkişaf etdirmiş, həm də yaşayıb yaratdıqları ictimai-siyasi mühitin olaylarını, çatışmazlıqlarını, təqdir olunan cəhətlərini realistcəsinə tərənnüm etmişlər;

- İrəvan ədəbi mühitinin folklor örtüyündən söhbət gedərkən aşıq sənətinin tarixi-coğrafi, mədəni-siyasi cəhətlərinə xüsusi diqqət yetirilməlidir. İlk olaraq İran və Rusiya dövlətləri arasında bölünən Azərbaycan torpaqlarının yaradılan Ermənistan və Gürcüstan dövlətlərinin ərazilərinə qatılması

əsasən, itirilən torpaqlarda aşıq sənətinin yaradıcılarının imkanlarını müəyyən mənada məhdudlaşdırmışdır. Lakin tarixi oğuz türklərinin ərazilərindən olan Göyçə, İrəvan, Ağababa, Zəngibasar, Dərələyəz, Borçalı və sair mahallarda aşıq sənətinin, folklor örtüyünun həqiqi mənzərəsini yaratmaqda görkəmli saz-söz şairlərinin formalaşmasına şərait yaradılmışdır;

- İrəvan ədəbi mühitinin əhatə etdiyi şifahi xalq ədəbiyyatının janr müxtəlifliyinin aparıcı növlərindən sənətkarlar bəhrələnmiş və yaddaqalan nümunələr yaratmışlar. Bu işin ağırlığı Göyçədə dünyaya göz açan aşıqların, xüsusən də Aşıq Ələsgər ocağında yetişən sənətkarların və bu mühitlə yaradıcılıq əlaqəsində olan sənətkarların üzərinə düşmüşdür;

- Mühitdə formalaşan, ictimai-siyasi durumun törətdiyi fəsadlar ucbatından başqa mühitlərdə yaşamağa məcbur olan sənətkarların ənənəyə sadiqliyini, klassik ustad aşıqların poetik irsinə, ifaçılıq mədəniyyətinə, ustadlıq və ifaçılıq baxımından saz havalarının mühafizəsinə mühitin tələbləri baxımından yanaşılmışdır.

NƏTİCƏ

Müxtəlif tarixi-siyasi və ideoloji səbəblər üçbatından əzəli Azərbaycan torpağı olan vətənimizin Qərbində yerləşən İrəvan ərazisinin ayrı-ayrı zaman kəsiklərində əlimizdən ermənilər (onların havadarları ruslar, farslar, ingilislər, fransızlar və b.) tərəfindən alınması nəinki ilk baxışda torpaqlarımızın qəsb olunması, həm də etnik-milli, mədəni-mənəvi, folklor-etnoqrafik, ədəbi-bədii örnəklərimizin zaman-zaman itirilməsi bahasına başa gəlməkdə, genefondumuz amansız təhlükə altına düşməkdədir. Mədəni ənənələrimizin tərkib hissəsi həm də İrəvan ədəbi mühitidir. Bu mühitin əsas çalarlarını, naxışlarını, xüsusiyyətlərini, janr özəlliklərini, nəzəri-tarixi və praktik faydasının araşdırılıb ortaya çıxarılması folklorşünaslığımızın və ədəbiyyatşünaslığımızın aktual problemlərindəndir. Bu rakursda İrəvan ədəbi mühitinin tarixilik, ədəbi-bədii istiqamətdə araşdırılması, mühitin ictimai-siyasi problemlər üzrə tədqiqi araşdırılan dövrün bir çox mühim hadisələrinin elmi cəhətdən anlaşılmasına aydınlıq gətirir. Mühitin müxtəlif dövrlərinə dair aparılmış mövcud tədqiqatlarda yazılı və şifahi ədəbiyyatın tanınmış nümayəndələrinin həyatının, yaradıcılığının öyrənilməsi, İrəvan xanlığının əhatə etdiyi ərazilərin tarixi və regional özünəməxsusluğu, mühitin folklor örtüyündə şifahi söz sənətinin və aşıq yaradıcılığının özəlliklərinin, mətbuatın, ədəbi prosesin problemlərinin, istiqamətlərinin, həmcinin ədəbi prosesin ideya-bədii axtarışlar baxımından nəzərə çatdırılan spesifik cəhətlərinin mühim əhəmiyyət kəsb etməsinə diqqət yönəldilmişdir. Bütün bunları aparılan tədqiqat problemindən də aydın görmək mümkundur. Araşdırmadan müəyyənləşdirilir ki, Azərbaycan ədəbiyyatının aparıcı bir qolu olan İrəvan ədəbi mühiti səviyyəsində yaradıcı ziyalıların həyat və fəaliyyətinin

elmi əsaslarla öyrənilməsi onun umumi problemlərini tədqiq etmək istiqamətində daha çox məqsədə uyğundur.

İrəvan ədəbi mühiti ümumi Azərbaycan ədəbi mühitləri içərisində tədqiqata cəlb olunan dövrün ictimai-siyasi cəhətdən kəskin münaqişələr, müharibələr, savaşlar, ermənilər tərəfindən azərbaycanlıların soyqırımına, kütləvi qətliamlara məruz qaldığı ağır dövrlərə təsaduf etməsi ilə səciyyəvidir. Burada yazıb yaradan qələm sahibləri öz yaradıcılıqlarında müasiriləri olduqları zaman kəsiyində baş verən hadisələrin təfərrüatını yaradıcılıqlarında geniş xalq kütlələrinə çatdırmaq üçün senzuradan, təqiblərdən çəkinməmiş, olanlara diqqəti cəlb etməyin zəruriliyini bədii sözün imkanları baxımından tarixiləşdirməyə qismən müvəffəq olmuşlar. Zəngin tarixi olan İrəvan ədəbi mühitinin araşdırılması daha aktualdır. İrəvan xanlığı adlanan bu məkanın ədəbi mühitində çoxsaylı qüdrətli sənətkarlar yaşayıb yaratmış, ədəbi - bədii sənətin inkişafında əvəzsiz xidmətləri ilə zəngin bir irs qoymuşlar.

Aparılan araşdırmalar üzrə gəlinən əsas qənaət ondan ibarətdir ki, İrəvan ədəbi mühiti Azərbaycan ədəbi mühitinin ayrılmaz bir tərkib hissəsi kimi bu ədəbiyyatın tarixən keçdiyi inkişaf zəminində təşəkkül tapmış və zəngin ənənələri ilə başqa mühitlərdən fərqlənmişdir. Zəngin və çox çalarlı bir ədəbi mühit kimi mövcudluğu ilə diqqəti cəlb etsə də, bu mühitin elmi baxımdan sistemli şəkildə araşdırılmasına bir növ az əhəmiyyət verilmişdir. İrəvan xanlığının məruz qaldığı tarixi məhrumiyyətlərin yazılı və şifahi ədəbi mənbələrdə öz əksini tapan səciyyəvi cəhətlərinin elmilik baxımından qələmə alınması dövrün hakim ictimai quruluşunun xeyrinə olmadığından, ədəbi nümunələr təhlildən, elmi araşdırmalardan kənarda qalmışdır. Tarixi kökləri və zəngin yaradıcılıq ənənələri olan Azərbaycanın Qərbində, xüsusən də İrəvan xanlığının əhatə etdiyi ərazilərdə ədəbi mühitin formalaşması istiqamətində görülən işlərin ardıcıllığı o qədər də qənaətləndirici xarakter

daşımamışdır. İrəvan ədəbi mühitinin xanlıq dövründən başlayaraq, Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və ondan sonrakı dönəmdə, həmcinin, Sovet hakimiyyətinin ilk illərində yaranan ədəbi nümunələrə, qəzet və jurnallarda dərc olunan müxtəlif səpkili yazılara, el şairlərinin, yaradıcı aşıqların ictimai-siyasi vəziyyəti əks etdirən yaradıcılığına dissertasiyada müraciət edilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, zaman-zaman İrəvan xanlığında, xanlıq quberniyaya çevriləndən sonra burada hökmran olan ictimai-siyasi quruluş və rejimlərin dəyişməsi mühitin ədəbi-mədəni, ictimai-siyasi həyatına az təsir göstərməmişdir. Tədqiqatda araşdırılması məqsədəuyğun sayılan dövrun ədəbi-bədii nümunələri əsas etibarı ilə əski əlifba ilə qələmə alındığından anadilli yazılı ədəbi nümunələrin qeyri-türk mənşəli millətlərin əlinə düşən nüsxələri ya məhv edilmiş, ya da bu və ya digər ölkələrin kitabxanalarının arxivlərinin gözə görünməyən, əl çatmayan künclərinə atılmışdır. Ədəbiyyatımızın, mədəniyyətimizin, mənəvi dəyərlərimizin və folklor örnəklərimizin mövzu və məna istiqamətləri baxımından tariximizi əks etdirən və qorunub saxlanılan dəyərli elmi variantlarının kütləvi surətdə məhv edilməsi, bəzən də ermənilşdirilməsi İrəvan ədəbi mühitinin zəngin irsinin böyük bir hissəsinin zaman-zaman yaddaşlardan silinməsinə səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, mühitin tanınan qələm sahiblərinin ədəbi-bədii fəaliyyətini əks etdirən, müxtəlif mənbələrdə öz əksini tapan yazıların imkan daxilində tapılıb araşdırılmasına təşəbbus göstərilmiş, İrəvanda nəşr olunan "Lək-lək " satirik jurnalı transliterasiya edilərək tədqiqata cəlb edilmiş, "Burhani-həqiqət " jurnalının materiallarından istifadə edilmişdir.

Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti və şifahi söz yaradıcılığı barədə tədqiqatda ermənilərin müxtəlif dövrlərdə azərbaycanlıların və türklərin milli-mədəni dəyərlərini özündə ehtiva edən qaynaqlardan və ədəbi

mənbələrdən verilən faktlar maraq doğurur. Erməni ədəbi qaynaqlarında və "Azərbaycan- erməni ədəbi əlaqələrinin, həmcinin Azərbaycan həqiqətləri"nin əks etdirilməsinə tarixi, poetik, elmi və ədəbi qiymət verən məşhur söz adamlarının erməni, rus və Azərbaycan dilli mətbuat səhifələrindən iqtibaslara araşdırmada geniş yer ayrılmışdır.

Ədəbi mühitin elmi araşdırma müstəvisində təhlili həm də qədimliyi və zənginliyi ilə burada daim diqqət mərkəzində olan aşıq sənətinin keçdiyi yola da xüsusi yer verilmiş, sözü gedən ərazinin bu sahədəki adlı-sanlı söz sərraflarının, saz şairlərinin, el şairlərinin yaradıcılıqlarına müraciət edilmişdir. İrəvan ədəbi mühitinin məktəbdarlıq, teatr truppalarının yaranması, kitab nəşri və mətbuat sahəsində nail olduğu tarixi faktların ümumiləşdirilməsinə, habelə, digər ümdə məsələlərə toxunulmuşdur.

Bu mühitin yetişdirmələri olan Mirzə Huseyn Ağa, Heydər Huseynov, Cəlal Məmmədov, Cəfər Vəlibəyov, Talıb Musayev, Zeynalabdin Xəlilov, Qəşəm Aslan, Musa Kərimov, Qədir Aslan, Bağır Bağırov, Zərbəli Qurbanov, İslam Ələsgər, Əli Fərəcov, Kövsər Tarıverdiyeva, Yahya Qaraimanlı, İsmayıl Mahir, Həsən Kərimov, İsmixan Didərgin, Əkbər Yerevanlı, Mirəli Seyidov, Cabbar Əsgərzadə, Həbib Həsənov, İsa Hümmətov, Mehdi Həsənov, Vahid Rəcəboğlu, Maksim Musayev, Mövlud Suleymanlı, Xasay Zeynalov, Ələkbər Həsənli, Həsən Mirzəyev, Zəhra Əliyeva, Zərifə Budaqova, Fərman Kərimzadə, Budaq Budaqov, Vahid Əziz, Hidayət Oruçov, Əziz Ələkbərli, Ələddin Şamilov, Ələkbər Həsənli, Əhməd Paşayev, Müşkül Musa, Mustafa İsgəndərzadə, Şiruyə, Qara Namazov, İnqilab Vəlizadə,İsa Hümmətov, Paşa Qəlbinur, Abbas Vəfadağlı, Əsgər Zeynalov, Raziyə Muradlı, Flora Xəlilzadə, İsmayıl Ömərоğlu, İdris Zamanlı, Əli Vəkil, Ənvər Rustəmov, Tofiq Abdullayev, Ələslan Məhərrəmov, Əhməd Paşayev, İsmayıl Şabanov, İsmayıl Əliyev,Zəki

İslam,Bilal Ənsər, İbad İbrahimov, Yusif Kəsəmənli, Ülvi Bunyadzadə, Sərdar Kərim, Məcnun Göyçəli, Gülruba Kərimova, Almaz Ülvi, Eldar İsmayıl, Alqayıt Xəlil, Qaçay Bəhmənoğlu, Eldar Həsənli, Musa Urud və onlarla ədəbiyyat, incəsənət, elm xadimlərinin adını hamı iftixarla çəkir. Dissertasiyanın fəsillərində mühitin aparıcı sənətkarlarının, elm xadimlərinin, tanınmış şəxsiyyətlərin yaradıcılıqları, həyat və fəaliyyəti ilə bağlı olan məqamlardan qismən də olsa söhbət acılmışdır. Adları qeyd olunan bu yaradıcı insanların əsərləri ədəbi-bədii janrın bütün növlərini demək olar ki, əhatə edir.

Dissertasiyanın fəsillərində; İrəvan ədəbi mühitinin folklor qatı və Göyçə mahalında formalaşan sənətkarlar, Aşıq Ələsgər və onun yaradıcılıq ənənələrini davam etdirən "Ələsgər ocağı" sənətkarları tədqiqat mərkəzinə gətirilərək Azərbaycan şifahi xalq yaradıcılığının zənginliyi faktlar əsasında tədqiq edilir, Dərələyəz, Zəngəzur, Gərnibazar və başqa türk yurdlarında yaranan şifahi xalq ədəbiyyatı nümunələrininin ideya-məzmun xüsusiyyətləri səciyyələndirilir, regionda yaranan xalq ədəbiyyatı nümunələrinin ümümtürk ədəbiyyatı, folkloru ilə bağlılığı sübut edilir; İrəvanda milli mətbuatın yaranması və ideya istiqamətləri təhlilə cəlb edilərək " "Lək-lək" və "Bürhani-həqiqət" jurnallarının yaranması və ictimai-mədəni mübarizəsi, ictimai-siyasi, ədəbi və mədəni mühitin ədəbi nəşrlərdə əksi məsələləri araşdırılıb; Zaqafqaziyanın inzibati-siyasi mərkəzi olan Tiflisdə nəşr olunan "Tiflisski vedmosti", "Şərqi-Rus" qəzetlərinin ictimai-siyasi həyatdakı mövqeyi və Azərbaycanda çap olunan "Qafqazın bir tərəfinin xəbərlər"inin ideya-siyasi mövqeyi müəyyənləşdirilib; M.Şahtaxtlı və C.Məmmədquluzadənin milli mətbuat tariximizdə tutduğu mövqeyə manasibət bildirilib. Eyni zamanda bu mətbuat orqanlarının İrəvvan ədəbi mühitindəki yenilikləri necə əks etdirməsinə aydınlıq gətirilib; Tiflisdə və Bakıda Azərbaycan dilində nəşr olunan mətbuat

orqanlarının təsiri ilə İrəvanda da “Lək-lək” (`1914),”Bürhani – həqiqət”, “Cavanlar şurası” (1917), “Kommunist” (1922), “Rəncbər”, “Zənci” və sair mətbuat orqanlarının fəaliyyətə başlamasının və Azərbaycan mətbuatının İrəvan ədəbi-mədəni mühitinə təsiri ədəbi-tarixi aspektdən tədqiq edilib; İrəvan mədəni həyatındakı dirçəliş , İrəvanda teatr tpuppaları və peşəkar dram teatrının yaranması, teatrda göstərilən tamaşalarından bəhs olunub. İrəvanda Azərbaycan Dram teatrının yaranmasının ictimai-tarixi əsaslarına toxunularaq müxtəlif illərdə teatrın peşəkarlıq cəhətlərinin artması konkret materiallar əsasında dəqiqiləşdirilib. Vasaq Mədətovun “Tamahkarlıq düşmən qazanır”, M.F.Axundzadənin “Hekayəti-müsyo Jordan və dərviş Məstəli Şah” əsərlərinin teatrda tamaşaya qoyulması ilə yanaşı, Mir Məhəmməd Mirfətul-layevin “Qaradan artıq boyaq olmaz” pyesi haqqında da maraqlı ədəbi faktlar üzə çıxarılıb, nİrəvanda teatrın yaranma tarixi dəqiqləşdirilib. Azərbaycan klassik ədəbi irsi erməni nəşrlərində, Azərbaycan-erməni ədəbi əlaqələri kimi ədəbi məsələlər arxiv materiallarına əsaslanaraq zəngin ədəbi faktlar əsasında tədqiq olunub; Nizami Gəncəvinin “Xəmsə”sinin, Ə.Xaqaninin 110 rübaisinin, M.Füzulinin “Leyli və Məcnun”, “Səhhət və Mərəz”in erməni mənbələrində yer alması milli ədəbiyyatımızın ümumdünya şöhrəti ilə əlaqələndirilib; Azərbaycan-erməni ədəbi əlaqələrindən bəhs edərkən Şıxəli Qurbanov, Əkbər Ağayev, Fərhad Fərhadov, Əkbər Yerevanlı kimi alimlərin də fəaliyyətinə xüsusi diqqət yetirilib; Tədqiqatın əhatə etdiyi dövrdə (XIX əsrin axırları və XX əsrin əvvəllərində) İrəvan ədəbi mühitində maarifçilik, İrəvanda məkdəbdarlıq məsələləri, “İrəvanlılar” və İrəvan şairləri, İrəvanda kitab nəşri kimi məsələlər tədqiq edilərək araşdırılıb. Bu zaman hər şeydən əvvəl, ədəbi mühit anlayışına aydınlıq gətirilib. İrəvan ədəbi mühitində fəaliyyət göstərən Məşədi İsmayıl Kazımzadə, ”Bəzmi”, Mirzə Kazım Qazi Əsgərzadə,

Axund Əhmədov “Mütəlle”, Hacı Seyid Əmirzadə “Sabir”, Mirzə Əlixan Şəmsül-hükəma “Ləli” Mirbabayevlər və başqalarının ədəbi mühitdəki yeri və rolu müəyyənləşdirilib; 1900-1920-cu illərdə İrəvan xanlığının tarixinə müraciət edilib, Türkiyə, İran və Rusiyanın İrəvan xanlığı ilə əlaqələrinə, ərazidə gedən müharibələrə və bu kontekstdə İrəvan ədəbi mühitindəki yeniliklərə münasibət bildirilib; Azərbaycanda müxtəlif məfkurələrin müvazi davam etdiyi XX əsrin əvvəllərində Azərbaycanın ictimai-mədəni mühitində mövcud olan “Molla Nəsrəddin” və Füyüzat” ədəbi məktəblərindən də bəhs edilmiş, həmin dövrdə İrəvan ədəbi mühitinin yeni mərhələyə qədəm qoyduğu konkret faktlar, ədəbi-tarixi materiallar əsasında əsasında tədqiqata təhlil edilmiş, ciddi polemikalar aparılıb, orijinal, yeni elmi fikirlər əldə edilmişdir.

Beləliklə, İrəvan ədəbi mühiti Azərbaycan ədəbi mühitinin inkarolunmaz tərkib hissəsi olmaqla bütöv şəkildə ədəbiyyatımızın zəngin, ziqzaqlı və mürəkkəb inkişaf yolunun bir parçası kimi təhlil edilməyə, öyrənilməyə, bu regionumuzda yaranmış ədəbi nümunələrin səciyyəvi xüsusiyyətlərini özündə ehtiva etdiyindən onun konseptual magistral istiqamətdə incələnməsi ədəbi-nəzəri fikrimizi qayğılandıran problemlərdəndir. Mühüm bir məram – vətəndaşlığa və azərbaycançılığa xidmət edən tədqiqatımızda bir sıra köklü problemləri işıqlandırmaqla İrəvan ədəbi mühiti ilə bağlı təsəvvür yaratmaqdadır, heç şübhəsiz ki, ədəbi fikrimizin irəliləməsində əhəmiyyətlidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Abbasov İ. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Bakı: Elm, 1977. 165 s.
2.Abbasov İ. Azərbaycan-erməni şifahi ədəbiyyatı əlaqələri / Azərb. Şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı: Elm, 1966. 257 s.
3.Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007. 272 s.
4.Abdullayev C. Səməd Vurğunun sənət dünyası. Bakı: Yazıçı, 1986. 319 s.
5.Allahverdiyev C. İrəvan ədəbi mühiti (1920-1950-ci illər). Bakı: Elm, 2010. 250
6.Allahmanlı M. Şamanla Ozan arasında. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1996. 152 s.
7.Axundov Ə. Aşıq Ələsgərin həyat və yaradıcılığı // Namizədlik dissertasiyası ADU kitabxanası. Bakı: Azərb. SSR EA, 1946. 74 s.
8.Axundov Ə. Aşıq Ələsgər sənəti // "Azərbaycan" jurn., 1971, № 12.
9.Axundov Ə. Sayat - Nova və aşıq şeirimiz / "Ədəbiyyat və incəsənət" qəz., 14 sentyabr, 1963, № 37 (1238).
10.Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşri tarixi. Bakı: Azərnəşr, 1959. 258 s.
11.Axundov N. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968. 355 s.
12.Ağazadə F. Firudin bəy Köçərlinin müxtəsər tərcumeyi-halı // Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: Azərnəşr, 1925. 276 s.
13.Atalar sözləri (tərtib edəni Məmmədvəli Qəmərli). Bakı: Səda, 2003, 56 s.
14.Avılov B. Göyçə və Göyçəlilər. Bakı, 2000. 200 s.
15.Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşr, 1960. 136 s.
16.Aşıq Alı. Bakı: Azərnəşr, 1975. 63 s.
17.Aşıq Alı. Şerləri. Bakı: Yazıçı, 1982. 44 s.
18.Aşıqlar (tərtib edəni İlyas Tapdiq). Bakı: Gənclik, 1970. 108 s.
19.Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, 249 s.
20.Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası,

Azərbaycanda Dövri Mətbuat (1832-1920) Biblioqrafiya. Bakı: Azərb SSR EA, 1987. 176 s.
21.Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar, İctimai Hərəkatlar Arxivi. F. 609, s. 46 - 47.
22.Azərbaycan Ensiklopediyası. Bakı: NPB, 1997. 240 s.
23.Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007. s. 806.
24.Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. X c., Bakı: Az.Sovet Ensikl.-nın baş redak., 1987. 608 s.
25.Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. Bakı, 2007. s. 806.
26.Azərbaycan kitabı. I cild. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1963. 158 s.
27.Azərbaycan folkloru antologiyası (III kitab) / Göyçə folkloru. Bakı: Səda, 2009. 766 s.
28.Azərbaycan folkloru antologiyası (X kitab) // İrəvan çuxuru folkloru. Bakı: Səda, 2004. 471 s.
29.Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (IX kitab). Bakı: Səda, 2000. 216 s.
30.Azərbaycanın aşıq və şair qadınları. Bakı: Gənclik, 1991. 283 s.
31.Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1998. 440 s.
32.Azərbaycan tarixi. I cild, Bakı, 1994, 572 s.
33.Azərbaycan Respublikası Dövlət Arxivi. Fond 28, say, 1, iş 116.
34.Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası, Azərbaycanda Dövri Mətbuat (1832-1920). Biblioqrafiya. Bakı, 1987. 219 s.
35.Antonyan Q. XIX - XX əsr ədəbiyyatında erməni və Azərbaycan xalqları dostluğunun inikası. Bakı, 1950. 230 s.
36.Antonyan Q. Erməni və Azərbaycan xalqlarının ədəbi əlaqəsi. Baki, 1955. 162 s.
37.Ağayev İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri. Bakı: Elm, 2008. 404 s.
38.Babayev Y. Miskin Abdalın söz gülüstanından / “Kommunist”, 16 aprel, 1991, №75.
39.Bayramoğlu A.Şamaxıda maarif və maarifçilik (XIX əsrin

ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit). Bakı: Maarif, 1997. 239 s.
40.Bayramov A. Mirzə Şəfi Vazehin ədəbi irsi. Bakı: Yazıçı, 2008. 158 s.
41.Bayramov M. Aleksandr Şirvanzadə və Azərbaycan. Yerevan: Hayastan, 1971. 148 s.
42.Bağçaban C. Secilmiş əsərləri. Bakı: Yazıçı, 1991. 112 s.
43.Bəktaşi İ. Firudin bəy Köçərlinin yaradıcılıq yolu. Bakı: Yazıçı, 1986. 184 s. 44."Bürhani - həqiqət" 1 yanvar 1917-ci il, № 1, 15 aprel 1917-ci il, № 6,
45.Cəfərov N. Azərbaycanşunaslıq məsələləri. Bakı, 2001. 110 s.
46.Cavcavadze İ.Q. Erməni alimləri və fəryad edən daşlar. Bakı: Azərbaycan, 1995. 30 s.
47.XIX əsrin sonu - XX əsrin əvvəllərində Qarabağda maarif // "Qarabağa aparan yol" qəzeti, № 9 (017) 7 may, 2006.
48.Dağlar unutmur / Mir Cəlal haqqında gədəbəyli ziyalıların xatirələri. Bakı:
Nurlan, 2008. 180 s.
49.Dastançı Ə. Q. Müdriklik müçəssəməsi. Bakı: Azərnəşr, 2003. 304 s.
50.Dastançı Ə. Q. Məşədisə dastanı. Bakı, 2000. 406 s.
51.Erməni nəsr antologiyası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1954. 546 s..
52.Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995. 464 s.
53.Ermənistan Ensiklopediyası. III cild. Yerevan: Hayastan, s, 571
54.ek – Shia. Org. Open. Az.
55.Əliyev H. Azərbaycan "XXI əsrin və üçüncu minilliyin ayrıcında" (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Yeni əsr və üçüncu minillik munasibətilə Azərbaycan xalqına müraciəti" (24 dekabr 2000-ci il) // Bakı: 2001, Respublika Təhsil Nazirliyi İqtisad Universitetinin Nəşriyyatı, 2001. s. 14-15
56.Ədəbiyyatların dostluğu xalqların dostluğudur / "Sovet Ermənistanı" qəz., № 49 (12189), Yerevan, 1988, 21 aprel s, 4.
57.Ədəbi İrəvan (Almanax). Bakı: Nurlan, 2005, 461 s,
58.Ədəbi Ermənistan (məcmuə). Yerevan: Hayastan, 1954, № 1, 227

s.
59.Ədəbi Ermənistan (məcmuə) Yerevan: Hayastan, 1959. № 2, 282 s.
60.Ədəbi Ermənistan (məcmuə). III kitab. Yerevan: Hayastan, 1960. 286 s.
61.Ədəbi Ermənistan (məcmuə) IV kitab. Yerevan: Hayastan" 1962, 291 s.
62.Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985, 200 s.
63.Ələkbərli Ə. Vedibasar mahalı // Qərbi Azərbaycan. 10 cilddə, I c, Bakı: Ağrıdağ, 2000. 664 s.
64.Ələkbərli Ə. Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları // Qərbi Azərbaycan. 10 cilddə, II c. Bakı: Ağrıdağ, 2002. 736 s.
65.Ələkbərli Ə. Qərbi Azərbaycan. Bakı: Ağrıdağ, 2000. 664 s.
66.Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı, 2006. 230 s.
67.Ələsgərov İ. Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları. Namizədlik dissertasiyası, ADU-nun kitabxanası. Bakı, 1971, 132 s.
68.Ələsgərov İ. Göyçə ədəbi mühiti / "Sovet Ermənistanı"qəz., Yerevan 18 yanvar 1985-ci il.
69.Ələsgər İ. Aşıq Ələsgərin əsərləri, dastan-rəvayətlər, xatirələr. Bakı: Şərq- Qərb, 1999. 578 s.
70.Ələsgər ocağı (toplayanı və tərtib edəni İ.Ələsgər). Bakı: Yazıçı, 1991. 304 s.
71.Əhmədov T. Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. Bakı: Önər, 984 s.
72.Əhmədov T. Dostluq duyğuları. Bakı: Yazıçı, 1979. 209 s.
73.Əhmədov T. Nəriman Nərimanovun dramaturgiyası. Bakı: Elm, 1971, 272 s.
74.Əhmədova F. Nəriman Nərimanov – ideal və gercəklik. Bakı: Elm və həyat, 1998. 170 s.
75.Əkbərov Z. Cabbar Bağçaban. Bakı: Yazıçı, 1991. 112 s.
76.Əfəndiyev İ. Geriyə baxma, qoca. Bakı: Yazıçı, 1981. 356 s.
77.Fəlsəfə ensiklopedik lüğəti. Bakı: AENPB, 1997. 520 s.
78.Göyçə qətliamı / "Yeni Azərbaycan" qəz., № 061(1831), 30 mart 2004
79.Gürcüstan Dövlət arxivi, fond, 14, iş no. 506.
80.Gürcüstan SSR MDTA, f. 1183, iş 680, vərəq 9.

81.Gürcüstan Dövlət arxivi, fond 114, iş № 418, s. 1-1a. 2-2 a, 3-12.
82.Gürcüstan Dövlət arxivi, fond, 480, siyahı 1, iş №1113.
83.Göyçəli A.B. Vətən, küsmə məndən. Bakı: Elm, 1994.130 s.
84.Hacıyev N. Əli Rəsulov xatirələrdə. Bakı: Əbilov, Zeynalov və oğulları, 2007, 356
85.Hacıyev A. Tiflis ədəbi mühiti. Bakı: Yazıçı, 1980, 183 s.
86.Həbibbəyli İ.Ustad Mirzə Cəlil Məmmədquluzadə / Cəlil Məmmədqulüzadə, əsərləri I cild. Bakı: Cinar –çap, 2003. 464 s.
87.Həbibbəyli İ. Baş Noraşen məktəbində tamaşa // "Ədəbiyyat qəzeti", 4 mart 1994, № 10.
88.Həbiboğlu V. Dünya erməni vəhşiliyini ittiham edir. Bakı, 2006. 120 s.
89.Həsənoğlu Ş. Ağlama bülbül, ağlama. Bakı: Gəncə nəşriyyatı, 1994. 371 s.
90.Həşimli H. Əli Məhzun və "Ədəbiyyata dair əsəri" Bakı, 2000. 60 s.
91.Hüseynzadə T. Miskin Abdalla bağlı həqiqətlər // "Ulu Göyçə" 1993, №25, s. 3-4.
92.Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri - metodoloji məsələləri // Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm, 2010. 554 s.
93.Xaqani. Şeirləri və rubailəri (erməni dilində). Yerevan: Hayastan, 1965. 69 s.
94.Xatun S. İrəvan bayatıları. Bakı: Günəş, 1998. s. 3.
95.İbrahimov M. Böyük demokrat. Bakı: Azərnəşr, 1939. 160 s. s. 92,
96.İbrahimov İ. Alınmaz qala. Gəncə: Poliqrafiya ASC, 2009. 339 s.
97.İsmayılov H. Göyçə aşıqları və el şairləri (II cild). Bakı, 2010. 594 s,
98.İsmayılova K. Nehrəm kəndi. Tiflis: Smopk, 1900, № 27, s.196.
99.İsmayıl E. Oğüz yurdun övladları. I kitab. Bakı: Təbib, 1999. 376 s.
100.İsmayıl E. Oğüz yurdun övladları. II kitab. Bakı: Nurlan, 2001. 398 s.
101.İsmayıl E. Allah əmanəti / Nəcəf poeması. Bakı, 112 s,
102.İsmayıl E. Ağrı dağı qədər ağrılarım var. Bakı, 1999. 372 s.

103.İsmayılov İ. Həsənov E. Zülmət səltənətində məşəl (Uluxanlı məktəbi 125). Bakı: Qismət, 2006. 360 s.
104.İrəvanda Azərbaycan qız məktəbi. Bakı: Vedibasar qəz., № 05 (120), 01-15 mart 2008.
105.İrəvan türklərinin mətbuat abidəsi "Lək-lək" jurnalı (Ön söz və lüğətin müəllifi Z. Məhərrəmov) Bakı: Acıq dünya, 2008.148 s.
106.İrəvan xanlığı. Bakı: Azərbaycan, 2009. 576 s.
107.İrəvanda Azərbaycan mətbuatı: "Bürhani həqiqət" / 525-ci qəzet 27 yanvar 2012.
108.Köçərli F. Azərbaycan ədəbiyyatı. I cild. Bakı: Elm, 1981. 598 s.
109.Köçərli F. Azərbaycan ədəbiyyatı. II cild. Bakı, 1981. 418.
110.Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: ADU nəşriyyatı, 1956. 556 s.
111.Qasımov H. Nəsəf Nəcəfov // XX əsr Azərbaycan Ədəbiyyatşunaslığı məsələləri. Bakı: Adiloğlu, 1907. 216 s.
112.Qasımlı M. Aşıq sənəti. Bakı: Ozan, 1996. 260 s.
113.Qaraoğlu F. Ermənilər və həqiqətlər. Bakı: Nurlar, 2007. 400 s.
114.Qlinka S.N. Azərbaycana ermənilərin Rusiya hüdudlarına köçürülməsinin təsviri (Rusiyanın Ərzurumdakı baş konsulu Mayevskinin qeydləri). Bakı: Azərbaycan, 1995. 128 s..
115.Quliyev V. Biz gedəsiyik, dünya qalası. Bakı: Şuşa nəşriyyatı, 2001. 2007.
116.Qurban Şair Bəhmən Göyçəli. Bakı: NPM, 2004. 129 s.
117.Qurbanov Ş. Ədəbi dostluq. Bakı: Yazıçı, 1980. 188 s.
118.Qurbanov P. Ozan / "Xalq" qəzeti" 19 0ktyabr 2008, № 233 (25998).
119.Qurbanov İ. Göyçə, səndən kimlər keçir. Bakı: Nurlan, 2005. 160 s.
120.Qurbanov Ş. Ədəbi əlaqələrin tədqiqində yeni vəzifələr / Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası). Bakı, 1962, № 11-12
121.Marksizm-Leninizm İnstitutunun Ermənistan filialı / fond 4033, İş 54, s.105.
122.Mahmudov M. VII-XII əsr ərəb dilli Azərbaycan alimləri. Bakı: AMEA-nın nəşri, 1983. s. 188-191
123.Makulu P. Ədəbi məlumat cədvəli. Bakı, 1962. 424 s.

124.Məmmədli A. Allahyarova N. Mea Culpa... Erməni elitasının etirafları (ingilis, fransız, alman və rus dillərində). Bakı,2010. 263 s.
125.Məmməd Ə. Əzablı və uğurlu yollar yolcusu – Maqsur Müəllimlər (sənədli roman). Bakı: Səda, 2008. 615 s.
126.Məmmədzadə G. "Vedibasar" qəz., 1-15 avqust, 2008. № 16 (131)
127.Məmmədov X. Ədəbi əlaqələrimizin maraqlı bir səhifəsi / "Ədəbiyyat və incəsənət" qəz., dekabr, 1973.
128.Məmmədov İ. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən ufuqləri. Bakı: Adiloğlu, 2008. 216 s.
129.Məmmədov İ. İrəvan dəftəri.Teatr tariximizdən səhifələr. Bakı: Qismət, 2009.160 s
130.Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz, Bakı: "Ağrıdağ" nəşriyyatı, 2002, 639 s.
131.Məmmədov İ. Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992. 72 s.
132.Məmmədli Ş. Azərbaycan ədəbiyyatının Borcalı qolu. Tiflis, 2003. 272 s.
133. Miskin Abdal. (toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi Huseyn İsmayılov). Bakı: Səda, 2001. 287 s.
134.Mehdiyev R.Ə. Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri - metodoloji məsələləri // Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm, 2010. 554 s.
135.Mehdiyev R.Ə. Azərbaycanlıların Ermənistan ərazisindənki tarixi-etnik torpaqlarından deportasiyası. On söz / Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1998. 440 s.
136.Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı: AMEN, 2000. 288 s.
137.Mehdiyev R. Görüş-2010: absurd teatrı mövsümü. Bakı: 2010, 77 s.
138.Mustafa N. 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı / "Xalq qəzeti" 27 dekabr 1997, 07 yanvar, 29 mart 1998. № 66, 67, 69, 70 (26416-26420)
139.Mehrəliyev E. İrəvanilər. Bakı: Caşıoğlu, 2000. 18 s.
140.Mehrəliyev E. Qarabağ folklor mühiti. Bakı: Nurlan, 2008. 228 s
141.Məhərrəmov Z. Sözun yaddaşı əbədidir. Bakı: Günəş, 2003, 238

s.
142.Məhərrəmov Z. XX əsr Göyçə aşıq mühiti. Bakı: AENPB, 1997. 124 s.
143.Məhərrəmov Z. Şair Bəhmən Göyçəli. Bakı: Təhsil, 2004.130 s
144.Məhərrəmov Z. Xatirələrdə yaşayan Əli müəllim. Bakı: Günəş, 2006, 124 s.
145.Məhərrəmov Z. Unudulmaz sazlı-sözlu yurdumüz. Bakı: Caşıoğlu, 2001. 410 s.
146.Musayev T. Ermənilər və faciələrimiz. Bakı: Nurlar – NPB, 2008. 320 s.
146.Mustafa N. Ermənistanda azərbaycanlıların represiyası (1920-1930-cu illər) "Xalq qəzeti", 22 aprel 2001, № 90
147.Mustafa N.1918-1820-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı / "Xalq qəzeti", 31 mart, 1, 3, 4 aprel 2010-cu il tarixli №-66, 67, 69, 70
148.M.Ə.Sidqinin arxivi, fond № 25, qutu q (28)-18530 // Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu
149.Leninqrad Mərkəzi Dövlət Tarix Arxivi, f. 733 s, 82 iş № 259, v. 31 arx.
150.Levonyan Q. Əsərləri. Yerevan: Hayastan,1963. 218 s.
151."Lək-lək" jurnalı, 19 may 1914-cu il, № 7.
152.Nasir Ş. "Molla Nəsrəddin" yazarlarından / "Azərbaycan" qəz., 29 mart, 2006, s. 7,
153.Namazov Q. Aşıqlar. I kitab. Bakı: Səda, 2004. 444 s.
154.Nağıyev Q. Nərimanoğlu M. Şişqaya faciəsi. Bakı: Gənclik, 1998. 216 s.
155.Naxçıvan sancağının müfəssəl dəftəri (Naşiri Ş.Alışanlı). Bakı, 1997. 336 s.
156.Nəbiyev B. Mənalı ömürdən səhifələr - Firudun bəy Köçərli. Bakı: Gənclik, 1984. 227 s.
157.Nəbiyev B. Tənqd və ədəbi proses. Bakı: Azərnəşr, 1976. 153 s.
158.Nəbiyev B. Görkəmli tənqidci və ədəbiyyatşunas. Bakı: Azərnəşr, 1963. 162 s.
159.Nərimanov N. Uçqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992. s. 34.
160.Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası.

Bakı: Azərbaycan, 1993. 30 s.
161.Ordubadi M. S. Qanlı sənələr (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi). Bakı: Səda, 1911, 215 s.
162. Ömərоğlu İ. Burulğanlar içində. Bakı: Günəş, 1997. 215 s.
163. “Respublika” qəzeti. 25 yanvar, 12, 26 fevral, 24 mart 1998 ci il və 2008 - ci il 2 aprel, 3 iyul tarixli nömrələr.
164.Rəhimoğlu H. Silinməz izlər, sağalmaz yaralar. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997. 260 s.
165.Rəhimli İ.Azərbaycan Teatr Tarixi. Bakı: Çaşıoğlu, 2005. 864 s.
166.Rəhimli İ. İrəvan Dövlət Azərbaycan Dram Teatrı. Bakı: EL nəşriyyat və poliqrafiya şirkəti MMC, 2007. 328 s.
167.Rizayev S. Yerevanlı Ə. Yunis Nuri. İrəvan: Hayastan, 1980. 163 s.
168.Rzayev S. Ermənistanda Azərbaycan teatrı. Bakı, 1963 (rus dilində)
169.Tarverdiyeva K. Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında. Bakı: Yazıçı, 1985. 223 s.
170.Talıbzadə K. XX əsr Azərbaycan ədəbi tənqidi. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1966. 540 s.
171.Talıbzadə K. Sənətkar şəxsiyyəti. Bakı: Yazıçı, 1978. 379 s.
172.Tahirzadə Ə.Şəkinin tarixi qaynaqlarda. Bakı: Master, 2005. 256 s.
173.Səlimbəyli Ş. Qan çilənən torpaq. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1998. 256 s.
174.Seyidov M. Erməni mənbələri Nəsimi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. 1955, № 6, s, 97-101(Məqalədə Ermənistan SSR NS yanında əlyazmalar müzeyində (Matenadaranda) əlyazması № 7715, 1688-ci il s, 54a-54b, 53b-54a; əlyazması №3417, XVIII əsr, s, 176-178; əlyazması № 7318, XIX əsr, s, 80 və digər əlyazmalar
175.Seyidov M. Erməni-Azərbaycan ədəbi əlaqələri haqqında bəzi qeydlər / “Ədəbiyyat məcmuəsi”, Az. EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, XI cild. Bakı, 1957, s, 96-104
176.Seyidov M. Azərbaycan-Erməni ədəbi əlaqələri. Bakı: Elm, 1976. 180 s.

177.Seyidov M. Sayat-Nova. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1954. 156 s
178. Sovet Ermənistsnında Azərbaycan kitabı 1925-1985. Bibliqrafiya (tərtibci İ. Məmmədov). Yerevan: Hayastan, 1985. 164 s,
179.“ “Sovet Ermənistanı” qəzeti, 1 dekabr 1957. s, 3,
180. Sovet Ermənistanı” qəzeti, 6 avqust 1981-ci il.
181. “Sovet Ermənistanı” qəzeti, 28 aprel 1988, № 53 (12193).
182.Şamilov Ə. Bir daha Ağ Aşıq haqqında / “Oğuz eli” qəz., 14 yanvar, 1993, №1 (30).
183.Şamilov Ə. “Xəstə Həsənin doğum, ölüm tarixinə dair bəzi mülahizələr / AMEA Folklor İnstitutu “Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə” II Uluslararası Folklor Konfransının materialları. Bakı, 17-21 mart 2004, s, 106 - 111.
184.Şəmsizadə N. Ədəbi mübahisələr (Azərbaycan ədəbiyyatşunaslığının təşəkkülü), Bakı: Yazıçı, 1986. 170 s.
185.Şəmsizadə N. Secilmiş əsərləri. I c. Bakı: Elm, 2008. 560 s.
186.Şərif Ə. Kecmiş günlərdən. Bakı, 1983. 614 s.
187. Şair Bəhmən Göyçəli. Bakı: NPM, 2004. 129 s.
188. “Ulu Göyçə” qəz., 14 sentyabr 1993-cu il. s.4.
189.Urud M. Zəngəzur. Bakı: Nurlar-NPM, 2005. 503 s.
190.Yerevanlı Ə. Azəri - Erməni ədəbi əlaqələri. Yerevan, 1968. 558 s.
191.“Vəliyev Ş. (Körpülü). Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999. 195 s.
192. Vedibasar” qəz., № 07(122), 01-15 aprel 2008.
193. “Vedibasar” qəz., № 16 (131) 01-15 avqust 2008.
194.Veliçko V.L. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı: Azərbaycan, 1995, 192 s.
195.Vəkil Ə. Azərbaycan–erməni teatr əlaqələri. Bakı: İşıq, 1984. 68 s.
196. Vəkil Ə. Matenadaran və Azərbaycan ədəbiyyatı // “Azərbaycan” yurn., 1972, № 9, s. 183-185
197. “Zəngi” qəzeti (“Sovet Ermənistanı”) 12, 19 yanvar 1926, № 5, 6.
198. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı, 1999. 368 s.
199. Zeynalov X. Göyçəsiz günlərim. Bakı: Nurlan, 2006, 288s.

200. Zülmət səltənətində məşəl. Bakı: Qismət, 2006.360 s.
201.1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993. 30 s.

На русском языке

202.Аббаслы И. Азербайджанские истины в армйанских литературных источниках. Баку, 2008. 56. ст., 3-42.
203.Чавчавадзе И. Г. Армйанские ученые и вонийушие камни. Тифлис: 1902, 80 с. стр., 2, 3.
204.Глинка С.Н. Переселенийа армйан Азербайджанских в переделы России. Москва, 1831, 128 с, ст.,92.
205.Грибойедов А.С. Горе от ума. Писма и записки. Баку: Маариф, 1989,с. 387.
206.Исмаилов А.Тайны и йав Армйанства. Баку: Муаллим, 2006.266 с.
207.Кавказский календар. Тбилиси: 1886, 1898, 1899, 1900, 1901, 1903, 1907, 1908.
208.Модзалевски Л. Ход учебного дела по Кафказе ъ 1802 по 1880 г., // Тифлис, 1880 г, ст.,17.
209.Величко В.Л. Кафказ // Русское дело и междуплеменные вопросы. С. Петербург: 1904, 192с, ст..87
210.Смомпк.1882 сі, II выпуск, стр 109-142. IV выпуск, 1884, стр., 34-39.
211.Шавров Н.Н. Новайа угроза русскому велу в Закавказе предстойашайа Зафказйе предстойашайа распрадажа Мугани инародтсат. С. Петербург, 1911, стр., 63-64.
212.Шопен И.И. Исторический памятник состояния армйанской области в эпоху присоединения к Росийской империи. СПб.,1852.

ZİYƏDDİN HƏMİL OĞLU MƏHƏRRƏMOV

İRƏVAN ƏDƏBİ MÜHİTİ

(1800-1920-ci illərdə ədəbi mühit) Bakı, 2018

Komputerdə yığdı: Ruhiyyə Məhərrəmova
Kitabın dizaynı: Ülkər Abdıyeva, Xanım Paşayeva

Komputer tərtibisi və texniki redaktoru:
Orxan Məhərrəmli
Korrektoru: İlhamə Paşayeva

Çapa imzalanmış 16.04.2018
Kağız formatı 60x84 1/16, çap vərəqi 18,5
Sifariş 124, sayı 100

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel: (+912) 493-74-10
Email: Poliqrafiya@mail.ru